
Roman

★★★
2011
"MAN ASİAN"
MÜKAFATI
LAUREATI
★★★

# Anam Yenə əmanət

Niyə mən heç vaxt fikirləşməmişəm ki, anam da insandır, onun da xəyalları, arzuları var?!

Kun Yuuk Yin



yənbu

Telegram: @cinciva

Telegram: @cinciva

Anam Sənə əmanət

Telegram: @cinciva

**Anam Sənə əmanət** | Kun Suuk Şin

**İngiliscə adı:** Please, look after mom
**Müəllif:** Kyung-sook Shin
**İngilis dilindən tərcümə edən:** Namirə Məmmədli
**Redaktor:** İlkin Abdulla
**Cild dizaynı:** B&B

**I nəşr:** fevral 2016 | **ISBN:** 9789952463064 | **Tiraj:** 500
AZE Kun Suuk Şin "Anam Sənə əmanət". "Yənbu". 2016. səh. 216

"**Yənbu**" **MMC**
**Tel.:** (012) 480 28 53
www.yenbu.az | info@yenbu.az |

**Mətbəə:** "Tuna Printing & Publishing company"
**Tel.:** (012) 598 47 52
**Fax:** (012) 493 87 87

**Telegram: @cinciva**

Kun Suuk Şin

# Anam sənə əmanət

Azf-289799

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

yənbu

Telegram: @cinciva

Telegram: @cinciva

# Mündəricat

**I fəsil**
Son görüldüyü yer: Seul metro stansiyası ..... 7
**II fəsil**
Bağışla məni, Hun Çol! ..... 63
**III fəsil**
Mən gəlmişəm ..... 111
**IV fəsil**
Mənim dünyam ..... 157
**Epiloq**
Palisandr ağacından təsbeh ..... 197

**Telegram: @cinciva**

Telegram: @cinciva

# I fəsil

## Son görüldüyü yer: Seul metro stansiyası

Ailən, böyük qardaşın Hun Çolun evində yığışıb. Hər ağızdan bir avaz gəlir. Sənsə kiçik elanlar düzəldib ananın axırıncı dəfə görüldüyü yerdə paylamaq istəyirsən. Hə, hə, əvvəlcə elan vərəqələri hazırlamaq lazımdır. Hamı bu fikirlə razıdır. Düzdür, elan vərəqələri artıq çox köhnə üsuldur, amma yaxınını itirmiş bir insanın əlindən başqa nə gəlir ki?! Bir də itkin düşən insan yaşlı anandırsa...

Ancaq polisə xəbər verə, bir də ananın itdiyi yerdən gəlib keçənlərdən onu görüb-görmədiklərini soruşa bilərsən. Başqa çarən yoxdur. Elektron bizneslə məşğul olan qardaşın veb-səhifəsinə ananın şəkli ilə onun itkin düşdüyü haqda bir xəbər qoyduğunu deyir. İtdiyi yeri dəqiq bildirib, əlaqə nömrəsi də qoyub ki, görən olsa, xəbər eləsin.

Sənsə şəhərin canına düşüb onu gedə biləcəyi hər yerdə axtarmaq istəyirsən. Amma ananı yaxşı tanıyırsan. O, təkbaşına evdən bayıra bir addım da atmazdı. Hun Çol elan işini sənə tapşırır, axı sənin çörək pulun yazmaqdan çıxır... Qıpqırmızı qızarırsan; pis iş görərkən iş başında tutulmuş uşaq kimi... Elanın bir işə yarayıb-yaramayacağını da bilmirsən.

Telegram: @cinciva

Elanda ananın doğum tarixini yazmalısan: "24 iyul 1938". Amma atan deyir ki, əslində, anan 1936-da doğulub. 1938-ci il sadəcə rəsmi rəqəmdir. İndiyəcən bunu bilmirdin. Sən demə, əvvəllər çox adam belə edirmiş. Doğulan uşaqların ilk aylarda ölüm ehtimalı çox olduğu üçün ailələr rəsmi qeydiyyatı bir-iki il gecikdirirmiş. Az qala "38"-in yerinə "36" yazacaqdın. Hun Çol deyir ki, "38" yazmalısan, axı "36" rəsmi təvəllüdü deyil. Əslində, nə fərqi var, bu ki rəsmi sənəd deyil, adi bir elandır. Yenə də nə deyirlər, onu da edirsən, 38 deyirlər, 38 olsun...

Yaxşı, 24 iyul da ananın həqiqi doğum günü deyil?

Anan bir dəfə demişdi ki, ad günümü əlavə qeyd etməyə ehtiyac yoxdur. Onsuz da, atanın ad günü mənimkindən bir ay qabaqdır. Əvvəllər həmişə ad günləri də daxil, bütün əlamətdar günlərdə Çonqupda – anangildə yığışardınız. İyirmi iki nəfərə yaxın adam olardı qonaqlıqlarda. Anan uşaqlarını, nəvələrini başına yığmağı çox sevərdi. Siz gəlməmiş bütün hazırlıqlarını görərdi: Təzə kimçi[1] düzəldər, marketə ət almağa gedər, əlavə diş fırçaları və məcunları alardı. Küncüt yağı süzüb qızardar, küncütlə perilla[2] toxumlarını üyüdər, gecə qonaqlıqda evinizə dağılışında hərənizin əlinə bir banka verərdi.

Gələcəyinizi eşidəndə dirçələr, gözləri işıqlanardı. Belə anlarda qonum-qonşuyla söhbət edərkən səsindən sevinc və qürur hissiylə dolub-daşdığını hiss etmək çətin olmazdı.

Gavalı və meşə çiyələyi mövsümü gələndə hər ölçüdə şüşə qablarda kompot bağlayıb anbara yığardı. Şəhərdəki qohum-əqrəbasını da unutmazdı. Bərniləri[3] ançousla – mayalanmış xırda balıqla doldurub onlara göndərərdi.

---

1. Kimçi – Mayalanmış qırmızı bibər və tərəvəzdən, xüsusilə, çin kələmindən hazırlanan ənənəvi Koreya yeməyi.
2. Perilla – Uzaq Şərq ölkələrində mətbəxdə və tibbdə istifadə edilən nanəyə bənzər bir bitki.
3. Bərni – banka.

Telegram: @cinciva

Soğanın nə qədər xeyirli olduğunu eşidəndən sonra soğan suyu hazırlamağa başlamışdı. Qış düşməmiş balqabaq suyu hazırlayıb içinə biyan kökü qarışdırırdı. Ananın evi elə bil fabrik idi. Hələ növ-növ şirələr çəkər, acıtmalı lobya əzməsi düzəldər, düyü arıdardı. Beləcə, bütün ailənin bir illik qış ərzağını tədarük edərdi.

Uşaqlar Çonqupa gəliş-gedişi get-gedə azaltmağa başladılar. Atanla anan da məcbur qalıb tez-tez Seula gələsi oldu. Artıq ad günlərini ata evində yox, şəhərdə bir yerdə qeyd etməyə başlamışdınız. Ad günlərini belə keçirmək daha asan idi. Sonra anan dedi ki, mənim ad günümü də atanızınkı ilə eyni gündə keçirək. Ananla atanın ad günü yayın ən isti vaxtlarında idi. Üstəlik iki ata-baba bayramı da bu günlərə düşürdü. Yayın istisində əlavə əziyyətə salmaq istəmirdi sizi. Düzü, əvvəl-əvvəl heç kim ananın təklifinə razı olmadı. Anan artıq yaşlanmışdı, şəhərə gəlməkdə çətinlik çəkirdi. Bəziniz ad gününü təbrik etmək üçün onun yanına getdiniz. Bir müddət sonra isə hamı ananın ad günü hədiyyəsini atanın doğum günündə verməyə başladı. Beləcə, onun ad günü yavaş-yavaş aradan çıxdı. Ananın dolabı da sahibini gözləyən hədiyyəlik corablarla dolmağa başladı. Axı anan hamıya corab hədiyyə etməyi çox xoşlayardı.

*Adı: Pak Sonyo*

*Doğum tarixi: 24 iyul 1938-ci il (69 yaş)*

*Əlamətləri: Qısaboylu, boz qıvrım saçlı, çıxıq almacıq sümüklü. Əynində mavi köynək, ağ jaket, süd rəngli, büzməli ətək olub.*

*Son görüldüyü yer: Seul metro stansiyası.*

Görəsən, elana ananın hansı şəklini qoysanız, yaxşı olar? Heç cür qərar verə bilmirsiniz. Hamı deyir ki, ən son çəkilmiş şəkillərindən olsun. Amma heç kimdə ananın son şəkli yoxdur. Axır vaxtlar şəkil çəkdirməkdən lap zəhləsi gedirdi. Ailəvi şə-

Telegram: @cinciva

killərə belə düşməmək üçün aradan çıxırdı. Ən son şəkli atanın 70 illiyində bir yerdə çəkdirdiyinizdir. O gün geydiyi mavi hanbokda[4] çox gözəl görünürdü. Saçına salonda əl gəzdirtmiş, qırmızı dodaq boyası çəkmişdi. Qardaşın deyir ki, anan bu şəkildə heç özünə oxşamır. Onu böyüdüb elana vursanız, heç kim ananızı şəkildəki qadına oxşatmaz. Qardaşın bu şəkli veb-səhifəsinə qoyanda hamı yazırmış ki, çox gözəl anan var. Heç itən adama oxşamır.

Görəsən, kimdəsə ananın başqa şəkli varmı?

Hun Çol istəyir ki, elan vərəqinə başqa şey yazasan. Başqa şey? Yəni nə? Yəni elə şeylər yazasan ki, oxuyanlar çox təsirlənsinlər. Deməli, çox təsirli cümlələr yazmalısan.

"Xahiş edirik, kömək edin, anamızı tapaq". Yox, bu çox bəsitdir.

"Anamız itib". "Anamız" çox rəsmi çıxır.

Onda "Əziz anamız" yazaq. Yox, bu da olmadı. "Əziz anamız itib". Lap uşaq cümləsinə oxşayır.

Bu dəfə "Xahiş edirik, bu adamı görsəniz, bizə xəbər verin" yazırsan. Hun Çol üstünə çığırır ki, bu, nədir, düz-əməlli cümlə yaz. Onun ürəyinə yatan bircə cümlə də tapa bilmirsən.

Kiçik qardaşın: "Tapana mükafat veriləcək" yazsaq, çox təsirli olar, – deyir, – Hətta "Böyük mükafat veriləcək" yazaq". Gəlininiz deyir ki, mükafatın məbləğini dəqiq yazmasanız, mənası yoxdur.

– Yaxşı, nə qədər yazaq?

– Bir milyon von yazaqmı?

– Azdır.

– Üç milyon?

4. Hanbok – milli Korea geyimi

Telegram: @cinciva

– O da azdır.

– Onda beş milyon.

Beş milyona heç kim etiraz eləmir. Sən də elana yazırsan: "Tapana beş milyon von mükafat veriləcək".

Qardaşın:

"Mükafat: beş milyon von yazsan, daha yaxşı olar", – deyir.

Kiçik qardaşın da düzəliş edir: "5 milyonu daha böyük şriftlə yaz".

Kim ananın daha yaxşı şəklini tapsa, sənin elektron poçtuna göndərməyə söz verir. Elandakı düzəlişləri tamamlayıb onları çoxaltmaq işini sənə tapşırırlar. Kiçik qardaşın elanları qohum-əqrəbaya paylamağı öz boynuna götürür. Sən:

– Paylamaq üçün adam tutsaq, daha yaxşı olmaz? – deyirsən.

Hun Çol razılaşmır:

– Bunu özümüz eləməliyik. Həftə içi kimin nə vaxt imkanı olsa, paylasın, həftə sonu da bir yerdə görüşüb paylayarıq.

– Bu gedişlə anamızı çətin taparıq, – deyə söylənirsən.

Hun Çol tərs-tərs baxır sənə:

– Əlimizi qolumuzu sallayıb gəzmirik ki! Görürsən ki, əlimizdən gələni edirik.

– Əlimizdən gələni?

– Hə, qəzetə də elan vermişik.

– Əlindən gələn elə qəzetə elan verməkdir?

– Daha nə edək? Yaxşı, sabahdan hamımız işdən çıxaq, düşək şəhərin canına, anamızı axtaraq. Bilsəm ki, işdən çıxmaqla anamızı tapa biləcəyik, günü bu gün ərizəmi yazaram.

Qardaşınla dilləşməkdən əl çəkirsən. Onsuz da, həmişə bütün günahı onun boynuna yıxırsan.

Telegram: @cinciva

Hərə öz evinə dağılışır, atanız isə Hun Çolgildə qalır. Bir az da otursanız, söz-söhbət uzanacaq. Bir həftədir ki, ancaq bir-birinizlə mübahisə edirsiniz. Hər dəfə ananızı tapmaq üçün bir yerə yığışanda kiminsə dərdi açılır. İllərdir, içinizdə yığılıb qalan bütün inciklikləri tökürsünüz ortalığa. Axırda da bir-birinizi acılayır, qapını çırpıb gedirsiniz.

Ananın itkin düşdüyünü eşidəndə:

– Yəni bu qədər adamdan bircə nəfər də anamla atamı stansiyada qarşılaya bilməzdi? – deyib özündən çıxmışdın.

– Bəs sən hardaydın?

– Mən? – deyə sual etmiş, ancaq deməyə söz tapmamışdın.

Dörd gün idi ki, anan itkin düşmüşdü, sən isə təzəcə xəbər tutmuşdun. Bu hadisədə hamınız bir-birinizi günahkar gördünüz, bir-birinizlə üz-göz oldunuz.

Hun Çolun evindən çıxıb metroya minirsən. Ananın sirli şəkildə yoxa çıxdığı Seul metrosunda qatardan enirsən. Onun ən son görüldüyü yerdəsən. Adamlar çiyinlərinə dəyib keçir. Saata baxırsan. Günorta üçdür. Düz ananın itkin düşdüyü saatdır. Ananın atandan ayrı düşüb insan selinə qarışdığı platformada donub qalmısan. Qələbəlik stansiyada tələsən adamlar sənə dəyib ötürlər, səni incidirlər, amma bir nəfər də dönüb üzr istəmir. O gün, güman ki, yazıq anan alışmadığı bu izdihamda, bu basabasda çaşbaş qalıbmış.

Bir insanın başqası ilə bağlı ən köhnə xatirələri nə ola bilər? Bəs sənin anan haqqında heç xatirələrin var?

Onun itkin düşdüyünü eşidəndən bəri əlin heç nəyə yatmır. Unutduğunu sandığın xatirələr hər an zehnində canlanır, gözlərinin önündən getmir. Hər xatirənin ardınca içinə peşmançılıq hissi çökür.

Neçə il əvvəl böyük şəhərə köçməzdən bir-iki gün qabaq anan səni qəsəbədəki alış-veriş mərkəzində, bir paltar dükanı-

Telegram: @cinciva

na aparmışdı. Sadə bir paltar seçmişdin. Anan isə ətəyi və çiyinləri büzməli bir geyim göstərib: "Bu, necədir..." – deyə soruşmuşdu.

Paltarı kənara itələyib: "Yox", – demişdin.

"Niyə ki? Geyinib baxsana?"

O vaxt hələ cavan olan anan paltarı niyə geyinib baxmaq istəmədiyini başa düşməmişdi, mat-məəttəl sənə baxa-baxa qalmışdı. Axı onun əlində tutduğu büzməli paltarla digər kəndli qadınlar kimi tərini silmək üçün alnına bağladığı kirli yaylıq arasında yerlə göy qədər fərq vardı.

– Elə bil uşaq paltarıdır.

– Doğrudan? – demişdi anan.

Deyəsən, yaman bəyənmişdi paltarı, gözünü çəkmirdi.

– Sənin yerinə olsaydım, geyinib əynimdə baxardım.

"Elə bil uşaq paltarıdır" – dediyin üçün bir az peşman olmuşdun.

– Mən bilən, sənin belə paltarlardan xoşun gəlmir axı?! – demişdin.

Anan da:

– Əslində, bu cür paltardan çox xoşum gəlir, ancaq heç geyinmək qismət olmayıb, – söyləmişdi.

O gün o paltarı geyinib baxmalıydın. Metronun içində bu xatirələri yad edə-edə dizlərini büküb platformada otursan. Bəlkə də, anan da belə eləmişdi itkin düşəndən sonra.

Paltar dükanında həmin sadə paltar üstündə inadkarlıq etməyindən bir neçə gün ötmüş ananla bir yerdə bu metro stansiyaya gəlmişdiniz. Saat qülləsinin yanında Hun Çolla görüşməliydiniz. Anan əlini bərk-bərk tutub sel kimi üstünüzə gələn izdihamı yara-yara irəliləmişdi. Belə bir qadın necə itə bilərdi?!

Telegram: @cinciva

Qatarın işıqları görünər-görünməz platformada gözləyən adamlar qabağa atıldılar. Yerdə oturub camaatın yolunu kəsdiyin üçün sənə acığı tutanlar da oldu, yəqin.

Anan atandan ayrı düşüb insan selinə qarışdığı gün sən Çində idin. Həmkarlarınla bir yerdə Pekin kitab sərgisinə getmişdin. Anan Seul metro stansiyasında itəndə sən oturub kitabının çincə tərcüməsinə göz gəzdirirdin.

– Ata, niyə metroya mindiniz? Taksiylə getsəydiniz, heç nə olmazdı, – deyə soruşmuşdun.

Atan fikirləşib ki, dəmiryol vağzalından metro stansiyasına keçid ola-ola taksiyə minməyə nə gərək var. İnsan ancaq başına bir iş gələndən, ələlxüsus da pis bir hadisə üz verəndən sonra nə etdiyini, niyə etdiyini düşünür. Məhz belə anlarda "kaş ki elə eləməyəydim" deyir. Amma sonrakı peşmançılıq fayda vermir.

Atan Hun Çolgilə gələndə "Özümüz gələ bilərik" desə də, heç vaxt qulaq asmaz, qarşılamağa gedərdiniz. Biriniz ya Seul metro stansiyasında, ya da "Ekspress" avtovağzalında onların qabağına çıxardı. Şəhərə gələndə atan adətən ya birinizin maşınına, ya da taksiyə minərdi. O gün niyə metroya minəsi olmuşdu? O gün bacı-qardaşların onların təkbaşına gəlməsinə niyə etiraz etməmişdi?

Ananla atan stansiyaya yaxınlaşan qatara doğru qaçmışdılar.

Atan qatara minəndə dönüb baxmışdı ki, anan yoxdur. Tərslikdən də, o gün şənbəydi. Günortadan sonra metroda iynə atsan, yerə düşməzdi. Anan o basabasda çaşbaş halda atanı axtaranda qatar tərpənmişdi. Çantası da atanda qalmışdı. Anan isə stansiyada əliboş və çarəsiz...

Sən o vaxt Tiananmen meydanındakı kitab sərgisinə gedirdin. Bu, Pekinə üçüncü səfərin idi, amma heç vaxt Tiananmen

Telegram: @cinciva

meydanında olmamışdın. Əvvəlki gəlişlərində avtobusun ya da avtomobilin pəncərəsindən görmüşdün ancaq. Qrupunuza rəhbərlik edən tələbəyə axşam yeməyindən əvvəl sizi ora aparmağı təklif etmişdiniz, hamınız razı olmuşdunuz. Sən Yasaq şəhərin[5] qarşısında taksidən düşəndə, görəsən, anan Seul metro stansiyasında təkbaşına nə edirdi?

Yasaq şəhərə girməyinizlə çıxmağınız bir olmuşdu. Təmir işləri ilə əlaqədar az hissəsini görə bilmişdiniz. Elə gəzinti vaxtının bitməsinə də az qalmışdı. Bir il sonra Olimpiya oyunlarına ev sahibliyi etməyə hazırlaşan Pekin başdan-ayağa təmirdəydi. "Son imperator" filmindən bir səhnə yadına düşmüşdü. Yaşlı Puyi uşaqlığının keçdiyi Yasaq şəhərə gəlir, taxtın altında gizlətdiyi qutunu bir turist uşağa göstərir. Qutunun qapağını açanda uşaqlığında saxladığı çəyirtkənin hələ də canlı olduğunu görür. Sən Tiananmen meydanına gedəndə, bəlkə də, sərnişinlər tünlükdə başını itirmiş ananı ora-bura itələyirdi. Bəlkə də, yazıq qadın gözləyirdi ki, biriniz gəlib onu götürəsiniz.

Yasaq şəhərlə Tiananmen meydanı arasındakı yol bağlı idi. Meydanı görmək olurdu, amma ora getmək üçün dolanbaclı yoldan keçməli idin.

Sən Tiananmen meydanında göyə qalxan çərpələnglərə tamaşa edəndə, ola bilsin, anan taqətsiz halda yerdə oturub çarəsizlik içində sənin adını çəkirdi. Meydanın polad qapıları açılanda bir bölük əsgər sərt addımlarla yeriyir və beşulduzlu qırmızı bayrağı aşağı endirirdilər. Sən onlara baxanda, yəqin, anan Seul metro stansiyasında çarəsiz-çarəsiz dolaşırdı.

Bütün bunları o gün ananı görənlərdən eşitmisən. Bəziləri deyirdi ki, yaşlı bir qadın gah ağır-ağır yeriyir, gah yerdə oturur, gah da eskalatorun başında gözləyirdi. Bəziləri də yaşlı

5. Yasaq şəhər – Ququn imperator sarayı kimi də tanınır. Min sülaləsindən Tzin sülaləsinin hakimiyyəti dövrünün sonunadək istifadə olunan Çin imperator sarayıdır. Pekin şəhərinin mərkəzində yerləşir.

Telegram: @cinciva

bir qadının stansiyada xeyli oturduğunu, sonra da növbəti qatara minib getdiyini deyirdi. Ananın itməsindən bir neçə saat sonra dostlarınla taksiyə minib işıqlı və səs-küylü Vanqfujinə getmişdiniz.

Qırmızı işıqların altında qırmızı bibər şirəsində yenicə bişmiş yengəci ləzzətlə yemişdiniz.

Atan növbəti stansiyada enib Seul metro stansiyasına qayıtmışdı, amma anan artıq orada yox idi.

"Bir qatarı qaçırmaqla itmək olar? Stansiyanın hər tərəfi işarələrlə doludur. Üstəlik, anan zəng etməyi bacarır. Bir telefon köşkündən yığa bilərdi bizi" – demişdi atan. Gəlininiz ananızın itməsinə inanmamışdı: "Yəqin, başına bir iş gəlib, yoxsa oğlunun evini tapıb gələ bilərdi. Yüz faiz başına bir iş gəlib". Guya bilmirdi ki, anan əvvəlki adam deyil.

– Bəlkə də, anam itib, – deyəndə gəlininiz təəccüblə sənə baxmışdı. "Anamın nə halda olduğunu yaxşı bilirsən" deyəndə də üzünü elə turşutmuşdu ki, elə bil heç nədən xəbəri yoxdur. Əslində, hamı yaxşı bilirdi ki, o günlərdə ananın vəziyyəti heç yaxşı deyildi. Və bilirdilər ki, onun tapılmama ehtimalı da var.

***

Ananın yazıb-oxuya bilmədiyini nə vaxt öyrənmişdin?

Hun Çol şəhərə köçəndən bir müddət sonra ananın dediklərini bir kağız parçasına cızma-qara edib ilk məktubunu yazmışdın. Hun Çol ucqar kəndinizdəki orta məktəbi qurtarmış, bir il evdə dövlət qulluğuna qəbul imtahanına hazırlaşmış, sonra da ilk işinə başlamaq üçün şəhərə getmişdi. Birinci dəfə idi ki, uşaqlarından biri anandan ayrı qalacaqdı. O vaxtlar telefonunuz da yox idi. Yalnız məktubla əlaqə saxlaya bilirdiniz. Hun Çol anana göndərdiyi məktubları iri hərflərlə yazardı. Anan məktubun nə vaxt gələcəyini hiss edərdi. Səhər on birdə

Telegram: @cinciva

poçtalyon velosipedində yekə bir torba ilə gələrdi. Həmin gün anan tarladan, ya da paltar yuduğu dərədən gəlib özünü poçtalyona çatdırardı. Sonra sənin məktəbdən gəlişini gözləyər, səni arxa eyvana çağırıb orada məktubu ucadan oxutdurardı.

Hun Çolun məktubları həmişə "Əziz anam" sözləri ilə başlayardı. Məktubu çox səliqəli yazar, heç nəyi yaddan çıxarmazdı. Bir-bir hamınızın hal-əhvalını soruşardı. İşlərinin qaydasında olduğunu, kirli paltarları ananın tapşırdığı kimi həftədə bir dəfə atanın qohumugilə aparıb yudurtduğunu, yeməyinə fikir verdiyini, gecələr iş yerində qaldığını, işlərinin başından aşdığını yazardı. Məqsədlərinə çatmaq, işlərində uğur qazanmaq və ananın həyatını yüngülləşdirmək istədiyini deyərdi məktubda. İyirmi yaşlı Hun Çol yazardı ki, "Mənə görə narahat olma, anacan, sən özündən muğayat ol".

Başını qaldıranda ananın ya arxa bağçadakı tarolara, ya da içində pomidor sousu olan uzun gil küplərə baxdığını görərdin. Sənə diqqətlə qulaq asırdı ki, bircə sözü də qaçırmasın. Məktubu oxuyub qurtarandan sonra anan cavab yazdırardı sənə. Həmişəki kimi ilk sözləri "Əziz Hun Çol", – olardı. Sən də yazardın:

"Əziz Hun Çol". Anan deməsə də, həmişə bu sözlərdən sonra nöqtə qoyardın. Dediklərini sözbəsöz yazardın. "Hol Çol" deyəndə "Hon Çol" yazardın. Çox vaxt qardaşının adını çəkəndən sonra bir xeyli fikrə gedərdi. Sən də gözlərini kağıza dikib qısa saçlarını qulaqlarının arxasına keçirər, diyircəkli qələmini hazır tutub səbirlə gözləyərdin. Ananın "Bu qış da üşüyəcik" sözlərini "Bu qış da üşüyəcəyik" şəklində yazardın. Anan "Əziz Hun Çol" sözlərini yazdırandan sonra adətən havaların necə keçdiyini xəbər verərdi. "Yaz gəlib, hər tərəf çiçək açıb", "Yaz gəldi, çəltik tarlasında torpaq quruyub çatlamağa başladı", ya da "Biçin vaxtı gəldi, çəltik tarlaları düyü ilə doldu" – deyərdi.

Anan Hun Çola məktub yazdıranda Hun dəfələ danış-

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası

Telegram: @cinciya

mazdı. "Səndən bircə istəyim var. Özünə fikir ver, bizə görə heç narahat olma". Ananın məktubları kövrək olardı. "Heyif, sənə əlim çatmır, kömək edə bilmirəm" – deyərdi. Sən dediklərini yazdıqca bir damcı yaş ananın yanaqlarından aşağı süzülərdi. Məktub həmişə eyni sözlərlə qurtarardı: "Vaxtlı-vaxtında yeməyini yeməyi unutma. Anan."

Sən beş uşaqlı ailənin üçüncü uşağı idin. Səndən böyük iki qardaşın evdən ayrılanda ananın nə qədər fikir çəkməsinə və narahatlıq keçirməsinə də şahid olmusan.

Hun Çol gedəli hər səhər obaşdan anan arxa baxçaya keçib gil küpləri təmizləyərdi. Quyu evin qabağında olduğuna görə arxa baxçaya su daşımaq çox çətin idi. Amma anan küpləri bir-bir təmizləməyə ərinməzdi. Qapaqlarını çıxarıb içini, üstünü yaxşı-yaxşı silərdi. Təmizləyə-təmizləyə öz-özünə zümzümə edərdi. "Aramıza dəniz girməsəydi, ayrılıq bu qədər acı olmazdı..." Əlindəki əsgini buz kimi suya salıb-çıxarar, sonra da sıxıb küpləri silərdi. "Ümidvaram, bir gün məni atıb getməzsən", – deyə oxumağına davam edərdi. O anda qəfildən ananı çağırsan, iri gözlərinin yaşla dolduğunu görərdin.

Anan Hun Çolu çox istəyirdi. Axşam dərsdən evə gec gələndə onun üçün ayrıca ərişdə şorbası bişirərdi. Bunu sevgilin Yu Binə danışanda: "Ərişdə şorbasıdır da, bunda nə var ki?" – demişdi.

– Necə yəni?! Bilirsən, o vaxt bir kasa ərişdə nə demək idi?

Əlinə düşsə, gizlincə yeyərdin ki, kimsə görüb istəməsin.O vaxtlar əriştənin nə demək olduğunu şəhərli sevgilinə başa salmağa çox çalışmışdın, amma anlamamışdı ki, anlamamışdı.

Ərişdə adlı bu ləzzətli xörəyi dadandan bəri gözünüzdə heç ananın bişirdiyi başqa yeməklərin dadı-duzu qalmamışdı. Anan ərişdə alanda boş bir küpün içinə qoyub Hun Çola saxlayardı. Gecənin bir aləmi bişən ərişdə qoxusundan yuxunuz qaçardı. Anan üstünüzə acıqlanıb "Gedin yatmağa" deyəndə

Telegram: @cinciva

hamınız ərištə şorbası içən Hun Çola baxa-baxa qalardınız. Qardaşınızın sizə yazığı gələrdi. Hərənizə bir qaşıq da olsa, vermək istəyərdi. Anansa deyinərdi: "Bunlara bax, yemək iyi gələndə ağızlarının suyu axır". Sonra da ürəyi dözməyib qazana su tökər, təzədən şorba bişirərdi. Yemək hazır olanda aranızda bölüşdürərdi. Qatı ərištə şorbasını qabağınıza qoyanda dünyalar sizin olardı.

Hun Çol şəhərə gedəndən sonra hər dəfə ərištə saxladığı qabı təmizləyəndə anan: "Hun Çol!" – deyə səslənər, sonra da taqətsiz halda yerə çökərdi. Əlindəki bezi alıb çiyninə atardın, qolundan tutub ayağa qaldırardın. Anan ilk uşağının həsrətiylə yanıb-qovrular, bəzən də özünü saxlaya bilməyib hıçqıra-hıçqıra ağlayardı.

Qardaşların evdən ayrılandan sonra dərd onu lap əldən salmışdı. O günlərdə anana ən böyük yaxşılığın qardaşlarının məktublarını ucadan oxumaq və onlara yazdığın məktubları dərsə gedəndə yolüstü poçt qutusuna atmaq idi.

O vaxtlar bilmirdin ki, anan məktubları niyə özü yazmır. Özü dura-dura məktubları kiçik uşağa yazdırıb-oxutması heç diqqətini çəkməmişdi. Niyə başa düşməmişdin ki, ananın yazı savadı yoxdur. Ananın məktublarla bağlı istəklərinə buyurduğu adi ev işlərindən biri kimi baxardın. Məktub yazmaqla əməköməci yığmaq, ya da qaz yağı almaq arasında sənincün bir fərq yox idi.

Sən evdən ayrılandan sonra, güman ki, anan daha heç kimə məktub yazdırmadı. Çünki ondan heç vaxt məktub almadın. Bəlkə də, sən yazmırdın deyə o da yazmırdı. Yox, yəqin ki, telefona görə yazmırdı. Sən şəhərə köçməyə hazırlaşdığın günlərdə kənd ağasının evinə kəndlilər üçün ümumi telefon çəkilmişdi. Camaatının çoxu əkinçiliklə məşğul olan və yaxınlıqdakı dəmiryolundan vaxtaşırı taqqataraqla qatarlar keçən kiçik kəndinizdəki ilk telefon bu olmuşdu.

Telegram: @cinciva

Hər səhər kənd ağası mikrofonun səsini yoxlayar, sonra da Seuldan gələn zəngləri elan edərdi. Qardaşların artıq məktub yazmırdılar, lazım olanda zəng edirdilər. Kəndə telefon gələndən sonra ailə üzvləri başqa şəhərlərə köçən kəndlilərin bir qulağı mikrofonda olardı.

***

Bir ana ilə qızı ya bir-birini yaxşı tanıyırlar, ya da bir-birilərinə tamamilə yaddırlar.

Keçən payıza qədər ananı yaxşı tanıdığını düşünürdün. Elə sanırdın ki, nələri sevdiyini, hirslənəndə necə sakitləşdiyini, nə eşitmək istədiyini bilirsən.

Ananı soruşan olsa, onun nə işlə məşğul olduğunu demək sənincün on saniyəlik iş idi. Yarpaq qurutduğunu, bazar günüdürsə, kilsədə olduğunu deyərdin. Amma keçən payız bu düşüncən alt-üst oldu. Ananı qəfil gəlişinlə sevindirmək üçün xəbər vermədən evə getdin. O, sənin lə qonaq kimi rəftar elədi. İki dəqiqədən bir həyətin dağınıqlığına və evdəki kirli adyallara görə üzrxahlıq edib utandığını büruzə verdi. Birdən yerə düşən dəsmalı tez götürüb silkələdi, süfrəyə yemək tökülən kimi onu təmizləməyə başladı. Soyuducunu açıb nə var, nə yox deyə baxdı, nə qədər mane olmağa çalışsan da, bazarlığa getdi. Heç insan yeməkdən sonra bulaşıq qabları süfrədə qoyub başqa bir işlə məşğul olduğu üçün öz ailəsindən utanar?! Anan gündəlik həyatının dağınıqlığını ört-basdır eləməyə çalışdıqca sən özünü öz evində daha da yad hiss etdin.

Bəlkə də, sən lap çoxdan, elə şəhərə köçdüyün gündən yadlaşmışdın. Evdən ayrılandan sonra anan səni daha nəyəsə görə danlamadı, buna cəhd də eləmədi. Amma əvvəllər kiçik bir səhvini görən kimi abrını ətəyinə tökərdi. Anan uşaqlığınızdan səni və bacını "ay qız" deyə çağırardı. Adətən oğullarından fərqləndirmək üçün sizə belə səslənərdi. Bir hərəkətindən

Telegram: @cinciva

xoşu gəlməyəndə, meyvə yeməyini, yerişini, geyim-kecimini və ya danışıq tərzini bəyənməyəndə də sənə "ay qız" deyərdi. Bəzən fikirli-fikirli sənə baxardı. Kraxmallı yataq örtüklərinin kənarlarını düzəltməyi, ya da düyü bişirmək üçün qazanı köhnə sobanın üstünə qoymağı tapşıranda da narahatçılığı üzündən oxunardı.

Soyuq bir qış günü anan və sən quyunun başında yeni ildə ənənəvi olaraq bişirdiyiniz dəryaza balığını[6] təmizləyəndə anan sənə demişdi ki, həyatda uğur qazanıb daha gözəl yaşamaq istəyirsənsə, dərslərini yaxşı oxumalısan. O vaxt ananın nə demək istədiyini başa düşmüşdün?

Səni bərk danlayanda "anacan" deyərdin. Bu səmimi səslənişində bir rica vardı. Elə bil demək istəyirdin ki, yaxşı da, ana, bir məni qucaqla, başımı sığalla, səhv eləsəm də, düz eləsəm də, həmişə yanımda ol. Sənsə elə hey məni danlayırsan. Yenə də ona hər zaman "anacan" dedin. Hətta indi, harda olduğunu bilməsən də, "anacan" deyib onu səsləyirsən. Hər dəfə "anacan" deyəndə, ananın sağlam, güclü və mətanətli olduğuna özünü inandırmağa çalışırsan. Şəhərdə əlacsız qaldığın vaxtlarda onu yanında görmək və onun qoynuna qısılmaq istəyirsən.

Keçən payız anamı görməyə gedəcəyini xəbər verməmişdin. Gəlişini qabaqcadan bilib əziyyət çəkməsini, biş-düş hazırlamasını istəmirdin. O vaxt Pohanqdaydın. Anangilin evi səhər tezdən təyyarə ilə gəldiyin Pohanqa heç də yaxın deyildi. Dan yeri ağaranda qalxıb başını yuyandan və hava limanına yola düşəndən sonra belə Çonqupa gedib anamı görəcəyini heç özün də bilmirdin. Pohanqdan Çonqupa getmək Seuldan getməkdən daha çətin idi. Ora getməyi ağlına da gətirməmişdin.

Anangilə çatanda həyətin də, evin də qapısı açıq idi. Sabahı-

6. Dəryaza balığı – skatlara bənzəyən, bel-qarın nahiyəsi yastı olan və okeanların dərinliyində yaşayan balıq növü.

Telegram: @cinciva

sı Yu Binlə şəhərdə nahar edəcəkdin. Ona görə də heç olmasa, axşam qatarıyla evə – şəhərə qayıtmalıydın. Doğulub boya-başa çatdığın kənd necə də dəyişmişdi. Uşaqlığından yadigar qalan tək şey dərə kənarı ilə uzanıb gedən gicitkən kollarıydı. Sən evə enli və rahat yolla deyil, ətrafı gicitkən kollarıyla örtülmüş dar cığırla getdin. Cığır səni uşaqlığını keçirdiyin arxa həyətə sarı aparırdı. Əvvəllər arxa həyətdə hamının istifadə etdiyi su quyusu var idi. Evlərə su xətləri çəkiləndən sonra bu quyunun içini betonla doldurmuşdular. Sən evə girməzdən əvvəl quyunun yanında bir xeyli dayandın.

Bir vaxtlar suyundan istifadə edilən quyunun ağzı betonla örtülmüşdü. Möhkəm betonu ayağınla yoxlaya-yoxlaya fikrə daldın. Köhnə xatirələr yadına düşdü. Vaxt var idi, bütün kənd əhalisi bu quyunun suyunu içirdi. İndi isə ağır betonun altında qalmışdı. Quyu betonla doldurulanda sən orada deyildin. Bir gün kəndə gələndə gördün ki, quyudan əsər-əlamət qalmayıb. Onun yerində dümdüz bir beton parçası var. Doldurulduğunu öz gözlərinlə görmədiyinə görə sənə elə gəlirdi ki, betonun altındakı quyu əvvəlki kimi su ilə doludur.

Bir az da quyunun yanında ləngiyib həyət qapısından içəri girdin. "Anacan" deyib çağırdın, amma hay verən olmadı. Üzü qərbə baxan evin həyəti qüruba üz tutan günəşin yastı şüaları altında parlayırdı. Ananı axtara-axtara evin içinə keçdin. Anan nə qonaq otağında idi, nə də yataq otağında.

Ev əməlli-başlı tör-töküntü idi. Stolun üstündə ağzı açıq su qabı vardı. Kranın yanındakı tinə qoyulan stəkan az qala çanağın içinə düşəcəkdi. Qonaq otağındakı həsirin üstündə tərsinə çevrilmiş içi əsgi-üsgüylə dolu səbət var idi. Atanın çirkli köynəyi qolları açılmış vəziyyətdə divanın üstünə atılmışdı. Elə bil indicə əynindən çıxarıb tullamışdı.

Telegram: @cinciva

Batmaqda olan günəşin şüaları içərini işıqlandırırdı. Başa düşdün ki, evdə heç kim yoxdur. Amma yenə də "Anacan!" deyə çağırdın. Ön qapıdan çölə çıxanda ananın yan bağçada, qapısız talvarın önündəki hündür taxta döşəmənin üstündə uzandığını gördün. "Anacan" deyib qışqırdın. Anandan səs gəlmədi. Ayaqqabıları ayağına keçirib talvara sarı getməyə başladın.

Ön qapıdan baxanda bütün həyət görünürdü. Əvvəllər anan həyətdəki talvarda maya hazırlayardı. Yan tərəfdəki tövləyə qədər uzadılmış talvar ananın işinə çox yarayırdı. Divara bərkitdiyi taxta rəflərə köhnə mətbəx əşyalarını düzmüşdü. Rəflərin altına da tutma banka-balonlarını yığmışdı. Hündür taxta ayaqaltını da anan öz əlləri ilə çəkib talvarın yanına gətirmişdi. Köhnə ev sökülüb əvəzinə qərbsayağı yeni ev tikiləndən sonra anan təzə mətbəxdə görə bilmədiyi işləri çöldəki taxta döşəmənin üstündə oturub eləyirdi.

Kimçi hazırlamaq üçün həvəngdəstədə qırmızı bibər döyər, quru lobyaları təmizləyər, qırmızı bibər əzməsi hazırlayar, qış kimçisi üçün kələm duzlayar, ya da mayalanmış soya kökələrini qurudardı.

Talvarın yanındakı it damı boş idi. İtin zənciri də yerdəydi. Birdən ağlına gəldi ki, evə girəndə itin səsini eşitmədin. "Görəsən, hara gedib?" Ətrafına baxa-baxa anana sarı addımladın. Anan tərpənmirdi. Deyəsən, gündə qurutmaq üçün dolmalıq bibər doğrayırmış. Doğrama taxtası, bıçaq və bibərləri bir kənara itələmişdi. Doğranmış bibərlər isə qamışdan hörülmüş səbətin içində idi. Əvvəlcə elə bildin ki, anan yatıb. Birdən ağlına gəldi ki, ana gündüzlər yatan deyil. Diqqətlə üzünə baxdın. Anan bir əli ilə başını tutub var gücü ilə sıxırdı. Dodaqları aralı idi. Üzü gərilmiş, dərisi qırış-qırış olmuşdu.

– Anacan...

Gözlərini açmadı.

Telegram: @cinciva

– Ana, anacan!

Ananın yanına əyildin, çiyinlərindən tutub möhkəm silkələdin. Yavaşca gözlərini araladı. Gözləri lap qan çanağına dönmüşdü. Alnından tər damcılayırdı. Deyəsən, səni tanımadı. Anan ağrıdan qıvrılırdı. Üz ifadəsi çox qorxunc idi. Elə bil hansısa gözəgörünməz dəhşətli bir qüvvə ananı bu hala salmışdı. Anan yenə gözlərini yumdu.

– Ana...

Dizlərini qatlayıb taxta döşəmənin üstündə oturdun. Ananın ağrıdan gərilmiş başını qucağına aldın. Qollarını da qoltuqlarından keçirdin ki, başı dizlərinin üstündən düşməsin. İçini dəhşətli bir vahimə bürüdü. Elə bil kimsə anana işgəncə verib talvarın önünə atmışdı. "Heç bu halda adamı tək qoymaq olar?" – deyə düşündün. Ancaq sən özün də şəhərə köçməklə ananı tək qoymuşdun...

İnsan tələşə düşəndə lap əli ayağına dolaşır: "Görəsən, təcili yardım çağırım? Anamı içəri aparım? Bəs atam hanı?"

Qucağına uzatdığın ananın üzünə baxa-baxa qalmışdın. Ağlından min cür fikir keçirdi. Ananı heç bu qədər çarəsiz görməmişdin. Taqətsiz əli alnından sürüşüb döşəməyə düşdü. Qırıq-qırıq nəfəs alıb-verməyə başladı. Sonra bütün bədəni süstləşdi. Sanki daha ağrıya tab gətirməyə gücü qalmamışdı. "Anacan!" Birdən düşünəndə ki, anan elə indicə qucağında ölə bilər, az qala ürəyin yerindən qopmuşdu. Elə bu vaxt anan yavaş-yavaş gözlərini açıb sənə baxdı. Səni görəndə elə bildin ki, təəccüblənəcək. Amma onun gözlərində heç bir ifadə yox idi. Halı özündə deyildi. Bir azdan yavaşca adını pıçıldadı. Nə dediyini eşitmək üçün ona tərəf əyildin.

– Bacım vəfat edəndə ağlaya bilmədim.

Ananın solğun üzü elə ifadəsiz görünürdü ki, nə demək istədiyini başa düşmədin.

Telegram: @cinciva

Xalan yazda torpağa tapşırılmışdı. Dəfninə gedə bilməmişdin. Vəfatınacan bir il yorğan-döşəkdə xəstə yatmışdı, sənsə bircə dəfə də olsun onu arayıb-axtarmamışdın. Niyə? Axı sən balaca olanda xalan sənə ikinci ana olmuşdu. Yay tətillərində onun yanında qalardın. Xalangilin evi dağın o biri yamacında idi. Xalan uşaqların içində ən çox səni özünə yaxın bilirdi. Yəqin, anana çox oxşayırdın, ona görə. Xalan həmişə deyərdi, ananla bir-birinizə elə oxşayırsız ki, elə bil bir almanı iki bölmüsən. Bacısı ilə uşaqlıq keçirdiyi çağlarını yenidən yaşamaq istəyirmiş kimi, səninlə dovşanları yemləməyə gedər, saçlarını hörərdi. Bir qazan arpa qaynadar, üstünə bir qaşıq bişmiş düyü əlavə edər, xörəyin düyülü hissəsini də sənə çəkərdi. Gecələr qucağına uzanar, danışdığı nağıllara şirin-şirin qulaq asardın. Qolunu yastıq kimi sənin başının altına qoymağını indiyədək xatırlayırsan.

Xalan dünyadan köçsə də, uşaqlığından xatirə qalan qoxusu hələ də burnundadır. Xalan uşaqları çörəkçi idilər, bütün günü işdə-gücdə olduqları üçün yaşlı xalan nəvələrinə baxırdı. Elə nəvələrindən birini belində aparanda pilləkəndən yıxılmışdı. Tez xəstəxanaya aparmışdılar.

Xəstəxanada məlum olmuşdu ki, sən demə, xərçəng imiş və xəstəlik bütün bədəninə yayılıbmış. Artıq iş-işdən keçibmiş, müalicəyə başlamağın mənası yox imiş. Bu xəbəri anandan eşitmişdin.

– Can bacım, can...

– Xərçəng olasan, bu vaxta kimi bilməyəsən?

– Həkimə getmişdi ki, bilsin?!

Anan sıyıq bişirib bacısını görməyə getmişdi. Bişirdiyi sıyığı öz əlləri ilə ona yedizdirmişdi.

Bir gün sonra anan zəng edib: "Dünən bacımı görməyə getmişdim. Bir az küncütlü sıyıq bişirib apardım. İştahayla yedi",

Telegram: @cinciva

– deyəndə susub ona qulaq asmışdın. Anan xalanın ölüm xəbərini də birinci sənə demişdi.

– Bacım öldü.

Susmuşdun.

– Bilirəm, çox işin var. Gəlməsən də, olar.

Guya anan belə deməsəydi, gedəcəkdin?! Axı nə qədər işin tökülüb qalmışdı, vaxtında görüb qurtarmalı idin. Yas yerinə gedən Hun Çol narahat olmuşdu ki, birdən ananın halı pisləşər. Qəribədir, anan bacısının yasında heç ağlamayıbmış, hətta onu torpağa tapşırmağa qəbiristanlığa da getmək istəməyibmiş. "Doğrudan?" deyə təəccüblənmişdin. Düzü, qardaşına da qəribə gəlmişdi, amma yenə də ananın işinə qarışmaq istəməmişdi.

O gün talvarın önündə yerə uzanıb ağrı içində qıvrılan anan bacısı vəfat edəndə ağlaya bilmədiyini söylədi. "Niyə? Ağlamaq istəyirdinsə, niyə ağlamadın?" – dedin. Anan halsız-halsız danışsa da, heç olmasa, gözlərini açdığını görüb ürəyin yerinə gəldi. Yavaşca gözlərini qırpıb: "Daha ağlaya bilmirəm", – dedi.

Susdun.

– İndi ağlamaq istəyəndə başım elə möhkəm ağrıyır ki, elə bilirəm, bu dəqiqə partlayacaq.

Batmaqda olan günəşin şüaları kürəyini isitmişdi. Anana elə baxmışdın ki, sanki birinci dəfə idi, görürdün. Deməli, ananın başı ağrıyırdı. Həm də elə bərk sızıldayırdı ki, ağlaya da bilmirdi.

Bir vaxtlar parlaq və canlı gözləri artıq qırışların arasında bir damcı qalmışdı. Solğun iri dodaqları quruyub çatlamışdı. Yerə sallanan qolunu qaldırıb qarnının üstünə qoydun. Ömrü boyu bir dəqiqə belə boş dayanmayan əlinə, dərisinə düşən tünd rəngli günəş ləkələrinə baxdın. Artıq ananı tanıdığına əmin deyildin.

Telegram: @cinciva

***

Dayın sağlığında hər çərşənbə ananı görməyə gələrdi. Ölkəni köçərilər kimi başdan-ayağa gəzib Çonqupa yenicə qayıtmışdı. Anana baş çəkmək üçün ciddi bir səbəbi olmazdı. Eləcə velosipedinə minib gələr, ananı görüb gedərdi. Bəzən heç içəri də keçməzdi, elə həyətdən: "Bacı, yaxşısan?" – deyə səslənərdi. Anan eyvana çıxmağa macal tapmamış: "Mən getdim!" deyib velosipedin pedalını fırladardı.

Ananın qardaşıyla arasının bir az soyuq olmasından xəbərin vardı. Sən dünyaya gəlməmişdən dayın atandan bir xeyli borc almış, amma geri qaytarmamışdı. Anan bəzən bu məsələ haqda yanıqlı-yanıqlı danışardı. Dayının ucbatından özünü atana və bibinə borclu hiss edirdi. Borcunu qaytarmaması ana-na əməlli-başlı yer eləmişdi. Dörd-beş il dayından xəbər-ətər çıxmamışdı. Anan oturub-durub deyirdi ki, dayın harda qaldı, görəsən? Ananın dayına görə narahatlığından, yoxsa hirsindən belə dediyini ayırd edə bilmirdin.

Bir gün evdə ananla oturub naringi yeyirdiniz. Birdən kiminsə həyətin qapısından içəri keçib hayladığını eşitdiniz.

– Bacı, evdəsən?

Anan oturduğu yerdən sıçradı, qapını açıb həyətə cumdu. Görəsən, kim gəlmişdi ki, anan bu qədər həyəcanlanmışdı? Sən də ananın arxasınca getmişdin. Anan eyvanda bir anlıq ayaq saxlayıb çöl qapının yanında duran adama baxmışdı. "Qardaş!" – deyə qışqırmışdı, sonra da yüyürə-yüyürə ayaqyalın yanına qaçmışdı. Gələn dayın idi. Anan yel kimi özünü dayına çatdırmış, sonra da "Qardaşım! Qardaşım!" – deyib sevindiyindən hönkürə-hönkürə yumruqlarını dayının sinəsinə vurmağa başlamışdı. Sən eyvanda dayanıb onlara baxmışdın. Birinci dəfə idi ki, ananın kiməsə "Qardaşım!" dediyini eşitmişdin. Həmişə qardaşı haqqında danışanda "dayın" deyərdi.

Telegram: @cinciva

Dayının yanına qaçıb sevincindən "Qardaşım!" deyə qışqırması sənə çox qəribə gəlmişdi. Hərçənd bilirdin ki, bircə dayın var.

Bəzən günü-gündən yaşlanan ananın "Qardaşım!" deyə çığıraraq uşaq kimi eyvandan dayının yanına qaçmağı yadına düşəndə səni gülmək tutur. O gün anan kiçik bir qız uşağı kimi hərəkət eləmişdi. Anan yadında o cür qalmışdı. Niyə bəzi şeyləri bu qədər gec başa düşürdün?

Anan həmişə sənin gözündə "ana" olub. Onun da nə vaxtsa imələdiyini, ilk addımlarını atdığını, üç, on, on iki, ya da iyirmi yaşında olduğunu heç fikirləşməmişdin. Elə bil ana kimi dünyaya gəlmişdi. Uşaqlığı, cavanlığı olmamışdı. Dayının yanına həyəcanla qaçdığını görməsəydin, ağlına belə gəlməzdi ki, sənin qardaşlarına bəslədiyin hislər onda da var. O gündən sonra ananın da nə vaxtsa uşaq olduğunu anladın. Sonralar ananı bəzən uşaq, yeniyetmə qız, gənc qadın, bəzən təzə gəlin, bəzən də səni dünyaya gətirən bir ana kimi xəyalında canlandırdın.

***

Ananı talvarda o halda görəndən sonra onu tək qoyub şəhərə qayıda bilməzdin. Atan o vaxt Koreya Milli Səhnə Sənətləri Bölgə Mərkəzinin nümayəndələri ilə Sokçodaydı. Qayıtmasına hələ iki gün var idi. Anan ogünkü kimi bərk ağrımasa da, hələ də baş ağrısı keçməmişdi. Həkimə getməli olduğunu deyəndə ifadəsiz baxışlarını üzünə zillədi.

Onu evə aparanda yavaş-yavaş yeriməyə çalışdı ki, ağrıdığını hiss etməyəsən. Bir xeyli keçəndən sonra ancaq danışa bildi. Dedi ki, baş ağrıları həmişə olur, artıq öyrəncəlidir, ancaq hərdənbir ağrılar şiddətlənir. Ağrısı keçmişdi, daha narahat olmağa dəyməzdi.

Görəsən, bacı-qardaşlarının bundan xəbəri var idi? Bəs atanın?

Telegram: @cinciva

Onlara vəziyyəti xəbər vermək və şəhərə qayıdan kimi ananı böyük bir xəstəxanaya aparmaq istədin. Anan bir az özünə gəlib sərbəst hərəkət etməyə başlayanda: "Şəhərə nə vaxt qayıdacaqsan?" – deyə soruşdu. Anangilə gediş-gəlişi yenə azaltmağa başladın. Gedəndə də bir-iki saat oturub şəhərə qayıdardın. Bir gedişində də günorta qayıdacağını düşünmüşdün, amma anana dedin ki, gecəni qalıb sonra gedəcəm. Bunu eşidən ananın üzünə yayılan təbəssüm heç yadından çıxmaz.

Pohanq balıq bazarından aldığın diri osminoqu mətbəxə qoydun. Nə anan, nə də sən onu bişirmək qaydasını bilirdiniz. Əvvəlki kimi ananın qarşısında oturub səssizcə plov və pançan[7] yeməyə başladın. Anan sulu kimçi, vamla bişmiş tofu[8], qovrulmuş ançous və qızardılmış dəniz yosunu da hazırlamışdı. Anan adəti üzrə düyünü bir parça dəniz yosununa büküb sənə uzatdı, sən də alıb yedin.

Yeməkdən sonra həzm olunsun deyə həyətə gəzişməyə çıxdınız. Uşaqlığından bəri ev xeyli dəyişmişdi. Amma əvvəlki kimi ön, yan və arxa həyətlər bir-birinə bitişik idi. Arxa həyətdəki talvarda hələ də irili-xırdalı banka-balonlar vardı. Ancaq hamısının içi boş idi. Bağda gəzəndə anan bəzən səndən qabağa keçir, bəzən sənin arxanca gəlirdi. Birdən dönüb o gün niyə gəldiyini soruşdu. Pohanqa getdiyini dedin.

– Pohanq burdan çox uzaqdır.

– Bilirəm.

– Pohanqdan bura gəlmək Seuldan gəlməkdən daha uzun çəkir.

– Hə, elədir.

– Əvvəlki kimi tez-tez gəlmirsən. Nə əcəb ta Pohanqdan bura gələsi oldun?

---

7. Pançan – Koreya mətbəxində bişmiş düyünün yanında süfrəyə qoyulan salat.
8. Tofu – soyadan hazırlanmış pendir. Uzaq Şərq yeməyidir.

Telegram: @cinciva

Sualına cavab vermək yerinə qaranlıqda yıxılmamaq üçün bir dirəyə ehtiyacı olan adam kimi ananın əllərinə sarıldın. Keçirdiyin hisləri dilə gətirməkdə çətinlik çəkdin. Anana dedin ki, o gün səhər tezdən Pohanqdakı Brayl kitabxanasında çıxış etmisən.

– Brayl kitabxanası?

– Gözdən əlillərin barmaqları ilə oxuması üçün hazırlanan əlifbaya Brayl əlifbası deyirlər.

Anan başını yırğaladı. Həyətdə gəzişə-gəzişə anana Pohanqa səfərindən söz açdın. Son illərdə Brayl kitabxanası neçə dəfə səni dəvət edib, hər dəfə də əvvəlcədən söz verdiyin işlərinə görə gedə bilməmisən. Yazın əvvəlində yenə kitabxanadan zəng gəlmişdi. Son kitabın təzə çıxmışdı. Kitabxanaçı sənə o kitabı Brayl əlifbasıyla nəşr etmək istədiklərini demişdi. Brayl əlifbası haqqında elə çox məlumatın yox idi. Bircə orasını bilirdin ki, anana dediyin kimi, görmə qüsuru olan insanlar üçün hazırlanıb.

Dinməz-söyləməz kitabxanaçıya qulaq asmışdın, sanki eşitmədiyin bir kitab haqqında danışmışdı. Kitabxanaçı kitabın nəşri üçün səndən icazə almaq istədiklərini demişdi. Səndən "icazə" istəməsəydi, ora getmək heç ağlının ucundan da keçməzdi. Nədənsə, bu "icazə" sözü sənə təsir etmişdi. Gözdən əlillər sənin son kitabını oxumaq istəyirdilər. Ona görə də onların oxuya bildiyi yeganə əlifbada – Brayl əlifbasında çap etmək qərarına gəlmişdilər. Bir anda elə bil dilin-ağzın bağlanmışdı. Sadəcə: "Əlbəttə", – deyib razılıq vermişdin. Kitabxanaçı kitabın noyabra hazır olacağını demişdi. Üstəlik Brayl gününün də noyabrda qeyd edildiyini söyləmişdi. O gün kitabxanaya görüşə getsən, çox sevinəcəkdilər. Birdən fərqinə vardın ki, Pohanqa getməyə qeyri-ixtiyari razılıq vermisən. Sözünü geri götürə bilməmişdin. Bir yandan da noyabra hələ çox vardı. Bu, səni bir az rahatlatmışdı. Amma vaxt su kimi axıb keçmiş, yaz qur-

Telegram: @cinciva

tarmış, yay geridə qalmışdı, nəhayət, payız özünü yetirmişdi.

Artıq noyabr ayı idi. Gözünü yumub açmışdın, söz verdiyin gün gəlib çatmışdı. Həyatda nəyin ki üstündə çox fikirləşirsən, o iş sənin gözündə qeyri-adiliyini, gözlənilməzliyini itirir. Hətta ən qeyri-adi hadisələri belə əvvəlcədən yaxşı-yaxşı götür-qoy eləyib hazırlıqlı olsan, o şey gözündə kiçilər, bəsitləşər. Əslində, "gözlənilməz" hadisələrlə qarşılaşırsansa, demək, onlar haqqında çox da baş yormamısan. Azacıq oturub Brayl kitabxanasına gedişin haqqında fikirləşsəydin, nə oraya səfərin, nə də orada qarşılaşacaqların səninçün gözlənilməz olmazdı. Amma bütün yaz, yay, payız başın elə qarışmışdı ki, kitabxanada kiminlə qarşılaşacağını, kimlərlə tanış olacağını fikirləşməmişdin. Bircə danışdığınız saatda, yəni 10-da kitabxanada olmağı düşünmüşdün.

Saat səkkizdə təyyarəyə özünü güclə çatdırdın. Pohanqa enəndə bir taksi tutub Brayl kitabxanasına yollandın. Gözləmə otağına keçdin. Kitabxana müdiri orada könüllü işləyən bir nəfərin köməyilə gəlib səninlə üzbəüz oturdu. Əvvəlcə səni nəzakətlə salamladı. "Bu qədər uzaq yolu gəldiyiniz üçün təşəkkür edirəm", – deyib əlini uzatdı. Həyəcanlı olduğunu büruzə verməməyə çalışdın. Xoş səslə: "Salam!" – deyib əlini sıxdın. Əli yupyumşaq idi. Görüş başlayana qədər müdir bir az kitabın haqqında danışdı. Səni görə bilməsə də, kitabını oxuyub bitirən bu adama təbəssümlə cavab verdin.

O gün həm də gözdən əlillərin bayram kimi qeyd elədiyi Brayl əlifbası günü idi. Zalda səni gözləyən dörd yüzə yaxın adam vardı. Bəziləri hələ də könüllü işçilərin köməyi ilə yerlərinə oturmağa çalışırdı. Dinləyicilərin çoxu orta yaşlı kişilər və qadınlar idi. Aralarında uşaq yox idi.

Tədbir başladı. Bir neçə nəfər qısa çıxış elədi. Bəzilərinə təşəkkürnamələr verildi. Sonra sənin kitabın haqqında danışıldı. Brayl əlifbasıyla yazılmış kitabını almaq üçün qabağa

Telegram: @cinciva

keçdin. Kitab dörd cild olmuşdu. Əslindən iki dəfə böyük olsa da, ağır deyildi. Əlində kitablarla yerinə keçəndə hamı səni alqışladı.

Tədbir davam edirdi. Fəal oxucular mükafatlandırılanda cildlərdən birini açdın. Ağappaq səhifədə saysız-hesabsız nöqtələri görəndə başın fırlandı. Yazdığın kitabı açıb birdən belə bir görüntüylə qarşılaşmaq, hər gün düşüb-çıxdığın pilləkənləri fikirli-fikirli qalxanda qəfildən ayağını boşluğa atıb aşağı yuvarlanmaq kimidir.

Səhifələr Brayl hərfləri ilə örtülmüşdü. Hər hərf iynə ucu ilə açılmış nöqtələrdən ibarət idi. Nöqtələrə baxa-baxa qalmışdın, heç nə başa düşmürdün. Anana bir-iki səhifədən sonra hövsələnin daraldığını, kitabı örtdüyünü dedin.

Anan diqqətlə sənə qulaq asırdı. Sən də o gün başına gələnləri həvəslə danışmaqda davam etdin.

Tədbirin axırında əsərin haqqında məlumat vermək üçün səhnəyə keçib kitabları kürsünün üstünə qoydun. Başını qaldırıb zaldakılara baxanda elə bil çiyninə ağırlıq çökdü. Qarşında səni görməyən dörd yüz nəfər əyləşmişdi. Çaşıb qalmışdın. Hara, kimə baxacağını bilmirdin.

– Neylədin bəs? – anan soruşdu.

Çıxış üçün ayrılan 50 dəqiqənin keçməsini səbirsizliklə gözlədin. Çünki sən kiminləsə danışanda mütləq gözlərinin içinə baxırdın. Həmsöhbətinin baxışlarından nə qədər və nə danışacağına qərar verirdin. Bəzən bir hekayə danışırdın, bəzən də onu yarıda saxlayırdın. Bəzi gözlər isə insana ən gizli sirlərini belə açdırır. Öz-özünə fikirləşdin ki, ananın bu xasiyyətindən xəbəri var, görəsən? Bilir ki, söhbət elədiyin insanın gözlərinə baxmaq sənincün çox vacibdir?

Səni görməyən o qədər adamın qarşısında durub hara baxacağını, nə deyəcəyini bilmədin. Gözlərin bəzisi tam qapalı, bə-

Telegram: @cinciva

zisi yarı açıq idi. Bəzi gözlər tünd rəngli eynəklərin arxasında gizlənmişdi. Bəziləri isə bərəlmiş halda sənə zillənmişdi. Səni görməmək bir yana, elə bil fikrindən keçənləri də oxuyurdular. Dinləyicilərin üzləri sənə sarı olsa da, heç biri səni görmürdü. Az qala dilin tutuldu. Bir anlıq fikrləşdin ki, onsuz da səni görmürlər, kitabın haqqında danışmağın nə mənası var? Başqa nədən danışasan? Öz həyatından danışsaydın, yaxşı çıxmazdı... Yəqin ki, onların həyatı ilə müqayisədə səninki çox maraqsız və sönük qalardı. Nə deyəcəyini bilmədiyin üçün mikrofona doğru əyilib:

– Nə haqqında danışmağımı istəyirsiniz? – deyə soruşdun.

Salonda hamı gülüşdü. Görəsən, istənilən mövzu haqqında danışa biləcəyini düşündükləri üçün, yoxsa səni rahatlatmaq üçün gülüşdülər?

Əlli yaşlarında bir nəfər:

– Siz bura kitabınız haqqında danışmağa gəlməmisiniz ki? – deyə soruşdu.

Gözləri qapalı olsa da, üzü sənə baxırdı. Gözlərini onun qapalı gözlərinə dikib sənə ilham verən şeylərdən, kitabı yaza-yaza keçirdiyin hislərdən və kitabına bəslədiyin ümidlərdən söz açdın. Çox təəccüblənmişdin. İndiyə kimi sənə bu qədər diqqətlə qulaq asan dinləyici kütləsi ilə rastlaşmamışdın. Bütün diqqətlərinin səndə olduğunu bədən dillərindən rahatca anlayırdın. Biri başını önə-arxaya yellədir, biri bir ayağını qeyri-ixtiyari qabağa uzadır, biri bir az irəli əyilib daha diqqətlə qulaq asmağa çalışırdı.

Onların istifadə etdikləri Brayl əlifbası haqqında sənin heç bir anlayışın olmasa da, onlar sənin kiabını oxumuşdular, sənə suallar verirdilər, öz düşüncələrini səsləndirirdilər. Anana onu da dedin ki, indiyə kimi tanış olduğun oxucularının içində kitabını onlar qədər bəyənən olmamışdı. Sakitcə sənə qulaq asan

Telegram: @cinciva

anan birdən dedi ki, gör ha, kitabını da oxuyublar. Araya bir səssizlik çökdü. Sonra qaldığın yerdən davam etdin.

Çıxışını bitirəndən sonra bir nəfər əl qaldırıb sual vermək istədi. Dedin ki, buyurub soruşsun.

– Ana, təsəvvür eləyirsən, adamın ən sevimli məşğuliyyəti nə imiş? Səyahət etmək!

Bunu eşidəndə yerində donub qalmışdın. Gözləri görməyən adam təkbaşına necə səyahət edə bilər? Sənin Peru haqqında yazdığın kitabı oxuyubmuş. Əsərin qəhrəmanı Maçu Pikçuya gedir. Qəhrəmanın qatara minməsindən, qatarın arxaya hərəkət etməsindən söz açan bir fəsil var. Bunu oxuyandan sonra adam Peruya gedib o qatara minmək qərarına gəlibmiş. Sualı da o idi ki, sən o qatara minmisən, ya yox?

O kitabı on il əvvəl yazmışdın. Yaddaşın əməlli-başlı korlanıb. Çox vaxt soyuducunun qapısını açıb soyuq havası üzünə vura-vura niyə görə açdığını yadına salmağa çalışan, sonra da heç nə götürməyib bağlayan adamdan gör nə soruşurdular. Amma o gün o suala cavab vermək üçün on il əvvəl getdiyin Peru haqqında danışmağa başladın. Limadan, Kuzkodan və sübh tezdən Maçu Pikçuya getmək üçün San Pedro vağzalında mindiyin qatardan söhbət açdın. Bu qatar Maçu-Pikçuya yola düşməmişdən əvvəl bir neçə dəfə sürətlə irəli-geri gedib gəlirdi.

Anana dedin ki, adlarını unutduğun yerlər, dağlar bir-bir yadına düşməyə başladı. İşığa həsrət qalmış gözlərdən süzülən səmimiyyət və anlayış sənə elə təsir eləmişdi ki, o kitab haqqında əvvəl heç yerdə heç kimə demədiyin bir şeyi dedin.

– Nəyi? – deyə soruşdu anan.

– O kitabı indi yazsaydım, başqa cür yazardım.

– Burda gizlədəsi nə vardı ki?

– Çox şey var, ana. Mən kitabda gördüklərimi, yaşadıqlarımı yazmışam. Belə deməklə yaşadıqlarımı inkar etmişdim.

Telegram: @cinciva

Anan qaranlıqda sənə diqqətlə baxıb dedi:

– Nə olur-olsun, fikirlərini deməkdən çəkinməməlisən, ürəyindən keçənləri rahatca dilə gətirməlisən, azad yaşamalısan.

Əlini sənin əlindən çəkib kürəyini sığallamağa başladı. Sən balaca olanda da anan iri əlləri ilə beləcə sığal çəkə-çəkə üzünü yuyardı.

– Nə maraqlı əhvalatlar danışırsan, – dedi anan.

– Mən?

Anan başıyla "hə" dedi:

– Çox xoşuma gəldi.

Özünə sual edirsən ki, "doğrudan, danışdıqlarını bəyənmişdi?" Ananın sözlərindən çox təsirləndin. Əslində, elə də qeyriadi bir şey danışmırdın. Sadəcə Brayl kitabxanasında görüb eşitdiklərinin təsiri altında ananla daha səmimi söhbət edirdin.

Şəhərdə olanda həmişə ananla hirsli və kobud danışardın. Nəsə soruşanda sərt cavab verər, "Sən nə bilirsən ki?" – deyərdin. "Sən necə anasan?" – deyə acılayardın. Buz kimi soyuq səslə "Sənə nə lazımdı?" – soruşardın. Ananın sənə söz çatdırmağa halı qalmadığını görəndə daha kobud cavablar verərdin. "Niyə gedirsən?" – soruşanda: "Elə lazımdır", – deyərdin.

Başqa ölkədə bir kitabın nəşr olunanda, ya da bir konfransda iştirak etmək üçün xaricə gedəndə anan gedişinin səbəbini xəbər alardı. "Görüləsi işlərim var, ona görə", – deyə cavab verərdin. Anan xahiş edərdi ki, təyyarəyə minməyəsən:

– Təyyarə qəzası olanda iki yüz nəfər birdən ölür.

Sən də: "Dedim axı, görüləsi işlərim var", – deyib üstünə acıqlanardın.

– Niyə bu qədər çox işin olur?

Lap özündən çıxardın: "Yaxşı, yaxşı, qurtar".

Ananla öz həyatın haqqında danışmaq istəmirdin. Çünki

Telegram: @cinciva

heç bir ortaq cəhətiniz yox idi. Amma kitabının Brayl əlifbası ilə çap edilmiş nüsxəsini görəndə donub qalmağından və dörd yüz görməyən gözün qarşısında çıxış edərkən keçirdiyin həyəcandan danışanda anan elə diqqətlə qulaq asırdı ki, elə bil başının ağrısından əsər-əlamət qalmamışdı.

Çoxdandır, ananla belə baş-başa verib söhbət eləməmişdiniz. Son vaxtlar ananla ancaq gündəlik şeylərdən, özü də yalnız telefonla danışardınız. Sən yemək-içməyinə fikir verib-vermədiyini, səhhətinin necə olduğunu, atanın əhvalını soruşar, özünü soyuğa verməməsini bərk-bərk tapşırar, pul göndərəcəyini deyərdin. Anan da kimçi hazırladığını, bir az sənə yolladığını, qəribə yuxular gördüyünü, sənə düyü, mayalanmış lobya əzməsi göndərəcəyini deyib telefonu açıq saxlamağı xatırladardı. Çünki bağlamaları gətirməzdən qabaq poçtalyon zəng edərdi.

***

İçində kitabının Brayl əlifbasıyla yazılmış nüsxələri olan torbanı əlinə alıb kitabxanadakılarla sağollaşdın. Seul təyyarəsinin qalxmağına hələ iki saat var idi. Kürsünün arxasında duranda kitabxananın pəncərəsindən çölə, gəmilərin lövbər saldığı limana baxdığını xatırladın. Görməyən auditoriyaya baxmamaq üçün bu yolu seçmişdin. "Burada liman varsa, balıq bazarı olmamış olmaz" – deyə düşünmüşdün. Bir taksiyə minib balıq bazarına getmək istədiyini dedin. İlk dəfə getdiyin yerlərdə balıq bazarı vardısa, mütləq baş çəkərdin. Həftə içi olsa da, balıq bazarında adam əlindən tərpənmək mümkün deyildi. Bazarın düz yanında iki nəfərin maşın boyda nəhəng bir balığı kəsdiyini gördün. Bunun ton balığı olub-olmadığını soruşdun, satıcı dedi ki, ay balığıdır.

Adını xatırlamadığın bir əsərin qadın obrazı yadına düşdü. Qadın bir sahil qəsəbəsində yaşayır. Ürəyi sıxılanda şəhərdəki iri akvariumun yanına gedib ay balığı ilə söhbət edir. Anasından çox yanıqlı olur, çünki onun bütün pulunu götürüb cavan

Telegram: @cinciva

bir oğlanla başqa şəhərə qaçmışdı. Amma kitabın sonunda "Anamçün çox darıxıram, bunu ancaq sənə deyə bilirəm, ay balığı", – demişdi. Bazarda gördüyün o iri balığın kitabdakı ay balığı olub-olmadığını düşündün. "Doğrudan, bunun adı ay balığıdır?" – deyə soruşdun. Satıcı dedi ki, hə, ay balığıdır, amma ona "mola-mola" da deyənlər var. "Mola-mola" sözünü eşidən kimi kitabxanadakı gərginliyin birdən-birə yox oldu. Cürbəcür dəniz heyvanlarının Seuldakından üç dəfə ucuz satıldığı bu balıq bazarında, nədənsə, anan yadına düşdü. Bazarda nə istəsən, var idi: başı insan başından da böyük diri osminoq, təzə haliotis molyusku[9], lepidop[10] balığı, skumbriya, yengəc...

Ay balığını gördün deyəmi anan yadına düşdü? Evdə, quyunun yanında ananla dəryaza balığını təmizləməyinizi xatırladan da o idi? Ananın soyuqdan donmuş əlləri ilə ətin üstündəki qəhvəyi dərini soymağı gözünün qabağına gəldi. Sonra bir dükanın yanında dayanıb tavandan asılmış balqabaq boyda bişmiş osminoqa baxdın. Sonra on beş min von verib bir dənə diri osminoq aldın.

Bir az da haliotis molyusku aldın. Vətəgədə yetişdirilmiş olsa da, çeşidli yosunlarla bəslənibmiş.

Satıcı Seula gedəcəyini biləndə iki min vona bir buz qutusu da almağı məsləhət gördü. Aldıqlarını onun içinə qoymaq üçün.

Bazardan çıxanda gördün ki, təyyarənin qalxmağına hələ çox var. Bir əlində Brayl əlifbasıyla yazılmış kitab cildləri, o birində də buz qutusu... Bir taksiyə minib dedin ki, dəniz kənarına sürsün. Üç dəqiqəyə orda idin. İki cütlüyü saymasaq, noyabr ayında çimərlik bomboş idi. Çimərliyin ucu-bucağı görünmürdü. Dənizə yaxınlaşanda iki dəfə az qaldın suya düşəsən. Yumşaq qumların üstündə oturub dənizi seyr etdin. Sonra ət-

9. Haliotis – molyusk növüdür. Qulaq şəkilli qabığı olur. Adətən Hindistan və Avstraliya sahillərində yaşayır.
10. Lepidop – uzun qayçıquyruq gövdəli dəniz balığıdır.

Telegram: @cinciva

rafa göz gəzdirib sahil boyunca uzanan yolun kənarında düzülmüş binalara və dükanlara baxdın. O bina sakinlərinin isti yay gecələrində okean sularına girib sərinlədiyini, sonra evlərinə gedib qəşəngcə duş aldıqlarını düşündün.

Fikirli-fikirli əlini çantanın içinə atdın. Cildlərdən birini çıxarıb açdın. Səhifələrdəki ağ nöqtələr günəş şüaları altında par-par parıldadı.

***

Barmaqlarını Brayl hərflərinin üzərində gəzdirə-gəzdirə ilk dəfə yazıb oxumağı kimdən öyrəndiyini xatırlamağa çalışdın. Yadına düşdü, ikinci qardaşın öyrətmişdi. İkiniz də köhnə evin eyvanında qarnı üstə yerə uzanardınız. Anan da yanınızda otturardı. Qardaşın yumşaq xasiyyətli idi. Evin ən üzüyola uşağı o idi. Anan qardaşına tapşırmışdı ki, sənə oxuyub-yazmağı öyrətsin, o da anana etiraz edə bilməmişdi. Həvəssiz olduğu vaxtlarda belə sənə rəqəmləri, hərfləri təkrar-təkrar yazdırmışdı.

Əvvəlcə sol əlinlə yazmağa başladın. Belə sənə daha rahat gəlirdi. Ancaq nə vaxt sol əllə yazsan, qardaşın bambuk xətkeşlə əlinin üstündən vurardı. Axı anana söz vermişdi ki, sənə düzgün yazmağı öyrədəcək. Sən anadangəlmə solaxay olsan da, anan dönə-dönə tapşırırdı ki, bu vərdişindən əl çək. Deyirdi, yoxsa həyatda çox çətinlik çəkəcəksən.

Mətbəxdə plovu sol əlinlə çəkəndə anan qaşığı götürüb o biri əlinə verərdi. Bir daha sol əlini uzadanda əlinin üstündən vurardı: "Adama bir sözü neçə dəfə deyərlər?" Sol əlin şişərdi.

Sənsə qardaşın gözünü çəkən kimi tez qələmi sol əlinə alıb üst-üstə iki dairə çəkərdin, guya ki, səkkiz yazırdın. Sonra qələmi sağ əlinə ötürərdin. Qardaşın "səkkiz"i görən kimi onu necə yazdığını başa düşərdi. Sonra də əllərini açdırıb xətkeşlə ovuclarına vurardı.

Telegram: @cinciva

Sən eyvanda çömələb oxumağı öyrənəndə anan cırılmış corabları tikə-tikə, ya da sarımsaq təmizləyə-təmizləyə həyətdən sənə baxardı.

Hələ məktəbə getməzdən höccələyə-höccələyə də olsa, kitab oxumağı, ananın adını və öz adını yazmağı öyrənmişdin. Bunu görəndə ananın sevincdən üzü təbəssüm saçardı. Onun üz ifadəsi oxuya bilmədiyin Brayl hərfləri kimi sənincün bir müəmma olaraq qalırdı.

Ayağa qalxıb heç üst-başının qumunu da təmizləmədən yola düşdün. Fikrini dəyişmişdin. Təyyarəylə Seula uçmaqdansa, Tajerona taksiylə gedib, oradan da qatarla Çonqupa yollanmaq qərarına gəldin. Yol boyu bir fikir beynini qurcalamışdı: Düz altı ay idi ki, ananın üzünü görmürdün.

***

Məktəb illərindən bir xatirə düşdü yadına...

İbtidai məktəbi qurtaran altmışa yaxın uşaq təhsilini davam etdirmək üçün sənəd verirdi. Ərizəsini həmin gün çatdıra bilməyənləri məktəbə qəbul etməyəcəkdilər. Sənədləri hazır olmayanlardan biri də sən idin. Düzü, məktəbə gedib-getməyəcəyin heç vecinə də deyildi. Sən sadəcə özünü günahkar hiss edirdin.

Sənədlərin qəbul günündən əvvəlki gecə anan xəstə yatan atanın üstünə qışqırıb-bağırdı:

– Var-dövlətimiz yoxdur ki, ona arxayın olaq. Bu uşaq məktəbə getməsə, axırı necə olacaq?

Atan başını götürüb evdən çıxdı. Anansa hirsindən mizi götürüb atanın dalınca fırlatdı.

– Bir uşağı da məktəbə göndərə bilmiriksə, bu ev-eşik, bu əşyalar nəyə lazımdır axı?! İndi hamısını qırıb atacam çölə.

Telegram: @cinciva

Sənsə heç məktəb hayında deyildin. Bircə ananın sakitləşməsini istəyirdin. Ananın hirsi hələ də soyumamışdı. Əvvəlcə zirzəminin qapısını açıb var gücüylə çırpdı, sonra ipdən paltarları dartışdırıb yığdı, bürmələyib hirslə yerə atdı. Sonra da sənin yanına gəldi, başındakı yaylığı çıxarıb burnunun dibinə uzatdı. Sən qorxudan quyunun yanına qısılmışdın. Anan:

– Burnunu sil, – dedi.

Yaylıqdan çox pis tər qoxusu gəlirdi. Sən burnunu silmək istəmirdin, üstəlik, bu kəsif qoxulu yaylığa silməyi heç istəmirdin. Anansa israr edirdi. Sənin duruxduğunu görəndə dedi ki, burnunu silsən, ağlamağın keçəcək. Yəqin ki, ağlamaqdan üzgözün yaş olubmuş. Anan da, əslində, "bəsdir ağladın" demək istəyirmiş. Daha anana etiraz edə bilməyib yaylığı götürdün. Burnunun suyu yaylığın tər qoxusuna qarışdı.

Səhəri gün anan həmin yaylığı örtüb məktəbə gəlmişdi. O, müəllimənlə danışıb qurtarandan sonra müəllimə sənə yaxınlaşıb ərizə formasını verdi. Vərəqdə adını yaza-yaza başını qaldırıb sinif qapısından çölə boylandın. Anan dəhlizdən sənə baxırdı. Bir anlıq göz-gözə gəldiniz, anan ürəkdən gülümsədi və yaylığını çıxarıb sənə yellədi.

Məktəb ödənişinin vaxtı çatanda ananın yeganə zinət əşyası olan orta barmağındakı üzük yoxa çıxdı. Geriyə yalnız illərdir, taxdığı üzüyün yeri qaldı.

***

Ananın baş ağrıları keçmək bilmirdi.

Gecənin bir aləmi susayıb oyandın. Otağın bir küncündəki kitablarının qaraltısı üstünə düşürdü.

Yu Binin məzuniyyətində bir illik Yaponiyaya getməyə hazırlaşanda kitablarını hara qoyacağını bilməmişdin. İllərdir özünlə daşıdığın kitabları anangilə göndərəsi olmuşdun. Anan da bir otağı boşaldıb hamısını ora yığdı. Yaponiyadan gələndən

Telegram: @cinciva

sonra kitabları götürməyə heç cür imkanın olmadı. Sonralar hər dəfə anangilə gedəndə çantalarını o otağa qoyardın, əynini də orada dəyişərdin. Gecəni anangildə qalası olsan, anan həmin otaqda sənincün yer salardı.

Bir stəkan su içib otağına keçəndə anandan xəbər tutmaq istədin. Yatdığı otağın qapısını yavaşca aralayıb içəri baxdın. Otaq qaranlıq idi. Elə bil içəridə heç kim yox idi. "Ana" deyib astadan çağırdın, hay vermədi. Əlini divarda gəzdirib işığı yandırdın. Anan otaqda deyildi. Qonaq otağına keçib oranın da işığını yandırdın, hamama baxdın. Anan heç yerdə yox idi. Qapını açıb çölə çıxdın. "Ana, ay ana" deyə çağırdın. Səhərin ayazı iliyinə işlədi.

Həyətin işığını yandırıb ətrafa baxdın. Birdən gözün talvarın önündəki taxta döşəməyə sataşdı. Anan döşəmənin üstündə uzanmışdı. Pilləkənləri tələm-tələsik düşüb anana sarı qaçdın. Qırışmış üz ifadəsindən və əlini alnına qoymağından bəlli idi ki, keçən dəfəki kimi ağrıdan qıvrılıb, sonra da halsız düşüb elə döşəmənin üstündəcə yuxuya gedib. Yalın ayaqlarını qarnına doğru qısmışdı. Noyabrın soyuq səhərində üşümüşdü. İçəridən adyalla corab gətirdin, üstünü örtdün, corabları ayağına geyindirdin. Yanında oturub oyanmağını gözlədin.

***

Ananın tarladan başqa bir gəlir yeri yox idi. Çox götür-qoy elədi, axırda bir mayalama qabı alıb talvara qoydu. Tarladan yığdığı buğdaları gətirib əzər, sonra suyla qarışdırıb həmin qaba tökərdi. Acıtmanın qoxusu bütün evə yayılardı. Bu iy hamını narahat eləsə də, anan deyərdi ki, pul qoxusudur.

Kənddəki evlərin birində tofu hazırlayırdılar. Anan düzəltdiyi mayanı ora aparardı. Onlar da acıtmanı fabrikə satıb pulunu anana verərdilər. O da aldığı pulları ağ bir kasaya atar, üstünə altı-yeddi kasa da keçirib ən üst rəfə qoyardı. Sən mək-

Telegram: @cinciva

təbin ödəniş qəbzini gətirəndə anan pulları kasanın içindən götürüb əlinə verərdi.

***

O səhər oyananda gördün ki, talvarın önündəki döşəmənin üstündə yatıb qalmısan. Bəs anan hanı? Gözünə dəymədi. Mətbəxdən səs gəlirdi. Qalxıb mətbəxə getdin. Anan doğrama taxtasının üstünə yekə bir ağ turp qoyub əlləri əsə-əsə onu kəsməyə çalışırdı. Əvvəllər taxtaya baxmadan turpu ustalıqla nazik-nazik dilimləyərdi. Daha əvvəlki anandan əsər-əlamət qalmamışdı. Güclə əlində tutduğu bıçaq tez-tez turpun üstündən sürüşüb düşür, taxtanı taqqıldadırdı. Neçə dəfə az qala baş barmağını kəsəcəkdi. Özün də bilmədən qışqırdın: "Ana, bir dayan görək".

– Sən keç, mən eləyərəm, – deyib taxtanın arxasına keçdin.

Anan bir anlıq çaşıb qaldı, sonra kənara çəkildi. Qabyuyan çanağın içindəki dəmir süzgəcdə ölü osminoq vardı. Paslanmaz dəmirdən olan buxarlı qazan da qazın üstündə idi. Anan altına turp düzüb buxarda osminoq bişirmək istəyirdi. "Əvvəlcə bir az pörtlətsən, yaxşı olmaz?" – deyə soruşmaq istədin, sonra, nədənsə, fikrindən daşındın.

Anan nazik turp dilimlərini qazanın dibinə düzüb paslanmaz dəmir lövhəni də üstünə qoydu. O, çox vaxt dəniz məhsullarını belə bişirirdi. Əslində, anan o qədər balıq bişirən deyildi. Balıqların adlarını belə düz-əməlli bilmirdi. Skumbriya, durna balığı, ya da qılıncbalıq olsun, anançün hamısı sadəcə balıq idi. Amma dənli bitkilərdən yaxşı başı çıxırdı. Atlı lobya, soya, ağ lobya, qara lobya – hamısını tanıyırdı.

Balıq bişirəcəksə, heç vaxt saşimi etməzdi[11]. Pörtləmə və qızartmanı da sevməzdi. Həmişə duzlayıb buğlama eləyərdi.

11. Saşimi – Uzaq Şərq yeməyidir. Nazik doğranmış çiy ətdən hazırlanır. Adətən dəniz heyvanlarından olur.

Telegram: @cinciva

Skumbriya, ya da qılıncbalıq bişirəsi olanda qırmızı bibərli və sarımsaqlı acı sous hazırlayar və onu bir boşqabın içində dəm alan aşın üstünə qoyub buxarda bişirərdi.

Anan saşimini ömründə dilinə vurmazdı. Çiy balıq yeyən bir adam görəndə: "Bunu necə yeyir?" – deyib üzünü turşudardı. Ananın buxarlı qazanda osminoq bişirməyinə baxa-baxa dəryaza balığıyla bağlı xatirələrin yadına düşdü.

***

Anangil tərəfdə bayram süfrəsində adətən dəryaza balığı olardı. Anan bir il ərzində görəcəyi işləri bayram vaxtlarına görə planlayardı. Ənənəvi bayramların biri yaza, ikisi yaya, ikisi də qışa düşərdi. Yeni ili və Məhsul bayramını da saysaq, anan ildə yeddi dəfə quyunun başında dəryaza balığı təmizləyərdi. Aldığı balıqlar həmişə iri qazan qapağı boyda olardı. Anan bazardan dəryaza balığı alıb quyunun yanından asanda bilirdiniz ki, bayramlardan biri yaxınlaşıb.

Qışda balığı təmizləmək lap çətin olurdu. Havalar soyuyur, su buza dönürdü. Sənin əllərin incəydi, ananınkı isə işləməkdən sərtləşib kobudlaşmışdı. Anan şaxtadan donub qızarmış əlləriylə balığın üst tərəfini çərtərdi, sən də dərisini soymağa çalışardın. Bəxtin gətirəndə dərisi bir dəfəyə çıxardı. Yoxsa hissə-hissə soymalı olurdun. Anan bir başqa yerdən yenə də çərtər, sən də təmizləyərdin. Bu balıq təmizləmə səhnəsi ənənəvi qış mənzərəsiydi. Hər il təkrarlanan bir film kadrı kimi ananla sən üstü nazik buz tutmuş quyunun yanında çömələb dəryaza balığı təmizləyərdiniz.

Bir qış anan sənin soyuqdan donmuş əllərinə baxıb: "Kimin nə vecinə bunun dərisi soyulub, ya yox", – deyib balığın dərisini təmizləmədi. Sonra dəryaza balığını iri tikələrə böldü. Birinci dəfə idi ki, bayram süfrəsinə dərisi soyulmamış dəryaza balığı qoyulacaqdı.

Telegram: @cinciva

Atan dedi ki, bu balıq nəsə qəribə dadır. Anan da: "Balıq həmişəki balıqdır, bircə dərisi soyulmayıb", – dedi. Bibin deyindi: "Bayram yeməklərini başdansovdu hazırlamaq olmaz". Anan da bibinə cavab qaytardı: "Gəlib özün soyardın". O il nə vaxt başınıza bir iş gəlsə, dərisi soyulmamış dəryaza balığı ortaya atılardı. Xurma ağacı meyvə verməyəndə, çubuq fırlatma yarışında qardaşının gözünə çubuq batanda, atan xəstəxanaya düşəndə, qohum-əqrəbada uşaqlar dalaşanda bibin söhbəti gətirib həmin dərisi soyulmamış balığa calayardı.

***

Anan buxarlı qazanda bişirdiyi osminoqu doğrama taxtasının üstünə qoyub kəsməyə çalışdı. Bıçaq bayaqkı kimi dəqiqəbaşı sürüşüb taxtaya dəyirdi. "Ana, mən kəsərəm" deyib bıçağı yenə əlindən aldın. Turp iyi hopmuş osminoqu doğramağa başladın. Kəsdiyin dilimlərdən birini götürdün, qırmızı istiotlu, sirkəli sousa batırıb anana uzatdın. Anan da səni belə yedirərdi. Çubuqlarla nəsə yemək istəyib götürə bilməyəndə: "Bunu çubuqla yesən, ləzzəti qalmaz, aç ağzını görüm", – deyərdi. İndi anan yeməyi çubuqla götürməyə çalışırdı, amma bacarmırdı.

"Çubuqla yesən, ləzzətli olmaz, aç ağzını", – deyib osminoqun tikəsini ananın ağzına qoydun. Özün də bir tikə alıb dadına baxdın. Osminoq isti və yumyumşaq idi. "Səhər yeməyində də osminoq yeyərlər?" – deyə fikirləşsən də, ananla mətbəxdə ayaqüstü osminoq yeməyə davam etdiniz. Ağzındakı tikəni çeynəyə-çeynəyə gördün ki, anan çubuqla birini də götürmək istəyir, amma bacarmır. Tikəni götürüb ananın ağzına qoydun. Anan daha özü götürməyə çalışmadı, hər dəfə gözlədi ki, sən verəsən. Barmaqları tutmurdu. Yemək yeyə-yeyə: "Anacan", – dedin.

– Anacan, gəl bu gün Seula gedək.

Anan qayıdıb dedi ki, gəl dağlara çıxaq.

– Dağlara?

Telegram: @cinciva

– Hə, dağlara.

– Burdan dağa yol var?

– Bir cığır var. Mən həmişə ordan çıxıram.

– Ana, gəl səni Seula aparım. Orda həkimə də gedərik.

– Başqa vaxt.

– Başqa nə vaxt?

– Qoy qardaşın qızı imtahanını versin, sonra.

Hun Çolun qızını deyirdi.

– Hun Çolu neyləyirsən? Mən özüm səni aparacağam.

– Mənə görə narahat olma. Mən yaxşıyam. Burda bir çinli həkim var, onun yanına gedirəm. Dedi ki, ağrı boynumdadı, o düzəlsə, lap yaxşı olacam. Ona görə masaja da başlamışam.

Ananı heç cür yola gətirə bilmədin. İki ayağını bir başmağa dirədi. Birdən durduğu yerdə dünyanın ən kiçik ölkəsinin adını soruşdu.

"Necə yəni ən kiçik ölkə hansıdır? Bunun söhbətə nə aidiyyatı var?" – deyə fikirləşib mat-mat ananın üzünə baxdın.

Anan xahiş elədi ki, dünyanın ən kiçik ölkəsinə getsən, palisandr ağacından təsbeh alıb gətirərsən.

– Palisandr ağacından?

– Hə, muncuqları palisandr ağacından olsun, – dedi anan.

– Ana, sənə təsbeh lazımdır?

– Yox. Yəni o ölkəyə getsən, ordan xatirə bir təsbeh istəyərdim.

Anan duruxub dərin bir köks ötürdü.

– Dediyim odur ki, nə vaxtsa ora yolun düşsə, ordan mənə bir təsbeh gətirərsən.

Telegram: @cinciva

Cavab vermədin.

– Çünki hər yerə gedə bilirsən.

Susdunuz.

Niyə illah da ən kiçik ölkədən? Araya səssizlik çökdü. Bir xeyli ağzınıza su alıb oturdunuz. Səhər yeməyində doyunca yeyib evdən çıxdınız.

***

Kəndin arxa tərəfindəki çəltik tarlalarını keçib dağa qalxan cığıra çatdınız. Cığır çox gediş-gəlişli olmasa da, kol-kos basmamışdı. Üstü palıd yarpaqlarıyla örtülmüşdü. Yarpaqları xışıldada-xışıldada irəliləməyə başladınız. Cığır boyu düzülən ağacların aşağı sallanan budaqları adama ilişirdi. Anan qabağa keçib budaqları arxaya çəkirdi ki, sən rahat keçə biləsən. Yanınızdan ötüb havaya pərvazlanan bir quşun qanad çırpıntısı sükutu pozdu.

– Bura tez-tez gəlirsən?

– Hə.

– Kimlə?

– Təkcə. Kim var ki?!

Düşündün ki, doğrudan, anam bura tək gəlir? Ananın harasa tək gedə bilməsinə inanmırdın. Üstəlik də, adam ayağı dəyməyən qaranlıq meşəyə... Bəzi yerlərdə bambuk ağacları elə sıx idi ki, azacıq gün işığı belə düşmürdü.

– Burda tək-tənha nə işin var?

– Birinci dəfə xalanın ölümündən sonra gəlmişdim. O vaxtdan tez-tez gəlirəm.

Bir az da gedəndən sonra anan bir təpənin üstündə dayandı. Yanına gedib hara baxdığını görmək istədin. "Aa, bu yol" deyib qışqırdın. Lap yadından çıxmışdı. Bu ki nənəngilə gedən kəsə yol idi. Balaca vaxtı həmişə bu cığıra düşüb nənəngilə ge-

Telegram: @cinciva

dərdin. Sonralar kəndin içindən geniş yol çəkilsə də, yenə hamı bu dar cığırla gedib-gələrdi.

Yadındadır, bir gün bir toyuğun boğazına ip bağlayıb bu cığırla sürütləyə-sürütləyə nənənin evinə aparırdın. O gün nənən bayram hazırlığı görürdü. İp əlindən çıxar-çıxmaz toyuq qaçıb getmişdi. Axtarmadığın yer qalmamışdı, amma toyuq elə bil yer yarılıb içinə girmişdi. Hara getmişdi, görəsən?

Bir vaxtlar bu cığırdan gözübağlı keçib gedərdin. Ancaq indi bu təpə olmasaydı, cığırı tanımayacaqdın.

Anan köhnə evlərinin olduğu yerə baxırdı. Artıq orada heç kim yaşamırdı. Nə vaxtsa əlli ailə yaşayan kənddə, demək olar ki, heç kim qalmamışdı. Bəzi evlər hələ də dururdu.

Demək, anan bura uşaqlığının keçdiyi kəndə baxmaq üçün gəlirmiş. Ananı qucaqlayıb bir daha Seula, həkimə getməyi təklif etdin. Anansa söhbəti dəyişib həyətinizdəki itdən danışmağa başladı. Həyətə girəndə iti görməyib təəccüblənmişdin. Amma sonra başın elə qarışdı ki, soruşmaq yadından çıxdı.

Keçən il yay tətilində anangilə gələndə çindo cinsindən bir itin talvarın yanına bağlandığını görmüşdün. Hava çox bürkü idi. İtin zənciri o qədər qısa idi ki, yazıq kölgə bir yer tapmaq üçün dartına-dartına qalmışdı. İstidən dili bir qarış çölə çıxmışdı. Anana dedin ki, itin zəncirini açsın. O da:

–Açsam, qorxudan heç kim evimizin yanından keçməz, – dedi.

Bürkülü havada iti günəşin altında zəncirləmək heç insafdandı? Heyvanı o halda görəndə düz-əməlli salamlaşmamış başladın ananla dilləşməyə: "Niyə bağlamısan? Aç, qoy yazıq heyvan rahat hərəkət eləsin".

Anan israrla:

– Ən ucqar kəndlərdə belə heç kim iti açıb buraxmır. Hamı zəncirləyir. Yoxsa itər, – dedi.

Telegram: @cinciva

– Onda uzun zəncirlə bağla. Bu istidə belə qısa zəncirlə yazığı öldürək?! Dili-ağzı yoxdur deyə heyvanla belə davranarlar?

Anan dedi ki, evdə bundan başqa zəncir yoxdur. Üstəlik, əvvəlki iti də bununla bağlamışdı.

– Onda get, təzəsini al! – deyib ananın üstünə qışqırdın.

Neçə vaxtdan sonra ilk dəfə idi ki, anangilə gəlmişdin. Ancaq evə keçməmiş qəsəbəyə qayıtdın. Upuzun zəncir alıb gətirdin. İt təzə zəncirdə ta yan həyətə qədər gedə bilirdi.

Sonra gördün ki, it damı çox kiçikdir. Bu dəfə də ondan ötrü qəsəbəyə düşmək istəyirdin ki, anan qoymadı. Qonşu kənddəki dülgərə it damı düzəltdirməyə söz verdi. İt damına pul xərcləməyi ağlı almamışdı. "Adam da it damına pul verər? Yer-yurd taxtayla doludur. Yığıb, orasını-burasını düzəldib mismarlamaq lazımdır, vəssalam. Deyəsən, pulun çoxdur".

Şəhərə qayıdanda anana iyirmi min von verdin ki, itə təzə dam düzəltdirsin. O da düzəltdirməyə söz verdi. Seula qayıdandan sonra iki gündən bir zəng eləyib soruşurdun ki, nə oldu, düzəltdirdi, ya yox? Hər dəfəsində anan: "Yaxında düzəltdirəcəm", – deyirdi. Halbuki sənə yalan danışa bilərdi.

Dördüncü zəngində də eyni cavabı eşidəndə lap özündən çıxmışdın:

– Sənə pul da verdim. Siz kəndlilər də lap dəhşətsiz e. Sənin heç itə yazığın gəlmir? Darısqal yerdə o istiyə necə dözsün? Damın içi də zir-zibillə doludur. Yazıq onların üstündə yatıb durur. Heç olmasa, oranı təmizlə. Baxa bilmirsən, burax istədiyi yerə getsin.

Dəstəyin o biri ucundan səs-səmir gəlmirdi. Kəndlilər haqqında dediyin sözə görə peşman olmuşdun. Birdən ananın hirsli səsini eşitdin.

– Səni ancaq elə it maraqlandırır. Bəs mən? Bir itə işgəncə

Telegram: @cinciva

verəcək qədər qəddaram? Özüm bilərəm, nə edərəm. Mənə ağıl öyrətmə! – deyib dəstəyi çırpmışdı.

Adətən dəstəyi birinci sən asardın. "Sonra zəng edərəm" deyər, ancaq zəng vurmazdın. Oturub uzun-uzadı ananın dediklərinə qulaq asacaq vaxtın yox idi axı. Amma bu dəfə birinci o qoymuşdu dəstəyi. Həm də sən evdən gedəli birinci dəfə idi ki, sənə belə hirslənmişdi.

Sənə yaxşı baxa bilmədiyi üçün Hun Çolun yanına göndərdiyini deyib üzrxahlıq edərdi. Hər dəfə zəng eləyəndə səninlə doyunca danışmaq üçün söhbəti uzadardı.

Telefonu üzünə bağlaması itlə pis rəftarından daha çox təsir eləmişdi sənə. Lap çaş-baş qalmışdın. Anana nə olmuşdu? Əvvəllər heyvanlara yaxşı baxardı. Seula gələndə, it orda ac qalıb deyə şəhərdə üçcə gündən artıq qalmazdı. İndi niyə belə eləyir? Ananın heyvana qarşı laqeyd davranmasına bir tərəfdən də təəccüb edirdin.

Bir neçə gün sonra anan zəng edib:

– Əvvəllər heç belə deyildin. Soyuq olmusan, – demişdi, – adamın anası hirslənib dəstəyi qoyanda geri yığıb könlünü alarlar. Adam bu qədər tərs olmaz.

Əslində, tərslik eləmirdin. Sadəcə bu haqda düşünməyə vaxtın olmamışdı. Ananın hirslənib dəstəyi qoyduğu yadında idi, geri yığmalı olduğunu da bilirdin, amma niyəsə hər dəfə anana aid işləri ən axıra saxlayırdın.

Anan hirsli-hirsli:

– Oxumuşların hamısı belədir?! – deyib yenə dəstəyi üzünə çırpdı.

Məhsul bayramı ərəfəsində anangilə getmişdin. Talvarın önündə yekə bir it damı vardı. İçi yumşaq samanla döşənmişdi.

***

Telegram: @cinciva

Sən təpədə dayanmışdın. Anan yanına gəlib danışmağa başladı:

– Oktyabr idi. Səhər yeməyi üçün düyü təmizləyirdim. Birdən elə bil kimsə kürəyimi dürtmələdi. Arxaya çöndüm, heç kim yox idi. Düz üç gün dalbadal eyni şey təkrarlandı. Elə bil hər səhər kimsə kürəyimi dürtmələyib məni çağırırdı. Dördüncü gün yuxudan oyanıb hamama keçəndə gördüm ki, it ayaqyolunun qapısının ağzında uzanıb... Keçən il gələndə mənə hirslənib demişdin ki, itə yaxşı baxmıram. Mən onu qatar yolunun yanında tapanda bütün bədəni yara tökmüşdü. Yazığım gəlmişdi. Gətirib həyətə bağlamışdım, qarnını doyurmuşdum. Bağlamasaydım, kim bilir, qaçıb hara gedərdi. Həmin gün gördüm, heç tərpənmir. Elə bildim yatıb. Nə qədər tərpətdim, oyanmadı. Sən demə, ölübmüş. Bir gün əvvəl elə yaxşı idi ki. Qəşəngcə yeməyini yeyib quyruğunu bulaya-bulaya gəzirdi. Bilmirəm, niyə ölmüşdü. Amma üzündə razılıq ifadəsi görünürdü. Zənciri necə açdığını da bilmirəm... Mən onu tapıb gətirəndə bir dəri, bir sümük idi. Yavaş-yavaş əmələ gəldi. Tükləri də parıldadı. Elə ağıllı heyvan idi ki... Köstəbəklərin qənimi idi.

Anan dərin bir ah çəkdi:

– Deyirlər ki, bir adama kömək etsən, sənə xəyanət edər. Bir iti yedizdirsən, yaxşılığının əvəzini mütləq çıxar. Bilirəm, bu it mənim yerimə öldü.

Bu dəfə də sən dərin köks ötürdün.

– Keçən il yoldan keçən bir kəşişə pul vermişdim. Qayıdıb demişdi ki, bu il ailəndən bir nəfər öləcək. Bunu eşidəndə elə qorxdum ki, bu bir ili ancaq o haqda fikirləşmişəm. Ölüm məni aparmağa gələndə hər dəfə gördü ki, özümə yemək bişirmək üçün düyü təmizləyirəm, o da əvəzimə iti apardı.

– Ana, sən nə danışırsan? Özün də kilsəyə gedirsən. Belə şeylərə necə inanırsan?

Telegram: @cinciva

Talvarın yanındakı boş it damı və yerdəki zəncir gözünün qabağına gəldi. Anamı qucaqladın.

– Həyətdə yer qazıb onu basdırdım, – dedi.

***

Qəribə hadisələr danışmaq ananın adəti idi. Bayram axşamları bibinlə xalaların hərəsi əlinə bir kasa düyü alıb sizə gələrdilər. Ərzağın qıt olduğu vaxtlar idi. Ona görə də hər kəs özüylə yeməyə bir şey gətirərdi. Bayram ayini qurtaranda anan qonaqların kasasını doldurmadan yola salmazdı.

Ayin vaxtı düyü dolu kasaları yan-yana düzərdilər. Ayindən sonra anan bir neçə quşun gəlib düyüləri dimdiklədiyini və getdiyini deyərdi. İnanmadığını görəndə: "Öz gözlərimlə gördüm. Düz altı quş idi. Onlar yeməyə gələn babalarımız idi", – deyib səni inandırmağa çalışardı. Heç kim ananın dediklərini ciddi qəbul etməzdi. Amma kasalara baxanda elə bil düyülərin üstündə quşların ayaq izlərini görmüşdün.

Bir dəfə səhər obaşdan anan tarlaya getmişdi. Özüylə yemək də götürmüşdü ki, acanda yesin. Çatanda görmüşdü ki, bir nəfər əyilib tarlada alaq edir. Kim olduğunu soruşanda adam yoldan ötən bir bəndə olduğunu, tarlanı ot basdığını görəndə təmizləmək istədiyini demişdi. Başlamışdılar bir yerdə otları təmizləməyə. Anan bu qərib adamdan o qədər razı qalmışdı ki, yeməyini də onunla bölüşmüşdü. Beləcə söhbətləşə-söhbətləşə otları təmizləyib qurtarmışdılar. Qaranlıq düşəndə çıxıb getmişdi. Anan evə çatanda bibinə o gün tanımadığı bir adamla tarlanı təmizlədiyini danışmışdı.

Bibin narahat olub onun görkəmini soruşmuşdu. Anan da həmin adamın tarlanın əvvəlki yiyəsi olduğunu demişdi. Həmin adam lap çoxdan tarlada işləyərkən günvurmadan ölmüşdü.

– Ay ana, bütün günü tarlada bir ölmüş adamla işləməkdən qorxmadın? – demişdin.

Telegram: @cinciva

Anan da rahat-rahat cavab vermişdi:

– Heç qorxmadım. Tarlanı təkbaşına təmizləyəsi olsaydım, iki-üç gün çəkərdi. Sağ olsun, adam mənə çox kömək elədi.

***

Ananı gedib görəndən sonra baş ağrılarının ona nə qədər əziyyət verdiyini anladın. Anan gümrahlığını itirməyə və özünə daha çox qapanmağa başlamışdı. Tez-tez uzanıb dincəlmək istəyirdi. Zövq aldığı tək-tük əyləncədən biri olan 100 vonluq uduşlu oyun belə daha diqqətini çəkmirdi. Get-gedə hisləri də korşalırdı.

Bir gün yekə bir qazan bezi qaynadıb ağartmaq üçün sobanın üstünə qoyandan sonra mətbəxdə yerə yıxılmışdı. Ha çalışsa da, yerindən tərpənə bilməmişdi. Qazanın suyu quruyub içindəkilər yanmağa başlamışdı. Mətbəxin içini tüstü bürümüşdü. Qonşulardan biri mətbəxdən çıxan tüstünü görüb gəlməsə, bütün ev yanıb kül olacaqmış.

Üç uşağı olan bacın bir gün ananın şiddətli baş ağrılarından danışanda səndən bir şey soruşdu:

– Səncə, ana mətbəxdə iş görməyi xoşlayırdı?

Bacın bunu ciddi soruşmuşdu.

– Niyə soruşursan ki?

– Məncə, heç xoşlamırdı.

Bacın əczaçı idi, ilk uşağına hamilə olanda aptek açmışdı. O, işə gedəndə uşağa baldızı baxırdı. Baldızının evi aptekdən xeyli uzaq olduğu üçün bacın günlərlə uşağı onun yanında qoymalı olurdu. Uşaqlardan ötəri ürəyi gedən bacın öz balasını həftədə cəmi bir dəfə görsə də, işini buraxmırdı. Onların sağollaşma səhnəsini görəndə adamın ürəyi xarab olurdu. Ayrılma anları çox təsirli idi. Uşaqdan çox, bacın kövrəlirdi.

Balaca anasından ayrı qalmağa öyrəşsə də, bacın hər həftə

Telegram: @cinciva

sonu ağlaya-ağlaya uşağı maşına mindirib baldızıgilə aparırdı. Evə qayıdanda gözünün yaşı sükanı tutan əllərini isladırdı. Birinci gün səhər ağlamaqdan şişmiş gözlərlə aptekə yollanırdı. Elə iztirab çəkirdi ki, bir gün dözməyib:

– Nə məcburdur, bir aptekə görə bu qədər uzaq yolu gedirsən?! – demişdin.

Əri təhsilini davam etdirmək üçün iki illik Amerikaya gedəsi olanda bacın apteki bağladı. İkinci uşağı olandan sonra yenə apteki işlətməyə başladı. Bacın demişdi ki, Amerikaya köçməyin uşaqlara faydalı olacağını düşünür. Sən də fikirləşmişdin ki, bu, bacınçün də yaxşı olar, bir az özünə fikir verər, dincələr. Bacın ailə qurandan sonra, demək olar ki, fasiləsiz işləmişdi. Üçüncü uşağı Amerikada doğulandan sonra geri qayıtmışdılar. Artıq beş nəfərə yemək bişirməli idi. Bir dəfə bacın bir ayda iki yüz balıq yediklərini demişdi.

– Nə danışırsan? İki yüz? Siz neyləmisiz? Ancaq balıq yemisiz? – deyə soruşmuşdun. O da "Hə" demişdi.

Bu hadisə əşyaları hələ Amerikadan gəlməmişdən qabaq olmuşdu. Bacın təzə evinə öyrəşə bilməmişdi. Körpə uşağını hələ də əmizdirirdi, dükana düşməyə belə vaxtı yox idi. Qayınanası ona bir kisə qurudulmuş duzlu balıq göndərmişdi. On günə balığın axırına çıxmışdılar. Bacın gülə-gülə:

– Bir gün soya şorbası bişirib yanında balıq qızardıram. O biri gün yaşıl qabaq şorbasıyla balıq qızardıram, – deyirdi.

Bacın qayınanasından: "Bu balıqları hardan almaq olar?" – soruşmuşdu. O da: "İnternet vasitəsilə sifariş vermək olar", – demişdi. Bir kisə balığı on günə qurtardıqları üçün iki kisə sifariş vermişdi.

– Balıqlar gələndə onları yuyub saydım. Düz iki yüz dənə idi. Dörd-dörd, beş-beş plastik qablara yığıb buzluğa atdım. Belə eləyəndə bişirmək daha asan olur. Birdən hamısını götü-

Telegram: @cinciva

rüb yerə çırpmaq istədim... O dəqiqə ağlıma anam gəldi. Yazıq anam o boyda ailəyə illərlə necə yemək bişirib?! Yadındadır, nə qədər yemək yeyirdik? İki mizin üstü də yeməklərlə dolu olardı. Aş qazanının yekəliyi yadına düşür? Hamımızın yemək çantasını hazırlayar, hələ həyətdən yığdığı göy-göyərtidən qarnir da düzəldərdi. Hər gün bu qədər işi necə çatdırırdı? Üstəlik atam ailəsinin böyük oğlu idi deyə evdən qonaq-qara əskik olmazdı. Yəqin, anam mətbəxdən bezmişdi.

Yaman yerdə ilişmişdin. Axı sən də anam mətbəxdən ayrı təsəvvür edə bilmirdin. Sənin təsəvvüründə mətbəx və anan – ikisi bir-birini tamamlayırdı. Ananın mətbəxdə yemək hazırlamaqdan xoşu gəlib-gəlmədiyini heç fikirləşməmişdin.

***

Anan pul qazanmaq üçün barama yetişdirmiş, maya düzəltmiş, tofu hazırlanmasına kömək etmişdi. Anana görə pul yığmanın ən yaxşı yolu heç xərcləməmək idi. Heç nəyi atmazdı. Bəzən sınmış çilçırağı, köhnə ütünü, ya da köhnə küpləri başqa yerlərdən kəndə gələnlərə satardı. Köhnə sınıq-salxaq əşyaları müştərilərə elə sırıyardı ki, elə bil illərin satıcısı idi.

Adama elə gəlirdi ki, ananın malları əlində qalacaq, heç birini sata bilməyəcək. Amma anan həmişə alverdən qazanclı çıxardı. Əvvəlcə sakit-sakit alıcılara qulaq asar, sonra da: "Filan qədər verəcəksiz", – deyərdi. Alıcılar da ağızlarını büzüb etiraz edərdilər: "Bu lazımsız şeyə bu qədər pul verərlər?" Anan da "Lazım deyilsə, niyə almaq istəyirsən?" – deyib malı əllərindən dartıb alardı. Alıcılar: "Səndən yaxşı ticarətçi çıxar", – deyib söylənə-söylənə istədiyi məbləği verərdilər.

Ananın heç nəyə pul verməyə əli gəlməzdi. Ehtiyacı olan çox şeyi özü düzəldərdi. Ona görə də bütün gün işi başından aşardı. Tikiş tikər, hörgü hörər, tarlada çalışardı. Ananın tarlası heç vaxt boş qalmazdı. Yazda ləklərə kartof, kələm, payızgü-

Telegram: @cinciva

lü, əməköməci, sarımsaq, bibər və qarğıdalı əkərdi. Evin ətrafındakı hasarın dibinə dolmalıq qabaq əkmək üçün çuxurlar qazar, tarlaya lobya səpərdi. Küncütlə xiyar da həmişə əkdiyi bitkilərdən idi. Tut yarpaqlarını yığardı. Bütün günü ya mətbəxdə, ya tarlada, ya da çəltik sahəsində olardı. Kartof, yeralması, dolmalıq qabaq, kələm, turp yığardı. Anan "İşləməyən dişləməz" deyiminin canlı örnəyi idi. Ancaq torpaqda yetişdirə bilmədiyi şeyləri satın alardı: yazda həyətdə o yan-bu yana qaçışan ördək balaları, cücələr və ağıldakı heyvanlar...

Bir dəfə it düz doqquz bala doğmuşdu. Aradan bir ay keçəndən sonra anan küçüklərin ikisini evdə saxlayıb altısını bir səbətə qoydu. Səbətdə yer qalmadığı üçün birini də sənin əlinə verib: "Gəl görək", – dedi.

Mallarını bazarda satmağa aparan adamlarla bir avtobusa mindiniz. Avtobusun içərisi basabas idi. Adamların səbətlərində qurudulmuş bibər, küncüt, qara lobya kimi satlıq şeylər var idi. Bəzi səbətlərdə cəmi bir neçə kələmlə bir az turp var idi. Hamı qəsəbənin dayanacağında düşüb sıraya düzülür, gəlib-keçənlərə mallarını satmağa çalışırdı. Əlindəki küçüyü səbətdə tərpəşən küçüklərin yanına qoydun. Ananın böyründə çömələb müştərilərin gəlməyini gözlədin. Ananın bir ay bəslədiyi küçüklər kök, sağlam və sevimliydilər. Adamlara hürmür, əksinə, səbətin yanından ötüb keçənlərə quyruq sallayır, əllərini yalayırdılar. Ananın balaca köpəkləri turplardan, kələmlərdən, lobyalardan daha tez satıldı. Sonuncusunu da satandan sonra ayağa qalxıb. "Nə istəyirsən?" – dedi. Bu sualı çox az-az eşitdiyinə görə matdım-matdım ona baxıb əlindən tutdun.

– Deyirəm, ürəyin nə istəyir?

– Kitab istəyirəm!

– Kitab?

– Hə, kitab!

Telegram: @cinciva

Anan çaşıb qalmışdı. Bir xeyli üzünə baxdı, sonra kitabların harada satıldığını soruşdu. Qabağa keçib ananı beşyoldakı bazarın girişində olan kitab dükanına gətirdin. Anan içəri keçmədi. "Birini seç, qiymətini soruşub mənə deyərsən", – dedi.

Anan sənə adi qaloş alanda belə bir-bir ayağına geyindirib yoxlayar, adətən qiyməti endirməyə çalışar, satıcının dediyi qiymətdən qat-qat az ödəyərdi. Amma bu dəfə sövdələşmə eləmək niyyəti yox idi. Kitab dükanı gözünə elə böyük göründü ki, elə bildin ucsuz-bucaqsız bir çölün ortasındasan. Bilmədin ki, hansı kitabı seçəsən. Həmişə qardaşlarının evə gətirdiyi kitabları yarımçıq oxuyurdun. Qardaşların gedəndə kitablarını da özləri ilə apardıqları üçün heç birini axıra çatdıra bilmirdin. Ona görə də özünə bir kitab almaq istəyirdin. Məktəb kitabxanasında da qardaşın Hun Çolun özü ilə gətirdiyi "Sa xanım cənuba gedir" və ya "Şin Yun Bbokun bioqrafiyası" kimi kitablar da yox idi.

Anan dükanın çölündə səni gözləyirdi. Sən də "Bəşəri, həddən artıq bəşəri" adlı bir kitab seçdin. Anan ömründə birinci dəfə idi ki, dərslərə aid olmayan bir kitaba pul verəcəkdi. Kitaba baxıb:

– Bu kitab sənə lazımdır? – deyə soruşdu.

Başınla təsdiq elədin. Narahat idin ki, birdən anan fikrini dəyişər. Əslində, bu kitab haqqında heç bir məlumatın yox idi. Müəllifini belə tanımırdın. Sadəcə kitabın adı xoşuna gəlmişdi. Anan kitabın pulunu kəsmədi. Bu dəfə avtobusda oturanda qucağında küçük yox, kitab var idi. Kitabı möhkəm-möhkəm sinənə sıxıb pəncərədən bayıra boylandın. Yaşlı, beli bükülmüş bir nənənin yazıq-yazıq gəlib keçənlərə baxdığını, plastik qabın dibindəki nəm çəkib bir-birinə yapışmış düyüləri satmağa çalışdığını gördün.

***

Telegram: @cinciva

Nənəngilin kəndinə baxan təpənin yanındakı cığırda dayananda anan atasının qızıl və kömür tapmaq üçün şəhər-şəhər, qəsəbə-qəsəbə gəzdiyini, o, üç yaşında olanda evə qayıtdığını danışdı. Sonra baban yeni tikilən bir dəmiryolu vağzalının inşaatında işləməyə gedib orada bir qəzada ölmüşdü. Babanın vəfat xəbərini nənənə deməyə gələn kəndlilər həyətdə qaçıb oynayan anana baxıb: "Nə axmaq uşaqsan, atan ölüb, sənsə gülüb-oynayırsan" – deyibmişlər.

– Üç yaşında bunlar yadında qalıb?

– Hə, yadımda qalıb.

Anan dedi ki, bəzən anasına, yəni nənənə hirslənərdi.

– Dul qadın üçün hər işi tək görmək çox çətin idi, amma məni məktəbə göndərə bilərdi. Qardaşım yapon məktəbinə getmişdi. Bacım da onun kimi. Niyə məni oxutmadı? Bütün ömrümü savadsız, kor kimi yaşadım...

Anan, axır ki, Hun Çola deməmək şərtilə sənlə Seula getməyə razı oldu. Evdən çıxanda da dilbədil tapşırdı ki, qardaşına heç nə söyləməyəsən.

Ananın baş ağrılarının səbəbini öyrənmək üçün xəstəxanaları bir-bir gəzə-gəzə axırda bir həkimlə görüşdünüz. Həkimin diaqnozu səni çox təəccübləndirdi:

– Ananızda əvvəllər beyin qansızması olub.

– Beyin qansızması? Ola bilməz!

Həkim ananın beyninin rentgenində bir nöqtəni göstərib qansızmanın əlaməti olduğunu dedi.

– Necə olub ki, hiss eləməyib? – deyə soruşdun.

– Mütləq hiss eləmiş olmalıdır. Qanın beyində yığılma şəkli göstərir ki, hiss eləməməsi mümkün deyil. Ananız həmişə ağrı çəkib. Yəni bütün bədənində həmişə şiddətli ağrılar olub.

Telegram: @cinciva

– Necə yəni həmişə ağrı çəkib? Anam həmişə çox sağlam olub.

– Sizinlə razı deyiləm.

Birdən sənə elə gəldi ki, nə vaxtsa cibində gizlənmiş bir mismar qəfildən xırç eləyib əlinə batdı.

Həkim ananın beynində yığılıb qalmış qanı çəksə də, ananın baş ağrıları keçmədi. Danışdığı yerdə bir də görürsən, başını elə ehtiyatla tuturdu ki, elə bil kövrək bir şüşə qabdır, bu dəqiqə düşüb qırılacaq. Elə ona görə də sən gedəndə talvarın önündəki taxta döşəmənin üstündə uzanıb qalmışdı.

***

– Ana, mətbəxdə iş görmək xoşuna gəlir? – deyə soruşanda anan nə demək istədiyini başa düşmədi.

– Yəni mətbəx işlərini sevirsən? Yemək bişirmək xoşuna gəlir?

Bir anlığa ananla göz-gözə gəldiniz.

– Həmişə yemək bişirməli olduğuma görə qazan asmışam. Bişirmişəm ki, qarnınız doysun, məktəbə gedə biləsiniz. İnsan ancaq xoşladığı işləri görməz axı... Elə şeylər var ki, istəsən də, istəməsən də, eləməlisən.

– Yəni xoşlayırsan mətbəxdə işləməyi, ya yox?

Anan sirrini açırmış kimi o yan-bu yana baxıb pıçıltıyla dedi:

– Küplərin qapaqlarını o qədər qırmışam ki....

– Küplərin qapağını?

– Mətbəxin işi qurtarmaq bilmir. Biri var, yazda toxum əkəsən, payızda biçəsən. İspanaq toxumu əksən, ispanaq, qarğıdalı əksən, qarğıdalı götürərsən. Di gəl ki mətbəx işinin nə əvvəli var, nə axırı. Səhər yeməyini hazırlayırsan, günorta olur, onu yola verirsən, axşam düşür. Səhər açılanda yenə eyni şey təkrar olunur. Heç olmasa, fərqli yeməklər hazırlaya bilsəydim, bu

Telegram: @cinciva

qədər bezməzdim. Tarlada həmişə eyni şeylər əkirik deyə eyni şeyləri də bişiririk. Hər gün eyni işləri görməkdən adam cana doyur. Bəzən elə sıxılırdım ki, özümü mətbəxdə yox, həbsxanada hiss edirdim. Belə vaxtlarda arxa həyətə keçib yöndəmsiz qapaqlardan birini götürür, var gücümlə divara çırpırdım. Bibinin bundan xəbəri yoxdu. Yoxsa elə bilərdi ki, dəli olmuşam.

Anan dedi ki, sonra qırdığı qapaqlarının yerinə gedib təzələrini alırdı. "Pulu heyif eləyirdim. Təzə qapaq almağa gedəndə israfçılıq elədiyimçün özümə acığım tuturdu. Amma qırmasam da, olmurdu. Qapaq qırılanda çıxan səs var ha, o, mənə dərman kimi gəlirdi. Çox rahatlayırdım".

Anan barmağını dodaqlarının üstünə gətirib "Şşş!" dedi. Yəni bir daş altda, bir daş üstdə. Sonra qımışdı:

– Bunu ancaq sən bilirsən ha. Yemək bişirməyə həvəsin yoxdursa, qabdan-zaddan qır. Bir az heyfin gələcək, amma rahatlayassan. Hələ subaysan, bəlkə də, ona görə ev işlərindən bezməmisən.

Dərin bir ah çəkdi:

– Siz balaca olanda hər şey elə yaxşı idi ki! Başımı qaşımağa vaxtım olmurdu, amma sizin süfrəyə oturub yeməyi qaşıqlamağınızdan ləzzət alırdım. Qarnınız doyanda elə bil dünyalar mənim olurdu. Hamınız ağıllı uşaqlar idiniz. Adi qabaqlı lobya şorbası bişirəndə belə sevinirdiniz. Balıq bişirəndə gözünüz gülürdü. O qədər yeyirdiniz ki, siz böyüdükcə yemək çatdıra bilməməkdən qorxmağa başlamışdım. Bir qazan kartof qaynadıb qoyurdum ki, məktəbdən gələndə yeyəsiniz. Gəlib görürdüm, qazanın dibi görünür. Anbarda çəltik qablarında saxlanan düyü günü-gündən azalırdı. Bir də baxırdım ki, qabların dibində bir dənə də düyü qalmayıb. Axşam yeməyini bişirmək üçün anbara düşüb qaşığı qabın içinə salanda dibinə dəyirdi. Sabah balalarıma nə bişirəcəm deyə çox narahat olurdum. O

Telegram: @cinciva

vaxtlar mətbəxdə işləməyi xoşlayıb xoşlamadığımı fikirləşmək heç ağlıma da gəlməzdi. İri bir qazan aşla bir balaca şorba bişirib fikirləşəndə ki, balalarım yeyəcək, yorğunluğumu unudardım. Bəlkə də, indi dediklərimi çox başa düşmürsən. O vaxt yemək tapmaq çox çətin idi. Hamı bir tikə yemək tapıb acından ölməməyə çalışırdı.

Anan gülümsəyərək o günlərin həyatının ən gözəl günləri olduğunu dedi. Amma qəfil başlayan şiddətli ağrı üzündəki gülüşü qovdu. Ağrılar canına kəskin bıçaq kimi batır, iti dişli tarla siçanları kimi bədənini içəridən gəmirirdi.

***

Elan hazırlayan adamın əynində köhnə pambıq paltar var idi. Bir az diqqətlə baxan əynindəki paltarın səliqə ilə tikildiyini anlayardı. Onun həmişə köhnə pambıq paltarlar geyindiyini görmüşdün, amma bu dəfə, nədənsə, gözünü çəkə bilmirdin.

Adam ananın başına gələnləri eşitmişdi. Verdiyin məlumatlar əsasında elanları hazırlayıb bir iş yoldaşının tanıdığı mətbəədə tezliklə çap elətdirməyi öz boynuna götürmüşdü. Ananızın yaxın vaxtlarda çəkdirdiyi şəkli olmadığı üçün qardaşının internetə qoyduğu ailə şəklinizi elana qoymağa qərar verdiniz. Adam ananın şəklinə baxıb:

– Ananız gözəl qadındır, – dedi.

Sən də birdən paltarlarının çox gözəl olduğunu dedin. Adam gülümsəyib:

– Bunları mənimçün anam tikib, – dedi.

– Ananız sağdır?

– Sağlığında tikib.

Balaca vaxtından allergiyası olduğu üçün ancaq pambıq paltarlar geyinə bilirmiş. Başqa parçalar dərisinə qaşınma salırmış. Uşaqlıqdan anasının tikdiyi pambıq paltarları geyinə-

Telegram: @cinciva

geyinə böyüyən bu adam anasını həmişə tikiş tikərkən xatırladığını dedi. Onun alt paltarından corablarına qədər hər şeyi anası tikirmiş.

Dedi ki, anası vəfat edəndə dolabında o qədər pambıq paltar tapıb ki, ömrünün axırına qədər ona bəs edər. O gün geyindikləri də anasının dolabından çıxan paltarlardan imiş. Anasının necə qadın olduğunu təsəvvür etmək istəyirdin. Ona qulaq asdıqca ürəyin xarab olurdu. Əziz anasından danışan adama: "Sizcə, ananız xoşbəxt idi?" – deyə sual verdin. Adam nəzakətlə cavab verməyə çalışdı, amma üzünə elə bir ifadə çökdü ki, elə bil anasını təhqir eləmişdin.

– Anam bugünkü qadınlardan çox fərqli idi, – dedi.

Telegram: @cinciva

Telegram: @cinciva

# II fəsil

## Bağışla məni, Hun Çol!

Bir qadın əl elanlarından birini götürüb üstündəki şəklə diqqətlə baxdı. Özü də anasının həmişə Hun Çolu gözlədiyi saatlı qüllənin altında.

Hun Çol Seulda qalmağa yer tapandan sonra onu görməyə gələn anası vağzalda qatardan elə görkəmdə düşərdi ki, görən elə bilərdi, o, var-yoxunu yığıb qaçmış immiqrantdır. Başının üstünə qoyduğu, çiyinlərindən asdığı, əllərində tutduğu boğçalar azlıq eləyirmiş kimi, bir səbət də belinə atardı. Bu yüklə necə hərəkət eləyirdi, çox maraqlıdır. İmkan olsa, ayaqlarına da badımcandan, balqabaqdan bağlayıb gətirərdi. Cibləri qəzet kağızına bükülmüş ya kal bibərlərlə, ya qabığı soyulmuş şabalıdlarla, ya da təmizlənmiş sarımsaqlarla dolu olardı.

Hun Çol nə vaxt anasını qarşılamağa gəlsə, onun yükünü görüb, bu qədər şeyi təkbaşına necə gətirdiyinə məəttəl qalardı. Üzü qızarıb-pörtmüş anası isə çantaların arasında ətrafa baxa-baxa onu gözləyərdi.

Qadın çəkinə-çəkinə Hun Çola yaxınlaşdı, anasının elandakı şəklini göstərib dedi:

– Bağışlayın, deyəsən, bu qadını "Yonqsan 2-donq" biznes mərkəzinin qabağında görmüşəm.

Telegram: @cinciva

Bacısının hazırladığı elanda anası ürəkdən gülümsəyirdi. Əynində mavi bir hanbok vardı.

Qadın:

– Əynində başqa paltar var idi, amma gözləri çox tanış gəlir. Gözləri yaxşı yadımdadır, dürüst və səmimi baxışları var idi, – dedi. Sonra yenə şəklə baxıb əlavə etdi, – ayağı yaralı idi.

Qadının dediyinə görə anası ayağına mavi rezin səndəllər geyinmişdi. Yəqin, səndəlin qaytanı baş barmağının dərisini kəsib, yeriməkdən də yara açılıbmış. Qadın milçəklərin iltihablanmış yaranın üstünə qonduğunu, anasının da əsəbiləşib əli ilə onları qovmağa çalışdığını dedi. Ayağındakı yara, güman ki, onu çox incidirmiş, amma anası heç nə olmamış kimi sakitcə oturub biznes mərkəzinin binasına baxırmış. Bütün bunlar bir həftə əvvəl baş vermişdi.

Bir həftə əvvəl?!

Hun Çol bilmədi ki, qadının dediklərindən nə nəticə çıxarsın. O gedəndən sonra yenə də elanları paylamağa davam elədi.

Bütün ailə üzvləri elanları hara gəldi yapışdırmaqla və paylamaqla məşğul idi. Seul metro stansiyasından Namyonq-Donqdakı restoranlara, paltar dükanlarından kitab dükanlarına, ta internet klublara qədər hər yerə elan verirdilər. Namünasib bir yerə yapışdırdıqları elanı kimsə cırıb atardısa, yerinə təzəsini vururdular. Elanları Seul metrosunun həndəvərində yaymaqla kifayətlənmir, mümkün qədər çox adama verib Namdaemun, Cahunqnim-donq, hətta Sodeamun kimi yerlərə də yaymağa çalışırdılar.

Qəzetə verdikləri elandan bir səs-soraq çıxmadı, ancaq əl elanlarını görüb zəng edənlər oldu. Analarına oxşayan qadını bir restoranda gördüklərini dedilər. Onlar da dərhal ora yollandılar. Anaları yaşda olan həmin qadın, sən demə, restoranın işçisi imiş. Zəng edənlərdən biri ananı evinə apardığını

Telegram: @cinciva

dedi və evin ünvanını verdi. Hamı həyəcanla ora getdi, amma ünvan saxta çıxdı.

Bir dəfə də bir nəfər zəng eləyib beş milyon von istədi, əvəzində söz verdi ki, analarını tapıb gətirəcək. Amma belə zənglər cəmi iki həftə davam etdi. Get-gedə də azaldı.

Ailə üzvləri tələşlə ora-bura yorta-yorta Seul vağzalındakı saatlı qüllənin yanına çatanda nə qədər çarəsiz olduqlarını başa düşdülər.

Adamlar əl elanlarını alan kimi əzib yerə atırdılar. Yazıçılıqla məşğul olan bacısı kağızı götürüb düzəldir, sonra da başqasına verirdi.

Bacısı cibləri, çantası elanla dolu halda Seul metro stansiyasına gəlib Hun Çolun yanında dayandı. İfadəsiz baxışlarını Hun Çolun gözlərinə zillədi. Hun Çol bir az əvvəl yaxınlaşan qadının dediklərini danışandan sonra:

– "Yonqsan 2-donq" tərəfə gedib oralara baxaq? – deyə soruşdu.

Bacısı çarəsiz halda:

– Anam niyə ora getsin ki? Sonra gedərik, – dedi.

Ucadan:

– Bu, bizim anamızdır. Elanları əzib atmazdan əvvəl bircə dəfə baxsanız, çox sevinərik, – deyib elanları gəlib-keçənlərə uzadırdı.

Hər dəfə təzə kitabı çap olunanda gündəlik qəzetlərdən birinin mədəniyyət səhifəsində şəkli çıxan bacısını heç kim tanımırdı. Hun Çol fikirləşirdi ki, dərdini ucadan deyə-deyə elanları vermək daha təsirli olar. Çünki kimə elan verirdisə, adamın elanı almağıyla əzib atması bir olurdu. Amma bacısının verdiyi elanları heç kim yerə tullamırdı.

Uşaqlarının evlərindən başqa, anasının şəhərdə gedəsi yeri

Telegram: @cinciva

yox idi. Onları narahat edən əsas məsələ də elə bu idi. Başqa gedəsi yerləri olsaydı, orada axtarardılar, şəhəri qarış-qarış gəzməzdilər. Bacısı: "Anam niyə ora getsin axı?" – deyə soruşanda Hun Çolun yadına düşmədi ki, şəhərə təzə gələndə elə ilk iş yeri həmin biznes mərkəzində olub. Çünki o vaxtdan hardasa otuz il keçmişdi.

Külək sərin-sərin əsməyə başlamışdı, amma Hun Çolun alnı puçur-puçur tər olmuşdu. Əlli yaşını bir neçə il əvvəl haqlamış Hun Çol tikinti şirkətində satış şöbəsinin müdiri idi.

Şənbə olduğu üçün iş günü deyildi. Amma anası itməmiş olsaydı, çox güman ki, Sonqdodakı eksperimental mənzilə gedəcəkdi. Şirkət yaxında istifadəyə veriləcək yaşayış kompleksindəki mənzillərə son alıcıları cəlb etməklə məşğul idi. Hun Çol gecə-gündüz əlləşib-vuruşub bütün mənzilləri satmağa çalışırdı. Bütün yazı reklam kampaniyalarının təşkili ilə, peşəkar mankenlərin yerinə ev xanımlarını reklama çəkməklə keçirmişdi. O günlərdə evə gecə yarısından tez gəlmirdi. Bütün günü eksperimental evin tikintisiylə və müxbirləri qarşılamaqla məşğul idi. Bazar günləri isə adətən Sokço, ya da Hoenqsonqdakı qolf kurslarına gedən şirkət rəhbərləri və varlı iş adamlarını müşayiət edirdi.

– Hun Çol! Anamız itib!

Bir yay günü qardaşının telefondakı təlaşlı səsi onun gündəlik həyatını alt-üst etmişdi. Sanki ehtiyatsızlıqdan nazik buz qatını tapdayıb sındırmışdı.

Atasıyla anasının qardaşgilə getmək üçün metro stansiyasına getdiklərini, qatara minərkən atasının anasından ayrı düşdüyünü eşidəndə belə anasının itkin düşdüyünü ağlına gətirməmişdi. Qardaşı polisə xəbər verdiyini deyəndə Hun Çol məsələni çox şişirtdiyini düşünmüşdü.

Telegram: @cinciva

Bir həftə keçəndən sonra özü qəzetə elan verib xəstəxanaların təcili yardım şöbələrinə zəng eləmişdi. Hər gecə ailə üzvləri qruplara ayrılıb evsiz-eşiksizlərin gecəqondularını axtarmağa gedirdi. Seul vağzalında qatara minə bilməyən anaları elə bil iynə olub yoxa çıxmışdı. Hun Çol az qala atasından soruşacaqdı ki, bəlkə, heç anasını Seula gətirməyib? On gün, sonra iki həftə keçdi. Bir ay oldu. Hun Çol və bütün ailə üzvləri çarəsiz halda nə edəcəklərini bilmirdilər.

Hun Çol elanları bacısına verdi:

– Mən gedirəm ora baxmağa.

– Hara? Yonqsana?

– Hə.

– Səncə, orda olar?

– Seula gələndə ilk dəfə orda qalmışdım.

Hun Çol bacısına gözdə-qulaqda olmağı tapşırıb getdi. Bir xəbər olsa, zəng edəcəkdi. Əslində, bunu deməyə ehtiyac yox idi. Əvvəllər telefona yaxın getməyən bacısı artıq üçüncü zəngdən əvvəl telefonu açırdı. Hun Çol taksi dayanacağına doğru addımladı.

Otuz yaşlarında olan bacısı Çi Hon hələ də ailə qurmamışdı. Anası ona görə çox narahat olurdu. Bəzən səhərin gözü açılmamış zəng eləyib: "Hun Çol! Tez Çi Honun evinə get, nə özü zəng eləyir, nə də telefonu götürür. Bir aydır, səs-soraği gəlmir", – deyirdi. Hun Çol bacısının ya yazılarını yazmaq üçün təkbaşına qalmaq istədiyini, ya da səfərdə olduğunu deyəndə anası evinə gedib baxması üçün israr edirdi: "Bacın təkdir. Xəstələnər, ya da hamamda yıxılıb qalar. Bəlkə, ayağa qalxmağa heyi yoxdur..."

Hun Çol tək yaşayan bir adamı gözləyən fəlakətlərə qulaq asa-asa istər-istəməz şübhələnməyə başlayırdı. Anası o qədər təkid edirdi ki, səhər işə yola düşməmiş, ya da nahar fasiləsin-

Telegram: @cinciva

də gedib bacısına dəyəcəyinə söz verirdi. Evə çatıb qapının ağzına yığılmış qəzetləri görəndə başa düşürdü ki, Çi Hon şəhərdə deyil. Sonra qəzetləri yığıb zibil qutusuna atırdı. Qapıda qəzet, ya da süd qutuları görməyəndə bacısının evdə olduğunu başa düşüb açanacan qapının zəngini basırdı. Çi Hon üstü-başı dağınıq halda deyinə-deyinə qapını açırdı: "Nə lazımdır?"

Bir dəfə Hun Çol qapının zəngini basanda bir nəfər yaxınlaşmışdı. Ehtimal ki, o da Çi Hondan xəbər tutmağa gəlmişdi. Hun Çol ağzını açıb ondan kim olduğunu soruşmağa macal tapmamış adam ona: "Çi Hona elə çox oxşayırsınız ki, kim olduğunuzu soruşmağa belə ehtiyac yoxdur", – demişdi. Çi Hon qəfil tefefon əlaqəsini kəsdiyi üçün o da narahat olub ondan bir xəbər bilməyə gəlmişdi.

Hun Çol bacısının səfərə çıxdığını, yaxud da evdə sağ-salamat olduğunu deyəndə anası dərin köks ötürürdü: "Ölsə, xəbərimiz olmayacaq". Sonra da nəylə məşğul olduğunu soruşurdu. Bacısı roman yazırdı. Buna görə də bəzən on beş gün, bəzən də bir ay heç kimlə əlaqə saxlamırdı. Hun Çol: "Hər dəfə nəsə yazanda mütləq itib-batmalısan?" – demişdi bir gün. Bacısı burnunun altında mızıldanmışdı: "Yaxşı, yaxşı, gələn dəfə anama zəng eləyərəm". Daha bu barədə danışmamışdılar.

Anan yenə də Çi Honu əvvəlki kimi itirib axtarsa da, qardaşları ilə onun arasındakı uçurum get-gedə dərinləşirdi. Bir neçə dəfə Hun Çol anasının həmişəki xahişini eşitməzliyə vurandan sonra anası daha ona ağız açmadı. Ancaq bircə dəfə şikayət elədi ki, deyəsən, daha anana qulaq asmağa vaxtın yoxdur. Çi Hon qəfil yoxa çıxmaq adətindən əl çəkmədiyinə görə Hun Çol fikirləşirdi ki, yəqin, qardaşlarından biri anasına bacısı haqqında məlumat verir. Anası itkin düşəndə bacısı demişdi ki, bəlkə də, bu, mənim cəzamdır...

Seul metro stansiyası ilə Sook-myunq qız universiteti arasında böyük bir tıxac var idi. Hun Çol maşının pəncərəsindən

Telegram: @cinciva

hündür boz binalara baxırdı. Gəlib-keçənlərə də fikir verirdi ki, birdən anası da o izdihamın içində olar.

Taksi sürücüsü universitetin qabağından Yonqsan mərkəzinə tərəf dönəndə: "Yonqsan 2-donq" mərkəzinə demişdiniz də?" – deyə ünvanı dəqiqləşdirmək istədi. Hun Çol onu eşitmədi.

– Cənab?

– Bəli?

– "Yonqsan 2-donq" biznes mərkəzi lazım idi, hə?

– Hə, hə.

İyirmi yaşı olanda bu yolu hər gün piyada gedib gəlirdi, amma taksidən gördüyü mənzərə ona heç tanış gəlmirdi. "Görəsən, düz gedirik?" – deyə fikirləşirdi. Hərçənd buralar ötən otuz ildə heç dəyişməmiş olsaydı, daha çox təəccüblü olardı.

– Bu gün şənbə olduğu üçün, bəlkə də, biznes mərkəzi bağlıdır.

– Bilirəm.

Sürücü ağzını açıb nəsə deyəcəkdi ki, Hun Çol cibindən bir elan çıxarıb ona uzatdı:

– Maşın sürəndə, yolda bu qadına oxşayan bir adam görsəniz, xahiş edirəm, mənə xəbər verin, – dedi.

Sürücü elana baxıb soruşdu:

– Ananızdır?

– Hə.

– Dəhşətli hadisədir...

Keçən payız bacısı zəng edəndə demişdi ki, anaları özünü çox qəribə aparır. Amma Hun Çol buna görə heç bir tədbir görməmişdi. Yaşlanmış anasının bəzi narahatçılıq və xəstəliklərinin olmasında qeyri-adi heç nə görmürdü. Bacısı təşviş içində

Telegram: @cinciva

anasının şiddətli baş ağrılarına görə huşunu itirdiyini demişdi. Hun Çol evlərinə zəng edəndə anasının sevinclə: "Hun Çol!" – dediyini eşitdi.

– Ana, sənə nəsə olub?

Anası gülə-gülə:

– Bizim kimi iki qocaya nə olacaq? Bizə görə narahat olmayın. Siz özünüzdən muğayat olun, – demişdi.

– Seula, bizə gəlin də.

– Yaxşı, gələrik.

Qardaşı Hun Çolun laqeydliyini görüb özündən çıxan Çi Hon bir gün iş yerinə gedib anasının beyin analizlərini hirslə qardaşının önünə atmışdı. Sonra həkimin dediklərini danışmışdı. Anasının beyin qansızması keçirtdiyini, özünün bundan xəbəri olmadığını demişdi. Hun Çol sakitcə qulaq asanda bacısı dözməyib qardaşının düz gözlərinin içinə baxmışdı:

– Hun Çol! Sən, doğrudan, Yun Hun Çolsan?

– Amma anamız hər şeyin yaxşı olduğunu dedi. Niyə bu qədər narahatsan?

– Sən də inandın, hə? Nə vaxt soruşsaq, yaxşı olduğunu deyir. Sən də bilirsən ki, belə demək onun adətidir. Onu da yaxşı bilirsən ki, anam sənə yük olmaq istəmədiyi üçün belə deyir.

– Niyə yük olsun ki?

– Mən hardan bilim? Niyə onun sənə yük olduğunu hiss etdirirsən?

– Mən neyləmişəm ki?

– Anam neçə vaxtdır ki, sənə yük olmaqdan qorxur. Sən də bunu çox yaxşı bilirsən. Cavab ver görək! Niyə həmişə səndən söz düşəndə anam özünü günahkar hiss edir?

***

Telegram: @cinciva

Otuz il əvvəl beşinci dərəcəli dövlət qulluğu imtahanından keçib "Yonqsan-2 donq" biznes mərkəzində ilk işinə başlamışdı. Orta məktəbi bitirəndən sonra Seuldakı ali məktəblərdən heç birinə qəbul olmamasına anası inana bilməmişdi. Necə inansın axı? Hun Çol ibtidai sinifdə də, yuxarı siniflərdə də həmişə sinif birincisi olmuşdu. Universitetə imtahan verənədək elə bir imtahan yox idi ki, birinci olmasın. Altıncı sinifdə ən yüksək bal yığdığına görə yuxarı sinifləri pulsuz oxumuşdu. Üç il boyunca ən çalışqan şagird seçildiyi üçün məktəbə bir qəpik də pul verməmişdi. Son siniflərdə də birinciliyini davam etdirirdi. Anası həmişə fəxrlə deyirdi ki, kaş bircə dəfə də Hun Çolun təhsil haqqını ödəmək ona qismət olaydı. Yuxarı siniflərdə həmişə əla oxuyan bir şagirdin ali məktəbə qəbul ola bilməməsi ağılasığan deyildi. Yüksək bal yığmaması bir yana, imtahanı belə keçə bilməməsi anasına yaman təsir eləmişdi. Anası: "O imtahanı sən keçə bilmədinsə, daha kim keçəcək", – deyə mızıldanmışdı.

Hun Çol universitetdə də yaxşı oxuyub birinciliyi davam etdirməkdə qərarlı idi. Qərar deyəndə, əslində, birinci olmaqdan başqa çarəsi yox idi. Universitetdə ancaq ödənişsiz oxuya bilərdi. İmtahandan kəsildiyi üçün başqa yol seçməli oldu. Növbəti il imtahan verə bilməzdi. Ona görə də: iki dövlət qulluğu imtahanına girdi, ikisindən də keçdi. Beləcə, evdən ayrılıb ilk işinə başladı.

Bir neçə ay sonra öyrəndi ki, Seulda gecə növbəsi olan bir hüquq kolleci var. Ora müraciət etmək istədi. Amma orta məktəb attestatı lazım idi. Attestatın surətini almaq üçün müraciət etsəydi, poçtla kənddən gələnədək qeydiyyat müddəti qurtarmış olardı. Ona görə də tez atasına bir məktub yazıb attestatının surətini götürməsini, avtovağzala gedib Seula gələn bir adamla göndərməsini xahiş etdi. Bir də yazdı ki, sənədi yollayan kimi onun iş yerinə zəng edib xəbər versin. Avtobusun

Telegram: @cinciva

Seula çatacağı vaxtı öyrənə bilsəydi, sənədi gətirən adamla görüşüb götürə bilərdi. Amma atasından bir xəbər çıxmadı.

Gecənin bir vaxtı səhər hüquq kollecinə necə sənəd verəcəyini fikirləşirdi ki, qapısı bərk döyüldü. O, gedəcək yeri olmadığı üçün işçilərin qaldığı otaqda gecələyirdi. Qapı elə döyülürdü ki, elə bil bu dəqiqə yerindən çıxacaqdı. Hun Çol qapını açanda qarşısında cavan bir adam dayanmışdı.

– Bu, sizin ananızdır?

Soyuqdan tir-tir titrəyən anası arxada durmuşdu. Hun Çol özünə gəlib nəsə deməyə fürsət tapana kimi anası: "Hun Çol, mənəm, ananam!" – dedi. Cavan oğlan saatına baxıb dedi ki, komendant saatının başlamasına yeddi dəqiqə qalıb. Sonra Hun Çolun anasına baxdı, "Salamat qalın!" – deyib qaranlıqda gözdən itdi.

O gün atası evdə yox imiş. Hun Çolun bacısı məktubu anasına oxuyandan sonra anası tez-tələsik məktəbə getmiş, attestatın surətini götürüb qatara minmişdi. Ömründə birinci dəfə idi ki, qatara minirdi. Seul vağzalında gəlib-keçənlərdən "Yonqsan-2 donq"un yolunu soruşanda həmin cavan adam eşitmişdi. Anası oğluna vacib bir sənəd apardığını deyəndə adam ona kömək etmək qərarına gəlmişdi.

Anasının ayağında qışın ortasında mavi rezin səndəllər var idi. Payızda biçin vaxtı dəryazla ayaq barmağını kəsmişdi. Ayağı tam sağalmadığı üçün səndəldən başqa, heç nə geyə bilmirdi.

Anası səndəllərini çöldə çıxarıb növbətçi otağına keçdi. Cibindən attestatın surətini götürüb: "Bilmirəm, vaxtında çatdıra bildimmi?" – dedi. Əlləri soyuqdan donmuşdu. Hun Çol anasının əllərindən bərk-bərk yapışıb özünə söz verdi ki, nəyin bahasına olursa-olsun bu əllərin sahibini xoşbəxt edəcək. Amma nə qədər minnətdar olduğunu demək əvəzinə anasını

Telegram: @cinciva

tanımadığı adama etibar eləyib arxasına düşüb gəldiyi üçün danladı. Anası da ona acıqlandı:

– Heç kimə inanmadan yaşamaq olar? Bu dünyada yaxşılar pislərdən daha çoxdur.

Sonra da həmişəki kimi şirin-şirin gülümsədi.

***

Hun Çol bağlı olan iş yerinin qarşısında dayanıb diqqətlə binaya baxa-baxa düşünürdü ki, anası buracan gələ bilibsə, demək, uşaqlarının evinə də gedə bilər. Qadın anasının mavi rezin səndəllər geydiyini demişdi. Mavi rezin səndəllər... Birdən Hun Çolun ağlına gəldi ki, axı anası itəndə ayağındakı səndəllər süd rəngdə imiş. Atası elə demişdi. Ama o qadın anasının mavi səndəllərin, güman ki, çox gəzməkdən ayağının dərisini kəsdiyini söyləmişdi. Biznes Mərkəzinin yan-yörəsinə, sonra da Posonq Qız məktəbinə və Eunsonq kilsəsinə gedən küçələrə nəzər saldı.

Görəsən, köhnə iş yerindəki növbətçi otağı hələ də durur-du? Həmin otaqda neçə il əvvəl anasıyla bir adyala bürünüb yatmışdı. Oğluna məktəb attestatının surətini gətirmək üçün Seul qatarına minən qadının yanında uzanmışdı o gün. Yəqin ki, axırıncı dəfə anasının yanında o gün yatmışdı.

Küçəyə baxan divardan otağa soyuq gəlirdi. Anası onunla yerini dəyişib:

– Divarın yanında daha rahat yatıram, – demişdi.

Hun Çol da:

– Yelçəkən tutacaq səni, – deyib çantasını və kitablarını divarın önünə yığmışdı.

Səhər geydiyi paltarları da divarın qabağına qoymuşdu. Anası onun əlindən dartıb:

Telegram: @cinciva

– Dəymə, yaxşıdır, – demişdi, – Keç yat, səhər durub işə getməlisən.

Anasının yanında uzanıb tavana baxa-baxa:

– Seul xoşuna gəldi? – deyə soruşmuşdu.

– O qədər də pis deyil, – gülümsəmişdi anası.

Sonra keçmiş günlərdən söz salmışdı:

– Sən mənim ilkimsən. Səninlə çox şeyi ilk dəfə gördüm. Mənə yaşatdığın hər şey ilk oldu. Bətnimə ilk düşən sən oldun. İlk əmizdirdiyim də sənsən. Mən sənin yaşında olanda sən anadan olmuşdun. Qıpqırmızı üzünü, yumulu gözlərini birinci dəfə görəndə...Hamı ilk uşağını görəndə çox həyəcanlandığını, çox sevindiyini deyir, amma mən kövrəlmişdim. "Bu uşaq, doğrudan, mənimkidir? Mən buna necə baxacam?" demişdim. Özümü itirmişdim, balaca barmaqlarına bilmirdim, necə toxunum. Barmaqlarını möhkəm-möhkəm sıxmışdın. Bir-bir onları aralayıb yumruğunu açanda üzümə gülmüşdün... Barmaqların o qədər balaca idi ki, elə bilirdim, əl dəyəndə itəcək. O vaxtlar heç nədən başım çıxmırdı. Ərə gedəndə on yeddi yaşım var idi, on doqquzda hamilə qalmışdım. Bibin həmişə deyirdi ki, heç vaxt uşağım olmayacaq. Sənə hamilə qaldığımı biləndə ilk ağlıma gələn şey o oldu ki, daha bibinin tikanlı atmacalarını eşitməyəcəm. Buna görə çox sevinmişdim. Barmaqlarının günü-gündən böyüdüyünü gördükcə sevincim yerə-göyə sığmırdı. Yorulan kimi tez yanına gəlib yumruğunu açar, ayaq barmaqlarına toxunardım. Belə elədikcə elə bil mənə güc gəlirdi. İlk dəfə sənə ayaqqabı geyindirəndə çox həyəcanlanmışdım. Hələ ilk addımlarını atıb üstümə gələndə elə sevinmişdim ki, o anda qabağıma yığın-yığın qır-qızıl, daş-qaş tökülsəydi, o qədər sevinməzdim. Səni ilk dəfə məktəbə yola salanda nə hislər keçirdiyimi bilirsən? Üstündə adın yazılmış döş nişanını yaxana taxanda, dəsmalını cibinə qoyanda özümü lap böyük adam

Telegram: @cinciva

kimi hiss eləmişdim. Günbəgün ayaqlarının möhkəmləndiyini gördükcə keçirdiyim fərəh hissini heç nəylə dəyişməzdim. Hər gün "Boy at, böyü, mənim balam" deyə mahnılar oxuyurdum sənə. Bir də gördüm ki, böyüyüb məni də keçmisən.

Anasının etiraflarını eşidən Hun Çol dönüb ona baxdı. Anası da ona tərəf çönüb saçlarını sığallamağa başladı.

– Hər gün ucaboy və güclü oğlan olması üçün dua etdiyim doğmaca balamın yekəlib məni də keçdiyini görəndə lap içimə qorxu düşmüşdü.

Hun Çol yüngülcə boğazını arıtlayıb ağladığını sezdirməmək üçün üzünü tavana tərəf çevirdi.

– O biri uşaqların əksinə sənə "filan işi gör" deməyə ehtiyac yox idi. Nəyi necə eləyəcəyini özün bilirdin. Yaraşıqlı idin, dərslərinə yaxşı hazırlaşırdın. Sənինlə fəxr edirdim. Hərdən özümözümə məəttəl qalırdım ki, bu uşağın anası, doğrudan, mənəm? Səndən başqa, kiməsə görə təkbaşına Seula gələrdim heç?

O vaxt Hun Çol özünə söz verdi ki, işləyib çoxlu pul qazanacaq, anası gələn dəfə gələndə onu rahat bir evdə qarşılayacaq, bir daha soyuqda yatırmayacaq. Bir az keçəndən sonra anası astadan: "Hun Çol!" – dedi. Hun Çol yarı yuxulu idi. Anasının səsi elə bil uzaqdan gəlirdi. Anası əlini uzadıb onun başını sığalladı. Sonra dikəlib yuxuya gedən oğluna baxdı, əli ilə onun alnına toxundu. "Bağışla məni", – deyib gözünün yaşını silmək istədi. Ancaq göz yaşları çoxdan oğlunun yanağına damcılamışdı.

Hun Çol səhər tezdən oyananda anası yeri süpürürdü. Nə qədər elədisə, bir yerdə oturmadı. "Qoy eləyim, heç olmasa bir işə yarayım", – dedi. Elə bil iş görməsəydi, kimsə onu danlayacaqdı. Yerləri sildi, masaların tozunu aldı. Soyuqdan ağzından buxar çıxırdı. Yaralı ayağı mavi səndəlin içində şişmişdi. Qəlyanaltı üçün yaxınlıqda cücərmiş soya şorbası bişirilən

Telegram: @cinciva

yeməkxananın açılmağını gözləyənədək iş yerini gül kimi eləmişdi.

***

O ev hələ də dururdu. Anasını axtara-axtara iki tərəfi də maşınlarla dolu, daracıq küçələrdən keçəndə günəş batmaq üzrə idi. Birdən otuz il əvvəl bir mənzilini kirayələdiyi evi gördü. Heyrətlə əlini uzadıb evin darvazasına toxundu. Darvazanın yuxarısında eynilə otuz il əvvəl olduğu kimi, oxa oxşayan iti dəmir çıxıntılar var idi. Bir vaxtlar onu sevən, sonra atıb gedən qadın Hun Çol evdə olmayanda Çin kökələri ilə dolu torbanı darvazadan asardı. Ətrafdakı köhnə evlərin yerində indi alçaq mərtəbəli bina evləri və studiya mənzillər[12] var idi.

O, darvazaya asılmış elanı oxudu:

İlkin ödəniş 10 milyon von olarsa, aylıq ödəniş 100 000 von.

İlkin ödəniş 5 milyon von olarsa, aylıq ödəniş: 150 000 von.

8 pyonqluq[13], sadə çanaqlı və duşlu vanna otağı.

İdmanla məşğul olanlar üçün əla yer olan Namsana yaxın.

Kanqnama 20 dəqiqə, Çonqnoya 10 dəqiqəlik məsafədə.

Nöqsanları: Hamamı kiçikdir. Bu çox da vacib deyil. Hamamda yaşamayacaqsınız ki!

Yonqsanda belə ucuz ev çətin taparsınız.

Köçməyimin səbəbi: Təzə maşın almışam, saxlamağa yer yoxdur.

Xahiş edirəm, ya mesaj yazın, ya da məktub göndərin. Makler xərci çıxmasın deyə özüm kirayə verirəm.

Hun Çol telefon nömrəsinə və elektron poçt ünvanına baxıb yavaşca darvazanı itələdi. Davaza eynilə otuz il əvvəlki kimi

12. Studiya mənzil – yataq otağı, qonaq otağı və mətbəxi bir yerdə olan geniş, birotaqlı mənzil.
13. Pyonq – 3.3 kvadratmetrlik Koreya ölçü vahidi.

Telegram: @cinciva

açıldı. İçəri boylandı. Mənzillərinin qapısı ümumi həyətə açılan U formalı ev heç dəyişməmişdi. Otuz il əvvəl yaşadığı mənzilin qapısına qıfıl asılmışdı.

Hun Çol:

– Evdə kim var? – deyə səsləndi.

İki-üç qapı açıldı. Qısa saçlı iki qadınla on yeddi yaşlarında iki cavan oğlan ona tərəf baxdılar. Hun Çol həyətə girdi.

Əvvəlcə elanı qadınlara uzadıb: "Bu qadını görmüsüz?" – deyə soruşdu. Sonra elanı qapını bağlayan oğlanlardan birinin əlinə verdi. Hun Çolun içəri baxdığını düşünən oğlanlar qapını çırpıb bağladılar.

Çöldən evin görüntüsü otuz il əvvəlki kimi idi. Amma arasını açıb studiya mənzillər düzəltmişdilər. Yəqin, ev sahibləri mətbəxlə otağı birləşdirib mənzillərin dizaynını dəyişmək istəmişdilər. Hun Çol qadınların qaldığı mənzilin bir küncündə bir qabyuyan çanaq olduğunu gördü.

Qadınlar: "Yox, görməmişik", – deyib elanı geri qaytardılar. Gözlərindən yuxu tökülürdü. Yəqin, Hun Çol gələndə gözlərinin acısını almaq üçün uzanıbmışlar. Hun Çol dönüb darvazaya sarı gedəndə onun arxasınca baxdılar. Çölə çıxırdı ki, oğlanlardan biri qapını açıb: "Dayanın! – deyə qışqırdı, – Məncə, bu, bir neçə gün əvvəl evin qabağında oturan yaşlı qadındır".

Hun Çol otağa yaxınlaşanda o biri oğlan başını çölə çıxardı:

– Yox, o deyil. Bu şəkildəki xanım cavandır. O gün gördüyümüzün sifəti qırış-qırış idi. Saçı da belə deyildi. Məncə, o, dilənçi idi.

– Amma gözləri eynidir. Gözlərinə bax, o qadının da gözləri belə idi, elə deyil? Onu tapsaq, doğrudan, bizə beş milyon von verəcəksiniz?

Telegram: @cinciva

– Gördüklərini başdan-ayağa mənə danışsan, onu tapmasan da, sənə pul verəcəm.

Hun Çol gəncləri çölə çağırdı. İçəridə dayanan qadınlar qapını açıb onlara baxırdılar.

– O qadın yolun aşağısındakı barda qalır. Ağlını itirdiyinə görə onu çölə buraxmırlar. O gün nə təhərsə ordan çıxıb yolunu azmışdı. Barın sahibi də gəlib onu apardı.

– Yox e, mən onu demirəm. Bu elandakı qadını da görmüşəm. Ayağı yara olmuşdu. İrinləmişdi. Milçəkləri qovurdu... Amma onu yaxından görmədim. Ondan pis iy gəlirdi, həm də üst-başı kir içində idi.

– Sonra nə oldu? Hara getdiyini gördün?

– Yox. İçəri keçdim. Qadın içəri keçmək istəyirdi, mən də darvazanı bağladım.

Başqa heç kim anasını görməmişdi. Oğlan: "Düz deyirəm, onu görmüşəm!" – deyə-deyə Hun Çolun arxasınca küçəyə çıxdı. Ondan qabağa keçib ara yollara boylandı. Hun Çol ona yüz min vonluq bir çek yazdı. Oğlanın gözləri parıldadı. Ondan xahiş elədi ki, bir də həmin qadını görsə, içəri aparsın və ona zəng etsin. Oğlan onun xahişinə düz-əməlli qulaq asmadı: "Onda beş milyon von verəcəksən?"

Hun Çol başı ilə "hə" dedi. Oğlan elanlardan yenə istədi. Bunları yarım gün işlədiyi yanacaq doldurma məntəqəsinə vuracağını dedi. Həm də dedi ki, əgər bu elanlarla anası tapılsa, ona beş milyon vonu verməlidir. Hun Çol da razılaşdı.

Hun Çol növbətçi otağında oğlunu soyuqdan qorumaq üçün "Divarın yanında daha rahat yatıram" deyib onunla yer dəyişdirən anası üçün özünə verdiyi sözlərin üstündə durmamışdı.

Cibindən bir siqaret çıxarıb dodaqlarının arasına qoydu. Vaxtını dəqiq xatırlamasa da, həyatının hansısa nöqtəsindən başlayaraq əvvəlki duyğu və düşüncələrindən uzaqlaşmışdı. Artıq anasını düşünmədən də yaşaya bilirdi.

Telegram: @cinciva

"Anam atamla qatara minə bilməyib, tanımadığı metro stansiyasında təkbaşına qalanda mən harda idim, görəsən?" Bir daha köhnə iş yerinə baxandan sonra arxaya dönüb yoluna davam etdi. "O vaxt mən nəylə məşğul idim?" Başını salladı.

Anası itməmişdən əvvəlki gecə iş yoldaşlarıyla yeyib-içməyə getmişdilər, amma məclisin axırı yaxşı qurtarmamışdı. Həmişə oturuş-duruşunu bilən iş yoldaşı Kim bir-iki qədəhdən sonra "Çoxbilmiş" deyib altdan-altdan Hun Çola atmaca atmağa başlamışdı.

Hun Çol İnçondakı, Kim isə Yonqindəki mənzillərin satışına baxırdı. Kim Hun Çolun mənzilləri görməyə gələnlərə həvəsləndirici hədiyyə kimi konsert bileti vermək təklifinə sataşırdı. Əslində, o fikir Hun Çola yox, yazıçılıqla məşğul olan bacısına aid idi.

Çi Hon qardaşıgilə gələndə gəlinləri ona son mənzillərin satışında hədiyyə kimi verilən hamam ayaqaltısından birini vermək istəmişdi. Bacısı da: "Doğrudan, şirkətlər belə şeylərlə müştəriləri cəlb edəcəyinə inanır?" – demişdi.

Hun Çol: "Bəs, səncə, nə versək, daha yaxşı olar?" – deyə soruşmuşdu.

– Bilmirəm, amma, məncə, belə şeylər yadda qalmır. Nə bilim, məsələn, avtoqələm ola bilər? Bir fikirləş, arvadına ad günündə mətbəx əşyası alsan, sevinər? Bir mənzilə baxmağa gedəndə əlinə hamam ayaqaltısı verilsə, o qədər də yadında qalmaz. Şəxsən mənə bir kitab, ya da bir kino bileti versəydilər, çox həyəcanlanardım, unutmazdım, elə o hədiyyəni verəni də... Səncə, düz demirəm?"

Bacısı gedəndə gəlinlərinin hədiyyə elədiyi ayaqaltını özüylə aparmamışdı.

Bir həftə sonra iclasda işçilərdən biri həvəsləndirici hədiyyə məsələsindən söz açmışdı. Hun Çolun təklifini hamı bəyəndi.

Telegram: @cinciva

O günlərdə orta yaşlı insanların çox sevdiyi bir müğənninin silsilə konset təşkil eləməsi də lap yerinə düşmüşdü. Hun Çol gedib bir xeyli bilet aldı. Şirkət müdiri də bu təklifi çox bəyənmişdi. Yəqin, elə müdir özü də həmin müğənninin pərəstişkarı idi. Aparılan sorğu konsert biletlərindən sonra şirkətin daha da məşhurlaşdığını göstərirdi. Əslində, aparılan sorğunun həvəsləndirici hədiyyələrlə birbaşa əlaqəsi yox idi. Amma nəticədə Sonqdodakı mənzillərin hamısı bir-bir satıldığı halda, Kim Yonqində mənzillərin cəmi altmış faizini sata bilmişdi.

Kim ona söz atanda Hun Çol əvvəlcə zarafata salıb gülmüşdü. Satışdakı artımın biletlərlə çox da əlaqəsinin olmadığını demişdi. Kim bir az da içəndən sonra yenə onu iynələdi: "Ağlını başqa yöndə istifadə etsəydin, çoxdan baş prokuror olmuşdun". O, Hun Çolun hüquq kollecinə getdiyini və vəkillik imtahanına hazırlaşdığını bilirdi. Kim bir az da həddini aşıb: "Yonsey ya da Koryo universitetini də bitirməmisən. Şirkətdə necə qabağa gedirsən, başa düşmürəm", – demişdi. Şirkətdəki vəzifəli adamların çoxu bu iki universitetin məzunları idi. Axırda Hun Çol dözməmiş, dostunun qədəhindəki içkini yerə boşaldıb məclisdən çıxmışdı.

Səhər həyat yoldaşı demişdi ki, qızları Çini görməyə gedəcək, ona görə də Seul metro stansiyasında valideynlərini qarşılaya bilməyəcək. Hun Çol valideynlərinin qabağına tək çıxmaq qərarına gəlmişdi. Atası əvvəlcə təzə evə köçən kiçik oğlunu görmək istəyirdi. Hun Çol onları vağzalda qarşılayıb qardaşıgilə aparacaqdı. Amma işə çatanda gördü ki, canına üşütmə gəlir, başı ağrıyır. Onsuz da, atası tapşırmışdı ki, gəlməsin, özü yolu tapar... Hun Çol Seul vağzalına getmək əvəzinə yaxınlıqdakı saunaya üz tutdu. O gün adətən çox içdiyi gecələrin səhərində getdiyi saunada puçur-puçur tər tökəndə atası anasından ayrı düşüb qatara minmək üzrə idi.

***

Telegram: @cinciva

Hun Çol balaca olanda anası atasıyla dalaşıb evdən getmişdi. O da qarşısına məqsəd qoymuşdu ki, anasını evə qaytarmaq üçün prokuror olacaq.

Bir yaz günü kəndin hər yerində çiçəklər açanda atası evə ətirli kirşan qoxan, ağ bənizli bir qadın gətirmişdi. Qadının ön qapıdan girməyi ilə anasının arxa qapıdan çıxmağı bir olmuşdu.

Hun Çolun soyuq qəlbini yumşaltmağa çalışan qadın hər səhər yeməyində ona qayğanaq bişirərdi. Hun Çol qadının səliqə ilə hazırladığı yemək çantasını götürüb ildırım sürətilə evdən çıxar, sonra da arxa həyətdəki iri küplərin üstünə atıb məktəbə gedərdi. Bacı-qardaşları isə Hun Çol görməyəndə xəlvətcə yemək çantalarını götürüb özləri ilə məktəbə aparardılar.

Dumanlı bir səhər Hun Çol bacı-qardaşlarını qəbiristanlığın yaxınlığındakı bir çayın yanına çağırmışdı. Çiçəkləmiş salxım söyüd ağacının dibinə bir quyu qazıb hamıya tapşırmışdı ki, yemək çantalarını ora basdırsınlar. Qardaşı çantasını götürüb qaçmaq istəyəndə Hun Çol ona bir yumruq ilişdirmişdi. Bacıları isə dinməz-söyləməz yemək çantalarını quyuya tullamışdılar.

Hun Çol elə bilirdi ki, qadın daha onlara yemək hazırlamayacaq. Amma o da, eləmə tənbəllik, qəsəbədən təzə yemək çantaları alıb gətirdi. Təzələr əvvəlki kimi sarıtəhər alüminiumdan deyildi. Plovu isti saxlayırdı. Uşaqlar təəccübdən ağzıaçıq qalıb, qorxa-qorxa çantalara toxundular. Qadın günorta yeməyini hazırlayıb gətirəndə uşaqlar Hun Çola baxdılar. Hun Çol yemək qabını eyvanın bir küncünə qoyub məktəbə yollandı. Uşaqlar da o gözdən itənə qədər gözlədilər, sonra da yeməklərini götürüb getdilər.

Anası kimdənsə eşidib bilmişdi ki, oğlu məktəbə yemək gətirmir. Ona görə də bir gün məktəbə gəldi. Evinə günü gəlməyindən on gün keçmişdi.

Telegram: @cinciva

Hun Çol göz yaşları içində: "Anacan!", – deyib qışqırdı.

Anası onu məktəbin arxa tərəfindəki təpəyə çıxartdı. Şalvarının balaqlarını çırmaladıb yumşaq baldırlarına çubuqla o ki var vurdu.

– Niyə yemək yemirsən? Elə bilirsən, sən yemək yeməsən, mən yaxşı olacam?

Hun Çol, onsuz da, sözünə qulaq asmayan bacı-qardaşından çox çəkmişdi, indi də başa düşmürdü ki, anası onu niyə döyür. Hirsindən boğulurdu. Anasının niyə belə hirsləndiyini anlamırdı.

– De görüm, yeməyini gətirəcəksən, ya yox?

– Yox!

– Ay səni...

Anası onu bir az da möhkəm döyməyə başladı. Hun Çol heç cınqırını da çıxarmadı. Anası get-gedə taqətdən düşdü. Hun Çol isə qaçmaq əvəzinə sakitcə dayanıb ağrı çəkirdi.

– Bəs indi necə?

Baldırları qıpqırmızı qızaran Hun Çol: "Gətirməyəcəm!" – deyə qışqırdı.

Anası, axır ki, çubuğu bir kənara atdı, "Ay səni höcət Hun Çol!" – deyib hönkürə-hönkürə ağlayaraq onu qucaqladı. Bir azdan sakitləşib oğlunu şirin dillə yola gətirməyə çalışdı. Dedi ki, kim bişirir, bişirsin, fərqi yoxdur, yeməyini yeməlidir. Yeməsə, o daha çox fikir çəkəcək.

Fikir çəkmək! Hun Çol bu sözü anasından birinci dəfə idi, eşidirdi. Vaxtlı-vaxtında yemək yesə, anası niyə daha az fikir çəkəcək? Əslində, ona elə gəlirdi ki, həmin qadının bişirdiyi yeməkləri yesə, anasının daha çox qanı qaralar. Çünki ona görə evdən getmişdi. İndi anası deyirdi ki, əgər Hun Çol yeməyini yeməsə, o çox pis olacaq. Hun Çol heç nə başa düşmürdü, am-

Telegram: @cinciva

ma onun fikir çəkməyini də istəmirdi. Könülsüz də olsa: "Yaxşı, yeyəcəm", – dedi.

Anasının yaşlı gözləri gülümsədi:

– Afərin oğluma!

– Sən də söz ver ki, evə qayıdacaqsan!

Anası duruxdu:

– Evə qayıtmaq istəmirəm.

– Niyə? Niyə ki?

– Bir də atanın üzünü görmək istəmirəm.

Hun Çolun göz yaşları yanaqlarını islatdı. Anası elə danışırdı ki, elə bil, doğrudan da, heç vaxt evə qayıtmayacaq. Bəlkə də, elə ona görə möhkəm-möhkəm tapşırırdı ki, kim bişirir, bişirsin, yeməklərini yesin. Hun Çol təşvişə düşdü.

– Anacan, nə istəsən, eləyərəm, sahədə, çəltik tarlalarında işləyərəm, həyəti təmizləyərəm, su daşıyaram. Düyü təmizləyərəm, ocaq qalayaram. İstəsən, lap siçanları da tutaram, bayram üçün toyuq da kəsərəm. Təki sən qayıt.

Bayram olanda, ya da ayinlər keçiriləndə anası Hun Çolun atasına, ya da ailədəki kişilərdən birinə yalvar-yaxar eləyib bir toyuq kəsdirirdi. Leysandan sonra tarlalara gedib bütün günü qırılan lobya şaxlarını düzəldən, atası içib kefli olanda az qala onu belində evə gətirən, ağıldan qaçan heyvanları çomaqla vura-vura geri qaytaran anası bir toyuğu da kəsə bilmirdi.

Anası Hun Çolun çaydan tutduğu diri balıqlara toxunmazdı. Siçan tutma günlərində məktəbdən uşaqlara tapşırırdılar ki, sübut olaraq tutduqları siçanın quyruğunu kəsib məktəbə gətirsinlər. Hamının anası siçanın quyruğunu kəsər, bir kağıza büküb uşağının əlinə verərdi. Hun Çolun anası isə bu haqda eşitmək belə istəmirdi. Düyü götürmək üçün anbara enəndə orada siçan gördümü, qışqıra-qışqıra çölə çıxırdı. Anası tələş

Telegram: @cinciva

içində anbardan çıxıb qaçanda bibisi ona tərs-tərs baxıb donquldanırdı.

Hun Çol siçanları tutub, toyuqları kəsəcəyinə söz versə də, anası evə qayıtmağa razı olmadı.

– Mən böyük adam olacam.

– Nə olacaqsan?

– Prokuror olacam.

Anasının gözləri parıldadı:

– Prokuror olmaq üçün çox oxumalısan. Nə qədər oxumalı olduğunu təsəvvür edə bilməzsən. Mən bir nəfər tanıyıram, o da prokuror olmaq istəyirdi. Gecə-gündüz oxusa da, bacarmadı, axırda ağlını itirdi.

– Sən qayıtsan, mən çox oxuyacam...

Anası onun həyəcanlı gözlərinə baxıb gülümsədi:

– İnanıram. Sən bacararsan. Birinci dəfə "A-na" deyəndə heç yüz günlük deyildin. Heç kim sənə yazıb-oxumağı öyrətməmişdi, məktəbə gedən kimi yaxşı oxudun, sinfin birincisi oldun.

Dərindən bir ah çəkdi:

– Sən evdə qala-qala mən niyə çıxıb getdim? Niyə səni fikirləşmədim?

Anası oğlunun qançır olmuş baldırlarına baxdı, aşağı əyildi:

– Min belimə, gedək evimizə.

Beləcə anası həmin gün axşama yaxın evə qayıtdı. Mətbəxdəki qadını qovub yemək bişirməyə başladı. Həmin qadınla Hun Çolun atası başqa evə köçəndə anası qollarını çırmalayıb düz onların qaldıqları evə getdi, sobanın üstündəki aş qazanını götürüb çaya boşaltdı. Anası Hun Çola verdiyi sözdən sonra onlara meydan oxuyurdu. Bütün bunlara dözə bilməyən Hun Çolun atası həmin qadınla bir yerdə kənddən köçəsi oldu. Elə həmin gün anası Hun Çolu çağırıb dizinin dibinə oturtdu. Hun

Telegram: @cinciva

Çol hələ də anasının onları atıb gedəcəyindən qorxurdu. Sakit-sakit soruşdu:

– Bu gün nə qədər dərs oxumusan?

Hun Çol əla qiymət aldığı imtahan kağızını çıxarıb göstərəndə anasının sönük baxışları canlandı. Əvvəlcə imtahan kağızına diqqətlə baxdı. Müəllim düzgün cavabları qırmızı qələmlə dairəyə almışdı. Sonra oğlunu bərk-bərk qucaqladı.

– Canım oğlum!

Atasının evdə olmadığı müddətdə anası Hun Çolu əməlli-başlı ərköyünləşdirdi. Atasının velosipedini sürməyə icazə verdi. Kişinin döşəyini altına sərib, üstünə də onun adyalını atdı. Xörəyi atasının plov kasasında verməyə başladı. Yeməyi ən birinci onun qabağına qoydu.

O biri uşaqlar yeməyə əl uzadanda: "Qardaşınız hələ qaşığı əlinə almayıb", – deyib onların üstünə acıqlanırdı. Həyətdə qurutduğu yarım kasa küncütü səyyar meyvə satıcısına verib üzüm alar, onu da oğluna verərdi. O biri uşaqlarına da: "Bu, qardaşınızındır!" – deyərdi. Hər dəfə belə lütflər eləyəndə: "Sən prokuror olmalısan", – deyə verdiyi sözü Hun Çola xatırladardı.

Hun Çol isə fikirləşirdi ki, anası evdən getməsin deyə mütləq prokuror olmalıdır.

O payız anası ilk dəfə atasının köməyi olmadan düyü yığdı, təmizlədi, qurutdu. Səhər tezdən tarlaya gedib dəryazla çəltikləri biçdi, düyüləri təmizləyib qurutmaq üçün günəşin altına sərdi. Evə ancaq hava qaralanda gəlib çıxırdı. Hun Çol kömək eləmək istəyəndə: "Sən get, dərslərini oxu", – deyib onu yenə oxumağa göndərərdi. Bazar günləri hava sərin olanda düyüləri yığıb qutarandan sonra anası uşaqlarını götürüb təpəliklərə yeralması yığmağa gedərdi. Amma ona dərslərinin üstündən qalxmağa izin verməzdi. Ailə hava qaralana yaxın qızılı-qəhvəyi yeralmalarıyla dolu arabayla evə qayıdardı. Evdə qalıb

Telegram: @cinciva

dərs oxumaq istəyən, amma anasının məcbur yeralması yığmağa apardığı kiçik qardaşı quyunun yanına gedib dırnaqlarının arasına dolan torpağı təmizləyəndə:

– Ana! Hun Çol o qədər vacibdir? – dedi.

– Hə!

Anası oğluna ikinci sualı soruşmağa imkan verməyib bir şapalaq ilişdirdi.

– Onda bizə ehtiyacın yoxdur?

Oğlanın üzü soyuqdan qıpqırmızı olmuşdu.

– Yox! Sizə ehtiyacım yoxdur!

– Daha biz də gedək atamızın yanına.

– Necə? – Anası bir şapalaq da vuracaqdı ki, əlini saxladı, – Əlbəttə, sən də vacibsən, hamınız mənim üçün vacibsiniz. Gəlin görüm yanıma, mənim əziz balalarım.

Hamısı bir yerdə gülüşməyə başladılar. İşığı yanan otaqda oturub dərs oxuyan Hun Çol quyunun başına yığışan ailəsinin söhbətini eşidib gülümsədi.

Anasının nə vaxtdan gecələr həyət qapısını açıq qoyduğunu dəqiq xatırlamırdı. Sonralar anası səhər hamıya plov çəkəndə atasının kasasını da doldurub üstünü bir dəsmalla örtər, otağın ən isti yerinə qoyardı.

Atası evdə olmadığı günlərdə Hun Çol dərsləri ilə daha çox məşğul olurdu. Anası da həmişəki kimi imkan vermirdi ki, əlini ağdan-qaraya vursun. Həyətə gün altına sərdiyi bibərləri yağış yağanda yığmadıqları üçün o biri uşaqlara acıqlanıb üstlərinə qışqırar, Hun Çolun dərs oxuduğu yadına düşən kimi, tez səsini alçaldardı. O vaxtlar anasının üzü həmişə yorğunluqdan və fikirdən qırış-qırış olardı. Hun Çol dərsini hündürdən oxuyub öyrənməyə başladımı, anasının üzü də işıqlanardı. Onun otağına girəndə qapını yavaşca açıb-örtərdi. Otağa bir

Telegram: @cinciva

qab pörtlənmiş yeralması ya da xurma qoyub gəldiyi kimi səssizcə çıxardı.

Soyuq və qarlı bir qış gecəsi atası açıq qapıdan həyətə girib astadan öskürdü, ayaqqabılarını çıxarıb qarını təmizləmək üçün divara vurdu, sonra evin qapısını açıb içəri keçdi. O gecə hava elə şaxtalı idi ki, soyuqdan hamı bir otağa yığışıb yatmışdı. Hun Çol yarıaçıq gözləri ilə atasının bir-bir bütün uşaqların başına sığal çəkib onlara baxdığını gördü. Sonra anasının evin ən isti küncünə qoyduğu plov kasasını süfrəyə qoyduğunu, mətbəxdən perilla yağında qızardılmış dəniz yosunu gətirib plovun yanına çəkdiyini, sonra da atasıyla bir kəlmə belə kəsmədən stolun üstünə bir fincan da düyü həlimi qoyduğunu gördü. Anası özünü elə aparırdı ki, sanki atası yayda onları atıb getməyib, şaxtalı bir gündə də suyu süzülə-süzülə geri qayıtmayıb, adi bir iş gününün sonunda işdən çıxıb evə gəlib.

***

Hun Çol məktəbi bitirib indi işlədiyi şirkətin qəbul imtahanından keçəndə anası heç sevinmədi. Qonum-qonşu gəlib Hun Çolu böyük bir şirkətə işə girdiyi üçün təbrik eləyəndə də üzü gülmədi. Hun Çol ilk maaşı ilə adət-ənənəyə uyğun olaraq qalın pijama dəsti[14] alıb evə gələndə anası onun hədiyyəsinə gözünün ucu ilə də baxmadı. Soyuq bir ifadə ilə:

– Nə oldu, bəs prokuror olacaqdın?! – dedi.

Hun Çol isə iki il işləyib pul yığacağını, sonra yenə imtahana girəcəyini dedi.

***

Hun Çol keçmişdə olanları bir-bir götür-qoy edir və anlayırdı ki, o vaxtlar anası onun həm bir kişi, həm də insan kimi möhkəm və iradəli olması üçün çalışırmış.

---

14. Koreya adətinə görə bir koreyalı ilk maaşından valideynlərinə uzun qollu köynəklə şalvardan ibarət pijama dəsti almalıdır.

Telegram: @cinciva

***

Anası orta məktəbi yenicə bitirən bacısını da şəhərə, Hun Çolun yanına gətirib qoyandan sonra tez-tez Hun Çoldan üzr istəyirdi. Bacısı yanına gələndə Hun Çolun iyirmi dörd yaşı vardı. Hüquq imtahanına girmək üçün hələ lazımi qədər pul yığa bilməmişdi. Anası özünü oğluna borclu hiss edir, onunla göz-gözə gəlməkdən çəkinirdi.

– Qız uşağıdır, gərək mütləq oxusun, – dedi. – Bilmirəm, amma onu burada oxutmalısan. İstəmirəm, onun da taleyi mənimki kimi olsun.

Anası Seula gələndə onlar saatlı qüllənin önündə görüşmüşdülər. Kəndə qayıtmazdan əvvəl Hun Çola şorba və aş çəkmişdi. Öz qabındakı ət tikələrini çıxarıb oğlunun kasasına qoymuşdu. Hun Çol nə qədər desə də, hamısını yeyib qurtara bilməyəcək, anası ona qulaq asmamış, yenə də ətləri seçib oğlunun qabına yığmışdı. Yemək yeməyi anası təklif etsə də, özü bir loğma da almamışdı.

Hun Çol: "Sən ac deyilsən?" – deyə soruşmuşdu. Anası "Yeyirəm də" deyib ətləri onun kasasına yığmağa davam etmişdi. "Bəs sən... Bu işlərin öhdəsindən necə gələcəksən?" Anası şorba dolu qaşığı kasaya qoymuşdu:

– Hamısı mənim ucbatımdan oldu. Bağışla məni, Hun Çol.

Seul vağzalında geri qayıtmaq üçün qatar gözləyəndə anası dırnaqları dibindən kəsilmiş qabarlı əllərini axıracan cibinə salıb dayanmışdı. Gözləri dolmuşdu. Hun Çol anasının gözlərinin məsum bir uşağın gözləri kimi saf və dürüst olduğunu düşünmüşdü.

***

Hun Çol Seul vağzalında hələ də ondan xəbər gözləyən bacısına zəng vurdu. Axşama az qalmışdı. Bacısı telefonda onun səsini eşidəndə susdu, yəqin, ondan bir xəbər eşitmək istəyir-

Telegram: @cinciva

di. Elanlara ailə üzvlərinin hamısının nömrələri yazılsa da, ən çox bacısına zəng gəlirdi. Çox vaxt da zəng edib səhv məlumat verirdilər. Hətta biri zəng eləyib "Axtardığınız qadın indi yanımdadır" demiş, ünvanı söyləmişdi. Bacısı tez bir taksiyə minib zəng edən adamın dediyi piyada keçidinin yanına getmişdi. Çatanda qabağına nəinki bir qadın, lül-qəmbər bir kişi çıxmışdı. Adam o qədər sərxoş idi ki, kimsə sürütləyib aparsaydı, heç xəbəri də olmazdı.

– Burda da yoxdur, – Hun Çol bacısına telefonda dedi.

Bacısı bayaqdan tutduğu nəfəsini verdi:

– Bir anlıq elə bildim ki... Əlimdə hələ bir az da elan var.

– Gəlim səni də götürüm, bir yerdə oturub yemək yeyək.

– Ac deyiləm.

– Onda nəsə içərik.

– İçmək? – Bacısı yenə susdu, – Yokçonq-donqdakı "Sobu" marketin qabağında Sobu apteki varmış, ordan zəng elədilər. Zəng eləyən adam oğlunun gətirdiyi əl elanını görüb. İki gün əvvəl anamıza oxşayan bir nəfəri Yokçonq-donqda gördüyünü dedi... Amma həmin qadının ayağında mavi rezin səndəllər var imiş. Qadının, ehtimal ki, çox gəzməkdən ayağında yaralar açıldığını, yaraların iltihablanıb dırnaqlarına qədər irinlədiyini dedi. Adam onun ayağına bir az dərman sürtüb...

Mavi səndəllər? Hun Çolun qolları boşaldı, az qala telefon əlindən düşəcəkdi.

– Qardaş?

Hun Çol telefonu yenə qulağına tutdu:

– Ora gedirəm. Sən də gəlirsən?

–Hara, Yokçonqa?

– Əvvəl qaldığımız yerə yaxın olan "Sobu" marketi deyirsən?

– Hə.

Telegram: @cinciva

– Yaxşı.

Hun Çol bir yandan evə getmək istəmir, bir yandan da bilmirdi ki, bacısını görəndə ona nə desin. Bacısına zəng edəndə bircə onu fikirləşirdi ki, evə getməsin. Deməli, Yokçonq! Hun Çol taksi çağırmaq üçün əlini qaldırdı.

Heç nə başa düşə bilmirdi. O günədək neçə adam zəng eləyib anasına oxşayan mavi rezin səndəl geyinmiş bir qadın gördüklərini demişdi. Çox qəribə idi ki, hamı həmin qadını Hun Çolun indiyə kimi qaldığı yerlərə yaxın ərazilərdə görmüşdü. Kaebonq-donqda, Taerim-donqda, Oksu-donqda, Tonqsunq-donqdakı Naksan binalarının önündə, Suyu-donqda, Sinqil-donqda və Çonqnunqda. Şahidlərin bəziləri anasını üç gün əvvəl, bəziləri də bir həftə əvvəl gördüklərini söyləmişdilər. Hətta onu itkin düşdüyü vaxtdan bir ay əvvəl gördüyünü deyənlər belə var idi.

Hun Çol tutarlı bir xəbər öyrənən kimi ya özü tək, ya uşaqlardan biriylə, ya da atasıyla bir yerdə deyilən yerə gedirdi. Hamı gördüm desə də, Hun Çol heç yerdə anasına bənzəyən mavi səndəlli bir qadına rast gəlməmişdi. Anasını gördüyünü deyən adamlara qulaq asandan sonra həmin məhəllədəki bir işıq direyinə, parkdakı ağaca, ya da bir telefon budkasına elan vurmaqdan başqa əlindən heç nə gəlmirdi. Əvvəllər qaldığı yerlərdən keçib getdikcə bir vaxtlar yaşadığı evlərin içinə boylanırdı.

Hun Çol harda qalır qalsın, anası heç vaxt onun evinə təkbaşına gəlməmişdi. Həmişə ailə üzvlərindən biri onu ya Seul metro stansiyasında, ya da "Ekspress" avtovağzalında qarşılayardı. Seula çatanda kimsə onu gedəcəyi yerə qədər ötürərdi. Kiçik oğlugilə gedəndə o, qızıgilə gedəndə isə qızı gəlib aparardı. Düzü, bunu heç kim heç vaxt deməsə də, niyəsə hamı elə bilirdi ki, anaları şəhərdə təkbaşına heç yerə gedə bilməz. Ona görə də ana Seulda harasa getsə, həmişə yanında kimsə olardı.

Telegram: @cinciva

Hun Çol ancaq qəzetə elan verəndən və elanlarını paylayandan sonra fərqinə vardı ki, ogünədək Seulun düz on iki məhəlləsində qalıbmış.

Qamətini dikəldib irəli baxdı. İlk mənzilini Yonkçonq-donqda almışdı.

"Bir neçə gündən sonra Məhsul bayramı olacaq"... Taksi ilə Yonkçon-donqa gedəndə bütün yol boyu bacısı əsəbi halda dırnaqlarını bir-birinə sürtdü. Hun Çolun da ağlından eyni şeylər – bayram haqqında fikirlər keçirdi. Boğazını arıtlayıb qaşlarını çatdı.

Məhsul bayramı bir neçə gün çəkəcəkdi. Qəzetlərin yazdığına görə bu il bayram tətilini xaricdə keçirənlərin sayı həmişəkindən çox olacaqdı. Halbuki, yaxın vaxtlara qədər bayram tətilində xarici ölkələrə gedənləri qınayırdılar. İndi isə hamı utanmaz-utanmaz: "Ey əcdadlarımız, narahat olmayın, tezliklə qayıdacağıq" deyib özlərini verirlər hava limanına. Əvvəllər insanlar bayram ayinlərini bayram üçün kiraladıqları mənzillərdə keçirəndə narahat olurdular ki, görəsən, əcdadımızın ruhu gəlib bizi tapa biləcək, ya yox. İndi isə hamı imkan düşən kimi bir təyyarəyə minib xaricə getməyə çalışır.

O günün səhəri qəzet oxuyan Hun Çolun arvadı o il bir milyon adamın bayramı xaricdə keçirəcəyini demişdi.

Hun Çol münasibət bildirmişdi:

– Adamlarda pul var da.

Arvadı da mızıldanmışdı:

– Bayramda burda qalanın ağlı yoxdur.

Hun Çolun atası sakitcə onlara baxmışdı. Gəlinin sözü yarımçıq qalmışdı:

– Uşaqlar deyir ki, dostları bayramda ailələriylə xaricə gedəcəklər. Kaş biz də gedə biləydik.

Telegram: @cinciva

Hun Çol tərs-tərs ona baxmışdı. Qadın yenə dillənmişdi: "Uşaqlardı da, belə şeylərə fikir verirlər". Atası süfrədən qalxıb otağına keçmişdi.

Hun Çol hirsindən:

– Dəlisən, nəsən? – demişdi, – Heç yeri idi?

Arvadı ürəyini boşaltmışdı:

– Bura bax. Mən sənə uşaqların dediyini dedim. Demədim ki, məni harasa apar. Uşaqların dediklərini də danışa bilmərəm? Lap dəli eləyirsən adamı. Ağzımı açmağa da icazə almalıyam.

O da süfrədən qalxıb getmişdi.

Çi Hon:

– Bayram ayinlərini keçirsək, daha yaxşı olar, hə? – deyə soruşmuşdu.

– Nə vaxtdan ayinləri fikiləşən olmusan? Bayramlarda heç evdə tapılırsan ki?! Məhsul bayramı indi yadına düşüb?

– Düz deyirsən, səhv eləmişəm. Gərək əvvəllər keçirəydik.

Bacısı dırnaqlarını bir-birinə sürtməyi buraxıb əllərini cibinə qoydu. O hələ də bu vərdişini tərgidə bilməmişdi.

***

Hun Çol Seulda bacısı və qardaşıyla bir yerdə qalanda hamısı bir otaqda yatırdılar. Bacısı divarın yanında, özü ortada, qardaşı isə o biri divara yaxın yatırdı. Hun Çol, demək olar, hər gecə üzünə dəyən şillə ilə oyananda qardaşının əlini üzündə görərdi. Yavaşca qardaşının əlini çəkərdi. Gecənin bir aləmində bacısının zərbəsini sinəsində hiss edərdi. Otaqda gah o yana, gah bu yana dönüb bir təhər yatardılar. Halbuki, bu, evlərinin ən böyük otağı idi.

Bir gecə gözünün üstündən aldığı yumruq zərbəsindən Hun

Telegram: @cinciva

Çolun qışqırığı aləmi götürmüşdü. Uşaqlar səsə oyanmışdılar.

– Ay səni!

Handan-hana nə baş verdiyini başa düşən bacısı əllərini pijamasının cibinə salıb tələşlə qardaşına baxmışdı.

– Bir daha belə edəcəksənsə, çıx get evinə!

Səhər bacısı şey-şüyünü də yığıb anasının yanına getmişdi. Anası qardaşının əlinə-ayağına düşüb üzr istəməsi üçün onu Seula gətirmişdi. Amma bacısı höcətliyindən üzr istəməmişdi.

Anası nə qədər: "Üzr istə", – demişdisə də, tərsliyindən əl çəkməmişdi.

Əslində, bacısı həlim xasiyyətli idi. Amma bir şeyi beyninə qoydumu, heç kim onu fikrindən döndərə bilməzdi.

Bir dəfə orta məktəbdə oxuyanda Hun Çol idman ayaqqabılarını bacısına zorla yudurtmaq istəmişdi. Adətən dinməz-söyləməz qardaşının ayaqqablarını yuyan Çi Honun o gün yenə tutması tutmuşdu. Qardaşının çirkli ancaq təptəzə ayaqqabılarını götürüb çaya atmışdı. Hun Çol ayaqqabıların dalınca bir xeyli qaçmışdı.

Sonralar həmin ayaqqabı məsələsini yada salanda xeyli gülüşsələr də, o gün Hun Çolun gülməyə halı olmamışdı. Hun Çol palçığa bulaşmış ayaqqabının bir tayı ilə evə qayıtmışdı. Gələn kimi də bacısından anasına şikayət eləmişdi. Anası atəşkeşi[15] əlinə alıb qızın canına düşmüş, bu murdar xasiyyəti kimdən öyrəndiyini soruşmuşdu. O isə üzr istəməmiş, əksinə anasının üstünə bozarmışdı: "Yumaq istəmirəm, vəssalam! Ona demişdim ki, yumayacam. Bundan sonra ürəyim istəməyən heç nəyi etməyəcəm!"

15. Atəşkeş – sobada odunu, kömürü qarışdırmaq üçün oda davamlı uzun metal alət.

Telegram: @cinciva

Anası inadkar qızını birtəhər yola gətirməyə çalışmışdı ki, qardaşları ilə bir yerdə qalsınlar: "Qardaşından xahiş elədim ki, səni bağışlasın. Burda sənin böyüyün odur. Hər dəfə qardaşın bir söz deyən kimi şey-şüyünü yığıb getsən, həyatını məhv edərsən. Ərə gedəndə də bir söz eşidən kimi şələ-küləni götürüb evdən çıxacaqsan?"

Anası qardaşından üzr istəməsini təkid etdikcə bacısı əllərini cibinə salıb daha da tərsləşmişdi. Anası kor-peşman: "Bu uşaq heç sözümə qulaq asmır. Kasıb, cahil qadın olduğum üçün sözüm də keçmir..." demişdi. Anasının yanıqlı sözləri göz yaşlarına dönəndə bacısı: "Ay ana, problem bu deyil axı", – demişdi. Anası ağlamasın deyə: "Yaxşı, yaxşı, üzr istəyəcəm ondan", – deməyə məcbur olmuşdu. Sonra əllərini cibindən çıxarıb qardaşından üzr istəmişdi. O gündən sonra həmişə əllərini cibinə salıb yatardı. Qardaşı nə vaxt üstünə qışqırsa, tez əllərini cibinə keçirərdi.

Anaları itəndən sonra başlarına gələn bu kiçik əhvalatı yadlarına salanda bacıları səhvini boynuna alıb: "Səhv eləmişəm, kaş ki elə eləməyəydim" – deyirdi.

***

Çi Hon soruşdu:

– Evin pəncərələrini kim siləcək?

– Nə pəncərə?

– Axır vaxtlar haçan zəng eləyirdim, anam pəncərələri silirdi.

– Niyə?

– Deyirdi ki, Məhsul bayramında qohum-əqrəba hamısı bizə gələcək, pəncərələri kirli görməsinlər.

Kənddəki evin aynabəndi Hun Çolun gözünün qabağına gəldi. Köhnə evdən fərqli olaraq bir neçə il əvvəl tikilmiş təzə

Telegram: @cinciva

evin hər otağında pəncərə var idi, qonaq otağında lap çox idi. Köhnə evin bircə pəncərəsi var idi, o da otağın qapısında idi.

"Gəl bir adam tutaq, pəncərələri təmizləsin" deyəndə etiraz edərdi: "Kimdi təmizlik üçün bu kənd-kəsəyə gələn?"

Çi Hon dərin bir ah çəkib maşının şüşəsini sildi.

– Yadındadır, biz balaca olanda həmişə bu vaxtlar anam evin qapılarını sökərdi.

– Hə, yadımdadır.

– Doğrudan, yadına gəlir?

– Dedim axı hə.

– Yalan deyirsən.

– Niyə yalan deyim? Yadımdadır. Hətta qapıların üstünə ağcaqayın yarpaqları da yapışdırardı. Bibim də ona görə həmişə deyinərdi.

– Yadında qalıbmış. Bəs bibimgilə ağcaqayın yarpaqları yığmağa getməyimiz necə, yadına düşür?

– Hə, o da yadımdadır.

***

Hələ təzə ev tikilməmişdi. Məhsul bayramı yaxınlaşanda havanın xoş olduğu bir gün anası evin qapılarını söküb çıxarardı. Onları suyla yuyub günəşdə qurudar, sonra da özü hazırladığı yapışqanı çəkib tut ağacından hazırlanmış yarışəffaf kağız üzlüyü qapılara yapışdırardı. Qurumaq üçün həyətə düzülən qapıları görəndə Hun Çol başa düşərdi ki, Məhsul bayramına az qalıb.

O vaxtlar evdə o qədər adam ola-ola heç kim qapıya təzə üzlük çəkən anasına kömək eləmirdi. Səbəbini bilmirdi. Bacısı barmağını maye yapışqana batırıb anasının yanında özü üçün oynayardı. Anası da lap əsl mürəkkəb sənətkarının səhləb çiçəyi çəkməsi kimi, fırçanı əlinə alıb cəld hərəkətlərlə yapışqanı

Telegram: @cinciva

kağızın üstünə sürtərdi. Sonra da üzlüyü qapının təmiz taxtalarına məharətlə yapışdırardı. Bu işdən zövq alardı.

Hun Çol bu yaşında belə o işləri tək başına görə bilməzdi. Halbuki o vaxt anası ondan cavan idi, amma hər işi cəld və tez vaxtda görüb qurtarırdı. Yekə bir fırçanı əlinə götürüb yapışqanla oynayan bacısına, ya da kömək etmək istəyən Hun Çola ağcaqayının yarpaqlarını yığmağı tapşırardı. Bağlarında xurma, gavalı, innabdan tut ta uca aylanta qədər fərqli ağaclar olsa da, anası illah da bağlarında bitməyən ağcaqayın yarpaqlarını istəyərdi.

Hun Çol bir gün ağcaqayın ağacı axtara-axtara cığırları və çayı keçib bibisigilin evinə gedən yola çatmışdı. Orda yarpaq yığmağa başlayanda bibisi gəlmişdi: "Bunları yığıb neyləyəcəksən? Yoxsa anan tapşırıb? Onun da işi gücü yoxdur. Qışda qapının üstündəki ağcaqayın yarpaqlarını görəndə adamın canına üşütmə düşür. Min dəfə demişəm, yenə öz bildiyini eləyir".

Hun Çol evə qucaq dolusu yarpaqla qayıdanda anası onların içindən ən yaxşılarını seçər, qapıların cəftələrinin iki tərəfinə düzüb üstünə də tut ağacından hazırlanmış yapışqan kağız vurardı. Anası qapıların açılıb-bağlanarkən çərçivəyə sürtünən yerlərinə əlavə kağızlar yapışdırardı.

Hun Çolun qapısına o biri qapılardan üç dənə artıq yarpaq vurmuşdu. Beş dənə yarpağı gül kimi düzüb, yavaşca ovcunun içi ilə qapıya yapışdıranda: "Xoşuna gəldi?" – deyə soruşmuşdu. Yarpaqları elə düzmüşdü ki, açıq körpə əllərinə oxşayırdı. Bibisi nə deyir desin, Hun Çol həqiqətən bu yarpaqları bəyənmişdi. O, bəzəyin əla göründüyünü deyəndə anasının üzünə dərin bir təbəssüm qonmuşdu. Bütün yay boyu açıb-bağlanmaqdan üstü cırıq-cırıq olmuş qapılarla bayramı qarşılamaq istəməyən anası üçün təzə üz çəkilmiş qapılar payızın əsl əlaməti və Məhsul bayramının müştuluqçusu idi. Əlbəttə ki, bunu həm də ailəsini qışın soyuq küləklərindən qorumaq üçün

Telegram: @cinciva

edirdi. Hun Çol fikirləşdi ki, bəlkə də, o anlar anasının həyatının ən mənalı anları idi.

***

O da qeyri-ixtiyari bacısı kimi əllərini ciblərinə saldı.

Qapılara vurulan ağcaqayın yarpaqları bayramdan sonra da çıxarılmazdı. Ta yazda təzə ağcaqayın yarpaqları açanadək bütün qışı qapının üstündə qalardı.

Anasının itkin düşməsi ağcaqayın yarpaqlarının yapışdırılması kimi yaddaşının künc-bucağında gizlənən başqa xatirələri də canlandırdı.

Əvvəlki Yokçonq-donqdan əsər-əlamət qalmamışdı. O vaxtlar Seulda aldığı birinci evin ətrafında ancaq ara küçələr və həyət evləri var idi. İndi isə hara baxsan, ya göydələnlər görürsən, ya da geyim dükanları. Bacısı ilə düz iki dəfə binaların önündən və arxasından keçən Hun Çol "Sobu" marketi tapa bilmədi. Halbuki o vaxtlar həmin dükan Yokçonq-donqun mərkəzi hesab olunurdu. Sonra yoldan keçən bir tələbədən dükanın yerini soruşdular, o da onların fikirləşdiyi yerin tam əks istiqamətini göstərdi.

Əvvəllər hər gün yanından keçib getdiyi telefon budkasının yerində indi böyük bir ticarət mərkəzi var idi. Həyat yoldaşının yeni doğulmuş qızlarına gödəkcə toxumaq üçün toxuculuq dərslərinə getdiyi iplik dükanı da gözə dəymirdi.

– Hun Çol, deyəsən, bu tərəfdədir.

Əvvəllər enli bir yolun kənarında yerləşən "Sobu" market artıq yeni parkların, meydançaların arasında itib-batmışdı. Üstünün yazısı belə güclə seçilirdi.

– Adam demişdi ki, aptek "Sobu" marketin qabağındadır.

Bacısı girişə doğru gedib qarşı tərəfdəki dükanlara baxdı.

– Hə, burdadır!

Telegram: @cinciva

Hun Çol bacısının dediyi tərəfə baxanda üstünə "Sobu" apteki yazılmış lövhəni gördü. Aptek bir yeməkxana ilə internet klubun arasında sıxışıb qalmışdı. Hun Çolla bacısı içəri keçəndə əlli yaşlarındakı eynəkli əczaçı onlara baxırdı. Bacısı: "Oğlunuzun gətirdiyi elanla bağlı siz zəng etmişdiniz?" – deyəndə kişi eynəklərini çıxartdı.

– Necə oldu ki, ananız itdi?

Bu, anaları itkin düşəndən bəri ən çox verilən ən yorucu sual idi. Hamı bu haqda həm maraqla, həm də qınaqla soruşurdu. Əvvəl-əvvəl onlar bu suala geniş-geniş cavab verirdilər: "Deməli, itdiyi gün Seul metro stansiyasında idi..."

İndi isə sözü uzatmadan: "Necəsə oldu da", – deyib kövrəldiklərini büruzə verirdilər. Belə eləmək sualdan qaçmağın yeganə yolu idi.

– Ananızın ağlı yerində idi?

Bacısı susdu, Hun Çol da əqli problemi olmadığını dedi.

– Bəs ananızı tapmaq istəyirsizsə, niyə belə edirsiniz? Mən gör nə vaxt zəng eləmişəm, siz hələ indi gəlib çıxmısınız.

Kişi elə danışır ki, elə bil bir az tez gəlsəydilər, analarını tapacaqdılar. Bacısı:

– Siz onu nə vaxt görmüsünüz? Şəkildəki qadına oxşayırdı? – deyib cibindən bir elan çıxarıb əczaçıya göstərdi.

Kişi dedi ki, onu altı gün əvvəl görüb. Bu binanın üçüncü mərtəbəsində qaldığını, səhər tezdən apteki açmağa gələndə yandakı qəlyanaltıxananın qabağına qoyulmuş zibil qabına söykənib yatan yaşlı bir qadın gördüyünü dedi. Qadın mavi səndəllər geyinibmiş. Ayağında, güman ki, çox gəzməkdən açılan dərin yara varmış. Yarası elə dərin imiş ki, az qala sümüyü görsənirmiş. Həm də elə iltihablanıbmış ki, artıq iş-işdən keçibmiş, yaranın sağalması mümkün deyilmiş.

Telegram: @cinciva

– Bir əczaçı kimi, o cür yaraya laqeyd qala bilmədim. Fikirləşdim ki, heç olmasa, yaranı təmizləyərəm. İçəri keçib dərmanla pambıq gətirdim. Gördüm ki, oyanıb. Elə halsız idi ki, yad bir adam ayağına toxunduğu halda, tərpənmədi. Ayağının halını görəndə, dedim, yəqin, təmizləyəndə çığırıb-bağıracaq. Amma heç səsi də çıxmadı. Lap məəttəl qalmışdım. Yarası çox iltihablanmışdı, çirki dayanmadan axırdı. Həm də dəhşətli qoxu gəlirdi. Heç bilmirəm, yaranı neçə dəfə təmizlədim. Sonra üstünə dərman vurub plastır yapışdırdım. Amma plastır yaranın hər tərəfini tutmadı, məcbur qalıb üstündən sarımalı oldum. Ona kimsə kömək etməli idi. İçəri keçib polis çağırdım. Sonra qayıtdım ki, soruşum, tanış-bilişi var? Gördüm, zibillikdən suşi qalıqlarını çıxarıb yeyir. Çox ac idi. Ona dedim ki, əlindəkini atsın, ona yemək verəcəm. Sözümə qulaq asmadı, mən də yediyini əlindən alıb bir qırağa tulladım. Özü yeməyi atmaq istəməsə də, mən götürüb atanda heç nə demədi. "İçəri, aptekə keç" dedim. Yerindən tərpənmədi. Elə bil heç məni eşitmirdi. Ananız kardı?

Bacısı bu dəfə də susdu. O da "yox" dedi.

– Harda yaşadığını, tanış-bilişinin olub-olmadığını soruşdum. "Kiminsə nömrəsini bilirsənsə, de, zəng edib çağırım" dedim. Bir kəlmə də danışmadı. Eləcə gözlərini qırpıb durdu. Başqa nə edə bilərdim ki?! İçəri keçdim ki, polisə zəng edim, qayıdanda gördüm, çıxıb gedib. Çox maraqlıdır. Mən içəridə cəmi bir-iki dəqiqə qaldım. Çıxanda artıq orda yox idi.

– Anamız mavi səndəl geyinməmişdi, – dedi Çi Hon, – O gün ayağında bej rəngli səndəl olub. Əminsiz ki, ayağındakılar mavi rəngdə idi?

– Hə, hə. Əynində də mavi köynək var idi. Üstündən də jaket geymişdi. Ya ağ idi, ya da bej. Kirdən rəngini ayırd edə bilmədim. Qırçınlı ətəyi də, deyəsən, ağ rəngdə idi. O da çox çirklənmişdi, bej rəngə çalırdı. Ayaqları qan içində idi. Deyəsən, milçəklər o kökə salmışdılar.

Telegram: @cinciva

Mavi səndəllərdən başqa dediyi hər şey anasının o gün geyindikləri ilə üst-üstə düşürdü.

– Baxın, elanda anamın əynində mavi hanbuk var. Saçı da fərqlidir. Həm də burda bəzənib-düzənib. Amma itdiyi gün bu şəkildəkindən çox fərqli görünürdü. O qadını niyə anamıza oxşatdınız?

Əczaçının təsvir etdiyi qadın elə acınacaqlı vəziyyətdə idi ki, Çi Hon onun anaları olduğuna inanmaq istəmirdi.

– Yox, o idi. Baxışları eyni idi. Balaca vaxtı inək otarmışam. Baxışları onlarınkı kimi dürüst və saf idi. Elandakından tamam fərqli görünsə də, onu tanıdım. Çünki gözləri eyni idi.

Bacısı halsızlaşıb bir stulda oturdu.

– Bəs polis necə? Gəldi?

– Geri yığıb dedim ki, daha onlara ehtiyac qalmadı. Dediyim kimi, qadın artıq çıxıb getmişdi.

***

Hun Çolla bacısı aptekdən çıxdılar. İki saat sonra təzə binalardan birinin oyun meydançasında görüşmək üçün sözləşib ayrıldılar. Külək get-gedə sürətlənirdi. Hun Çol bir vaxtlar özünün də qaldığı alçaq evlərin yerini tutan hündür binaların arasındakı loş işıqlı küçələrə baxa-baxa keçir, bacısı isə hələ də yanında bir neçə dar küçə qalan "Sobu" marketin ətrafına göz gəzdirirdi. Hun Çol əczaçının sözlərindən sonra, binaların yanındakı bütün zibil qutularının yan-yörəsinə diqqətlə baxır, təkrar istifadə qutularının olduğu yerləri də gözdən keçirirdi. Köhnə evinin olduğu yeri yadına salmağa çalışırdı. O, buranın ən uzun küçəsinin axırdan ikinci evi idi. Həmin uzun küçə həmişə elə qaranlıq olardı ki, Hun Çol işdən evə gec gələndə giriş qapısına çatanacan vahimədən arxasına baxardı.

Bacısı oyun meydançasının taxta skamyasında oturub onu gözləyirdi. Çiyinləri çökmüşdü. Hun Çolun ağır addımlarla

Telegram: @cinciva

ona tərəf gəldiyini görəndə yerindən qalxdı. Artıq axşam düşdüyü üçün meydançada uşaq qalmamışdı. Hava almağa çıxan bir neçə yaşlı adam görünürdü.

Görəsən, anası bura, həmin evə gəlmişdi?

Bura birinci dəfə gələndə anasının əlində iri bir nikel qazan var idi. Qazan qırmızı lobyalı sıyıqla dolu idi. O vaxtlar Hun Çolun maşını yox idi. Anasının əlindəki qazanı alıb üstünə acıqlanmışdı:

– Bu boyda ağır şeyi niyə özünə yük eləmisən?

Anası sadəcə gülümsəmişdi. Onlar küçəyə girəndə anası bir evi göstərib:"Buradır?" – demişdi. Həmin evin yanından keçib gedəndən sonra anası başqa bir evi göstərib yenə: "Buradır?" soruşmuşdu. Hun Çol evlərinin yanında ayaq saxlayıb: "Bax, buradır!" deyəndə anası içdən gülümsəmişdi. Darvazanı itələyib içəri girəndə ömründə birinci dəfə yaşadığı kənddən ayrılıb böyük bir şəhərə gələn gənc qız kimi həyəcanlanmışdı. "Aa, həyəti də var! Xurma ağacı. Bəs bu, nədir? Üzüm tənəyi!"

Anası evə ayaq basan kimi sıyıqdan bir kasa götürüb evin hər tərəfinə səpələmişdi. "Bu, bədbəxtçiliyin sovuşması üçündür", – demişdi. Hun Çolun həyat yoldaşı da birinci dəfə idi ki, şəhərdə bir evin sahibəsi olmuşdu. Evin üç otağından birinin qapısını açıb həyəcanla demişdi: "Ana, bu, sənin otağındır. Seula gələndə burada rahat qala bilərsən".

Anası içəri baxıb ucadan: "Mənim də öz otağım var", – demişdi.

Gecənin bir vaxtı Hun Çol həyətdən səslər eşidib pəncərədən boylanmışdı. Anası həyətdə gəzişirdi. Darvazaya toxunub sonra əlini üzüm tənəyinin üstünə qoymuşdu. Sonra da evin girişindəki pilləkənlərdə oturmuşdu. Bir az göyün üzünə baxandan sonra qalxıb xurma ağacının altına keçmişdi. Hun Çol: "Ana, keç içəri, yat", – deyə səslənmişdi.

Telegram: @cinciva

Anası da:

– Sən özün niyə yatmırsan? – demişdi. Sonra da sanki oğlunun adını birinci dəfə çəkirmiş kimi çəkinə-çəkinə astadan onu çağırmışdı: "Hun Çol, bura gəl".

Hun Çol yanına gedəndə anası cibindən bir zərf çıxarıb ona vermişdi: "Bircə ad lövhəsi çatışmır. Bu pula da lövhəni alıb evin girişinə vurarsan". Hun Çol bir əlindəki zərfə, bir də anasına baxdı. Anası: "Bu evi alanda sənə kömək eləyə bilmədim, bağışla məni", – deyə üzrxahlıq eləmişdi.

Səhər tezdən Hun Çol əl-üzünü yuyub gələndə yavaşca anasının otağının qapısını açdı. Anasıyla Çi Hon yanaşı uzanıb mışıl-mışıl yatmışdılar. Anası elə bil yuxuda gülümsəyirdi. Bacısı həmişəki kimi qollarını yana açmışdı.

Növbətçi otağında bir yerdə qaldıqları o gecədən bu yana Seula gələndə anasının rahat qalması üçün bir yer olmamışdı. Anası qohumlarından birinin toyuna gəlmək üçün tutulan avtobusla Seula gələndə Hun Çol bacı-qardaşıyla onu qarşılamağa gedərdi. Həmişəki kimi yenə də yanında ağır səbətlər olardı. Toy qurtarmamış uşaqlarının kirayə qaldıqları evə getməyə tələsərdi.

Çatan kimi tez toya geyindiyi paltarları dəyişərdi. Qəzetə, plastik torbaya, ya da balqabaq yarpaqlarına bükülmüş mer-meyvə səbətlərin içindən yerə düşərdi. Çantaların birinə büküb qoyduğu enli köynəyi ilə güllü şalvarını əyninə keçirib gətirdiyi yeməkləri mətbəxdən götürdüyü boşqablara, kasalara yerləşdirərdi. Yorğanların üzlərini çıxarıb yuyardı. Gətirdiyi duzlu kələmdən kimçi düzəldər, kömürün hisindən qaralmış qazanı təmizləyər, sobanın üstünü par-par parıldadar, günün altında qurumuş üzləri yorğanlara keçirər, düyü arıtlayar, lobya şorbası bişirər, axşam yeməyi üçün süfrəni hazırlayardı. Evdən gətirdiyi buğlamadan, bişmiş ançousdan və küncüt

Telegram: @cinciva

yarpağından hazırlanmış kimçidən süfrədə barmaq basmağa yer qalmazdı. Hun Çol və bacı-qardaşı qablarına plov çəkmək istəyəndə anası hərəsinə bir tikə də mal əti qoyardı. Ancaq uşaqların təkidlərinə baxmayaraq, ac olmadığını deyib süfrəyə oturmazdı.

Yeməkdən sonra qab-qacağı yuyar, ləyəni su ilə doldurub qarpız almağa gedərdi. Qarpızı gətirib suyun içinə qoyardı ki, sərin qalsın. Hava qaralanda toyluq-bayramlıq olan bircə paltarını geyib: "Məni vağzala aparın", – deyərdi. Uşaqlar nə qədər: "Ana, gecəni qal, sabah gedərsən", – desələr də, razı olmazdı: "Gərək gedim, görüləsi işlərim var".

Əslində, analarının çəltik tarlasında bir-iki işi qalmışdı. Onu da o biri günə saxlaya bilərdi. Amma o, həmişə gəldiyi günün gecəsi kəndə qayıdardı. Əslində, üç böyük uşağının kiçik otaqdakı yerlərini bir az da dar eləmək istəmirdi. Doğrudan da, otaqda tərpənməyə belə yer yox idi. Ancaq buna görə getdiyini heç vaxt dilinə gətirməzdi. "Getməliyəm, sabaha işim çoxdur", – deyib durardı.

Hun Çol anasını hər dəfə gecə əliboş, yorğun-arğın vağzala gətirib kəndə yola salanda öz-özünə yeni qərarlar alardı. "Bir az çox pul qazanıb iki otaqlı evə köçəcəm. Geniş həyət evi kirayələyəcəm. Şəhərdə bir ev alacam. Bu yazıq arvad da gələndə rahat qala bilsin".

Hun Çol özünə platforma bileti alıb anasını qatara qədər ötürərdi. Qatarda anasına boş yer tapıb içinə bananlı süd, ya da mandarin qoyulmuş bir torba verərdi ki, yolda acanda yesin.

– Bax ha, birdən yatıb qalarsan. Çonqup vağzalında düşməlisən.

Anası bir az kövrək, bir az da ciddi səslə uşaqları ona tapşırardı:

– Şəhərdə uşaqların anası da, atası da sənsən.

Telegram: @cinciva

O vaxtlar iyirmi yaşlarında olan Hun Çol əllərini ovuşdura-ovuşdura duranda anası yanına gəlib onun əllərini açar, belini dikəldərdi:

– Böyük qardaş gərək həmişə dik dayansın, özündən kiçiklərə nümunə olsun. O səhv eləsə, o birilər də ona baxıb səhv edər.

Qatar yavaş-yavaş tərpənəndə gözləri dolmuş anası:

– Bağışla məni, Hun Çol, – deyərdi.

Anası gecənin bir aləmi Çonqupda qatardan düşərdi. Kəndlərinə gedən ilk avtobusun ən tezi altıdan sonra yola düşəcəyini bildiyi üçün gecə qaranlığında pay-piyada evinə gedərdi.

***

Soyuqdan qorunmaq üçün gödəkcəsinin yaxasını yuxarı qaldıran Hun Çol:

– Kaş özümüzlə daha çox elan götürəydik, – dedi.

Çi Hon:

– Sabah qayıdıb hər yerə elan vuraram, – deyib əllərini ciblərinə saldı.

Sabah Hun Çol idarə heyətinin üzvlərini Honqçondakı eksperimental mənzilə aparmalı idi. Ora getməyə bilməzdi.

– Bəlkə, sabah elanları yapışdırmağı həyat yoldaşıma tapşırım? – dedi.

– Yox, qoy o da bir az dincəlsin. Atamıza da o baxır.

– Bəlkə, ən kiçiyimizə zəng edək.

– Məncə, bir nəfər mənə kömək edə bilər.

– Bir nəfər kimdir?

– Yu Bin. Anam tapılsın, onunla ailə quracam. Anam həmişə toyumu görmək istəyirdi.

– Bu işə qərar vermək bu qədər asan idisə, niyə indiyə kimi uzadırdın?

Telegram: @cinciva

– Anam itəndən sonra başa düşdüm ki, hər şeyin bir yolu varmış. Əslində, anamın məndən istədiyi hər şeyi edə bilərdim. İstəkləri əlçatmaz da deyildi. Boş-boş şeylərdən ötrü niyə onu incitdiyimi başa düşə bilmirəm. Daha heç vaxt təyyarəyə minməyəcəm.

Hun Çol bacısının çiyninə yavaşca vurub dərindən köks ötürdü. Anası onun təyyarə ilə harasa getməsini istəməzdi. O fikirləşirdi ki, bir insan ancaq müharibə olarsa, həyatını belə bir təhlükəyə ata bilər, yoxsa heç vaxt təyyarəyə minməməlidir. Anasının bu məsələdə narahatçılığı artdıqca bacısı da gizli-gizli təyyarəyə minməyə başlamışdı. Təyyarə ilə ya iş dalınca, ya da dincəlməyə xaricə gedəsi olanda anasına xəbər verməzdi.

Bacısı: "O evin həyətindəki qızılgüllər çox gözəl idi..." – dedi.

Hun Çol qaranlıqda bacısına baxdı. Elə o da bir az əvvəl həmin güllər haqqında düşünmüşdü.

Evi alandan sonra yazda anası birinci dəfə onlara gələndə qızılgül əkməyi məsləhət görmüşdü.

"Qızılgül"?

Anası bunu deyəndə Hun Çol səhv başa düşdüyünü fikirləşib bir də soruşmuşdu:

– Qızılgül alım, dedin?

– Hə, qızılgül. Niyə elə soruşursan. Burda gül satılan yer yoxdur bəyəm?

– Var, niyə olmasın.

Hun Çol anasını Kupabal küçələrinin kənarlarında cərgə ilə əkilmiş qızılgül qələmlərinin satıldığı tingliyə aparmışdı.

Anası :

– Bunlar ən gözəl güllərdir, – deyib Hun Çolun düşündüyündən də çox gül qələmi almışdı.

Telegram: @cinciva

O gün günortadan sonra anası Hun Çolun evinin ətrafında çuxurlar qazıb qızılgül qələmlərini əkmişdi. Hun Çol birinci dəfə idi ki, anasının sırf gözəl görünsün deyə bir şey əkdiyini görürdü. Çünki indiyə kimi o həmişə lobya, kartof, kələm, turp ya da qırmızı bibər kimi yeməli şeylər əkərdi. Yerə çömələb iş görən anasına baxan Hun Çol güllərin hasara çox yaxın olub-olmadığını soruşmuşdu. Anası da: "Bunu ona görə əkirəm ki, gələn-gedən həyətinə baxıb zövq alsın", – demişdi.

Hər yaz güllər çiçək açardı. Qızılgüllər açanda yoldan keçənlər lap anasının dediyi kimi, güllərin qoxusundan məst olardı. Külək əsəndə güllərin ləçəkləri hər yerə, hətta hasarın o tərəfinə belə səpələnərdi.

***

Yokçonq-donqdakı böyük ticarət mərkəzinin kafesində nahar etmək əvəzinə iki fincan içki içən bacısı çantasından bir dəftər çıxardı, küncü qatlanmış səhifəni açıb Hun Çolun önünə itələdi. Acqarına içki içməkdən sifəti pörtmüşdü. Hun Çol dəftəri işığa tərəf tutub yazıları oxudu. Bacısı çox xəyalpərəst və emosional olsa da, yazısı səliqəli idi.

*Kor uşaqlara kitab oxumaq istəyirəm.*

*Çin dilini öyrənmək istəyirəm.*

*Gəlirim çox olsa, kiçik bir teatr almaq istəyirəm.*

*Cənub Qütbünə səyahət etmək istəyirəm.*

*Santyaqoya ziyarətgaha getmək istəyirəm...*

Hələ otuz sətir də yazmışdı.

– Nədir bunlar?

– Keçən yeni il ərəfəsində kitab yazmaqdan savayı ürəyimdən keçənləri yazmışdım. Yəni sadəcə zövq xatirinə eləmək istədiyim şeyləri... Növbəti on il ərzində planlaşdırdığım işlərin siyahısıdır. Amma içində anamla bağlı bircə kəlmə də yox-

Telegram: @cinciva

dur. O vaxt bu heç ağlıma gəlməmişdi. Amma indi, anam itəndən sonra siyahıya baxıram, sən demə...

***

Hun Çol lülqənbər keflidir. Liftdən çıxıb qapının zənginə basdı. Hay verən olmadı. Cibindəki açarları çıxarıb qapını açdı. Bacısıyla sağollaşandan sonra yenə iki kafeyə getmişdi. Mavi səndəllər geyinmiş, çox gəzməkdən ayağında dərin yara açılmış qadın, yəni, güman ki, anası hər dəfə gözünün qabağına gələndə bir qədəh içkini başına çəkmişdi.

Qonaq otağının işığı yanırdı. Amma içəridə səssizlik vardı. Anasının aldığı Məryəm Ana heykəli sanki ona baxırdı. Yıxıla-dura birtəhər yataq otağına tərəf getdi, amma əvvəlcə qızının yataq otağının qapısını yavaşca araladı. Bu günlərdə atası həmin otaqda qalırdı. Qızının çarpayısının yanında yerə salınmış döşəkdə böyrü üstə yatmışdı. İçəri girdi, atasının üstündən düşən adyalı düzəldib sakitcə otaqdan çıxdı.

Mətbəxə keçib sürahidən bir stəkan su süzüb başına çəkdi. Suyu içə-içə ətrafa göz gəzdirdi. Hər şey həmişəki kimi qaydasında idi. Heç nə dəyişməmişdi. Soyuducunun uğultusu da, yoldaşının çirkli qabları yığdığı çanaq da eyni idi. O, həmişə qabları sabaha saxlayardı. Başını önünə əyərək yataq otağına keçib yuxulayan yoldaşına baxdı. Onun sinəsindəki boyunbağı qaranlıqda parıldayırdı. Hun Çol yoldaşının adyalını dartıb üstündən çəkdi. Yazıq arvad dik atılıb gözlərini ovuşdurdu.

– Nə vaxt gəldin? – deyib onun kobud hərəkətinin qarşısında sadəcə köksünü ötürdü.

Hun Çol bu hərəkəti ilə arvadına demək istəyirdi, necə rahat yata bilirsən?! Anası itkin düşəndən sonra qabağına çıxanı acılayırdı. Evə gələndə lap özündən çıxırdı. Qardaşı axtarışların nə yerdə olduğunu soruşmaq üçün zəng eləyəndə Hun Çol əvvəlcə bir-iki suala cavab verir, sonra da: "Bəs sənin mənə

Telegram: @cinciva

bir sözün yoxdur? Nə işlə məşğulsunuz, başım çıxmır", – deyə qardaşının üstünə qışqırırdı.

Atası Seulda bir işinin qalmadığını, kəndə qayıtmaq istədiyini deyəndə acıqlanırdı: "Guya kəndə gedib neyləyəcəksən?" Səhərlər isə arvadının hazırladığı süfrəyə gözünün ucu ilə də baxmadan evdən çıxırdı.

– İçmisən?

Arvadı adyalı onun əlindən alıb düzəltdi.

Hun Çol yenə qışqıra-qışqıra:

– Necə rahat yata bilirsən? – dedi.

Yoldaşı üst-başını səliqəyə saldı.

– Sənə deyirəm, necə yata bilirsən?

Bu dəfə də arvadı qışqırdı:

– Neyləməliyəm?

– Hamısı sənin üzündən oldu.

Hun Çolun dili dolaşdı. Özü də həddini aşdığını başa düşürdü.

– Mən nə eləmişəm ki?

– Onları qarşılamalıydın!

– Sənə demişdim axı, Çinə yemək aparacam.

– Qızına yemək aparmaq elə o günə qalmışdı? Bilmirdin ki, anamla atam həmin gün ad günlərini bizlə bir yerdə keçirmək üçün gələcək?!

– Atan dedi ki, yolu özləri tapa bilərlər! Üstəlik, şəhərdə qalan təkcə biz deyildik ki. Həmin gün qardaşıngilə də gedəcəkdilər. Bacıların da şəhərdə yaşayır. Atanla anan şəhərə gələndə, illah da, bizdə qalmalıdılar? Kim dedi ki, hər dəfə gedib onları qaşılayacam? Çini iki həftə idi, görmürdüm. Yazıq uşağın yeməyə heç nəyi qalmamışdı. Gedib onu görməli idim, ya

Telegram: @cinciva

yox? Həmin gün başım ona qarışdı. İmtahana hazırlaşır. Bu imtahan onunçün nə qədər vacibdir, bilirsən?

– Özü yekə qızdır, haçanacan ona yemək aparacaqsan? Nənəsinin itkin düşdüyünü bilə-bilə bircə dəfə də gəlməyib bura.

– Gəlib neyləyəcək? Mən dedim ki, gəlməsin. Hər yeri axtarmışıq, polis belə onu tapa bilməyib. Bizim əlimizdən nə gəlir? Qapı-qapı düşüb "Anamız burdadı?" – deyə soruşmayacağıq ki?! Böyüklər heç nə edə bilmir, Çin neyləyəcək? O, tələbədir, dərsindən qalmamalıdır. Anan burda deyil deyə hamı işini-gücünü atıb oturmalıdır?

– O itkin düşüb. Burda olmamağı ilə itməyi ayrı-ayrı şeylərdir.

– Yaxşı, de görüm, nə istəyirsən məndən? Özün hər səhər işinə-gücünə gedirsən...

– Nə demək istəyirsən?

Hun Çol küncdəki qolf çubuğunu götürüb divara tərəf tullamaq üçün yuxarı qaldırdı.

– Hun Çol!

Atası yataq otağının ağzında dayanmışdı. Hun Çol qolf çubuğunu aşağı saldı. Atası uşaqlara əziyyət olmasın deyə ad gününü keçirmək üçün özü şəhərə gəlmişdi. Planladıqları kimi ad gününü keçirə bilsəydilər, arvadının bir neçə həftə əvvəldən danışıb yer ayırdığı milli Koreya yeməkləri verilən restorana gedəcəkdilər. Anaları da: "Mənim ad günümü də keçirmiş olduq", – deyəcəkdi. Amma anası itdiyinə görə atasının ad gününü keçirə bilməmişdilər, yay ayinini də bibisi öz öhdəsinə götürmüşdü.

Hun Çol atasının arxasınca otaqdan çıxdı.

Atası nəvəsinin otağına girəndə:

– Hamısı mənim üzümdən oldu, – dedi.

Telegram: @cinciva

Hun Çol heç nə demədi.

– Dalaşmayın. Nə hislər keçirdiyini başa düşürəm. Amma dava-dalaşın heç bir xeyri yoxdur. Anan mənimlə ailə qurdu, həyatı heç də asan olmadı. O çox yaxşı qadındır. Əminəm ki, sağ-salamatdır. Sağdırsa, mütləq ondan bir xəbər çıxacaq.

Hun Çol yenə susdu.

– Artıq evə qayıtmaq istəyirəm.

Atası bir xeyli Hun Çola baxıb otağına keçdi. Hun Çol bağlı qapıya baxıb dodaqlarını dişlədi. Az qala ürəyi partlayacaqdı. Əlləri ilə sinəsini ovxaladı. Həmişəki kimi, ardınca əllərini ovuşdurmaq istəyirdi ki, birdən duruxsundu. Sanki anasının əlinin istiliyini hiss etdi. Anası onun əllərini ovuşdurmasını və belini büküb durmasını heç xoşlamazdı. Onun qabağında bu halda dursaydı, əllərini açıb belini dikəldərdi. Başını əyib durdumu, kürəyinə vurub: "Kişi gərək dik dursun", – deyərdi.

Hun Çol prokuror ola bilməmişdi. Anası hamıya deyərdi ki, "Prokuror olmaq Hun Çolun arzusudur", sən demə, bu, anasının da arzusu imiş. Hun Çol fikirləşirdi ki, bu, heç vaxt baş tutmayan uşaqlıq xəyalıdır, amma anasının xəyallarını alt-üst etdiyini heç düşünməmişdi. "Bağışla məni, ana, sözümün üstündə durmadım". İndi bircə şey istəyirdi; anasını tapıb onun qayğısına qalmaq. Amma ürəyinə dammışdı ki, bu fürsəti çoxdan əldən verib.

Qonaq otağının ortasında diz çöküb yerə oturdu.

Telegram: @cinciva

# III fəsil

## Mən gəlmişəm

Gənc bir qadın mavi rəngli örtülü darvazanın qabağında durub içəri boylanır.

– Siz kimsiniz? – deyib yavaşca öskürürsən, qadın arxaya dönüb sənə baxır.

Qadının hamar alnı, səliqə ilə arxaya yığılmış saçları, par-par parıldayan gözləri var.

– Salam, – deyir.

Sən onun üzünə baxırsan, o da sənə gülümsəyir.

– Bura Pak Sonyo xalanın evi deyil? – deyə soruşur.

Neçə vaxtdır, bomboş olan evin girişindəki lövhəyə ancaq sənin adın yazılıb.

Pak Sonyo xala...

Çoxdandır, arvadına nənə yox, xala deyildiyini eşitməmişdin.

– Nə lazımdır sizə?

– Özü evdə deyil?

Cavab vermirsən.

– Doğrudan, itkin düşüb?

Gənc qadına baxırsan.

Telegram: @cinciva

– Siz kimsiniz?

– Adım Honq Tae-heedir. Namsan-donqdakı "Ümid Evi"ndən gəlmişəm. Yəni uşaq evindən. Neçə vaxtdır, Pak Sonyo xala gəlib bizə dəymir. Narahat oldum. Sonra bunu gördüm.

Qadın sənə oğlunun qəzetə verdiyi elanı göstərir.

– Neçənci dəfədir ki, bura ondan bir xəbər bilməyə gəlirəm. Hər dəfə qapı bağlı olur... Sadəcə hal-əhval tutmaq istəyirdim. Həm də ona bir kitab oxuyacaqdım.

Darvazanın önündəki yekə bir daşın altından evin açarını çıxarıb qapını açırsan. Xeyli vaxtdır, heç kimin gəlib-getmədiyi evə ümidlə girirsən. Amma ev səssizdir.

Honq Tae-heeni içəri dəvət edirsən. Bir kitab oxuyacaqmış. Özü də arvadına... İndiyə kimi onun ağzından nə "Ümid Evi", nə də Honq Tae-hee haqqında bir kəlmə də eşitməmisən. Honq Tae-hee içəri girən kimi arvadını çağırdı. Sanki hələ də onun itkin düşməsinə inana bilmirdi. Cavab gəlmədiyini görəndə üzündəki təəccüb ifadəsi daha da dərinləşdi.

– Evdən qaçıb gedib?

– Yox, itkin düşüb.

– Necə yəni?

– Seulda itkin düşüb.

– Doğrudan?

Təəccübdən qadının gözləri dörd olur. O deyir ki, yoldaşın on ildən çoxdur, "Ümid Evi"nə gəlib uşaqları çimizdirir, kirli paltarları yuyur, oranın bağına baxır.

– Mənim yoldaşım?

Tae-hee arvadının xeyirxah bir qadın olduğunu, hər ay uşaq evinə 450 min von bağışladığını, bu yardımı heç vaxt kəsmədiyini deyir.

– Hər ay 450 min von?

Telegram: @cinciva

Seulda yaşayan uşaqların hər ay 600 min von yığıb arvadına göndərirdilər. Bu pulun kənddə iki nəfərin dolanışığına bəs edəcəyini düşünürdülər. Əslində, az pul da deyildi. Əvvəllər arvadın o puldan sənə də verərdi, sonra pulun hamısını özünə saxlayacağını dedi.

Sənə maraqlı gəlmişdi ki, görəsən, həyat yoldaşın bu qədər pulu nə eləyir. Amma o, bu haqda nəsə soruşmağını istəməmişdi. Demişdi ki, uşaqların hamısını öz əlinin zəhmətiylə böyüdüb, ona görə də bu pullar ona düşür. Elə qərarlı danışmışdı ki, elə bil bu haqda əvvəlcədən xeyli ölçüb-biçibmiş. Yoxsa ömründə: "Bu pulları xərcləməyə haqqım çatır", – deməzdi. Heç vaxt dilinə bu cür sözlər gətirməmişdi. Sanki belə danışmağı bir filmdən öyrənmiş, sənə deməmişdən qabaq da bir xeyli məşq eləmişdi.

Neçə il əvvəl may ayında – Valideynlər günündə uşaqların heç biri sizi təbrik eləməmişdi. Həyat yoldaşın tez kənd mərkəzindəki dəftər-kitab dükanına gedib iki qərənfil aldı. Qərənfillərə "Məni həyata gətirdiyin və böyütdüyün üçün təşəkkür edirəm" sözləri yazılmış lent bağlanmışdı. Səni təzə yolun yanında görəndə evə çağırıb: "Bizi qərənfilsiz görsələr, nə deyərlər?" – demişdi. Sən də onun arxasınca evə getmişdin. Səni içəri keçirib qapını örtmüş, jaketinin yaxasına bir dənə qərənfil taxmışdı: "Bu qədər uşağımız ola-ola yaxamızda qərənfil görünməsə, camaat bizə nə deyər?! Bunları aldım ki, söz-söhbət olmasın". Qərənfilin birini də öz yaxasına sancmışdı. Gül yaxasından düşmüş, götürüb yenə taxmışdı. Sən evdən çıxar-çıxmaz qərənfili yaxandan çıxarmışdın, amma arvadın bütün günü yaxasında qərənfillə hərlənmişdi.

Səhəri həyat yoldaşın xəstələnib yatağa düşdü. Neçə gün yerindən qalxa bilmədi. Sonra birdən dikəlib yerində oturdu.

Telegram: @cinciva

Dedi ki, tarlanın 3 majigisini[16] onun adına keçirəsən. Bu istəyinin səbəbini soruşanda həyatının çox mənasız keçdiyini dedi. Uşaqlar böyüyüb hərəsi bir tərəfə dağıldığı üçün artıq özünü lazımsız hiss edirdi. Torpaq sahəsinin şərikli sahibi sayıldığınızı, 3 majigini onun adına keçirdiyin təqdirdə qalan hissəsindən imtina etmiş olacağını başa salandan sonra ümidsiz-ümidsiz fikrindən vaz keçmişdi.

Amma uşaqların yolladığı pulun hamısını özü xərcləyəcəyini elə ciddi və qəti demişdi ki, etiraz eləyə bilməmişdin. Etiraz etsən, güman ki, dava-dalaş düşəcəkdi. Qısası, arvadının istəyi ilə razılaşmışdın. Amma səndən pul istəməmək şərtilə. O da razı olmuşdu.

Arvadın bu pulu pal-paltara, ya da başqa nəyəsə xərcləyənə oxşamırdı. Bank hesabına hər dəfə baxanda görürdün ki, hər ayın eyni günündə ordan düz 450 min von pul çıxarılır. Pul bir az gecikəndə həyat yoldaşın pulu yığıb göndərməyi öz boynuna götürən Çi Hona zəng eləyib xatırladırdı. Arvadın əvvəllər heç belə şey eləməmişdi. Pulu neylədiyini soruşmamışdın, çünki soruşmamağa söz vermişdin. Elə bilirdin ki, yoldaşın 450 min vonu özünə aid bir hesaba yatırmaqla həyatına bir məna qatmağa çalışır. Bir dəfə evdə arvadının hesab kitabçasını nə qədər axtarsan da, tapa bilməmişdin. Tae-heenin dediyinə inansan, arvadın neçə ildir, hər ay 450 min vonu Namsan-donqdakı "Ümid Evi"nə bağışlayırmış. Həyat yoldaşını heç tanımamısan. Birdən-birə özün öz gözündə çox cılızlaşırsan.

Tae-hee deyir ki, təkcə o deyil, hamı onun üçün çox darıxıb. Sonra da Kun adlı bir oğlandan və arvadının ona analıq etməsindən söz açır. Neçə vaxtdır, arvadının görünməməsi uşağa pis təsir edibmiş. Tae-hee uşağın altı aylıq olanda yetimxanaya atıldığını, adının belə olmadığını, arvadının ona Kun adını qoyduğunu danışır.

16. Majigi – Koreyada ərazi ölçü vahididir.

Telegram: @cinciva

– Adı nədir? Kun?

– Hə, Kun.

Kunun gələn il məktəbə gedəcəyini, yoldaşının ona məktəb paltarı və çanta almağa söz verdiyini deyir. Ürəyin sıxılır. Honq Tae-heenin dediklərinə sakitcə qulaq asmağa davam edirsən. Yoldaşının on ildən çox gizlincə bir uşaq evinə gedib-gəldiyinə inana bilmirsən. Tae-heenin arvadını kimləsə qarışıq saldığını düşünürsən. Arvadın "Ümid Evi"nə nə vaxt gedib? Niyə sənə bu barədə heç nə deməyib?

Honq Tae-heenin gətirdiyi qəzetdəki şəklə baxıb otağına keçirsən. Çəkməcədəki albomdan arvadının bir şəklini çıxarıb gətirirsən. Şəkildə sahildə dayanan həyat yoldaşınla qızın külək qaldırmasın deyə donlarının ətəyini möhkəm-möhkəm tutublar. Şəkli Tae-heeyə tərəf uzadırsan:

– Dediyiniz qadın budur?

Tae-hee birdən elə sevinir ki, elə bil arvadının şəklini yox, özünü qarşısında görür.

– Hə, bu, bizim xaladır, – deyir.

Arvadın şəkildə günəşə sarı gözlərini qıyıb sənə baxır.

– Dediniz, ona kitab oxumağa gəlmisiniz. Nə kitabı?

– Sizin yoldaşınız "Ümid Evi"ndəki ən çətin işləri görürdü. Ən çox da uşaqları çimizdirməyi sevirdi. Təmizlik işində elə bacarıqlı idi ki, o, uşaq evinə gələndən sonra hər tərəf tərtəmiz olmuşdu. Ona necə təşəkkür edə biləcəyimi soruşanda, heç nə istəmədiyini demişdi. Amma bir gün özüylə bir kitab gətirdi, hər gəlişində onun üçün bir saat oxumağı xahiş elədi. Dedi ki, bu kitabı çox sevir, amma gözləri zəiflədiyi üçün yaxşı oxuya bilmir.

Heç nə demirsən.

– Baxın, bu kitabı deyirəm.

Telegram: @cinciva

Tae-heenin çantasından çıxardığı kitaba baxırsan. Bu ki qızının yazdığı kitabdır.

– Müəllifi də buralıdır. Eşitdiyimə görə orta məktəbi burda bitirib. Yəqin, xala ona görə onu çox istəyir. Əvvəl onunçün oxuduğum kitabı da bu qız yazmışdı.

Qızının "Sevgini tamamlamaq" adlı kitabını əlinə alırsan. Deməli, arvadın bu gənc qadından xahiş eləyib ki, ona qızının kitabını oxusun. Heç bu haqda sənə bir söz deməmişdi. Düzü, ona qızının kitablarından birini oxumaq ağlının ucundan da keçməmişdi. Görəsən, səndən başqa, evdəkilərin arvadının oxuyub-yaza bilmədiyindən xəbərləri vardı?

Onun oxuyub-yaza bilmədiyini öyrənəndə təhqir olunmuş bir insan kimi elə yazıq-yazıq baxmışdı ki sənə...

Arvadın inanırdı ki, savadsızlığı ucbatından sən ona yuxarıdan aşağı baxırsan. Cavanlıqda da məhz buna görə onunla pis rəftar etmisən, evdən çıxıb getmisən, çığır-bağır, dava-dalaş salmısan və suallarına kobud cavab vermisən, hərdənbir bilmərrə qulaqardına vurmusan. Hərçənd ki səbəb bu deyildi. Sən özünə haqq qazandırsan da, onun sənə inamı azalırdı. Birdən ağlına gəldi ki, bəlkə, özün də hiss etmədən ona yuxarıdan baxırdın? Sən heç təsəvvürünə gətirməzdin ki, tanımadığın bir qadın arvadına qızının romanını oxuyur. Kim bilir, arvadın savadsızlığını bu qadından gizlətmək üçün nə əziyyətlər çəkib. Qızının kitabını böyük həvəslə oxumaq istəyən arvadın bu cavan qadına deyə bilməmişdi ki, əsərin müəllifi doğmaca qızıdır. Ona görə də kitabı başqasına oxutdurmaq üçün gözlərinin zəif gördüyünü bəhanə gətirmişdi.

Gözlərin göynəyir. Arvadın bu qadının yanında yazıçı qızı ilə öyünməkdən özünü necə saxlamışdı?!

– Nə xain adam imişəm.

– Buyurun, – Tae-hee təəccüblü halda sənə baxır.

Telegram: @cinciva

Əgər o, bu kitabı belə çox oxumaq istəyirdisə, gərək mənə deyəydi. Sən quru, qırışmış üzünü ovuclarınla ovxalayırsan. Arvadın səndən roman oxumağını istəsəydi, xahişini yerinə yetirərdin? O itkin düşənədək sən onu düşünmədən yaşamısan. Arvadın ancaq ondan bir şey istəyəndə və ya onu nədəsə günahlandıranda, yaxud da öz laqeydliyini göstərəndə yadına düşürdü. Başqa insanlarla həmişə nəzakətlə danışırdın, arvadının yanında isə öz-özünə əsəbiləşirdin. Hərdənbir hətta onunla hərzə danışırdın. Özünü elə aparırdın ki, elə bil arvadınla nəzakətlə danışmaq sənə qadağan edilib. Bax sən bu cür yaşamısan.

Hon Tae-hee gedəndən sonra boş evə baxıb: "Mən gəldim", – deyirsən.

Ömür boyu bu evdən canını qurtarmaq arzusu ilə yaşamısan – cavanlıqda, evlənəndən sonra və hətta uşaqların dünyaya gələndə də. O vaxt birdən düşünmüşdün ki, bütün həyatın bu evdə – bir vaxtlar dünyaya gəldiyin ölkənin cənubundakı bu darıxdırıcı qəsəbədə keçəcək. Və səni tənhalıq və boşluq hissi bürümüşdü. Heç nə demədən evdən çıxıb getmiş, ölkəni səyahət etməyə yollanmışdın. Dini mərasimlərin vaxtı gəlib çatanda qayıtmışdın, sanki torpaq səni özünə çəkirdi. Sonra yenə getmiş, ancaq xəstələnəndə sürünə-sürünə gəlmişdin. Sağalandan sonra motosiklet sürməyi öyrənib yenə evdən ayrılmışdın, amma bu dəfə bir qadınla, özü də yad bir qadınla. Bəzi vaxtlar sənə elə gəlirdi ki, heç vaxt geri qayıtmayacaqsan. Başqa bir həyatın həsrətini çəkirdin. Bu evi unutmağın, həyatında yeni bir səhifə açmağın xəyalını qururdun. Ancaq verdiyin qərarın ömrü bir ildən artıq çəkmirdi.

Doğma qəsəbədən kənarda yad mühitdən bezib-usananda arvadının əkib-becərdiklərini və doğub böyütdüyü uşaqları tez-tez yada salırdın. Küçükləri, cücələri, torpaqdan qazıb çıxardığı kartofu... və övladlarını.

Telegram: @cinciva

Seulda, metronun yeraltı platformasında arvadını gözdən itirmədən əvvəl o, sənin gözündə sadəcə uşaqlarının anası idi. O, nədənsə həmişə sarsılmaz və güclü görünürdü, elə bil kəsilənədək yerindən tərpənməyən möhkəm ağac idi. Ancaq indi başınıza elə bir iş gəldi ki, bəlkə də, sən onu heç vaxt görməyəcəksən. Uşaqlarının anası itkin düşəndən sonra sən anladın ki, həyat yoldaşını itirmisən. O həyat yoldaşın ki, sən onu yarım əsrdir, unutmuşdun, o həyat yoldaşın ki, ürəyinin dərinliklərində gizlincə kök salıb. Və ancaq itirəndən sonra onu çox yaxında hiss etməyə başladın, elə bildin, əlini uzatsan, toxunacaqsan.

İndi sən arvadının son üç ildə nələr çəkdiyini aydın başa düşürsən. O, qeyri-ixtiyari keyləşirdi, adi şeyləri unudurdu. Hərdənbir dəfələrlə keçdiyi küçədə oturur, amma evin yolunu tapa bilmirdi. Bəzən əlli il işlətdiyi küp və ya kuzəyə donuq nəzərlərlə baxırdı. Gözlərində isə: "Bu, nə işə yarayır?" sualı oxunurdu. Ev işlərini, demək olar ki, başlı-başına buraxmışdı. Ona görə də evdə çox vaxt səliqə-sahmandan əsər-əlamət olmurdu. Bəzən hər gün baxdığı seriallara fikrini cəmləyə bilmirdi. İllərdir, zümzümə elədiyi "Əgər mənə sual versən ki, məhəbbət nədir..." misraları ilə başlayan mahnının sözlərini yada salmaqda çətinlik çəkirdi. Bəzən də elə hərəkət edirdi, elə bil səni tanımır. Bəlkə də, özünün kim olduğunu da unutmuşdu.

Əvvəllər belə deyildi.

Arvadın əvvəllər həyatınızın ən xırda təfərrüatlarını belə unutmazdı. Bir dəfə o, sən evdən ayrılmazdan qabaq bir miqdar pulu qəzet kağızına büküb qapı çərçivəsinə dürtdüyünü xatırlamışdı. Onda bu pullara görə sənə minnətdar olduğunu demişdi. Etiraf eləmişdi ki, qəzetə bükülü pullar rastına çıxmasaydı, acından ölərdilər.

Başqa bir vaxt da sənə demişdi ki, yeni ailə şəkli çəkdiril-

Telegram: @cinciva

məlidir, çünki son şəkildə balaca qızının Amerikada dünyaya gələn üçüncü uşağı yoxdur.

* * *

Ancaq indi sən əzab çəkə-çəkə anlamağa başlayırsan ki, arvadının xəstəliyinə biganə qalmısan.

Arvadın dözülməz ağrılardan huşunu itirəndə fikirləşirdin ki, yəqin, yorulub yatıb. Başına bağladığı yaylığı bircə dəfə də qaldırıb baxmağa macalın olmurdu. Hirslənib öz-özünə deyirdin ki, kaş ağlına gələn hər yerdə yatmayaydı. Düz yolda büdrəyəndə və qapını açarkən səndələyəndə ona: "Ayağının altına bax", – deyə çımxırırdın. Halbuki arvadına qayğı göstərməyi heç vaxt ağlına gətirmirdin. Onun ağrı və xəstəlikdən vaxtları qarışdırdığını da anlamırdın. Arvadın heyvanlara yem hazırlayır və boş axurdakı ləyənçələrə bölüşdürürdü. Sonra da sənin balacalıqdan böyütdüyün donuzu çağırıb yanında oturur: "Bu dəfə üç bala doğsan, çox sevinərik", – deyirdi, sənsə onun səni ələ saldığını düşünürdün. Bir vaxtlar, lap çoxdan bu donuzun üç balası olmuşdu və arvadın onları Hun Çola velosiped almaq üçün satmışdı.

– Burdasan? Mən gəldim! – boş evdə qışqırır və ətrafı dinşəyirsən.

Ümid edirsən ki, birdən arvadın hay-küylə səni salamlayacaq. "Vay, sən evdəsən?!" – deyəcək. Ancaq səsinə səs verən olmur. Sükut dərinləşir. Əvvəllər evə hər dönüşündə: "Mən gəlmişəm!" – deyib eşikdən içəri girər-girməz arvadın o saat qabağına çıxardı.

Elə hey deyinərdi.

– İçkini niyə tərgitmirsən? Sən mənsiz yaşayarsan, amma içkisiz yox. Uşaqlar səndən ötrü nigarandır, sən isə bu pis vərdişini tərgidə bilmirsən!

Telegram: @cinciva

Sənə qulluq edəndə də, qabağına kişmişlə çay qoyanda da deyinməyi kəsmirdi:

– Bir də evə sərxoş gəlsən, səndən ayrılacam. Yadından çıxıb? Xəstəxanada həkim dedi ki, əyyaşlıq səni öldürəcək. Bu gözəl dünyadan tezliklə köçmək istəyirsənsə, içməyinə davam elə!

Və sən naharlarda dostlarınla içib evə gələndə arvadının əhvalı tamam pozulur, ümidləri buza dönürdü. Sən onda bilmirdin ki, gün gələcək, vaxtilə arvadının, bir qulağından girib o birindən çıxan deyinməyindən ötrü darıxacaqsan.

Amma indi heç nə eşitmirsən, halbuki qatardan düşər-düşməz vərdiş elədiyin o "dır-dır" eşitmək üçün yaxındakı kafeyə yollanıb bir az vurmusan.

Darvazanın yanındakı it damına baxırsan. Qoca it öləndə arvadın yaman fikir eləmişdi. Sən də şəhərciyə gedib başqa bir it gətirmişdin. Evə qayıdanda itin səsini eşitmirsən, həyətdə səssizlik hökm sürür. İtin zənciri gözünə dəymir. Yəqin, bacın hər gün bura gəlib ona yemək verməkdən yorulub, götürüb özü ilə aparıb. Darvazaları örtmürsən, əksinə, taybatay açırsan, ardınca artırmada çömələrsən. Arvadın Seula gedəndə sən tez-tez artırmada oturardın. Arvadın Seuldan zəng vurub səndən soruşardı: "Yeməyini yemisən?" Sən isə suala sualla cavab verərdin:

– Evə nə vaxt gəlirsən?

– Niyə soruşursan? Məndən ötrü darıxmısan?

– Yox, narahat olma, istədiyin qədər qal.

Ancaq o, sənin sözlərinə əhəmiyyət verməzdi və tezliklə qayıdardı. Sən arvadını danlayardın:

– Niyə belə tez qayıtdın, axı sənə dedim, istədiyin qədər qal!

Telegram: @cinciva

– Doğrudan, fikirləşirsən ki, sənə görə qayıtmışam? İtə yem verməyə gəlmişəm, – deyər və tərs-tərs sənə baxardı.

Evə arvadının əkib-becərdiklərindən ötrü darıxıb qayıdırdın. Halbuki geri qayıtmaqla başqa yerlərdə əldə elədiyin hər şeydən imtina etmiş olurdun. Darvazadan içəri girəndə arvadın ya yeri qazıb batat çıxarır, ya çirkli yaylığını başına sarıyıb mayalı xəmir yoğurur, ya da yazı masasında dərsini hazırlayan Hun Çola göz qoyurdu. Bacın tez-tez deyirdi ki, cavanlığında əsgərlikdən yayınmaq üçün evdə gecələməzdin, indi də bu vərdişindən əl çəkə bilmirsən. Ancaq bir gün orda-burda gizlənməkdən yorulub polis şöbəsinə yollanmışdın. Beşcə yaş səndən böyük olan əmin səni geri qaytarmışdı:

– Ailəmiz qırıldı, ancaq böyük oğulun böyük oğlu yaşamalıdır.

Sən yaşamalı idin ki, ailə qəbiristanlığını qoruyasan, dini ayinləri keçirəsən. Ancaq bu, küləş doğrayan alətlə baş barmağının yarısını kəsən əmin üçün əsaslı səbəb deyildi və hər dəfə dini mərasimləri keçirən də sən yox, arvadın idi. Niyə belə oldu? Doğrudan, evi tərk etməyə məcbur qalıb aylarla açıq havada, ot üstündə yatdığına görə avara həyat tərzinə alışmışdın? Bəlkə də.

Dörd divar arasında yatanda səni yaxanı buraxmayan qorxu hissi bürüyürdü. Elə bilirdin, bu saat kimsə darvazadan girəcək və səni tutub aparacaq. Hətta bir dəfə gecənin ortasında özünü çölə atmışdın, sanki kimsə sənin dalınca düşmüşdü.

Bir dəfə qışda gecə vaxtı evə qayıtmış, uşaqların nə qədər böyüdüyünü görmüşdün. Onlar bir-birinə qısılıb yatmışdılar, çünki çöldə bərk şaxta var idi. Arvadın otağın ən isti küncündə saxladığı düyü kasasını çıxarmış və üstünə süfrə örtülmüş balaca masaya qoyub qabağına çəkmişdi. Həmin gecə çovğun qopmuşdu. Arvadın köz üstündə dəniz yosunları qızartmışdı. Perilla yağının ədviyyə ətrindən oyanan uşaqlar yanına yığış-

Telegram: @cinciva

mışdılar. Düyünü yosuna büküb sıra ilə onlara uzatmışdın. Böyüyün, sonra ortancılın, sonra da böyük qızın ağzına bir tikə qoymuşdun. Balaca qızına hazırlayıb verməyə macal tapmamış Hun Çol bitirib ikinci tikəni gözləmişdi. Yeməyi bir göz qırpımında çeynəyib udan uşaqlara çatdıra bilməmişdin. Onların iştahası səni qorxutmuşdu. Elə həmin an anlamışdın ki, ailəndən ötrü evdən kənardakı dünyanı unutmalı və bu evi bir daha tərk etməməlisən.

– Mən gəlmişəm!

Yataq otağının qapılarını taybatay açırsan. Otaq boşdur. Bir neçə dəsmal səliqəli qatlanıb evin küncünə qoyulub. Dəsmalları siz birlikdə Seula getməzdən qabaq arvadın qoymuşdu. Getdiyiniz gün dərmanla içib döşəməyə qoyduğun su stəkanda buxarlanıb. Divardakı saat gündüz üçü göstərir və arxa bağçaya baxan pəncərənin çölündəki bambuk ağaclarının kölgəsi döşəmənin üstündə uzanır.

– Dedim ki, mən gəlmişəm, – boş otağın ortasında dayanıb məyus halda çiyinlərini aşağı salaraq təkrar edirsən.

Bəs sən nə gözləyirdin? Təkbaşına evə qayıtmağına razı olmayan oğlundan canını qurtarıb səhər qatarı ilə Seuldan ayrılanda ürəyinin dərinliyində ümid edirdin ki, evə girib "Evdəsən? Mən gəlmişəm!" – deyəndə köhnə günlərdəki kimi gündəlik işlərini, ev təmizliyini, talvar altında tərəvəz təmizləməyi və ya mətbəxdə düyü yumağı bir kənara atıb səni qarşılayan arvadın olacaq? Nədənsə, bu cür fikirləşirdin. Amma ev boş idi. Ev tərk edilmiş xarabaya oxşayırdı, axı çoxdandır, burada kimsə yaşamırdı.

Evin bütün qapılarını açmağa başlayırsan. Hər qapının ağzında durub: "Burdasan?" – deyə soruşursan. Yataq otağının, qonaq otağının, mətbəxin, qazanxananın qapılarını açırsan.

Telegram: @cinciva

Ömründə birinci dəfədir ki, ümidsizcə arvadını axtarırsan. Yəqin, sən hər dəfə evdən çıxıb gedəndə o da səni məhz bu cür axtarırmış. Quru gözlərini yumub açır, mətbəxin pəncərəsindən talvara zilləyirsən.

– Ordasan?

Ancaq boş talvardan başqa bir şey görmürsən.

Hərdənbir bu yerdəcə durub həyətdə iş görən arvadına baxardın:

– Sənə nəsə lazımdır? – deyə sual verərdi.

– Corablarım hardadır? Şəhərə getmək istəyirəm, – deyərdin, o da dərhal rezin əlcəkləri çıxarıb evə girərdi ki, paltarını hazırlasın.

Sən boş talvara baxıb öz-özünə mızıldanırsan:

– Ey... Mən acmışam. Yemək var?

Ac olduğunu deyəndə arvadın o dəqiqə bütün işlərini, istiot təmizləməyi, küncüt yarpaqlarını çevirməyi, yaxud da kələm duzlamağı buraxıb: "Dağdan bir az fatsiya[17] yığmışam, istəyirsən, sənin üçün fatsiyadan oladya[18] bişirim? Bəlkə, ürəyin başqa bir şey istəyir?" – deyərdi. Niyə o vaxtlar dinc və xoşbəxt həyatına qiymət vermirdin? Nədənsə, arvadının ömür boyu qulluğunda duracağını sanırdın. Onunçün bircə dəfə də olsun dəniz yosunu şorbası bişirmədin. Bir dəfə arvadın qəsəbədən qayıdanda belə demişdi:

– Bazarda ət aldığın qəssab yadındadır? Bu gün yanından keçirdim, arvadı israrla içəri dəvət etdi. Mən də getdim. Məni dəniz yosunu şorbasına qonaq elədi. Soruşdum ki, nə bayramı qeyd edirsiniz? O cavab verdi ki, ad günüdür və əri xüsusi olaraq ona şorba bişirib.

17. Fatsiya – Bu bitki ümumiyyətlə dekorativ dibçə gülü kimi yetişdirilir. Koreya milli təbabətində də geniş istifadə edilir.
18. Oladya – Süd və ya su, yumurta və undan hazırlanan yemək.

Telegram: @cinciva

Sənsə sadəcə arvadına qulaq asmışdın.

– Şorba elə də dadlı deyildi, amma həyatında birinci dəfədir ki, qəssabın arvadına paxıllığın tutdu.

Hardasan?..

Bircə arvadın qayıtsın, sən ona nəinki dəniz yosunundan şorba, hətta oladya da bişirərsən.

Məni cəzalandırırsan?...

Gözlərində yaş var.

Nə vaxt istəsən, evdən çıxıb gedirdin, ürəyin istəyən vaxt da qayıdırdın, amma heç ağlına da gəlmirdi ki, bir gün bu evi birdəfəlik tərk edən məhz arvadın olacaq.

***

Arvadın itkin düşəndən sonra onu ilk dəfə harada gördüyünü xatırlayırsan. Bu, ailələriniz toyunuz barədə razılığa gələndən sonra idi. Sən onda onunla heç tanış deyildin. Müharibə Panmunhonda BMT və üsyançı kommunistlər arasında imzalanan atəşkəs sazişi ilə sona çatmışdı. Ancaq məşəqqətli və qarışıq günlər davam edirdi. Şimali Koreyalı ac əsgərlər gecələri dağlardan enib kəndləri qarət edirdilər.

Axşam olan kimi ailələr cavan qızlarını gizlədirdilər. Şayiə yayılmışdı ki, dağlarda gizlənən əsgərlər yeniyetmə qızları tutub aparırlar. Bəzi ailələr dəmir yollarının yaxınlığında quyular qazıb qızlarını orada gizlədirdilər. Qonum-qonşular bir evə yığılıb bütün gecəni oyaq keçirir, qorxudan tir-tir əsirdilər. Bəziləri isə tez-tələsik qızlarını ərə verirdilər. Arvadın əslən çinmolu idi. Bacın bir aydan sonra çinmolu bir qızla evlənəcəyini xəbər verəndə iyirmi yaşın yenicə tamam olmuşdu. O demişdi ki, siz bir-birinizə çox yaraşırsınız.

Çinmo sizin kənddən on ri[19] uzaqda yerləşən bir dağ kəndi-

19. Ri – 4 km-ə bərabər uzunluq vahidi.

Telegram: @cinciva

dir. O dövrdə insanlar, adətən, tanış olmadan, bir-birini görmədən ailə qururdular. Toyu oktyabr ayına tarlalarda çəltik yığımından sonra gəlingilin həyətinə salmışdılar. Bundan sonra nə vaxt gülümsəsən, hamı zarafatla: "Evlənirsən deyə üzün gülür", – deyərdi. Sən isə heç vaxt evlənmək barədə fikirləşməmişdin. Halbuki bacın təsərrüfat işlərini təkbaşına görürdü, hamı deyirdi ki, gərək tez arvad alasan. Bu, ağıllı fikir idi, amma sən hesab edirdin ki, heç vaxt görmədiyin bir qadınla yaşaya bilməzsən. Həyatını bu kənddə tarlada tər tökərək keçirməyə can atmırdın.

Güclü-qüvvətli və işgüzar insanların azaldığı o çətin günlərdə məcbur qalıb tarlaya uşaqları da aparırdılar, sən isə küçələrdə dostlarınla avaralanırdın. Dostlarınla şəhərə gedib pivəxana açmaq istəyirdin. Sənin fikrin evlənməkdə deyil, pivəxana açmaq üçün pul tapmaqda idi. Bəs onda niyə sən bir gün durub xəlvəti Çinmoya getdin?

Nişanlının yaşadığı evi sıx bambuk ağacları dövrələmişdi, həyətin küncündə də açıq-narıncı meyvəli xurma ağacı vardı. Nişanlın əynində pambıq bluz artırmada oturmuş, gərgahda simurq quşu naxışı vururdu. Parlaq günəş həyəti işıqlandırırdı, amma qızın üzü, nədənsə, kədərli idi. Qız hərdənbir boynunu uzadıb qüssəli baxışlarla payız səmasında şimala uçan qazları yola salırdı.

Ayağa durub artırmadan aşağı düşdü. Hiss elətdirmədən pambıq tarlasına qədər onu pusdun. Gələcək qayınanan çömələ-lib pambıq yığırdı. Qız onu uzaqdan səslədi, qayınanan isə: "Nə var?" – deyə soruşdu.

Artıq getmək istəyirdin. Amma birdən nəsə səni onlara yaxınlaşmağa və ağ pambıq kollarının arasında gizlənməyə vadar elədi. Qız anasını yenə səslədi, qadın isə ona baxmadan soruşdu ki, nə istəyir.

Telegram: @cinciva

– Ərə getmək vacibdir?

Sən nəfəsini tutdun.

– Olmaz ki, yanında qalım?

Pambıq qönçələrinin ipləri küləkdə dalğalanırdı.

– Yox.

Qız kədərli səsi ilə soruşdu:

– Niyə?

– Yoxsa, istəyirsən, səni dağa qaçırsınlar?!

Nişanlın susdu, sonra özünü yerə atıb hönkür-hönkür ağlamağa başladı. Bayaq artırmada oturub gərgahda naxış vuran təmizkar və ciddi görkəmli cavan qızdan əsər qalmamışdı. Qızın ümidsiz hönkürtülərinə baxıb sən də ona qoşulmaq istədin. Və onda sənin gələcək qayınanan işdən ayrılıb qızına tərəf çevrildi:

– Mənə qulaq as. Hələ çox cavansan, ona görə həyəcanlısan. Müharibə olmasa idi, səni bir neçə il də yanımda saxlayardım. ancaq neyləmək olar, dünya amansızdır. Ərə getmək elə də pis şey deyil. Əvvəl-axır bir gün, onsuz da, ərə gedəcəksən. Səni əldən-ayaqdan uzaq dağlarda dünyaya gətirmişəm. Məktəbə də göndərə bilmədim. De görüm, ərə getməsən, neyləyəcəksən? Nişanlının bürcü ilə sənin bürcünü tutuşdurdum, nikahınız uğurlu görsənir. Çoxlu uşaqlarınız olacaq, onlar böyüyəcək və həyatda uğurlar qazanacaqlar. Daha nə istəyirsən? Madam dünyaya qadın kimi gəlmisən, ərinlə bir damın altında xoşbəxt yaşamalısan. Uşaq doğmalı, əmizdirməli və böyütməlisən. Ağlama. Sənə narın tük kimi yorğanlar sırıyacam.

Qız hələ də ağlayırdı. Qayınanan onun çiyninə vurdu:

– Bəsdir, bəsdir, ağlama...

Nişanlın çarəsiz-çarəsiz ağlayırdı, anası da ona baxıb göz yaşlarını saxlaya bilmədi.

Telegram: @cinciva

Əgər o vaxt bir-birini qucaqlayaraq hönkürən ana ilə qızı görməsəydin, oktyabrın əvvəlində evdən çıxıb gedəcəkdin. Ancaq hər dəfə evinin artırmasında oturub gərgahda naxış vuran və pambıq vərlərindəki anasına səslənən qız yadına düşəndə, hər dəfə əsgərlərin onu qaçırması və dağlarda itib-batması barəsində fikirləşəndə evinizi tərk edib arzularının dalınca gedə bilmirdin.

Arvadın itkin düşəndən sonra evə qayıdıb düz üç gün, üç gecə yatdın. Hun Çolun evində gözünə yuxu getmədi. Səhərəcən gözlərini yumub uzandın. Yatanda da elə oyaq olurdun ki, kimsə otağından çıxıb hamama keçdimi, o dəqiqə gözlərini açırdın. Hər yemək vaxtı ürəyin istəməsə də, onların xətrinə süfrəyə otururdun. Amma bomboş evində ağzına bir tikə də qoymadan neçə gün ölü kimi yatdın.

***

Elə bilirdin ki, arvadını heç sevmirsən. Çünki evlənməmişdən əvvəl onu cəmi bircə dəfə görmüşdün. Amma hər dəfə sən evdən çıxıb harasa gedəndə çox keçmədən onu düşünməyə başlayırdın.

Arvadının əlləri qızıl idi. Onun gəlişi ilə ailənizə bərəkət gəlmişdi.

Yazda yoldaşın toyuğu kürt yatırıb otuz-qırx cücə alırdı. Çalağanların apardığı bir-iki cücəni saymasaq, hamısı sağ-salamat qalırdı. Bostana səpdiyi toxumlar elə tez cücərib böyüyürdü ki, məhsulu yığmağa macal tapmırdı. Kartof, kök və yer alması da əkib becərirdi. Hələ badımcan toxumları əkəndə bostan yay və payız boyu bənövşəyi badımcanlarla dolub daşırdı.

Onun əli dəyən hər şey bərəkətlənirdi. İşləməkdən başındakı tərli yaylığı çıxarmağa belə vaxtı olmurdu. Alaq otlarını vaxtında çıxarır, süfrədə qalan yemək artıqlarını xırdalayıb

Telegram: @cinciva

itlərin qablarına tökürdü. Toyuq-cücə üçün yem hazırlayırdı. Toyuqların zılını gübrə kimi bostana tökürdü. Nə əkirdi, qısa vaxtda böyüyüb bar verirdi. Hətta arvadına qara yaxmaq üçün fürsət axtaran bacın belə tarlasına toxum səpəndə, bibər əkəndə onu köməyə çağırırdı.

Evlənməzdən əvvəl gətirdiyin bütün itlər balalamadan ölmüşdü. Biri siçan zəhəri içib ayaqyoluna düşmüşdü. Biri də gedib girmişdi döşəmə sobasının içinə. Yanıq qoxusunu alanda sobanın qapağını açmış, itin ölüsünü çıxarmışdın. Bacın demişdi ki, sizə it saxlamaq düşmür.

Arvadın gələndən sonra qonşudan təzəcə doğulmuş bir küçük gətirdi. Evə gətirəndə bir əli ilə küçüyün gözlərini bağlamışdı. İtlərin çox ağıllı heyvan olduğunu düşünürdü.

Deyirdi ki, küçüyün gözlərini bağlamasan, anasının yanına qayıdar. Arvadın həmin küçüyü eyvanın altında saxladı. İt böyüyüb beş-altı dəfə bala verdi. Hətta bəzən bir dəfəyə on səkkiz bala doğur, küçüklərin zingiltisi bir-birinə qarışırdı.

***

Evə dönüşünün üçüncü günü gecənin bir vaxtı oyandın. Gözlərini tavana zilləyib sakitcə uzandın. Bu, nədir? Gözün, dolabın yuxarısına qoyulmuş, üstündə yin-yanq nişanəsi olan bir qutuya sataşdı. Tez ayağa qalxdın. Bir gün səhər tezdən arvadının yuxudan qalxıb həyəcanla səni çağırmağı yadına düşdü. Oyaq olsan da, cavab verməmişdin, çünki istəmirdin ki, kimsə səni narahat eləsin.

Arvadın dərin bir köks ötürmüşdü. "Nə olar, məndən çox yaşama!"

Heç nə deməmişdin.

– Kəfənini hazırlamışam. Dolabın üstündəki yin-yanq qutusunun içindədir. Mənimki də ordadır. Mən səndən əvvəl ölsəm, heç narahat olma. Əvvəlcə qutunu aşağı endir. Bilirəm,

Telegram: @cinciva

bir az bədxərclik eləmişəm. Ən keyfiyyətli kənaf lifindən hazırlatmışam. Dedilər ki, kənafı öz əlləri ilə yığıblar, parçasını da özləri hazırlayıblar. Çox xoşuna gələcək. Elə gözəldir ki...

Arvadın sənin ona qulaq asıb-asmadığını bilməsə belə, aram-aram səninlə danışırdı, elə bil dodağının altında ovsun oxuyurdu:

– Bu yaxında Tamyanq xala öləndə ağlamaqdan ərinin gözündə yaş qalmamışdı. Deyirdi ki, Tamyanq xala ölməmişdən əvvəl ona bahalı kəfən almamağı tapşırıb. Toy hanbokunu ütüləyib hazır qoyub. Vəsiyyət edib ki, öləndə onu geyindirsinlər. Həm də deyib ki, qızlarının toyunu görməmiş getdiyi üçün ərindən çox üzr istəyir. Ona çox xərc çəkilməsini də istəməyib. Tamyanq əmi bunları mənim çiynimə söykənib danışırdı. O qədər ağladı ki, göz yaşları paltarımı islatdı. O dedi ki, yoldaşını gecə-gündüz işlətməkdən başqa, heç nə eləməyib. İndi bir az imkanlarının yaxşılaşdığı vaxtda onun ölməsinə çox kədərlənir. Üstəlik, özü də söz verdirib ki, öləndə belə ona gözəl paltar almasın. Mən onun kimi olmaq istəmirəm. O dünyaya qəşəng paltarda getmək arzusundayam. Sən onları görmək istəyirsən?

Sən dinməmişdin, arvadın yenə ah çəkmişdi:

– Sən məndən əvvəl getməlisən. Məncə, ən doğrusu budur. Deyirlər ki, növbəsi çatan hər kəs bir-bir dünyaya gəlir. Hərçənd dünyadan köçəndə belə bir növbə olmur, amma biz gəldiyimiz sıra ilə getməliyik. Sən məndən üç yaş böyüksən, ona görə də üç il əvvəl getməlisən. İstəsən, üç gün əvvəl də gedə bilərsən. Mən də özümçün yaşayacam. Burda qala bilməsəm, Hun Çolgilə gedəcəm. Onlara da əl tutaram, sarımsaq təmizləyərəm, ev-eşiyi yığışdıraram. Bəs sən məndən sonraya qalsan, halın necə olacaq? Sən özün özünə baxa bilmirsən axı. Gərək ömrün boyu kimsə sənin qulluğunda dursun. Bilirəm ki, özün bacarmazsan. Heç kim istəməz ki, üst-başından pis

Telegram: @cinciva

qoxu gələn, baxımsız, qaradinməz və yaşlı bir kişi gəlib yerini dar eləsin. İndi biz uşaqlarımıza yükdən başqa bir şey deyilik. Daha onlara bir faydamız dəymir. Deyirlər ki, bir evə girməzdən əvvəl orada yaşlı bir adamın olub-olmadığını bilmək olur. Çünki yaşlı adamların qaldığı evlərdən pis qoxu gəlir. Yaşlı qadın birtəhər öz başının çarəsinə baxa bilər. Amma qoca kişiyə qulluq edən lazımdır. Çox yaşamaq istəsən də, məndən uzun yaşama. Mən səni qəşəngcə dəfn eləyib özüm də yanına gələcəm. Söz verirəm.

Dolabın üstündəki qutunu götürmək üçün oturacağa çıxdın. Əslində, burada iki qutu var. Ölçülərinə baxanda bilmək olur ki, öndəki qutu səninkidir. Arxadakı isə arvadının. Aşağıdan baxanda bu qədər iri görünmürdü.

Arvadın demişdi ki, ömründə belə gözəl parça görməyib. Onu almaq üçün xeyli yol gedəsi olub. Qutunun içində ağappaq bağlamaya bükülmüş kənaf kəfən və yas paltarı var idi. Bağlamanın düyünlərini bir-bir açırsan. Kənaf döşək üzü, kənaf yorğan üzü, ayaqları və əlləri sarımaq üçün kənaf parça – hamısı səliqə ilə qoyulub.

"Axı demişdin, əvvəlcə məni yola salıb sonra gedəcəksən..." Gözlərini döyə-döyə öləndən sonra sənin və arvadının əl-ayaq barmaqlarına sarılacaq kənaf parçalara baxırsan.

***

İki qız uşağı bağça qapısından həyətə girib: "Baba!" deyə sənə tərəf qaçır. Onlar dərə kənarında yaşayan Tae Sopun qızlarıdır. Uşaqlar evin başına fırlanmağa başlayırlar. Yəqin, arvadını axtarırlar. Taeconda bir Çin restoranını işlədən Tae Sop qızlarını atıb yoxa çıxmışdı. Qızlar ana nənəsinin yanında qalırdılar. Amma nənələri o qədər yaşlı idi ki, özünə güclə baxırdı.

Bəlkə də, Tae Sopun əli gətirmirdi. Arvadın hər dəfə qızları görəndə: "Tae Sop belədirsə, kim bilir, arvadı necədir?!" –

Telegram: @cinciva

deyərdi. Şayiələrə görə Tae Sopun arvadı restoranın aşpazına qoşulub qaçmışdı. Arvadın nənələrinə deyil, qızlara baxırdı. Bir gün ac olduqlarını görüb qızları səhər yeməyinə evə gətirmişdi. Ertəsi gün səhərin gözü açılmamış qızlar yenə gəlmişdilər. Arvadın əlavə iki qaşıq qoyub onları süfrəyə oturtmuşdu. Bundan sonra qızlar hər yeməkdə qapınızı döyürdülər. Bəzən yemək hazır olmayanda yerdə uzanıb oyun oynayırdılar. Süfrəyə yemək gələn kimi öz yerlərinə keçirdilər. Tikələri elə acgözlüklə içəri ötürürdülər ki, elə bil ömürlərində yemək yeməmişdilər. Onlara məəttəl qalırdın. Amma arvadın onlara tərəf çıxırdı, elə bil doğmaca nəvələri idi. "Yəqin, çox acıblar!" – deyirdi. "Şükür, güzəranımız yaxşıdır... Qoy gəlsinlər... Evimiz şənlənər!"

Qızlar evinizə ayaq açandan sonra arvadın səhərləri də badımcan közərdir, skumbriya buğlaması bişirirdi. Şəhərdən uşaqlar gələndə meyvə ya da şirniyyat gətirirdilər. Arvadın qızlar gələnədək heç kimə yemək vermirdi. Arvadın onları doyurmağı özünə borc bilirdi. Qəsəbə mərkəzindəki mağazanın sahibi Pon Şik arvadını avtobus dayanacağında tapıb gətirən günu bilmədin ki, qızlar nə yedi. Bəs arvadın Ok-çol dəmiryolunun o üzündəki tarlalara göy-göyərti yığmağa gedəndə qızlar nə yeyir, nə içirdilər? Seulda qaldığın günlərdə isə qızları tamam unutmuşdun.

Qızların böyüyü quyunun həndəvərinə, anbara, arxa bağçaya, hətta otaqlara bir-bir baxandan sonra: "Baba, nənə haradadır?!" – deyə soruşur. Balacası da yanına gəlib səndən cavab gözləyir. Doğrudan, o, haradadır? Hələ də sağdır?! Qızları gözlədirsən. Bankadan bir qaşıq düyü götürüb elektrikli qazana tökürsən. Qızlar yenə bir-bir otaqların qapılarını açıb baxırlar. Duruxursan. Heç vaxt düyü bişirmədiyinə görə, nə qədər su tökəcəyini bilmirsən. Sonra yarım fincan su töküb düyməyə basırsan.

Telegram: @cinciva

O gün metro stansiyasında qatar yerindən tərpənəndən bir neçə dəqiqə sonra gördün ki, arvadın yanında deyil. Elə bilirdin, dalınca minib. Qatar Namyonq stansiyasında dayanıb yenidən hərəkət edəndə səni vahimə basdı. Ürəyin guphagup döyünürdü. Arxaya baxmaqdan qorxurdun. Başa düşəndə ki, arvadını qoyub qatara tək minmisən, qəfil arxaya çevrildin, yanındakı adamın çiyninə dəydin. Onda anladın ki, həyatın məhv oldu. Tələsik yerişin ucbatından əlli illik ailə həyatında bircə dəfə də arvadınla yan-yana getməmişdin, bu da nəticəsi! "Qatara tərəf gedəndə arxaya baxsaydın, nə olacaqdı?", "Yavaş getsən, dünya dağılar?!", "Hara tələsirsən?!" deyə öz-özünü qınasan da, iş-işdən keçmişdi. İllərlə arxanca gəzən arvadının qatara minmədiyini görsəydin, belə olmazdı axı. Dayanıb onu gözləsəydin, arvadın utana-utana gülümsəyər, "Çox yavaş gəzirəm, elə?" – deyərdi.

"Bizi belə görsələr, nə deyərlər? – deyə soruşardı, – Bir damın altında yaşayırıq. Amma birimiz qabaqda, birimiz arxada gedirik. Görənlər deyər, yəqin, bunlar bir-birinə elə nifrət edir ki, yolu da yanaşı getmirlər. Camaat niyə belə düşünsün ki? Qorxma, əlindən tutan deyiləm. Bir az yavaş yeri. Görürsən ki, çata bilmirəm".

Yəqin arvadın ürəyinə dammışdı. Ailə qurandan bəri elə hey sənə: "Bir az yavaş yeri!" deyirdi. Ömür boyu səndən bunu istədi, sənsə bircə dəfə əməl eləmədin. Bəzən ayaq saxlayıb gözləyərdin, amma heç vaxt onun istədiyi kimi, söhbət edə-edə yol getməzdin.

Arvadın itkin düşəndən sonra hər dəfə yeyin yeridiyini düşünəndə az qalırdı, ürəyin partlasın.

Ömür boyu arvadından qabaqda yeridin. Bəzən arxaya baxmadan tini dönürdün. Arvadın arxanca səslənəndə: "Niyə belə

Telegram: @cinciva

ləngsən?!" deyib üstünə çımxırırdın. Beləcə, əlli il gəlib keçdi. Ayaq saxlayıb gözləyəndə üzü qıpqırmızı və təngnəfəs olan arvadın: "Nə olar, bir az yavaş yeri! – deyirdi. Elə bilirdin ki, ömür boyu bu cür yaşayacaqsan. Amma arvadını gözləməyib qatara mindiyin gün o, sənə çata bilmədi.

Artırmada əməliyyat olan ayağını qaldırıb tirin üstünə qoyursan. Bir tərəfdən də qızların kimçi və pançanla çiy düyünü iştaha ilə yeməyinə baxırsan. Əməliyyatdan sonra ayağındakı ağrı keçmişdi. Qan dövranı da qaydasına düşmüşdü. Amma sol ayağını qatlaya bilmirdin.

– İsti əski qoyum?

Arvadının sözləri qulaqlarında cingildəyir. Tünd günəş ləkəli əlləri ilə ocağa bir qazan su asıb qaynadar, dəsmalı suya salıb cavab verməsən də, dizinə qoyardı. Qabar əlləri ilə dəsmalı dizinə basanda bircə gün də olsa, səndən artıq yaşamağını arzulayardın. İstəyirdin ki, öləndə gözlərini arvadın qapasın, soyumuş bədənini övladların yuyub kəfənləsin.

Arvadını metro stansiyasında itirən, ayağını uzadıb tirin üstünə qoyan sən indi: "Hardasan?!" deyib çarəsiz sızıldayırsan.

Qızlar yeməklərini yeyib çoxdan gediblər. Arvadın itkin düşəli boğazında düyünlənən hıçqırıqları boğmağa çalışaraq qışqırırsan. Oğlanlarının, qızlarının və gəlinlərinin yanında nə qışqıra, nə də ağlaya bilirdin. Göz yaşların sel olub axır. İki gün fərqlə vəbadan ölən valideynlərini torpağa basdırdığın gün axmayan göz yaşların... O vaxt heç on yaşın da yox idi. İstəsən də, ağlaya bilməmişdin. Valideynlərini basdırandan sonra soyuqdan əsə-əsə, qorxa-qorxa dağdan kəndə enmişdin.

Ailənin bir inəyi vardı. Cənubi koreyalı əsgərlər kəndə gələndə tarlanı bu inəklə şumlayırdın. O vaxtlar Şimali koreyalı əsgərlər gecənin bir aləmində dağdan kəndə düşüb insanları

Telegram: @cinciva

və heyvanları qaçırırdılar. Günəş batar-batmaz inəyi sürüb qəsəbəyə aparırdın. Polis məntəqəsinin yanına bağlayırdın. Başını inəyin qarnına qoyub yuxuya gedirdin. Səhər açılanda inəyi kəndə sürüb tarlanı şumlayırdın.

Bir gecə əsgərlərin çıxıb getdiyini sanıb inəyi qəsəbəyə sürməmişdin. Həmin gecə əsgərlər qəfil kəndi basıb inəyi aparmaq istədilər. Əsgərlərin dalınca düşdün. Yolunu kəsən bacını itələyib yerə yıxdın. Əsgərlər tüfəngin qundağı ilə səni vurdular. Amma gözlərindən bir damcı da yaş çıxmadı.

Kəndlilərlə bataqlığa dönən çəltik tarlasına sürgün ediləndə, irticaçılıqda ittiham ediləndə, bambuq nizəsi boynuna saplananda ağlamayan sən indi hönkürürsən. İndi başa düşürsən ki, arvadının səndən çox yaşamasını istəməklə ancaq özünü düşünmüsən. Arvadının xəstəliyini ciddi qəbul etməməyin də elə xudbinliyindən olub. Gecə evə gələndə arvadının əslində mışıl-mışıl yatmadığını, baş ağrısının şiddətindən gözünü bərk-bərk yumduğunu da bilirdin. Amma nədənsə görməməzliyə vururdun. Arvadının iti yedirmək üçün həyətə çıxanda çaşıb quyuya tərəf getdiyini, evdən çıxıb darvazanın yanına çatanda getdiyi yeri unudub nə edəcəyini bilmədiyini, sonra da çar-naçar evə qayıtdığını görürdün.

Ağrıdan qıvrılan arvadın evin içində sürünə-sürünə birtəhər yastığı tapıb uzananda sən ona ötəri baxmaqla kifayətlənirdin. Çünki evdə ancaq sənin canın ağrıya bilərdi, ancaq sənin qulluğunda durulmalı idi. Hərdənbir arvadın qarnı ağrıdığını söyləyəndə sözünü qurtarmağa imkan verməz, "Mənim də kürəyim ağrıyır", – deyə özünü ortaya atırdın. Sən xəstə olanda o, əlini sənin alnına qoyar, qarnını ovxalayar, gedib aptekdən dərman alar, sənə maş lobyalı sıyıq hazırlayardı. O xəstə yatanda isə: "Get dərman iç", – deyərdin, vəssalam.

Arvadının mədəsi pozulub günlərlə ac qalanda ona bir stəkan ilıq su belə verməmişdin.

Telegram: @cinciva

Hər şey bütün meylini davul çala-çala ölkəni qarış-qarış gəzməyə saldığın gündən başladı. İki həftə sonra evə qayıdanda artıq bir qızın olmuşdu. Əbəlik edən bacın dedi ki, doğuş asan keçib, amma arvadın bərk ishal olub. Yazığın üzü avazımışdı. Almacıq sümükləri də çıxmışdı... Halı yaxşı deyildi. Təcili bir şey eləməliydin, yoxsa özünə gələ bilməzdi. Bacına bir az pul verib bəzi Çin dərmanlarından almağı tapşırdın.

***

Boş evin eyvanında oturmusan və hıçqırıqların get-gedə artır.

İndi başa düşürsən ki, həmin gün birinci və axırıncı dəfə idi ki, arvadın üçün dərmana pul verirdin.

Bacın üç qutu dərman alıb gətirmişdi. Onları qaynadıb yoldaşına içirmişdi. Sonralar arvadın hər dəfə ishal olanda deyərdi ki, kaş o vaxt dərmanı iki qutu artıq alaydıq. İndi bu xəstəlikdən tam sağalmışdı.

Sənin qohum-əqrəban arvadını çox istəyirdi. Onlar sizə qonaq gələndə "salam-sağ ol" deməkdən başqa bir şey eləməzdin. Çoxu arvadına görə sizə gələrdi. Hamı deyərdi ki, o, bişirdiyi yeməklərə sevgi qatır. Adicə göy-göyərti ilə lobya əzməsi şorbası bişirər, Çin kələmini duzlayıb yanında süfrəyə qoyardı, hamı da iştaha ilə yeyərdi. Sonra da şorbası və kələm turşusunu ağızdolusu tərifləyərdilər.

Yay tətilində bacın və qardaşın uşaqları sizdə qalanda "O qədər kökəlmişik ki, şalvarımızın düymələri bağlanmır" deyirdilər. Hamı arvadının bişirdiyi plovun adamı kökəltdiyini söyləyirdi. Sən qonşularla tarlada çəltik əkəndə arvadın da nahara düyü bişirmiş, qılınc balığıyla təzə kartof pörtlədib gətirmişdi. Hamı əlindəki işi bir kənara qoyub sizin yanınıza gəlmişdi. Hətta yoldan keçənlər belə ayaq saxlamışdılar. Kəndlilər sizin tarla işlərinizə kömək etməyə can atardılar. Qonum-qonşu de-

Telegram: @cinciva

yırdi, arvadının hazırladığı nahardan yeyəndə həmin gün iki dəfə çox işləyə bilirlər.

Nahar vaxtı səyyar bir yemiş, ya da paltar satıcısı küçədən keçəndə arvadın onu içəri çağırıb yedirərdi. Tanımadığı adamları belə süfrəyə dəvət edən, hamıyla yaxşı yola gedən arvadın bircə sənin bacınla dil tapa bilmirdi.

Hər dəfə ishal olanda dərman məsələsini yada salardı:

"O vaxt o dərmandan ikicə qutu artıq içsəydim, indiyə əməlli-başlı sağalmışdım... Doğuşdan təzəcə çıxdığımı, tam sağalmaq üçün əlavə iki qutu dərmana ehtiyac olduğunu dedim. Bacın sir-sifətini turşudub: "Əlavə dərmana nə ehtiyac var? Bu qədər bəsdir", – deyib macal vermədi. O vaxt əlavə iki qutu dərman içsəydim, bu gün bu əziyyəti çəkməzdim".

Amma bunların heç biri yadında qalmırdı. Arvadının hər dəfə qarnı pozulanda bu dərmandan söz salsa da, ona dərman almamışdın.

İshal olanda yeməkdən kəsilərdi. Günlərlə ac-susuz qalmağını anlaya bilmirdin. Cavan vaxtı bunu heç vecinə almazdın. Amma yaşlandıqca belə vaxtlarda nəsə yeyib-yeməyəcəyini soruşurdun. O da ağrıdan qıvrıla-qıvrıla deyirdi ki, heyvanlar xəstə olanda heç nə yemirlər. İnəklər xəstələnəndə dillərinə bir şey vurmurlar. Toyuqlar da. İtlər də xəstələnəndə iştahadan kəsilirlər. Xəstə olanda ətin üzünə belə baxmırlar. Ən sevdiyi şeyi də qabağına qoysan, yaxın durmur, damının önündə bir quyu qazır, içinə girib uzanırlar. Bir neçə gün sonra özlərinə gəlir, yeməyə başlayırlar. Adamlar da elədir. Mədəm çox narahatdır, bu dəqiqə ən ləzzətli yeməyi belə gətirib qabağıma qoysan, elə bilərəm, zəhər yeyirəm.

Ağrısı keçmək bilməyəndə quru Yapon xurmalarını rəndələyib bir qaşıq yeyərdi. Həkimə getmək istəməzdi. "Quru xurma nə vaxtdan dərman olub? Bir həkimə get, aptekdən dərman

Telegram: @cinciva

al", – deyərdin ona. Qulaq asmazdı. Çox üstünə gedəndə: "Dedim axı, həkimə getməyəcəm!" – son sözünü deyərdi.

Bir dəfə sən yayda evdən çıxmış, bir də qışda qayıtmışdın. Evə gələndə arvadının sol döşündə şiş olduğunu öyrəndin. Sən bunun normal olmadığını dedin, amma qulaqardına vurdu. Ancaq döşünün giləsi içəri batanda və maye axmağa başlayanda arvadını qəsəbənin xəstəxanasına apardın. Xəstəxanaya çatanda iş görərkən bağladığı yaylığı hələ də başında idi. Həkimlər xəstəlik haqqında dəqiq bir şey demədilər. Sadəcə dedilər ki, müayinə edib 10 gün içində nəticələri bildirəcəklər. Arvadın bunu eşidəndə dərin bir köks ötürmüşdü. O on gün ərzində nə baş verdi? O vaxtlar hansı vacib işlə məşğul idin ki, heç nəticələri almağa da getmədin. Arvadının xəstəliyi ilə niyə maraqlanmadın? Bir də arvadının döşü irinləyəndə onu həkimə apardın. Həkim də xəstəliyin döş xərçəngi olduğunu dedi.

– Nə? Xərçəng?

Arvadın buna inanmaq istəmədi. Dedi ki, görüləsi o qədər işi var ki, uzanıb yatmağa vaxtı yoxdur.

Həkim izah elədi ki, əvvəllər arvadında bu xəstəliyə meyillilik olmayıb. Uşaqları vaxtında dünyaya gətirib, süd verib, erkən yaşında aybaşı olmayıb. Ət yeməyi xoşlayıb. İstəsə də, yeyə bilməzdi. Ət almağa pul hardaydı?! Ancaq yenə də xərçəng sol döşündə sürətlə yayılırdı. Əgər vaxtında analiz nəticələrini öyrənsəydin, bəlkə də, döşünü kəsməzdilər. Əməliyyatdan sonra sarğısı hələ açılmamış kartof əkməyə başlamışdı. Cücərmiş kartofları basdıra-basdıra bir daha həkimə getməyəcəyini deyirdi. Çünki sən əməliyyatın pulunu ödəmək üçün tarlanı satmışdın. O nəinki həkimə getməkdən imtina etdi, hətta səni də özünə bir daha yaxın buraxmadı.

Ad gününü qeyd etmək üçün Seula getmək vaxtı gələndə arvadının mədəsi pozuldu. Çox zəiflədi. Narahat idin ki, yola çıxa

Telegram: @cinciva

bilməyəcəksiniz. Arvadın qəsəbəyə gedib banan almağı xahiş elədi. İki xurma qurusu ilə yarım banan qarışdırıb gündə üç dəfə qəbul elədi. İshaldan düz on gün yataqdan qalxmadı. Halbuki zahılıq vaxtlarından savayı, bir həftədən artıq yatmazdı. Üstəlik, get-gedə mərasim tarixlərini də unutmağa başlamışdı. Hərdənbir kimçi hazırlayan yerdə gözünü boşluğa dikib qalırdı. Ona nə olduğunu soruşanda da: "Görəsən, sarımsaq turşusunu qoymuşam, ya yox", – deyirdi.

Bir dəfə də qaynar lobya qazanını əsgisiz götürüb əllərini yandırmışdı. Onda sən bunu qocalığın ayağına yazmışdın. Çünki sən özün də çox sevdiyin davul çalmağı yadırğamağa başlamışdın. Bu yaşda olur belə şeylər... Hər şey bir gün yaşlanır... Xəstəlik isə qocaların yol yoldaşıdır... Arvadın da, yəqin, bu çağlardadır deyirdin.

– Evdəsən?

Bacının səsini eşidib gözlərini açırsan. Bir an ağlından keçir ki, arvadının səsini eşidirsən. Halbuki çox gözəl bilirsən ki, belə tezdən yanına ancaq bacın gələ bilər.

– İçəri girirəm, – deyib yataq otağının qapısını taybatay açır.

Əlində çərəz və düyü kasaları qoyulmuş sini var. Kasaların üstü ağ dəsmalla örtülüb. Sinini küncə – döşəməyə ehtiyatla qoyub sənə baxır.

Bacın düz qırx il əvvəl burada sizinlə yaşamışdı. Sonra təzə yola yaxın bir ev tikdirib köçmüşdü. Amma yenə də hər gün səhər tezdən durub saçlarını darayır, sancaqla bərkidir, sonra sizin evə gəlirdi. O, dan yeri ağarmadan evinizin ətrafında dövrə vurmamış çıxıb getmirdi. Arvadın həmişə sakitcə evin başına fırlanan, əvvəlcə qabaq həyətdən yan həyətə keçən, sonra da arxa bağçaya adlayan bacının ayaq səslərini eşidirdi.

Telegram: @cinciva

Çarpayıda: "Yenə gəlib!" – deyə mızıldana-mızıldana çevrilirdi. Sonra ayağa dururdu. Bacın sadəcə evin ətrafında dövrə vurub gedirdi. Bəlkə də, əmin olmaq istəyirdi ki, gecə evə bir şey olmayıb, hər şey qaydasındadır. Cavanlığında bir gündə iki qardaşını və iki gün fərqlə valideynlərini torpağa vermişdi. Az qala səni də müharibədə itirəcəkdi. Toydan sonra kənddə qaldı, əri onun evinə köçdü. Çox keçmədi ki, əri bir yanğında öldü və bu ağır itkinin ağrısı bacının ürəyində dərin kök saldı.

– Yataq sərməyə də macalın olmayıb? – Cavanlıqda uşaqsız və dul qalan bacının cəsur gözləri indi yorğun görünür. Onun səliqə ilə darayıb sancaqla bərkitdiyi saçları tamam ağarıb. Səkkiz yaş səndən böyük olsa da, qaməti səndən dikdir. Yanında əyləşir, siqaretini çıxarıb dodaqları ilə sıxır.

– Tərgitməmişdin?

Bacın cavab vermək əvəzinə alışqanı şıqqıldadıb siqareti tüstülədir.

– İt məndədir. İstəsən, apara bilərsən.

– Qoy səndə qalsın... Yəqin, mən Seula qayıdaram.

– Orada neyləyəcəksən?

Sən cavab vermirsən.

– Niyə tək qayıtdın? Gərək axtarıb tapaydın, onu bura gətirəydin!

– Dedim, bəlkə, o, bura gələr.

– Gəlsəydi, hər halda dərhal sənə zəng vurardım.

Sən susursan.

– Bu, nə hərəkətdir, edirsən, vecsiz adam?! Kişi heç arvadını itirər?! Yazıq arvadı orda qoyub evə necə gəldin?

Sən diqqətlə ağsaçlı bacına baxırsan. Əvvəllər arvadın haqda heç belə danışmazdı. Söhbət arvadından düşəndə bacın həmişə narazı halda ağzını çırtıldadırdı. Arvadına ona görə ilişir-

Telegram: @cinciva

di ki, gəlin gələndən sonra iki il hamilə qalmamışdı. Hun Çol doğulanda isə bacın nə desə, yaxşıdır:

– Sən bir buna bax! Guya qeyri-adi bir iş görüb?!

Bacın uzun illər sizinlə yaşamışdı, ancaq bircə dəfə də olsun hər yeməkdən qabaq həvəngdə buğda döyən arvadına kömək eləməmişdi. Amma gərək haqqı deyəsən, hər doğumdan sonra arvadına əl tutmuşdu.

– Ölməzdən əvvəl ona deyəsi sözüm vardı. İndi mən bunu kimə deyim?

– Nə demək istəyirdin?

– Bir-iki şey...

– Ona necə qəddarlıq elədiyini deyəcəkdin?

– Bunu sənə o deyib?

Bacına baxırsan. Yoxsa, belə deyil? Hamı bilirdi ki, sənin bacın özünü baldız kimi deyil, zalım qayınana kimi aparıb. Hamı belə fikirləşirdi, amma bacın buna çox əsəbiləşirdi. O deyirdi ki, elə belə də olmalıdır, çünki ailədə ondan yaşlı adam, yəni bir ağsaqqal, ağbirçək yoxdur. Görünür, qardaşı arvadı ilə ağır rəftarının səbəbi də elə bu idi.

Bacın portsiqarından bir siqaret də götürüb dişlərinin arasına qoyur. Sən alışqanı ona tutursan. Arvadın itkin düşəndən sonra bacın təzədən siqaretə başlayıb. Onu siqaretsiz təsəvvür eləmək çətin idi. Yuxudan durar-durmaz əlini siqaretə atırdı. Həddən artıq çox çəkirdi, amma sən heç vaxt ona tərgitdirməyə çalışmamısan. Əslində, sən bu barədə ona bir söz deyə bilmirdin. Əri yanğında öləndən sonra sən onu ilk görəndə gözünü evinin kül yığınına zilləyib siqaret çəkirdi. Heykəl kimi dayanıb siqareti siqaretə calayırdı. Göz bulaqları qurumuşdu. Yemək yemir, yatmır, elə hey siqaret çəkirdi. Yanğından üç ay keçmişdi, ondan tütün iyi gəlirdi, siqaretin qoxusu dərisinə hopmuşdu.

Telegram: @cinciva

– Çox yaşamaram, – demişdi bacın əlli yaşı tamam olan gün, – İllərdir, düşünürdüm ki, alnıma çətin və kədərli tale yazılıb. Nəyim var? Nə uşağım, ümumən, heç nəyim. Qardaşlarımız öləndə öz-özümə deyirdim ki, kaş onların yerinə mən öləydim. Ancaq valideynlərimi itirəndə bir Kun qaldı, bir də sən. Ərimi sevməyə macal tapmadan o da öldü... Və səni nəinki qardaş, həm də övlad kimi gördüm. Övladım və məhəbbətim...

Bu, doğru idi.

İnsultdan sonra sən yarı iflic halda yatanda bacın ilin üç fəslini – yaz, yay və payız aylarını şeh yığmaqla keçirmişdi. Eşitmişdi ki, hər gün bir kasa şeh suyu içsən, sağalacaqsan. Bir kasa şeh yığmaq üçün erkəndən durub dan yerinin sökülməsini gözləyirdi. Onda arvadın bacından şikayət etməkdən əl çəkmiş, hətta onun hörmətini saxlamağa başlamışdı, elə bil, həqiqətən, qayınanası idi. Bir dəfə bacının fədakarlığına heyrətini də gizlətməmişdi: "Hətta mən də bunu edə bilməzdim!"

– Ölməzdən qabaq ona üç şeyə peşman olduğumu demək istəyərdim, – sözünə davam edir bacın.

– Nədən peşmansan?

– Kuna görə, ərik ağacını kəsəndə onun üstünə qışqırdığıma görə və qarın ağrısından əziyyət çəkəndə dərman vermədiyimə görə...

Sən bir söz demirsən.

Bacın ayağa durur və ağ dəsmalla örtülü sinini göstərir:

– Sənə yemək gətirmişəm, acanda yeyərsən. İstəyirsən, indi ye.

– Yox, hələlik ac deyiləm. Yuxudan indi durmuşam.

Ayağa qalxırsan. Bacının dalınca düşüb evi dövrə vurursan. Baxımsızlıqdan hər tərəf çirklənib. Bacın evin arxasına keçir, küp qapaqlarının tozunu silir.

– Səncə, Kun cənnətə gedib? – birdən soruşur.

Telegram: @cinciva

– Bu, hardan yadına düşdü?

– Yəqin, Kun da onu axtarır. Onu yuxuda gördüm və fikirləşdim ki, sağ qalsaydı, görən, necə olardı?

– Bizim kimi qocalardı...

Sən evlənəndə iyirmi, nişanlın isə on yeddi yaşında idi. Balaca qardaşın Kun altıncı sinifdə oxuyurdu. İstedadlı uşaq idi və yaşıdlarından əməlli seçilirdi. Ağıllı, adama yovuşan, yaraşıqlı oğlandı, dərsləri də əla idi. Kunun yanından keçənlər dönüb ona bir də baxırdılar. Belə bir oğlu olan ailəyə paxıllıq edənlər də vardı. Ancaq o, sizin imkansızlığınız ucbatından orta məktəbi yarımçıq qoymalı oldu (orta məktəb ödənişli idi). Ağlaya-ağlaya sizə yalvardı ki, ona icazə verəsiniz.

Səsi hələ də qulağından getmir:

– Yalvarıram, məni məktəbə göndərin, qardaş. Yalvarıram, məni oxudun, bacı.

Hər gün ağlayıb-sıtqayırdı. Müharibədən bir neçə il keçməsinə baxmayaraq, siz hələ də kasıbçılığın daşını ata bilməmişdiniz. Bəzən o vaxt baş verən hadisələr sənə kabus kimi gəlir.

Bambuk nizəsi ilə boğazından yaralanmışdın, yaşamağın bir möcüzə idi. Böyük qardaş kimi ailəni dolandıra bilmirdin, əlindən bir iş gəlmirdi. Evdən çıxıb getmək istəməyinin səbəbi də məhz bu idi. Qardaşını oxutmaq bir yana, bir qarın yemək belə güclə tapılırdı. Sizdə bir ümid işığı görməyən Kun arvadına yalvarmağa başlamışdı:

– Bacıcan, yalvarıram, məni məktəbə göndərin. Yalvarıram, məni məktəbə göndərin. Ömür boyu sizə minnətdar olaram.

Və arvadın sənə üz tutmuşdu:

– Madam bu qədər oxumaq istəyir, bəlkə, bir yol tapıb oxudaq?

– Mən də məktəbə getməmişəm. Şükür eləsin ki, heç olmasa, ibtidai məktəbi bitirib, – demişdin tərs-tərs.

Telegram: @cinciva

Sən atanın ucbatından oxumamısan. Atan Çin təbabəti üzrə həkim idi. Epidemiyada iki oğlu öləndən sonra istər məktəb, istər başqa yer olsun, sənin qələbəlik məkanlara getməyinə icazə vermirdi. Qorxurdu ki, sən də bir xəstəliyə tutularsan. Səni yanında oturdub səbirlə çin heroqlifləri öyrədirdi.

– Gəl onu göndərək, – demişdi arvadın.

– Nə ilə?

– Bəlkə, bağçanı sataq?

Bacın bunu eşidib əsəbiləşmişdi ki, arvadın axırda ailəmizi quru yurdda qoyacaq. Acıqlanıb arvadını evdən qovmuşdu. Üstündən on gün keçmişdi, bərk içmişdin, gecənin bir aləmində ayaqların səni qayınana evinə apardı. Dağ yolu ilə yıxıla-yıxıla evlərinə çatdın və işıq yanan otağın pəncərəsi altında dayanıb bambukların arasında gizləndin. Sən ora arvadını evə aparmağa gəlməmişdin. Səni ora aparan, tarlasını belləməyə kömək elədiyin qonşunun verdiyi düyü şərabı – maqoli idi. Arvadını sən qovmasan da, qayınana evinə girməyə ürək etmirdin. Ona görə də orada palçıqlı divara söykənib gözlədin. Qayınananla arvadının söhbətinə qulaq verdin. Qayınanan səsini yüksəldərək:

– O lənətə gələsi evə bir də qayıtma! Yığ şələ-şüləni, çıx gəl!

Arvadın burnunu çəkib israr edirdi:

– Ölsəm də, o evdə öləcəm. Niyə çıxmalıyam? Ora mənim də evimdir.

Sən eləcə divarın yanında gecələmişdin. Günəşin ilk şüaları bambukları işıqlandıranda səhər yeməyi hazırlamaqçün həyətə düşən arvadının qolundan tutdun. Bütün gecə ağlamaqdan onun iri, qara və mehriban gözləri şişmişdi. Sən onun əlindən tutub çəkə-çəkə öz evinə sarı yola düşdün. Bambuk meşəsindən keçəndən sonra əlini buraxdın və qabaqda yeriməyə başladın. Yol kənarında otların şehi paltarını isladırdı.

Telegram: @cinciva

Təngnəfəs olan arvadın arxanca tələsirdi:

– Nə olar, bir az yavaş yeri!

Siz evə gələndə Kun "Bacı!" deyə qışqıraraq qabağınıza qaçdı.

– Bacıcan, – dedi, – Söz verirəm, bir də məktəbin adını tutmayacam. Təki sən getmə!

Kunun gözləri yaşla doldu; arzularından əl çəkməli olmuşdu. O vaxtdan məktəbi buraxan Kun başladı var gücü ilə arvadına təsərrüfat işlərində kömək eləməyə. Dağın ətəyində, tarlada işləyəndə Kun bəzən hündür darı zəmisinin içində arvadını gözdən itirir, tələş içində: "Bacıcan!" – deyə səslənirdi. "Həəəə!" səsini eşidəndə gülümsəyib təkrar səslənirdi, o da hay verirdi. Beləcə, bir-birini səsləyə-səsləyə dağlarda işləyirdilər. Sən günlərlə evdə olmayanda arvadın hara getsə, Kunu hökmən özü ilə aparırdı.

Get-gedə böyüyən, qoluna qüvvət, dizinə təpər gələn Kun artıq yaz açılanda öküzü xışa qoşub tarlanı şumlayır, payızda isə hamıdan qabaq düyünü yığıb qurtarırdı. Payızın sonlarında səhər tezdən bağa yollanır, kələm yığırdı. O vaxtlar insanlar çəltiyi tarlalarda sərilən həsir döşəklərdə təmizləyirdilər. Qadınlar dörd ayaqlı ağac çərçivəsinə bağlanan metal dişlərdən ibarət qurğunu quraşdırır və dəni başaqlardan ayırırdılar.

Düyü təmizləmək üçün tarlaya yollanan və gün batanadək işləyən bütün kənd arvadlarının belə çəltiktəmizləyən qurğuları olurdu. Həmin il boyu on santimetr uzanan Kun qəsəbədə işə düzəldi. Birinci maaşı ilə çəltiktəmizləyən qurğu alıb gəlinbacısına hədiyyə elədi.

– Bunu neyləyirdin? Varımdır, – dedi arvadın.

Kun gülümsədi:

– Axı kənddə ən köhnə çəltiktəmizləyən səndədir. Özü də bugün-sabahlıqdır.

Telegram: @cinciva

Arvadın tez-tez sənə deyirdi ki, çəltiktəmizləyən tamam köhnəlib. Düyü təmizləyəndə çox yorulur, təzəsini alsa, yaxşı olar. Amma sən onun sözlərini bir qulağından alıb o biri qulağından verirdin. Fikirləşirdin ki, köhnə alətlə işini görər, yenisinə niyə pul xərcləyəsən? Çəltiktəmizləyəni əlinə götürüb Kuna, bəlkə də, sənə əsəbiləşdi:

– Bunu niyə almısan? Görürsən ki, səni oxuda bilmədik.

Kun qıpqırmızı olub:

– Eybi yox, – dedi.

Kun arvadınla çox gözəl yola gedirdi, onu özünə ana bilirdi. Əlinə pul keçdikcə ev əşyaları da gətirirdi. Bu əşyalar ən çox arvadına lazım idi. Nikel ləyənçəni də arvadına o almışdı. Utana-utana dedi ki, başqa qadınların belə ləyənçələri var, gəlinbacı isə hələ də ağır plastik ləyənçə işlədir.

Arvadın bu nikel ləyənçədə kimçi hazırlayır, tarlaya yemək aparırdı. İşini qurtarandan sonra onu tərtəmiz yuyub bufetin üstünə qoyurdu. Arvadın bu ləyənçəni nikeli gedib ağaranadək işlətdi.

* * *

Sən cəld mətbəxə keçirsən. Mətbəxin anbara aparan arxa qapısını taybatay açıb uzun taxçaya göz gəzdirirsən. Burada qalaq-qalaq qatlama stullar düzülüb, ən uzaq küncdə isə köhnə nikel ləyənçə durur.

* * *

Arvadın ikinci oğlunu dünyaya gətirəndə sən evdə deyildin. Kun yanında qalırdı. Bu barədə gec xəbər almışdın. Qışın oğlan çağı idi, amma evdə qalamağa odununuz yox idi. Arvadın doğumdan sonra taqətsiz halda soyuq otaqda uzanmışdı. Kun evi isitmək üçün həyətdəki qoca ərik ağacını kəsmişdi. Arvadının qaldığı otağın düz altında yerləşən ocağa odun qoyub alışdırmışdı. Bunu öyrənən bacın arvadının otağına soxulub söyə-

Telegram: @cinciva

söyə üstünə atılmışdı. Çünki camaat arasında belə bir inam vardı ki, ata-babadan qalma ərik ağacı kəsən ailənin üzvləri bir-bir ölür. Tez özünü yetirən Kun qışqırmışdı:

– Mən kəsmişəm! Niyə o dəqiqə onun üstünə düşürsən?

Bacın oğlanın boğazından yapışmışdı:

– O, sənə dedi, sən də kəsdin, elə?! Axmağın biri axmaq! Yaramaz uşaq!

Lakin Kun "təslim olmamışdı". İri qara gözləri qəzəblə parıldamışdı.

– Yaxşı, buz kimi otaqda donub ölməyini istəyirsən? – deyirdi, – Uşaq doğub, ölümcül haldadır, görmürsən?

Bu hadisədən bir qədər keçmiş Kun qazanc dalınca evdən çıxıb getdi. Dörd ildən sonra evə əliboş qayıtsa da, arvadın onu mehribanlıqla qarşıladı. Lakin sən evdə olmayalı Kun çox dəyişmişdi. Böyüyüb boy-buxunlu, yaraşıqlı oğlan olsa da, gözləri əvvəlki parlaqlığını itirmişdi. Arvadın nə iş gördüyünü, haralarda işlədiyini soruşanda sualını cavabsız qoymuşdu. Heç gülümsəməmişdi də. Sənsə sadəcə onun çətin günlər keçirdiyini düşünmüşdün.

Bu hadisə həmin yerdə – bir vaxtlar ərik ağacının olduğu yerdə baş vermişdi. Kunun evə gəlməyindən haradasa bir ay keçmişdi. Bir gün arvadın rəngi avazımış halda qaça-qaça yut-nori[20] oynadığın dükana girib: "Kunun halı yaxşı deyil, tez evə gəl", – dedi. Başın oyuna bərk qarışmışdı. Onu başından eləməyə çalışdın. Arvadın yerində donub qaldı, sonra əlini oyun oynadığınız küləş həsirin üstünə çırpıb qışqırdı:

– Ölür! Ölür! Gəl bax!

Arvadının qəribə hərəkətlərini görüb evə yollandın.

20. Yut-nori – Ay təqviminə görə yeni il günü və ilin birinci bədrində oynanan ənənəvi Koreya oyunu.

Telegram: @cinciva

– Tez ol! Tez ol! – səndən qabaqda qaçaraq qışqırırdı arvadın. Ömründə ilk dəfə idi ki, var gücü ilə qaçıb səni ötmüşdü.

Kun həmin yerdə – bir vaxtlar ərik ağacının olduğu yerdə uzanmışdı. Qıvrılır, ağzından köpük axırdı, dili çölə sallanmışdı.

– Ona nə olub? – arvadına baxdın.

Arvadın sənə cavab verəsi halda deyildi.

Kunu bu vəziyyətdə görüb polisə zəng vurmuşdu. Polislər ölümün səbəbini hələ aydınlaşdırmamış kəndə şayiə yayılmışdı ki, guya arvadın qaynını zəhərləyib. Bacın qeyzindən və ağlamaqdan qızaran gözlərlə arvadını ittiham edirdi:

– Qardaşımı sən öldürdün!

Polislər arvadını dindirəndə o, özünü çox sakit aparırdı.

– Əgər onu mənim öldürdüyümü fikirləşirsinizsə, məni həbs edin.

Arvadın polis idarəsindən çıxmaq istəmədi, israrla həbsə girməyi tələb etdi. Polislər arvadını evə güclə gətirmişdilər. Kədərindən bilmirdi neyləsin. Evin qapılarını taybatay açıb özünü kəhrizə atır, soyuq suyu başına çəkirdi. Sən isə dəli kimi təpələri, tarlaları gəzib-dolaşır, ölmüş qardaşını səsləyirdin:

– Kun! Kun!

Ürəyində baş qaldıran iztirabın alovları əldən düşən bədəninə aman vermirdi.

– Kun!!!

Ancaq belə anlarda ölülər susur, sənsə dərdində dəli olurdun.

* * *

İndi başa düşürsən ki, özünü qorxaq kimi aparmısan. Həyatın boyu sən öz ağrını və dərdini arvadının çiyinlərinə yükləmisən. Kun sənin qardaşın idi, amma arvadının da təsəlli və dayağa ehtiyacı vardı. Və bu barədə danışmaqdan qaçmaqla onu daha da incitmişdin.

Telegram: @cinciva

Arvadın dərdindən az qala havalansa da, Kunu basdırmaq üçün adam tutmağı yaddan çıxarmamışdı. Uzun illər ötdü, amma sən heç vaxt qardaşın barədə ondan nəsə soruşmadın.

Bəzən sənə deyirdi ki, məgər onun harada basdırıldığını bilmək istəmirsən?

Sən susurdun. Heç bir şey bilmək istəmirdin.

– O cür öldüyünə görə ona acığın tutmasın... Axı sən onun böyük qardaşısan. Üstəlik, ana-atası da yoxdur. Sən onun məzarına baş çəkməlisən... Kaş onun qəbrini ailə qəbiristanlığına köçürə biləydik.

Bu sözləri eşidəndə: "O tüfeylinin qəbri nəyimə lazımdır?!" – deyə qışqırmışdın.

Bir dəfə yol gedirdiniz, arvadın birdən ayaq saxlayıb dedi:

– Kunun qəbri yaxındadır. Bəlkə, gedək baş çəkək?

Sən özünü eşitməzliyə vurdun. Niyə onu incidirdin? İki il əvvələdək arvadın hər il Kunun ilində yemək bişirib qəbri başına aparırdı. Qəbir üstündən gələndə gözlərinin içi qıpqırmızı olurdu.

* * *

Kunun ölümündən sonra arvadın tamam dəyişib başqa adam oldu. Şən və gülərüz qadından əsər-əlamət qalmadı. Arabir gülümsəsə də, təbəssümü o saat yox olurdu.

Əvvəllər tarlada işləməkdən yorğun düşüb başını yastığa qoyar-qoymaz yuxuya gedərdi, amma indi yata bilmirdi. Əczaçı olan balaca qızınız yuxu dərmanı yazanadək yuxusuzluqdan əziyyət çəkdi. Bəlkə də, bu yuxu dərmanlarının bir hissəsi beyninin bir küncündə yığılıb qalmışdı.

Kunun ölümündən sonra köhnə ev iki dəfə təmir edildi. Hər təmirdə sən əlinə keçən köhnə əşyaları atırdın, arvadın isə nikel ləyənçəsini ehmalca gizlədirdi ki, it-bata düşməsin.

Telegram: @cinciva

Bəlkə də, ləyənçəni köhnə əşyaların arasında itirməkdən ehtiyat edirdi. Evin təmiri zamanı ailəliklə çadıra köçəndə arvadın birinci həmin nikel ləyənçəni gətirmişdi. Təmir qurtarandan sonra başqa işləri görmək əvəzinə köhnə nikel ləyənçəni mətbəxə aparıb rəfə qoymuşdu.

Arvadın itkin düşənədək Kunu xatırlamaq istəməməyinin onu necə incitdiyini ağlına gətirməmişdin. Sən keçmişdən danışmağı mənasız sayırdın. Qızın: "Həkim soruşurdu ki anam nə vaxtsa möhkəm bir sarsıntı keçirməyib ki? Bəlkə, mənim bilmədiyim bir şey var?" – deyə soruşdu. Sən sadəcə başını yırğaladın.

Qızın:

– Həkim anamı psixiatra aparmağı məsləhət gördü, – dedi, sən isə onun sözünü kəsdin:

– Psixiatr nəyə lazımdır?!

Arvadın yaşlandıqca Kunu unudacağını düşünürdün, indi elə bilirsən ki, onu yaddan çıxarıb. Ancaq arvadın əlli yaşı tamam olanda sənə etiraf elədi ki, Kunu daha yuxularda görmür. Bəlkə də, indi Cənnətə gedib çatıb.

Və fikirləşdin ki, arvadın və sən artıq keçmişin kədərli xatirələrindən qurtuldunuz. Bu yaxınlarda da arvadın təzədən Kun barədə söhbət açdı. Demək, unutmamışdı.

Təxminən bir neçə ay qabaq arvadın gecənin bir yarısı səni oyatdı:

– Səncə, əgər biz onu oxutsaydıq, başına bu iş gələrdi? – Sonra öz-özünə pıçıldadı, – Ərə gələndə mənlə hamıdan yaxşı rəftar edən Kun idi... Mən ona bacı kimi idim, amma məktəbə göndərə bilmədim, halbuki o, bunu çox istəyirdi... Mənə elə gəlir o, hələ Cənnətə gedib çatmayıb.

Sən əsəbiləşib donquldandın və yana çevrildin, arvadın isə sözünə davam etdi:

Telegram: @cinciva

– Niyə sən onunla belə rəftar elədin? Niyə onu məktəbə göndərmədin? Ağlayıb-sıtqayıb oxumaq istədiyini deyəndə heç ona yazığın gəlmədi? Kun demişdi ki, əgər biz heç olmasa, onu məktəbə yazdırsaq, o, bir yol tapıb oxuyacaq.

Sən heç kimlə Kun barədə danışmaq istəmirdin. Qardaşının ölümü ürəyində böyük yara açmışdı. Ərik ağacının yeri çoxdan itib-batsa da, sən onun öldüyü yeri dəqiq xatırlayırdın. Və sən bilirdin ki, bəzən arvadın gözünü dikib uzun-uzadı bu yerə baxır. Köhnə yaranı qurdalamaq istəmirdin. Dünyada bu ağrıdan daha çətin bir şey yoxdur.

Sən bir neçə dəfə öskürüb boğazını arıtlayırsan.

Ancaq arvadın itkin düşəndən sonra sən anladın ki, həmin gecə onunla Kun barədə açıq danışmalı idin. Ürəyində böyüyən boşluğa baxmayaraq, Kun onun qəlbində yaşayırdı. Bir dəfə gecənin ortasında birdən arvadın özünü vanna otağına atdı və yumaq kimi büzüşüb unitazın bir küncünə qısıldı. Əllərini qabağa uzatdı, sanki qaranlıqda üstünə gələn bir şeyi özündən uzaqlaşdıraraq qışqırdı:

– Mən eləmədim, mən eləmədim!

Səhər ondan gecə kabus görüb-görmədiyini soruşanda gözlərini döyüb boş baxışlarla sənə baxdı, elə bil, heç nə xatırlamırdı. Bu cür hadisələr get-gedə çoxalmağa başladı.

Arvadın Kunun ölümündən sonra dəfələrlə polis məntəqəsinə gedib-gəlmişdi. Sənsə bu haqda heç düşünmədin. Arvadının Kunu öldürməsi barədə yayılan şayiələri niyə araşdırmadın? Niyə ancaq indi ağlına gəlir ki, bəlkə də, arvadının baş ağrılarının Kunun ölümü ilə bir əlaqəsi vardı. Gərək sən heç olmasa, bircə dəfə ona qulaq asaydın, bircə dəfə ürəyini boşaltmasına imkan verəydin. Uzun illər susmağın, xüsusilə də hər şeydə onu günahlandırmağın, hadisəni izah etməsinə belə imkan verməməyin, ürəyində daşıdığı ağır yük – bütün bunlar, yəqin, ona xəstəlik gətirmişdi.

Telegram: @cinciva

Arvadının tez-tez qəmgin halda bir yerdə dayandığını, gözlərini bir nöqtəyə zillədiyini görürdün. O deyirdi:

– Mən neyləməliydim? Yadıma sala bilmirəm.

Bəzən baş ağrıları dözülməz həddə çatır, yerindən tərpənə bilmirdi. Ancaq yenə də xəstəxanaya getmək istəmirdi. Və sənə bərk-bərk tapşırırdı ki, uşaqlara baş ağrıları barədə bir söz deməyəsən:

– Desən, nə düzələcək? İşləri-gücləri var.

Uşaqlar bundan xəbər tutanda isə yaxşı olduğunu deyirdi:

– Dünən, həqiqətən, başım ağrayırdı, amma indi hər şey qaydasındadır!

Bir dəfə gecənin ortasında yerindən sıçradı, sən narazı-narazı mızıldananda tərs-tərs baxıb sual verdi:

– Bütün bu illərdə niyə mənimlə yaşamısan?

Yenə də o, əvvəlki kimi, gavalı sousu hazırlamaq üçün yabanı yapon gavalısı yığırdı. Bazar günləri onu motosikletin tərkində kilsəyə aparırdın. Bəzən isə o, cürbəcür çərəzlər verilən restorana getməyi təklif edirdi.

Ailəniz çoxsaylı dini mərasimləri birləşdirib bir gündə keçirmək fikrində idi, lakin arvadın razı olmadı, bu işi Hun Çolun arvadına təhvil verənədək ayinləri keçirəcəyini dedi. Ancaq bayram masasına düzüləsi şeyləri almağı unudur və beş-altı dəfə qəsəbəyə gedib-gəlməli olurdu. Sənsə düşünürdün ki, qocalıqda belə şeylər hər adamın başına gələr.

Səhərə yaxın telefon zəngi gəlir. Bu saatda kimdir? Ümidlə dəstəyi götürürsən.

– Ata?

Bu, böyük qızındır.

– Ata?

– Hə.

Telegram: @cinciva

– Dəstəyi niyə gec götürdün? Mobil telefona niyə cavab vermirsən?

– Nə baş verib?

– Dünən Hun Çol zəng eləmişdi... Niyə getdin? Niyə mənə xəbər vermədin? Çıxıb gedirsən, telefona da cavab vermirsən.. Qorxudan ürəyim ağzıma gəldi..

– Yatmışdım.

– Yatmışdın? Bu qədər vaxtı yatırdın?

– Görünür, hə.

– Təkbaşına orda neyləyəcəksən?

– Birdən o, bura gələr.

Qızın susur. Sən udqunursan, boğazın bərk quruyub.

– Bəlkə, mən gəlim?

Çi Hon o biri övladlarından çox axtarır anasını. Bəlkə də, subay olduğuna görədir. Son dəfə Yunqçonq-dunqdan aptekçi zəng vurub arvadına oxşar bir qadın gördüyünü xəbər vermişdi. Oğlun qəzetdə arvadının itkin düşməsi barədə elan dərc elətdirmişdi, ancaq səs-soraq yox idi. Hətta polislər belə bildirdilər ki, əllərindən gələni elədilər və gözləməkdən başqa, çarələri yoxdur. Bəlkə, kimsə zəng vurar. Ancaq qızın hər axşam xəstəxanaları gəzərək kimsəsiz xəstələri bir-bir yoxlayırdı.

– Ehtiyac yoxdur... Bir xəbər olsa, zəng elə.

– Yaxşı olardı ki, tək qalmayasan, ata. Bizə gəl, ya da bibiyə de, yanında qalsın.

Qızının səsi sənə çox qəribə gəlir. Görünür, içkilidir. Sözləri anlaşılmır.

– İçmisən?

– Cəmi bir-iki kokteyl.

Dəstəyi qoymağa hazırlaşır.

Telegram: @cinciva

Sən ona adı ilə səslənirsən. O hay verir, səsi yavaş çıxır. Dəstəyi sıxan əlin tərdən nəmlənir, ayaqların əsir.

– Həmin gün anan özünü o qədər də yaxşı hiss eləmirdi. Gərək şəhərə getməyəydik... Əvvəlki gün başı bərk ağrıyırdı, başını buz dolu ləyənə salmışdı. Çağırdım, eşitmədi. Səhər yeməyini hazırlamağı unutsa da, "Hökmən Seula getməliyik, uşaqların bizi gözləyir", – dedi. Kaş razı olmayaydım... Deyəsən, qocalıqdan düzgün qərarlar verə bilmirəm. Ürəyimdə ümid edirdim ki, Seula gedəndə onu xəstəxanaya apararıq... Gərək onu gözdən qoymayaydım, ancaq mən onunla xəstə kimi rəftar eləmirdim və Seula çatar-çatmaz həmişəki kimi arxaya baxmadan özümü verdim qabağa... Köhnə vərdişimdən əl çəkməmişdim.

O vaxtadək deyə bilmədiyin sözləri asanlıqla sıralamışdın.

– Ata...

Sən qulaq asırsan.

– Mənə elə gəlir, hamı ananı unudub. Heç kim zəng vurmur. Bilirsən, o gün ananın başı niyə möhkəm ağrıyırdı? Ona görə ki, mən əclafam. O, mənə elə bu cür də dedi.

Qızının səsi əsir, dili topuq vurur.

– Anan belə dedi?

– Hə... Ad gününə gəlib-gəlməyəcəyimi bilmirdim, ona görə Çindən zəng vurub nə iş gördüyünü soruşdum. Kiçik qardaşım üçün şüşəyə likör süzdüyünü dedi. Bilirsən də, qardaşım likörü xoşlayır. Əlbəttə, gərək yox idi, amma mən, nədənsə, özümdən çıxdım. Axı, o, əslində, içkini tərgitməli idi... Anam isə içki hazırlayırdı, nədir-nədir, oğlu xoşlayır. Və onda anama dedim ki, şüşəni yanına almasın, içib sərxoş olsa, günahı onun boynuna! Anam yavaş səslə dedi ki, sən haqlısan. Sonra şəhərə düyü piroqları almağa gedəcəyini söylədi. Axı o, sənin ad gün-

Telegram: @cinciva

lərinə düyü piroqu alırdı. Mən də dedim ki, lazım deyil, onsuz da, heç kim yemir, hamı evinə aparıb buzxanaya doldurur. Özü də dedim ki, özünü kəndçi kimi aparmasın, Seula da şələ-şüləsiz gəlsin. Anam soruşdu ki, doğrudan, düyü piroqlarını buzxanaya doldurursan? Etiraf elədim ki, üç illik piroqlar hələ də durur. Anam ağladı. Soruşdum, həqiqətən, ağlayır? Bax, onda mənə əclaf dedi. Elə bildim, başıma qaynar su tökdülər. Həmin gün Pekində yaman isti hava vardı. Əsəbiləşib: "Yəqin, əclaf qızın olduğuna görə şadsan", – qışqırdım. "Yaxşı, mən əclafam!" – deyib telefonu üzünə bağladım.

Sən susursan.

– Anam üstünə qışqırmağımıza nifrət edirdi. Biz isə həmişə üstünə qışqırırdıq. Zəng vurub üzr istəyəcəkdim, amma yadımdan çıxdı. Nə qədər işim var idi. Maraqlı yerlərə baş çəkməli, çin restoranlarını gəzməli və görüşlər keçirməli idim. Əgər zəng vurub üzr istəsəydim, bəlkə də, başı belə bərk ağrımazdı... Və siz bir-birinizi metroda itirməzdiniz.

Qızın ağlayır.

– Çi Hon!

O cavab vermir.

– Anan sənինlə fəxr edirdi.

– Nə?

– Qəzetlərdə şəklini görəndə qatlayıb çantasına qoyurdu və tez-tez çıxarıb baxırdı. Qəsəbədə tanışlarla qarşılaşanda qəzeti göstərib sənin haqqında fəxrlə danışırdı.

Qızın susur.

– Soruşanda ki, qızın nə ilə məşğul olur, o deyirdi ki, qızım söz yazır. Namsan-dunqdakı "Ümid Evi" adlı uşaq evində işləyən bir qadın anana sənin kitabını oxuyurmuş. Anan bilirdi, sən nədən yazırsan. O qadın kitabını oxuyanda ananın üzünə

Telegram: @cinciva

təbəssüm qonurmuş, sevinirmiş. Ona görə də nə olur-olsun, sən bundan sonra da yaxşı kitablar yazmalısan... Mən ananla kəlmə kəsmədən ömür yaşadım. Ya macalım olmadı, ya da onun hər şeyi bildiyini düşündüm. Bax indi hiss edirəm ki, ona hər şeyi deməyə, ondan hər şeyi eşitməyə hazıram, amma artıq o, yanımda deyil. Çi Hon?

– Hə...

– Yalvarıram... Yalvarıram, anana yaxşı bax.

Sən qızının çarəsiz hönkürtüsünü boğmağa çalışmasına qulaq asıb dəstəyi möhkəmcə qulağına sıxırsan. Onun göz yaşları elə bil telefonun dəstəyindən süzülür. Üzün göz yaşı ilə islanır. Kim unutsa da, qızın həmişə biləcək ki, onun anası bu həyatı səmimi qəlbdən sevirdi, sən isə onu.

Telegram: @cinciva

Telegram: @cinciva

# IV fəsil

## Mənim dünyam

Burda nə çox şam ağacı var.

Şəhər yerində də belə ağaclıq olarmış. Görünür, bəd nəzərlərdən yaxşı gizlənib. Təzəlikcə bura qar yağana oxşayır. Bütün ağacların üstü ağappaqdır. Sənin evinin qabağında da üç şam ağacı var. Onları elə bil mənimçün əkiblər ki, kölgəsində oturub dincələ bilim.

Əvvəlcə gəlib sənə dəymək istəyirəm, sonra da ona baş çəkəcəm. Məncə, bu daha doğru olar.

Bacının və qardaşlarının qaldığı evlərin hamısı bir-birinə oxşayır. İndi bilmirəm, kimin evi hardadır. Belə qutu kimi evlərdə necə yaşayırlar, başım çıxmır. Evləri bir-birindən fərqli olsaydı, daha yaxşı olardı. Bəyəm evdə qarajın, anbarın, artırmanın olması pis şeydir? Uşaqlar da gizlənqaç oynayanda gizlənməyə nə qədər yer olar. Uşaq olanda qardaşların həmişə sənə iş tapşırdıqları üçün çox vaxt onların əlindən qaçıb artırmada gizlənərdin. İndi kənddə də bir-birinə oxşayan qutu kimi evlər artmağa başlayıb. Bugünlərdə evimizin damına çıxıb baxsan, əvvəlki alçaq evlərin yerini hündürmərtəbəli binaların tutduğunu görərsən. Sən balaca olanda kənddən heç avtobus da keçmirdi.

Telegram: @cinciva

Gündən-günə daha da böyüyən, daha da qaynayan bu şəhərdə həyat çox çətinləşib. İndi kəndlər hər şeydə şəhərlərə oxşamağa çalışır. Heç olmasa, bu binalar bir-birindən fərqli görünəydi. Burda hər şey bir-birinə o qədər oxşayır ki, çaşıb qalıram, bilmirəm, hara gedim. Qardaşlarının evlərini, bacının studiya mənzilini tapa bilmirəm. Mənə elə gəlir ki, bütün binaların qapıları, girişləri eynidir. Deyəsən, məndən başqa, heç kim bunu özünə dərd eləmir. Böyüklər, gənclər, hətta balaca uşaqlar belə gecənin qaranlığında da evlərini rahatca tapa bilirlər.

Amma sizin ev var ha, çox xoşuma gəlir.

Eviniz demişkən... Buranın adı necə idi? Seul, Çonqno-qu, Puam dun... Deməli, bura Çonqno-qudu? Çonqno-qu...Çonqno-qu...Hə, yadıma düşdü, Çonqno-qu! Lap böyük qardaşın ailə qurandan sonra ilk evini burdan almışdı. Tonsun-dun, Çonqno-qu. O deyirdi ki, ana, bura Çonqno-qudur. Hər dəfə harasa ünvanımı yazanda sevinirəm. Axı Çonqno Seulun mərkəzidir. Yəni mən Seulun mərkəzində yaşayıram. Kəndlilər də Çonqnoya gələrmiş.

O, bu yerə Çonqno-qu deyirdi. Əslində, Naqsan adlı sıldırımlı təpədə yerləşən çoxmənzilli evdə yaşayırdı. Hər dəfə bu təpəyə qalxanda mən tamam əldən düşürdüm. Və fikirləşirdim ki, necə olub, böyük şəhərdə belə bir yer qalıb. Axı burada hər şey qəsəbədən çox, kəndi xatırladır! Sənin evinin yanında da ağlıma həmin fikir gəlir: necə olub ki, böyük şəhərdə belə bir yer qalıb?

Üç il xaricdə qalandan sonra ötən il Seula qayıdanda əvvəlki mənzili kirayələməyə imkanınız çatmadığına görə məyus olmuşdun, deyəsən, sonra buranı tapmısan. Bura lap kənd imiş ki... Əlbəttə, kafesi də var, rəsm qalereyası da var, amma dəyirmanı da var. Düyü piroqları bişirən yeri də gördüm. Uzun-uzadı baxdım, çünki bu, mənə uzaq keçmişi xatırlatdı. Təzə ilə nə

Telegram: @cinciva

qalıb?! Çoxlu adamın uzun və ağappaq düyü piroqları bişirdiyini gördüm. Demək, bu şəhərdə təzə il üçün piroq bişirən balaca bir kənd varmış!

Yeni il ərəfəsində bir səbət düyü götürüb dəyirmana aparardım. Soyuqdan donmuş əllərimi nəfəsimlə isidə-isidə növbəmi gözləyərdim.

Düzdür, üç uşaqla burada yaşamaq asan deyil. Ərin də burdan işə – Sollunqa xeyli əziyyətlə gedib-gəlir. Deyəsən, bu yaxınlarda heç market də yoxdur.

Bir gün deyinirdin:

– Marketə gedəndə bir anbar ərzaq alıram, amma tez qurtarır. Yoğurtu uşaqların sayına görə üç gün üçün doqquz paket alıram! Günə üç paket yeyilir. Dəhşətdir! Hər şeyi bol-bol alıram və bir də baxıram ki, yeyilib qurtarıb.

Qollarını açıb nə qədər çox aldığını göstərmişdin. Ancaq bilməlisən ki, üç uşaq olan evdə bu, çox təbiidir.

Şaxtadan yanaqları qızaran böyük oğlun velosipedini darvazaya söykəməyə hazırlaşanda birdən yerində donub qalır. Var-gücü ilə səni səsləyərək giriş qapısına tərəf qaçır. Və budur, sən qucağında körpə, əynində boz yun kofta eşiyə çıxırsan.

– Ana! Burda balaca quş var!

– Quş?

– Hə, düz darvazanın qabağında.

– Hanı?

Uşaq darvazanı göstərir. Sən körpənin başına papağı keçirib darvazanı adlayırsan. Yerdə bir boz quş var. Onun balaca bədəni qanadların ucunadək tünd xallarla örtülüdür. Yoxsa, qanadları donub? Hiss edirəm ki, quşcuğaza baxa-baxa məni düşünürsən. Yeri gəlmişkən, evinin ətrafında xeyli quş uçuşur.

Telegram: @cinciva

Bu qədər quş hardan belə? Bu qış quşlar evinin ətrafında dövrə vursalar da, əvvəlki kimi ötmürlər.

Bir neçə gün əvvəl heyva ağacının altında soyuqdan titrəyən bir sağsağan gördün. Ac olduğunu yəqin edib səhər yeməyində uşaqlardan qalan çörək qırıntılarını yığaraq ağacın altına səpdin. Sən onda da məni xatırladın. Bir vaxtlar ananın da ağacın çılpaq budaqlarında tüklərini qabardıb oturan quşlar ac qalmasın deyə kasadakı boyat düyünü yerə səpdiyini yadına saldın. Axşam çörək qırıntılarını səpdiyin heyva ağacının altına iyirmidən çox sağsağan yığışmışdı.

O gündən sonra sən hər gün ac quşlar üçün ağacın altına çörək qırıntıları səpirsən. Ancaq bu balaca quş heyvanın altında deyil, darvazanın ağzında idi. Mən bu quşu tanıyıram. Bu, döşüqara çökükburundur. Çox qəribədir, bu quşlar, adətən, dəstə halında yaşayırlar. Bu, necə olub ki, bura gəlib? Əslində, bu saat okeanın sahillərində olmalı idi. Çökükburunu mən o adamın yaşadığı Komsoda görmüşdüm. Dəniz sularının çəkildiyi vaxt işgüzarlıqla vurnuxub lilli suda yem axtarırdı.

Sən həmişəki kimi dinməz-söyləməz darvazada durmusan. Böyük oğlun əlindən tutub çəkir:

– Ana!

Sən susursan.

– Ölüb?

Cavab vermirsən. Tutulursan. Gözünü quşdan çəkə bilmirsən.

– Ana! Quş ölüb? – səsə gələn qızın soruşur.

Sən yenə susursan.

***

Telefon çalır.

– Ana, xaladır!

Yəqin, Çi Hon zəng vurub. Telefonu qızının əlindən alırsan.

Telegram: @cinciva

– Getməzdən qabaq bir sözün var?

Çi Hon, yəqin, yenə təyyarəyə minəcək. Sən əsəbiləşirsən, dodaqların əsir. Qəfil telefona qışqırırsan:

– Daha bəsdir! Bəsdir!

Mənim əzizim, axı sən belə deyildin. Niyə bacının üstünə qışqırırsan?

Telefonu üzünə bağlayırsan. Bacın sənlə də, mənlə də həmişə bax bu cür rəftar edirdi. Telefona yenə zəng gəlir. Səbirlə gözləyirsən, amma zəng kəsilmir. Telefonu açırsan.

– Bağışla, bacı, – bu dəfə səsin yumşaq gəlir. Sakitcə bacına qulaq asırsan, sonra birdən üzün qızarır və sən yenə qışqırırsan:

– Nə? Santyaqoya? Bir aylığına? – hirsindən boğulursan, – Sən məndən soruşursan ki, getmək olar? Sən getməyə çoxdan qərar vermisən. Niyə soruşursan? Bu gün darvazanın qabağında ölü quş tapmışam. Ürəyimə damıb, anamın başına bir iş gəlib! Niyə indiyədək onu tapa bilməmişik? Niyə? Belə bir vaxtda gedərlər? Niyə hamı yaxasını kənara çəkir? Sən də onlara oxşamağa başlamısan? Anamın bu şaxtada harda olduğunu bilmirik, siz isə istədiyinizi edirsiniz!

Mənim əzizim, sakitləş. Bacını başa düş. Bu sözləri dilinə necə gətirirsən? Axı sən çox gözəl bilirsən ki, bacın son aylar nələr çəkib...

– Nə? Sən istəyirsən ki, hər şeylə mən maraqlanım? Mən? Üç uşaqla neyləyə bilərəm? Qaçırsan, hə? Çünki bu iş ayağına dolanır. Sən həmişə belə olmusan.

Əzizim, axı sən niyə belə deyirsən? Axı, sən həmişə düzgün qərarlar vermisən. Telefonu hirslə bağlayıb hönkürürsən. Körpə də səninlə birlikdə ağlayır. Balacanın burnu, hətta alnı da qızarır. Qızın da sizə qoşulur. Böyük oğlun otaqdan çıxıb ağlamağınıza baxır. Yenə zəng çalır. Tez açırsan:

Telegram: @cinciva

– Bacı... – Gözündən yaş axır, – Getmə! Getmə! Bacı!

O, səni sakitləşdirməyə çalışır. Sakitləşmədiyini görüb sizə gəldiyini deyir. Telefonu bağlayırsan və başını məyus-məyus aşağı salıb yerdə oturursan. Körpə dizinə dırmaşır. Sən onu qucaqlayırsan. Qızın üzünü sığallayır. Sən mehribanca əlini çiyninə vurursan. Böyük oğlun səni sevindirmək üçün riyaziyyatdan dərs hazırlamağa başlayır. Onun saçlarını tumarlayırsan.

Çox keçmədən Çi Hon açıq qapıdan içəri girir.

– Bu nə şirindir! – deyib körpəni qucağına alır.

Körpə başqa adamın nəvazişinə alışmayıb. Ona görə də xalasının qucağından sənə sarı dartınır.

– Dayan görüm, hara gedirsən? – deyir Çi Hon onu qucaqlamağa çalışaraq.

Balaca Yun ağlamağa başlayır. Çi Hon uşağı sənə verir. Anasının qucağına gedən körpə gülümsəyir. Kirpiklərində hələ də yaş var. Çi Hon başını tərpədib uşağın üzünü sığallayır. Siz iki bacı yan-yana oturursunuz. Bu qarda səni sakitləşdirmək üçün gələn Çi Hon bir söz demir. Görünür, əhvalı çox pisdir: üzü şişib, gözünün altı torbalanıb. Çoxdandır, doyunca yatmayıb, deyəsən.

– Getməyə hazırlaşırsan? – ağır sükutu dağıdıb soruşursan.

– Getmirəm, – Çi Hon divana uzanır.

Elə bil bu yükü daşımağa daha taqəti qalmayıb. O qədər yorulub ki, bədəninə söz keçirə bilmir. Yazıq! Çi Hon üzdə güclü görünməyə çalışsa da, əslində, həyat qarşısında uşaq kimi çarəsizdir. Niyə belə edirsən, niyə özünü incidirsən?

– Bacı, yatmısan?

Sən onu silkələyib oyatmaq istəyirsən, amma birdən duruxursan və mehribanca kürəyinə sığal çəkirsən. Yuxulayan bacına baxırsan. Uşaqlıqda tez dalaşar, tez də barışardınız. Sizi

Telegram: @cinciva

tənbeh eləməyə gələndə əl-ələ tutub sakitcə yatdığınızı çox görmüşəm. Yataq otağına keçib üstünü örtmək üçün adyal gətirirsən. Çi Hon üz-gözünü turşudur. Uşaq kimi qayğısızdır. Yorğun ola-ola bu qədər yolu niyə gəldi ki?!

– Bağışla məni, bacı... – dodaqaltı mızıldanırsan.

Çi Hon gözlərini açıb sənə baxır. Öz-özünə danışır:

– Dünən anası ilə tanış oldum. Yəni ailə qursam, gələcək qayınanamla. Qızı ilə yaşayır. Qızı ərdə deyil, "İsveçrə" adlı restoranı var. Anası zərif və mülayim qadındır. Qızı hara getsə, onu da özü ilə aparır. Qızı anasını yedirir, yatırır, çimdirir. Bir-birinə "bacı" deyirlər. Bacısı mənə: "İndiyədək anama görə ailə qurmamısınızsa, bundan narahat olmayın", – dedi. Bundan sonra da anasına özü baxacaq. Yanvarda bacısı məzuniyyətə çıxmağa hazırlaşır. İndidən qocalar evi ilə razılaşıb ki, olmayanda anasına baxsınlar. Təkcə o şəhərdə olmayanda gedib anasına baş çəkəcəm. Bacısı son iyirmi ildir, hər il yanvar ayında restoranın gəliri ilə məzuniyyətə istirahətə gedir. Anası həyatından razı və xoşbəxt görünürdü. Bacısı gülümsəyib: "Anam mənə baxıb, böyüdüb. İndi yerimizi dəyişmişik. Məncə, bu, ədalətlidir", – dedi.

Bacın susub sənə baxır:

– Anam haqda bir şey danış.

– Ana haqqında?

– Hə, mənim bilmədiyim, təkcə sənin bildiyin bir şey danış.

– Adı Pak Sonyodur. Doğum tarixi 24 iyul 1938-ci il. Əlamətləri: qısaboylu, boz qıvrım saçlı, çıxıq almacıq sümüklüdür. Əynində mavi köynək, ağ jaket, süd rəngli, büzməli ətək olub... Axırıncı dəfə onu....

Çi Honun gözləri yumulur və yavaş-yavaş yuxuya gedir.

Telegram: @cinciva

– Mən anamı heç tanımıram. İtkin düşməsindən başqa, bir şey bilmirəm, – deyirsən.

Daha mən getməliyəm, amma, görünür, bacarmıram. Bir gün də belə keçdi.

Ola bilməz.

Bilirdim ki, nə vaxtsa bu, baş verəcək. Aman, Tanrım, hər şey bir-birinə qarışıb. Böyük oğlun papağını başına keçirib sənə nəsə deyir. Nədən danışır? Nə? Hə, xizəklə təpədə sürüşmək istəyir. Sən ona qadağan edirsən. Deyirsən ki, bura köçəndən sonra qiymətləri aşağı düşüb, ona görə də tətildə atası ilə dərs oxumalıdır. Əks halda, tətildən sonra çətinlik çəkəcək. Sən onu razı salanacan təzəcə ayaq açan körpən masanın altına tökülmüş düyü dənələrini içəri ötürür. Böyük oğlunla danışa-danışa tozlu düyü dənələrini körpənin əlindən alırsan. Körpə narazı-narazı ağzını büzüb ayaqlarına qısılır. Bu saat yıxılacaq. Böyük oğluna dərslərin vacibliyini izah edə-edə körpənin əlindən tutursan. Oğlun ora-bura baxır. Bəlkə də, sənə heç qulaq asmır. Birdən qışqırır:

– Gedək burdan! Mənim burdan zəhləm gedir!

Qızın otağında qaça-qaça çıxıb səni çağırır. Saçı dolaşıb. Hörük hörməyini xahiş edir, özü də tez. Çünki əlavə məşğələlərin vaxtıdır. İndi də qızının saçlarını tələsik darayır və hörük hörürsən. Bir yandan da böyük oğlunu fikrindən daşındırmağa çalışırsan. Uşaqların səni dövrəyə alıb. Başın şişir.

Eyni anda üçünə də qulaq asırsan. Qızını masa arxasına oturdub saçlarını darayırsan. Oğlun əl çəkmir. Sən də söz verirsən ki, atası ilə danışıb bir şey deyəcəksən. Körpə yıxılır. Sən darağı stolun üstünə qoyur, burnunu silib qaldırırsan, sonra da qızının saçlarını hörüb bağlayırsan.

Çevrilib pəncərəyə baxırsan. Heyva budağında məni gö-

Telegram: @cinciva

rürsən. Baxışlarımız toqquşur. Yavaşca dodaqlarının altında mızıldanırsan:

– Bu quşu birinci dəfə görürəm.

Uşaqların da mənə baxır.

– Bəlkə, bu quş darvaza ağzındakı ölü quşdandır, ana... – deyib qızın əlini tutur.

– Yox. Ona oxşamır.

– Yox, oxşayır!

Dünən siz ölü quşu həmin heyva ağacının altında basdırdınız. Böyük oğlun çuxur qazdı, qızın taxtalardan xaç düzəltdi. Körpən isə səs-küy salmaqla məşğul oldu. Quşu yerdən götürdün, qanadlarını qatlayıb çuxura uzatdın. Qızın: "Amin!" – dedi, sonra işdə olan atasına zəng vurub quşu basdırmaqdan danışdı.

– Mən quşa taxtadan xaç da düzəltdim, ata!

Külək çox keçmədən taxta xaçı yıxdı.

Uşaqların səs-küyünə qulaq asa-asa pəncərəyə yaxınlaşırsan ki, məni yaxından görəsən. Uşaqlar da pəncərəyə gəlirlər və diqqətlə mənə tamaşa edirlər. Ey, balacalar, mənə belə baxmayın. Bağışlayın məni. Siz dünyaya gələndə mən sizdən çox qızımdan narahat olmuşdum. Səliqə ilə saçları hörülən qız diqqətlə məni süzür. Sevimli nəvəm, böyük qardaşın dünyaya gələndə anan doğum evində bir həftə qalmışdı. Sən doğulanda isə səni əmizdirə bilməmişdi, çünki ananın səhhəti yaxşı deyildi. Bir aydan çox xəstəxanada qaldı. Onda anandan ötrü çox nigaran idim.

Sizi yoluxmağa gələn ata nənən səni anana verib dedi ki, əmizdirsin. Ananın səni sinəsinə basdığını görəndə çox əsəbiləşdim, çünki bir damcı südü yox idi. Mən hətta ata nənəni xəstəxanadan çıxarıb səni qızımın qucağından aldım və yanı-

Telegram: @cinciva

na bir şillə çəkdim. Körpə ağlayanda qayınanalar həmişə gəlinlərinə: "Uşaq ağlayır, yedizdir", – deyirlər. Qız anaları isə nəvələrindən çox, qızlarını fikirləşirlər. Eyni mənim kimi. Sən bunu başa düşməzsən. Ata nənəni məndən çox istəyirdin. Məni görəndə: "Salam, nənə!", – deyirdin. Ata nənən gələndə isə: "Nənəcan!" – deyib boynuna sarılırdın. Mən özümü həmişə günahkar hiss edirdim ki, sənə bir vaxtlar şillə vurmuşam.

Böyüyüb göyçək qız olmusan. Nə gözəl gur saçların var. Hər hörüyün bilək yoğunluğundadır. Ananın da uşaqlıqda belə saçları vardı. Saçlarını hörə bilmirdim, bacarmırdım. Anan həmişə istəyirdi ki, uzun saçları olsun. Mən isə qısa kəsdirərdim. Yəqin, sənin saçlarını uzatmaqla uşaqlıq xəyalını yaşadır. O, mənə baxa-baxa sənin ipək saçlarını oxşayır. Ananın gözləri yenə tutqunlaşdı. Yenə məni düşünür.

Mənə qulaq as, qızım. Bu səs-küydə məni eşidirsən? Səndən üzr istəməyə gəlmişəm. Xahiş edirəm, məni bağışla. Bağışla ki, qucağında üçüncü uşaqla Seula qayıdanda səni qaşqabaqlı qarşıladım. Həmin gün sən təəccüb içində mənə baxdın. Könülsüz salamlaşdın. O günün ağır yükü ürəyimi sıxır. Üçüncü uşağa hamilə olduğunu niyə məndən gizlətmişdin? Bəlkə, üçüncü uşağı dünyaya gətirmə niyyətin yox idi, ona görə? Yoxsa, bacın ərə getməmiş üçüncünü doğduğunu mənə deməyə utanırdın? Bilmirəm, nə səbəbə, amma sən uzaq ölkədə çətin hamiləlik dövrünü təkbaşına keçirdiyini məndən gizlətmişdin. Halbuki ürəkbulanmaları hamilə qadını yaman əldən salır. Bizə bu xəbəri ancaq doğumqabağı vermişdin. Üçüncüdə sənə kömək edə bilməmişdim, amma qayıdanda arsız-arsız: "Üç uşaqla neyləyəcəksən? Ağlın hardaydı?!" – demişdim.

Bağışla, mənim əzizim. Körpədən də, səndən də üzr istəyirəm. Bu, sənin həyatındır, gərək qarışmayaydım. Sən mənim qızımsan, çətinlikləri bir göz qırpımında yoluna qoymağı bacarırsan. Və əlbəttə, öz problemini də həll etməyə gücün çatar.

Telegram: @cinciva

Sənin necə qadın olduğunu unudub əsəbiləşmişdim. Və sənə hər dəfə Amerikadan qayıdanda qaşqabağımı tökdüyümə görə dönə-dönə peşmanam. Sən çox məşğul idin. Hərdənbir sənə baş çəkərdim. Uşaqların əlindən başını qaşımağa vaxtın olmazdı. Paltarlarını yığır, yedirir, yıxılanı qaldırır, məktəbdən gələnin çantasını alır, "Ana!" – deyə üstünə atılan qızını qucaqlayırdın.

Kista əməliyyatına bir gün qalmış uşaqlar üçün soyuducuya ərzaq və hazır yeməklər düzmüşdün. Sizə uşaqlara baxmağa gəlmişdim. Soyuducunun qapısını açanda bilirsən, necə üzüldüm?! Uşaqlara dörd günlük yemək bişirib səliqəli düzmüşdün. Mənə başa salırdın: "Ana, sabah üst rəfdəki yeməyi ver, sonra altdakını...".

Arıqlayıb çöpə dönmüşdün. Sən öz işlərini özün görürsən. Üçüncü uşağı doğanda: "Ağlın hardaydı?" – sözünü də buna görə demişdim. Əməliyyatdan bir gün əvvəlki gecə duşa girəndə vannanın yanına çıxarıb atdığın paltarlarını yığışdırdım. Qolları tiftiklənmiş köynəyinə gavalı şirəsinin damcıları səpələnmişdi. Enlənib xarala dönən şalvarının tikişləri bir neçə yerdən sökülmüşdü. Köhnə döşlüyünün bağının qarmaq yeri yeyilmişdi. Bacın yox, amma sən səliqəli qız idin. Uşaq olanda ağ tuflilərinə bir damcı palçıq düşsə, tez təmizləyərdin.

Uzun illər əziyyətlə oxudun. Bu cür yaşamaq üçün? Bax bunu mən başa düşə bilmirdim.

Əziz qızım! Yadımdadır, sən kiçik yaşlarında uşaqları çox sevirdin. Öz konfetlərini qonşunun uşağına tərəddüdsüz verirdin. Ağlayan bir uşaq gördünmü, o saat yanına qaçırdın ki, gözlərini silib qucaqlayasan. Uşaqlığını tamam unutmuşdum.

İndi köhnə paltarlar geyinməyinə, saçlarını tələm-tələsik arxaya yığmağına və ancaq uşaqları fikirləşməyinə acığım tuturdu. Heç işə qayıtmağı da ağlına gətirmirdin.

Sənə "Bu nə həyatdır, yaşayırsan?" – dediyim günlər yadı-

Telegram: @cinciva

ma düşür. Sən onda yataq otağının döşəməsini silirdin. Sözlərimə görə bağışla məni. Düzü, o vaxtlar sən mənim nəyə eyham vurduğumu başa düşmürdün. Sonra da evindən ayağımı kəsdim. Səni o halda görmək istəmirdim. Təhsilin, savadın ola-ola bu cür həyat yaşamağına dözə bilmirdim.

Mənim əziz qızım! Sən həyatın bütün sınaqlarından üzü ağ çıxmısan və cəsarətlə irəli addımlayırsan. Amma hərdənbir elədiyin seçimə çox əsəbiləşirdim.

Əziz qızım!

Unutma ki, sən mənim sevincimsən. Sonbeşiyimsən. Düzü, sənə heç vaxt deməmişəm; sən mənim dördüncü deyil, beşinci övladımsan. Səndən əvvəlki uşaq ölü doğuldu... Nə ağladı, nə də gözlərini açdı. Bibin: "Körpəni basdırmaq üçün adam tutaq", – dedi. Mən onu fikrindən daşındırdım. Atan o vaxtlar evdə deyildi. Dörd gün ölü körpə ilə bir otaqda yatdım. Qış idi. Gecələri lopa-lopa yağan qar tut yarpağı ilə örtdüyüm pəncərəyə qonurdu. Beşinci günü ayağa durdum. Ölü körpəni saxsı küpə qoydum. Dağlara aparıb basdırdım. Qarla örtülmüş torpağı atan deyil, başqa bir adam qazdı. Əgər uşaq diri doğulsaydı, indi sənin üç qardaşın olacaqdı. Sonra mən təkbaşına səni dünyaya gətirdim. Mən deyəndə ki, səni tək doğacam, bibin yaman incidi. Onda mən təkbaşına doğum sancıları çəkməkdən çox, ölü doğmaqdan qorxurdum. Sancılarım tutanda bibinə xəbər vermədim. Otağa qaynar su gətirdim, onda balaca olan bacını yanımda otuzdurdum. Qışqıra da bilmirdim, çünki qorxurdum ki, ölü doğaram, kimsə bilər. Ancaq dünyaya sən gəldin, isti və sağ-salamat. Qurulamadan əvvəl yanına bir şillə vurdum. Sən çığırtı qopardın. Bacın sənə baxıb gülümsədi. Onda hiss elədim ki, dilim tamam qan içindədir. Bax beləcə, sən dünyaya gəldin. Sən məni ölü doğma qorxusundan xilas edən balaca bir uşaqdın.

Telegram: @cinciva

Əziz qızım!

Sənə analıq borcumu yerinə yetirdim. Səni səkkiz aydan çox əmizdirdim, çünki südüm çox olurdu. Ailəmizdə uşaq bağçasına gedən ilk uşaq sən oldun, özü də adi rezin qaloşlarla deyil, idman ayaqqabıları ilə. Məktəbə gedəndə sənə üstünə adın yazılmış yarlıq hazırladım. Bu, mənim ömrümdə yazdığım ilk hərflər idi. Adını yazmaq üçün uzun-uzadı məşq elədim. Paltarının döş cibinə burun dəsmalı və adın yazılmış yarlıq keçirdim, səni məktəbə apardım. Sən başa düşə bilməzsən, bu, mənim üçün nə demək idi. Hun Çol ibtidai məktəbə başlayanda hansısa kağıza qol çəkməli olaram deyə onunla getməmişdim. Bir bəhanə gətirib bibinlə göndərmişdim.

Qardaşın incik-incik deyinirdi ki, hamı anası ilə gəlmişdi, mən isə bibimlə. O biri qardaşın məktəbə başlayanda Hun Çolla yollamışdım. Bacın da birinci sinfə Hun Çolla getmişdi. Uşaqlardan bircə sənə görə şəhərə gedib çanta və büzməli don aldım. Bunu eləyə bildiyimə görə çox sevinirdim. O kişidən xahiş elədim ki, sənin üçün balaca yazı masası düzəltsin. Bacının masası yox idi. O, indiyədək arabir bunu yada salır, əyilib döşəmədə dərs oxumaqdan belinin donqarlaşdığını deyirdi. Fəxr edirdim ki, öz masanda oturub dərs oxuyursan.

Qəbul imtahanına hazırlaşanda sənə yemək bükürdüm. Hazırlıq vaxtı məktəbdən gec çıxırdın. Səni məktəbin girişində gözləyir, sonra birlikdə evə gedirdik. Sənin lə fəxr edirdim. Kiçik qəsəbənin ən savadlı şagirdi idin.

Sən Seulda əczaçılıq fakültəsinə qəbul olunanda məktəbdə şərəfinə təbrik elanı asdılar. Kimsə mənə: "Yaman savadlı qızınız var!" – deyəndə o saat üzümə təbəssüm yayılırdı. Təsəvvür edə bilməzsən, mən səninlə necə fəxr edirdim. O biri uşaqlar da doğma balamdır, ancaq sənə bəslədiyim hislər bambaşqa idi. Hətta sən tələbə vaxtı mitinqlərdə fəal iştirak edəndə belə mən qardaşlarından fərqli olaraq sənə qarışmırdım. Sən məş-

Telegram: @cinciva

hur Mundune kilsəsinin yanında keçirilən aclıq aksiyasına qoşulanda səni görməyə gəlmədim. Gözyaşardıcı qazdan üzünü sızanaq basmışdı. Mən həmişəki kimi nə işinə qarışır, nə də səni narahat edirdim. Nə ilə məşğul olduğunu bimirdim, amma əmindim ki, bacardığın və vacib bildiyin bir işi görürsən. Sən dostlarınla kəndə gəlib bizim sakinlər üçün gecə kursları təşkil edəndə mən sizə yemək bişirirdim. Bibin deyirdi ki, əgər mane olmasam, kommunistlərə qoşulacaqsan. Mənsə sənə vacib bildiyin hər şeyi eləməyə icazə verirdim. Qardaşlarını isə əksinə, fikirlərindən daşındırmağa çalışırdım və o ki var, danlayırdım.

Kütləvi iğtişaşlar zamanı polislər böyük qardaşını döyəndə mən bir tərəfdən ağrılarını azaltmaq üçün duzu qızdırıb belinə basır, bir tərəfdən də bu işdən əl çəkməsə, özümü öldürəcəyimi deyirdim. Amma bir tərəfdən də qorxurdum ki, oğlum məni axmaq və cahil qoca qarı sanar. Başa düşürəm, elə şeylər var ki, gərək insan cavanlıqda o yollardan keçsin, amma yenə də var gücümlə övladlarımı təhlükəli hərəkətlərdən çəkindirməyə çalışırdım. Ancaq sənə nəyi dəyişdirmək istədiyini, nə üçün mübarizə apardığını bilməsəm də, heç nə demirdim. Bir vaxtlar sən universitetdə oxuyanda, deyəsən, iyun ayı idi, mən hətta dəfn mərasiminə qoşulub sənlə şəhər bələdiyyəsinin önünə getmişdim. Onda mən təzəcə dünyaya gələn nəvəmi görmək üçün Seula gəlmişdim.

Yaxşı yaddaşım var, hə?! O gün yadından çıxmaz. Səhər evdən çıxanda: "Gəl birlikdə gedək", – dedin.

– Hara?

– İkinci oğlunun məktəbinə.

– Niyə? Onun məktəbində nə işin var?

– Vida mərasiminə gedirəm.

– Yaxşı, bəs məni neyləyirsən?

Sən məni başdan-ayağa süzdün, qapıdan çıxhaçıxda, nə-

Telegram: @cinciva

dənsə, geri döndün. Mən qardaşının təzə doğulan uşağının bezlərini qatlayırdım. Əlimdəki əsgiləri çəkib aldın.

– Gedək mənlə!

– Bir azdan yemək vaxtıdır. Gəlinə yosun şorbası bişirməliyəm.

– Bir gün yosun şorbası içməsə, ölməz, – dedin.

Halbuki sən kobud qız deyilsən. Zorla paltarımı dəyişdirtdin.

– Sənlə getmək istəyirəm, ana. Gedək!

Sözlərin xoşuma gəldi. Səsin hələ də qulaqlarımdan getmir. Sən, universitet tələbəsi, savadsız, məktəb oxumamış ananla məktəbə getmək istəyirdin.

Onda mən ilk dəfə idi ki, bu qədər insanı bir yerdə görürdüm. Gözyaşardıcı qaz kürəciyi dəyən cavan oğlanın adı nə idi? Cəmi iyirmi yaşında idi. Neçə dəfə soruşmuşam, yadımda qalmayıb. Bəs o qədər adamı bir yerə yığan cavan oğlan kim idi? O qədər adamı haradan tapmışdı? Dəfn mərasimindən sonra dalınca düşüb bələdiyyə meydanına tərəf yeriyirdim. Gözümü səndən ayırmırdım. Əlindən bərk-bərk tutmuşdum ki, itməyim. Sən: "Ana, əgər bir-birimizi itirsək, heç hara getmə. Yerində dayan ki, səni asan tapım", – dedin.

Bilmirəm, niyə mən əvvəllər heç vaxt bu barədə düşünməmişəm. Atanla Seula gələn günü metroda vaqona minə bilməyəndə gərək bu haqda düşünəydim.

Əzizim, sənlə o qədər gözəl xatirələrim var ki... Əl-ələ tutub bələdiyyə meydanına tərəf addımlayanda oxuduğun mahnıları nə başa düşürdüm, nə də söyləyə bilirdim... Ömrümdə ilk dəfə idi, meydana gedirdim. Fəxr edirdim ki, məni yanında aparmısan. Onda sən tamam başqa cür görünürdün, adi bir ev qızına deyil, qəzəbli şahinə bənzəyirdin. İlk dəfə idi ki, səni bu cür qətiyyətli görürdüm.

Telegram: @cinciva

Mənim sevimli qızım! Ondan sonra hər dəfə Seula gələndə ailəmizdən gizlin-gizlin məni teatra və ya kraliyyət qəbiristanlığına aparırdın. Məni mahnı CD-ləri satılan mağazaya aparır və qulaqlıqları qulağıma taxırdın. Seulda Kanvamun, bələdiyyənin önündəki meydan kimi yerlərin, dünyada kino və musiqi kimi gözəl şeylərin olduğunu səndən öyrəndim. Mənə elə gəlirdi ki, həyatın çox fərqli olacaq. Çünki sən yeganə övladım idin ki, yoxsulluğu hiss eləməmişdin. İstəyirdim ki, sən azad həyat yaşayasan. Sən bu azadlığınla mənə yeni dünyaların qapılarını açırdın. Ona görə də istəyirdim ki, azadlığın hüdudsuz olsun. O qədər azad olasan ki, başqaları üçün yaşamağı bacarasan.

* * *

Deyəsən, getmək vaxtıdır.

Yox, dayanıram...

Körpə yuxuya gedir. Ağzının suyu dodağının kənarından axır, gözləri yumulur. Böyüklər məktəbdə olanda evdə nisbətən sakitçilik olur. Bu, nədir? Evin hər tərəfi tör-töküntüdür. Ay aman, mən heç belə səliqəsiz ev görməmişəm. Kömək eləmək, evi qaydaya salmaq istəyirəm... Ancaq daha bacarmıram.

Körpə yatar-yatmaz səni də yuxu aparır. Hə, yəqin, çox yorulmusan. Mənim balam öz balasını qucaqlayıb yatır.

Sevimli qızım, xahiş edirəm, belə qaşqabağını tökmə. Bu cür gərgin yatsan, üzün tez qırışar. Hilala oxşayan balaca gözlərin daha da kiçilib. Cavan çöhrəndən əsər-əlamət qalmayıb. Gülümsəyəndə gözlərinin kənarında qırışlar görünür. Bir halda ki mənə qızımın üzündəki qırışlarını da görmək qismət oldu, demək, qısa ömür yaşamamışam.

Əziz qızım, sənin üç uşaqla məşəqqətli həyat yaşayacağını ağlıma gətirməzdim. Sən axı tez əsəbiləşən, istədiyi olmayanda qaşqabağını tökən, dəymədüşər bacından fərqli idin... İşlə-

Telegram: @cinciva

rini və arzularını yazır, planlı yaşamağa çalışırdın. Sən: "Üç uşağımın olmasını düşünmürdüm. Ancaq hamilə qaldığımı biləndə uşağı dünyaya gətirmək istədim", – deyəndə elə bildim, qarşımda yad bir qadın dayanıb. Deyirdim ki, yəqin, bacının çox uşağı olar, sənin yox.

Heç vaxt əsəbiləşməzdin. Hirsli qardaşlarınla sakit danışmağı bacarırdın. Buna görə də uşaqların sayı barəsində düzgün qərar verəcəyini, özü də birdən artıq uşaq doğmayacağını düşünürdüm. "Masam yoxdur" deyib aləmi bir-birinə qatan bacından fərqli olaraq sən heç nə istəməzdin. Soruşanda ki, döşəmədə uzanıb neyləyirsən, riyaziyyatdan dərs hazırladığını deyərdin. Bacının riyaziyyat kitabını görməyə gözü yox idi. Sənin isə riyaziyyatdan qiymətlərin əla idi. Məsələ həll edəndə diqqətini toplaya bilirdin. Misalın cavabını tapanda da sevinclə təbəssüm edirdin.

"Niyə ananın başına belə bir hadisə gəldi?" sualına cavab tapa bilməyəcəksən. Bu, səni yaman incidir. Çox istəsən də, uşaqların əlindən məni axtarmağa gedə bilmirsən. Hər axşam bacına zəng vurub bir xəbər öyrənməyə çalışırsan.

Mənim sevimli qızım! Sənə istədiyimi verə bilmədim, amma eynim açıq olanda səni çox düşündüm. Sənin barədə, uşaqlarını böyütməyin barədə, təzə ayaq açan körpən barədə, həyatın barədə... Heyifsilənirdim ki, kimçi bişirib göndərməkdən başqa, sənə bir xeyrim dəymir. Körpənlə kəndə gələndə sənin halına ürəyim ağrımışdı. Çünki tuflilərini çıxarıb: "Vay, ana, corabları taykeş geymişəm", – demişdin.

Çox səliqəli idin. Corabları taykeş geymisənsə, demək, başın çox qarışıq olur. Hərdənbir – əhvalım yerində olanda səni və uşaqlarını düşünürdüm. Öz-özümə: "Bu qıza nəcə kömək edim?" – deyib dərdini çəkirdim. Bu, mənə yaşamağa güc verirdi. Ancaq sonra başıma bu hadisə gəldi...

Telegram: @cinciva

Bu mavi rezin səndəlləri çıxarıb atmaq istəyirəm, dabanı yeyilib. Toza bulaşmış yaz paltarımı da... Bu pərişan görkəmdən canımı qurtarmaq istəyirəm. Artıq özümü tanıya bilmirəm. Başım çatlayır. Bax belə, əzizim, başını azca qaldır. Səni qucaqlamaq istəyirəm. Vidalaşmaq vaxtı gəldi. Başını dizimə qoy, dincəl bir az. Məndən ötrü qəm çəkmə. Mən xoşbəxt bir həyat yaşadım, çünki sən var idin.

* * *

Aaa, sən burdasan.

Komsoya – evinə gələndə çimərliyə açılan doqqazı kimsə vurub sındırmışdı. Otaq qapısı isə bağlı idi. Görünür, çoxdan boş qalıb. Niyə yataq otağının qapısını bağlayıb mətbəxinkini açıq qoymusan? Okeandan əsən ruzigar mətbəxin taxta qapısını o qədər çırpıb ki, yarıyadək çatlayıb.

Sən niyə xəstəxanadasan? Həkim neyləyir? Guya sənə kömək edir?! Əksinə, cəfəng-cəfəng suallar verir. Təkrar-təkrar adını soruşur. Niyə? Bəs sən nə üçün adını demirsən? De ki, mənim adım Li Yonqudur. Niyə susursan? Niyə dəfələrlə sənə eyni sualı verməyə məcbur edirsən? Doğrudan, həkim niyə belə edir? İndi də oyuncaq qayığı götürüb sual verir ki, bilirsən, bu, nədir? Zarafat edir? Bu ki qayıqdır! Bu sualı verməklə neyləmək istəyir? Sən özünü həkimdən də qəribə aparırsan. Niyə susursan? Yoxsa, doğrudan, bilmirsən? Adını unutmusan? Qayıq nədir, bilmirsən? Doğrudan?

Həkim təzədən sənə sual verir:

– Neçə yaşın var?

– Yüz!

– Xahiş edirəm, mənə yaşınızı deyin.

– İki yüz!

Telegram: @cinciva

Sən nə yaman höcətmişsən. Niyə iki yüz yaşının olduğunu deyirsən? Axı sən beş yaş məndən cavansan. Həkim yenə adını soruşur.

– Şin Qu!

– Yaxşı fikirləşin.

– Baek İl Sup!

Aktroy Şin Qu? Tanınmış aparıcı Baek İl Sup? Xoşladığım aktyorlardan danışırsan?

– Xahiş edirəm, bəsdir! Yaxşı fikirləşin və deyin görüm, bu, nədir?

Sən burnunu çəkirsən. Burada nə baş verir? Niyə sən buradasan? Niyə ağlayırsan? Adi suallara cavab verə bilmirsən?

Sənin ağladığını görməmişdim. İkimizdən biri ağlayırdısa, o, həmişə mən idim. Mənim göz yaşlarımı dəfələrlə görmüsən. Mən isə birinci dəfədir, sənin gözlərini nəmli görürəm.

– İndi, xahiş edirəm, adınızı deyin!

Sən ağlayırsan.

– Təkrar edin!

– Pak Sonyo!

Bu, mənim adımdır axı. Adımı soruşduğun gün yaxşı yadımdadır. Sən əyri-üyrü bir yol kimi ürəyimə iz salmısan. Onda çox gənc olsam da, o hadisə baş verəndə özümü cavan hiss etmirdim. İndi sənlə tanış olduğum günü xatırlayanda cavan üzüm gözümün qabağına gəlir. Günortadan xeyli keçmişdi, mən nikel ləyənçəni başıma qoyub təzə küçədə tikilən dəyirmandan evə qayıdırdım. O vaxtlar cavan idim, gücüm-qüvvətim yerində idi. Xəmir yoğurub uşaqlara klyotsklu[21] şorba bişirmək üçün evə tələsirdim. Dəyirman körpüdən dörd-beş ri

21. Klyotsk – un və yumurtadan hazırlanan xəmir xörəyi.

Telegram: @cinciva

aralı idi. Başıma qoyduğum unla dolu ləyənçənin ağırlığından alnımı tər basmışdı. Gen şalvar, üstündən çoqori[22] geyinmişdim. Sən velosipedlə yanımdan ötürdün, birdən dayanıb mənə səsləndin:

– Bir şey demək olar?!

Mən qabağıma baxıb yola davam etdim. Həyəcandan ürəyim, az qaldı, yerindən çıxsın.

– Xahiş edirəm, ləyənçəni verin mənə. Mən onu velosipedlə evinizədək apararam.

– Yoldan keçən bir adama necə etibar edim? – dedim.

Bir az yavaşladım. Yaylığımı qatlayıb ləyənçənin altına qoymuşdum, ancaq ləyənçə o qədər ağır idi ki, az qalırdı başımı əzsin.

– Düzünü desəm, indiyədək velosipeddə bir şey daşımamışam. Eviniz haradadır?

– Körpünün o üzündəki kənddə...

– Kəndin yanında mağaza var, hə? Ləyənçənizi ora apararam. Verin mənə, siz rahat gəlin. Deyəsən, yaman ağırdır. Ləyənçəni velosipedə qoyun, evə daha tez çatarsınız.

Velosipeddən düşəndə gözucu sənə baxdım. Ləyənçənin altından üzümə düşən yaylığın ucunu dişlərimin arasına alıb çeynədim. Adi görkəmin vardı. Dərin solğundu, elə bil ömründə heç işləməmişdin. Uzun sifətin və kədərli baxışların heç cazibədar deyildi. Yoğun düz qaşlarınsa üzünə dürüstlük ifadəsi verirdi. Dodaqlarına baxan deyərdi ki, bu, etibarlı insandır. Arxayın və diqqətlə baxan gözlərin mənə tanış gəlirdi. Elə bil mən haradasa onları görmüşdüm. Ləyənçəni yerindən tərpətmədən diqqətlə üzünə baxdım. Üzünü çevirdin, velosipedə minməyə hazırlaşdın.

22. Çoqori – Uzun dar qollu Koreya milli geyimi.

Telegram: @cinciva

– Sizə zərər vermərəm. Yükünüz ağırdır. Dedim, kömək edim. Zorla aparası deyiləm ki!

Ayaqlarını velosipedin pedallarına qoydun. Tələm-tələsik təşəkkür edib ləyənçəni velosipedə qoydum. Sonra da dayanıb qalın rezin qayışla ləyənçəni yük yerinə bərkitməyinə baxdım.

– Mağazadan götürərsiniz!

Və beləcə, sən pedalları fırladaraq uşaqlarımın ruzisini vıyıltı ilə aparıb getdin. Velosipedin uzaqda gözdən itməyinə baxa-baxa yaylığı başımdan çıxardım, şalvarımın tozunu çırpdım. Velosipedin qaldırdığı tozun ardınca düşüb kiçilən siluetinə baxa-baxa gözlərimi sildim. Yükdən canım qurtarmışdı, özümü çox yüngül hiss edirdim. Qollarımı yelləyə-yelləyə küçə ilə gedirdim. Xəfif meh bədənimə xoş bir sərinlik verirdi. Axırıncı dəfə nə vaxt yüksüz yol getdiyim yadımda deyildi. Başımı qaldırıb alatoran göydə dövrə vuran quşlara tamaşa edir, uşaqlıqda anamla birgə oxuduğum nəğməni söyləyirdim.

Mağazaya yaxınlaşaraq qapısına baxdım, ancaq ləyənçə yox idi. Ürəyim sürətlə döyünməyə başladı. Satıcı qızdan soruşmağa qorxurdum ki, bura ləyənçə qoyub gedən olmadı ki? Ləyənçəni orda qoysaydı, çoxdan görərdim. Yaylığımı ovcumda sıxıb məsələdən xəbərsiz mat-məəttəl mənə baxan satıcı qıza tərəf getdim. Birdən elə bil oyandım. Başa düşdüm ki, uşaqlarımın axşam yeməyini oğurladın. Göz yaşlarım yanaqlarımdan aşağı diyirləndi.

Axı mən ləyənçəni tanımadığım bir adama niyə verdim, niyə sənə etibar elədim? Nə fikirləşirdim? Niyə mən belə elədim? Velosiped gözdən itəndə bir balaca narahatlıq hissi keçirmişdim, amma... Hələ də həmin hissi duyuram. Evə əliboş necə gedim? Ləyənçəni axtarıb tapmalı idim. Səhər buğda yığanda çənin dibinə sürtünən qaşıq səsi yadıma düşdü. Evdə on günlük un qalsa da, un dolu ləyənçəni tapmalı idim.

Telegram: @cinciva

Və mən səni, çox güman, mağazanın yanından ötüb keçən velosipedini axtara-axtara yoluma davam elədim. Ötən-keçəndən səni soruşurdum. Çox çəkmədi ki, kim olduğunu öyrəndim. Məgər yaxınlıqda yaşayırmışsan. Qəsəbənin yaxınlığında, kəndimizdən beş ri uzaqda, kirəmit damlı bir evdə yaşadığını öyrənəndə özümü atdım ora. Fikirləşirdim ki, nə qədər tez çatsam, qənimətdir, ləyəni un qarışıq qaytarıb alaram.

Velosipedini çəltik tarlalarının arasında, təpənin ətəyində yerləşən köhnə evin yanında görcək özümü tələm-tələsik həyətə saldım. Sönük, çuxura düşmüş gözləri ilə uzağa baxan qoca anan əyri artırmada oturmuşdu. Yanında oturan üç yaşlı uşaq ayaq barmağını sorurdu. Arvadınsa sancıdan qışqırırdı, uşağın suyu gəlmişdi. Hövlnak halda darısqal və qaranlıq mətbəxin divarından qazançanı götürdüm, su qızdırmağa başladım. Səni kənara itələdim. Bu işdən başın çıxmazdı. Çarəsiz arvadının yanında oturub əlindən tutdun. Onu birinci dəfə idi, görürdüm.

– Gücən! Var gücünlə gücən! – deyə qışqırdım.

Bilmirəm, nə qədər vaxt keçdi, axır ki, körpənin çığırtısı gəldi. Evində bir çəngə yosun tapılmadı ki, arvadına şorba bişirim. Qoca ananın gözləri zəif görürdü, güclə gəzirdi. Körpəni bələdim, ləyənçəmdən bir az un götürüb klyotsklu şorba bişirdim. Bir neçə kasaya çəkdim və arvadının yatdığı otağa apardım.

O hadisədən – un ləyənçəsini başıma qoyub evə yollandığım günün üstündən neçə illər keçdi?! Yanındakı oğlan, yəqin, o gün dünyaya gələn körpədir. Oğlan nəmli süngərlə əllərini silir. Səni böyrün üstə çevirir və belini silməyə başlayır. Uzun illər keçib. Üzün, boğazın qırış-qırışdır. Qalın qaşların seyrəlib. İndi oğlun sual verir:

– Ata! Adın nədir? Adını unutmusan?

Telegram: @cinciva

– Pak Sonyo.

– Necə yəni Pak Sonyo, ata?

Bunu eşitmək mənə də maraqlıdır. Mən sənin üçün nəyəm, kiməm?

O hadisənin üstündən bir həftə keçmişdi. Ailən fikrimdən çıxmırdı. Bir gün bir qədər dəniz yosunu götürüb evinə gəldim. Amma arvadını görə bilmədim. Otaqda bircə körpə vardı. Dediyinə görə, doğumdan sonra üç gün yerində qızdırmadan çapalayıb dünyasını dəyişib. Yemək yeyə bilmirmiş, o qədər zəifləyibmiş ki, doğumdan sonra bir daha ayağa qalxmayıb. Anan yenə həmin yerdə – artırmada oturmuşdu. Bilmirdim, olanları başa düşür, ya yox. Bir də üç yaşlı uşaq vardı. Yəqin, çarpayının yanındakı oğlan o gün dünyaya gələn körpə deyil, həmin üç yaşlı uşaqdır.

Bilmirəm, mən sənin üçün kim idim, amma sən mənim ömürlük dostum oldun. Kim deyərdi ki, bütün bu illər ərzində biz dost olacağıq? Uşaqlarımın yeməyini oğurlayaraq mənə əziyyət verdin, məni çarəsiz vəziyyətdə qoydun. Uşaqlar bizi anlamazdılar. Onlar üçün müharibədə yüz minlərlə insanın həlakını anlamaq bizi başa düşməkdən daha asan idi.

Arvadının öldüyünü bilsəm də, çıxıb gedə bilmədim. Evdən bir qədər yosun gətirib suda islatdım. Olan-qalan unla xəmir yoğurdum və yosunlu şorba bişirdim. Masaya ailə üzvlərinin sayı qədər kasa düzəndən sonra körpəni əmizdirdim. O vaxtlar südüm öz qızıma güclə çatırdı. Sənsə qucağında körpə ilə düşmüşdün kəndin canına. Yaxşı ki, arabir döş verən qadınlar olurdu.

Bəzən həyat çox kövrək olur, bəzən də hər sınağa davamlı... Böyük qızım deyir ki, tarla şumlanarkən kotanın dişləri torpaq laylarını qaldırıb çevirəndə alaq otları toxumlarını hər yana səpələyərək son anlarında yeni həyatın toxumlarını əkir.

Telegram: @cinciva

Oğlun südümü elə acgözlüklə əmirdi ki, dedim, indi məni udacaq. Uşağın doğumdan qırmızı ləkələr qalan yanına yungülcə vurdum. Doğular-doğulmaz anasını itirən körpə döşümü buraxmaq istəmirdi. Körpəni yerinə uzadıb getməyə hazırlaşırdım ki, adımı soruşdun. Ərə gedəndən sonra adımı soruşan birinci adam sən idin. Pərt olub başımı aşağı saldım:

– Pak Sonyo.

Adımı eşidib güldün. O anda nə elədiyimi xatırlamıram, orası yadımda qalıb ki, bir də gülməyini istədim. Sən soruşmasan da, böyük bacımın adının Tanyo olduğunu və "böyük qız" mənasına gəldiyini dedim. Mənim adım da "kiçik qız" demək idi. Sən yenə gülməyə başladın.

Sonra dedin ki, adın Yonqudur, böyük qardaşının adı isə Kumqu. Atan oğlanlarına "gümüş"lü, "qızıl"lı adlar qoymuşdu ki, gələcəkdə çoxlu pul qazansınlar, varlı olsunlar. Sənin adın "gümüş mücrü", qardaşınınkı isə "qızıl mücrü" mənasına gəlirdi. Bəlkə də, məhz buna görə qardaşının güzəranı səninkindən bir qədər yaxşı idi. Bu dəfə də mən gülməyə başladım. Mənə baxıb sən də güldün. Güləndə daha yaraşıqlı görünürdün. Ona görə də həkimə belə qaşqabaq tökmə, sadəcə gülümsə. Gülümsəmək də pulla deyil ki?!

* * *

Uşağın üç həftəlik olanadək gündə bir dəfə evinizə gəlib körpəni əmizdirdim. Bəzən səhər tezdən, bəzən də gecədən xeyli keçmiş. Sənə yük olmurdum ki? Əlimdən gələn ancaq bu idi. Otuz il boyu hər dəfə bir çətinliyim olanda yanına gəldim. Kunun başına gələn hadisədən sonra gəlişlərim çoxalmışdı. Onda həyatdan tamam əlimi üzmüşdüm, yaşamaq istəmirdim. Səbir edib dözməkdənsə ölmək daha asan gəlirdi.

Hər kəs həyatımı çətinləşdirirdi, bircə sən məni lazımsız suallarla yormurdun. "Zaman bütün yaraları sağaldır", – de-

Telegram: @cinciva

yirdin. "Yaşamağa və öz işinlə məşğul olmağa çalış", – deyə məsləhət verirdin. Sən olmasaydın, bilmirəm, neylərdim. Dərddən ağlım başımda deyildi. Ölü doğulan uşağımı dağlarda basdırmağa kömək elədin. İndi bu barədə düşünəndə öz-özümə deyirəm ki, doğrudan, sənə yük olduğuma görə Komsoya köçdün? Komsoda, sahil qəsəbəsində balıqçılıqla dolanmaq sənin işin deyildi axı. Əvvəllər torpağı becərir, toxum əkirdin. Öz torpağın yox idi deyə başqalarının tarlalarını əkib-becərirdin. Komsoya köçəndə gərək sənə yük olduğumu başa düşəydim. İndi anlayıram ki, sənə çox əziyyət vermişəm.

O vaxtlar mənə borclu olduğunu düşünürdüm. Ona görə də ağlıma gələni edirdim. Ləyənçəmi oğurladığın gün səni axtarıb tapdığım kimi, Komsoda da tapdım. Ora xəbər-ətərsiz köçmüşdün. Komso sənə yad idi. Sahildə gülünc görünürdün. Okeanın duzlu sahillərinə baxanda üzündəki ifadə hələ də gözümün qabağından getmir. Baxışlarını unuda bilmirəm. İndi düşünürəm ki, o gözlər: "Məni burda da tapdın?" – deyirdi.

Komsonu sırf sənə görə unuda bilmədim. Dara düşdümmü, o saat yanındaydım. Hər şey qaydasına düşəndə isə səni unudurdum. Daha doğrusu, unutduğumu sanırdım. Komsoda məni görən kimi "Nə olub?" – dedin. Ancaq etiraf edim ki, ilk dəfə Komsoya çətinə düşdüyüm üçün deyil, sırf səni görmək üçün gəlmişdim.

Sənə ehtiyacım qalmayanadək eyni yerdə yaşadın, bircə Komsoya qaçışından savayı. Buna görə sənə təşəkkür edirəm. Bəlkə də, mənə yaşamağa güc verən sənin varlığın idi. Hər dəfə həyatdan bezib ümidsizləşəndə yanına qaçdım, bağışla. Həmişə mən gəlirdim, amma özümü elə aparırdım ki, sanki sən mənim yanıma gəlmisən. İstəsəydin, sən də baş çəkərdin, amma mən istəmirdim, buna çox əsəbiləşirdim. Bağışla, sənə qarşı kobud olmuşam. Əvvəllər qəribə hislər keçirirdim. Sonra utandım. Daha sonra da qocaldım. Sən mənim günahım, mə-

Telegram: @cinciva

nim səadətimdin. Yadında ləyaqətli qadın kimi qalmalıydım.

Bəzən sənə guya oxuduğum hekayələri danışırdım. Əslində, hərf tanımırdım. Qızlarım mənə danışırdı, mən də sənə. Bir dəfə İspaniya adlı ölkədən, oradakı Santyaqo adlı yerdən danışdım. Neçə dəfə "Hara, hara?!" deyə soruşdun, çünki yadda saxlamaqda çətinlik çəkirdin. Orada bir ziyarət yeri varmış, otuz üç günə piyada ziyarət edilirmiş. Qızım Çi Hon ora getməyin xəyallarını qururdu. Ona görə bu yerin adı dilindən düşmürdü. Amma elə danışırdım ki, guya mən getmək istəyirəm. Onda sən:

– Madam ora getməyi bu qədər istəyirsən, gəl, bir gün birlikdə çıxıb gedək, – dedin.

Bunu eşidəndə quruyub qaldım. Deyəsən, bundan sonra daha yanına gəlmədim. Düzünü deyim, bu yer haradadır, bilmirəm və inan, getmək də istəmirəm.

"İnsanın keçmiş əməllərinə nə olur?" Cavabını səndən eşitmək istəsəm də, bu sualı bir gün qızıma verdim.

Çi Hon: "Bu nə qəribə sualdır, ana?!" – dedi, – Ola bilsin, yox olmur, bugünkü zamana qarışır.

Bu nə anlaşılmaz sözlərdir! Sən başa düşürsən? Qızım deyir ki, keçmişdə baş verən hadisələr bu zamandakı hadisələrə qarışır. İndiki zaman isə səssiz-səmirsiz gələcəyə axır. Gələcək də keçmişlə birləşir. Ancaq biz bunu hiss etmirik. Daha davam edə bilmirəm.

Sən də indiki zamanın, keçmiş və gələcəyin biri-biri ilə bağlı olduğuna inanırsan? Görəsən, bu, həqiqətən, belədir? Hərdənbir nəvələrimə baxanda elə bilirəm ki, göydən düşüblər, bizimlə heç bir əlaqələri yoxdur. Mənlə isə heç əlaqələri yoxdur.

Ola bilərmi ki, birinci görüşümüzdə sürdüyün velosiped oğurluq olsun? Ya da, bəlkə, mənlə qarşılaşmadan əvvəl bu oğurluq velosipedi arvadına yosun almaq üçün satmağa apa-

Telegram: @cinciva

rırdın? Yoxsa velosipedi sata bilməmişdin, qayıdanda sahibi səni tutub cəzalandırmışdı... Bəlkə, bütün bunlar keçmişin səhifələrinə qarışıb bizi buralara qədər gətirmişdi...

İtkin düşəndən sonra məni axtarıb tapmağa çalışdın. Bilirəm ki, ömründə heç vaxt Seulda olmamısan. Şəhər dəmir yolu vağzalına gəlmiş və mənə oxşayan qadınları saxlada-saxlada metronu gəzmişdin. Bir xəbər öyrənmək ümidi ilə dəfələrlə evimin yanından gizlin keçmişdin. Hətta hər şeyi ətraflı öyrənmək üçün övladlarımla görüşmək də istəmişdin. Yoxsa, buna görə xəstələnib yatağa düşmüsən?

Adın Li Yonqudur. Həkim bir də adını soruşanda demə ki, adın Pak Sonyodur, öz adını çək. Daha səni buraxıram. Sən həyatımın sirri idin. Yaxınlarımdan heç kimin sənin varlığından xəbəri yox idi. Kimsənin xəbəri olmasa da, sən ən çətin vaxtlarda mənə əl uzadan, həmişə yanımda olan dostum idin. Sənin varlığın mənə xoşbəxtlik gətirdi. Qapını sevinc deyil, iztirab güc gələndə döyərdim. Sənin təsəllilərinlə yaşaya bildim. Və sənə bunları deməyə gəlmişdim.

İndi daha gedirəm.

***

Niyə qapını bağlamısan? Açıq qoysaydın, qonşu uşaqlar girib içəridə oynayardı. İçəri buz kimi soyuqdur. Hər yanı qar basıb, təmizləyən yoxdur. Həyət ağappaq kağıza bənzəyir. Hər yerdən sırsıralar sallanıb. Uşaqlar balaca olanda sırsıraları qırıb qılınc-qılınc oynayırdılar. Yəqin, mənim yoxluğumda evə gəlib-gedən də olmur.

Motosikletin anbarda durur. O da tamam donub. Sözümə qulaq as, ona daha minmə. Motosikletə minən vaxtın keçib. Yoxsa, hələ də özünü cavan sayırsan? Bax, yenə başladım deyinməyə. Etiraf edim ki, motosikletə minəndə boy-buxunlu, cazibədar görünürsən. Heç kənd adamına oxşamırsan. Cavanlıq-

Telegram: @cinciva

da əynində dəri gödəkcə, saçlarını parladıb motosikletlə şəhərə gedəndə insanlar gözlərini səndən çəkməzdilər. Haradasa o vaxtdan qalma şəklin də var. Deyəsən, yataq otağı qapısına asılmış çərçivədə... Bax budur. Bu şəkildə heç otuz yaşında da deyilsən. Üzündə ehtiraslı ifadə var. İndi tamam düşmüsən.

Birinci evimiz yaxşı yadımdadır. O evi çox sevirdim. Düzdür, "sevirəm" sözünü hələ indi dilimə gətirirəm, amma düşünürəm ki, bu hislər təkcə sevgi deyildi. Biz o evdə qırx il yaşadıq. Mən həmişə evdə olurdum. Həmişə. Sənsə gah evdə idin, gah da uzaqlarda. Səndən bir xəbər-ətər gəlmirdi. Elə bilirdim, daha heç qayıtmayacaqsan. Sonra birdən ortaya çıxırdın.

Köhnə ev gözlərimin qabağındadır. Par-par işıq saçır. Hər şeyi xatırlayıram. Bu evdə baş verən bütün hadisələri. Uşaqların dünyaya gəldiyi illərdə olan hər şeyi... Mən səni gözləyirdim, sonra unudurdum, səndən nifrət edirdim, sonra yenə gözləyirdim. İndi bu ev boş qalıb. Həyətə göz-qulaq olan ağ qardan başqa burada kimsə yoxdur.

Ev qəribə şeydir. İnsanlarla münasibətlər həmişə öz axarı ilə getmir. Yaxın bir insandan bəzən gülər üz görürsən, bəzən tikanlı söz eşidirsən. Amma ev başqa şeydir. İnsan nəfəsi dəyməsə, ən möhkəm, ən davamlı evlər belə dağılmağa, köhnəlməyə başlayır.

Qar yığınından evin damı çöküb. Yazda gərək bir usta çağırıb dama baxdırasan. Bilmirəm, xəbərin var, ya yox, qonaq otağında, televizor dolabında dam ustalarının adları, telefon nömrələri var. Zəng elə, gəlib düzəltsinlər. Qışda evi baxımsız qoymaq olmaz. Heç kim qalmasa da, gərək arada gəlib isidəsən.

Seula getmisən? Məni orada axtarırsan?

Yaponiyaya getməmişdən qabaq Çi Hon kitablar göndərmişdi. Bu kitabları düzdüyüm otaq da yaman soyuqdur. Elə bil kitabları da don vurub. Kitabları göndərəndən sonra bu,

Telegram: @cinciva

mənim ən sevdiyim otaq oldu. Baş ağrım başlayanda gəlib burda uzanırdım. Əvvəlcə mənə elə gəlirdi ki, ağrılarım get-gedə azalır. Ağrılardan əziyyət çəkdiyimi sənə bildirmək istəmirdim. Amma gözlərimi açanda ağrılar daha şiddətlə geri qayıdırdı. Sənə yemək də hazırlaya bilmirdim. Amma istəmirdim ki, xəstə olduğumu biləsən. Buna görə də çox vaxt özümü yalqız hiss edirdim.

Kitabların düzüldüyü otağa keçib döşəməyə uzanırdım. Bir dəfə ağrıyan başımı əllərimin arasına alıb öz-özümə söz verdim ki, Yaponiyadan qayıdanadək Çi Honun heç olmasa bir kitabını oxuyub bitirəcəyəm. Və mən həmişəki kimi başımı əllərimin arasına alıb başladım əlifbanı öyrənməyə. Amma öyrənib qurtara bilmədim. Əlimə kitab alan kimi pisləşirdim. Özümü çox tənha hiss edirdim. Çünki sənə oxumağı öyrənməyə çalışdığımı deyə bilmirdim. Qürurum yol verməzdi. Təkcə qızımın kitablarını sərbəst oxumaq üçün deyil, həm də bütün ailə üzvlərinə vida məktubu yazmaq üçün əlifbanı öyrənmək istəyirdim.

***

Külək... Güclü külək həyətdəki qarı sovurur.

Yay axşamları sacı çıxarıb mantou[23] bişirərdik. Bu, həyətdə keçirdiyimiz ən yaxşı günlər idi. Ağcaqanadları qovmaq üçün Hun Çol təzək yığıb ocaq qalayırdı. Balacalar isə taxçada uzanıb qazançada bişirdiyim mantounu gözləyirdilər. Bir qazança yeməyi bişirib hörmə siniyə düzər-düzməz qurtarırdı. Uşaqlar elə sürətlə yeyirdilər ki, çatdıra bilmirdim. Ocağa odun atata sıra ilə taxçada oturub növbəti porsiyanı gözləyən uşaqlara tamaşa edirdim, bir tərəfdən də, qorxu canımı alırdı. Bu qədər yemək olar?! Ocaq yansa da, ağcaqanadlar əl-ayağıma daraşırdılar.

Hava qaralanda uşaqlar bütün mantouları yeyib bitirir-

23. Mantou – Çin xəmir xörəyi.

Telegram: @cinciva

dilər, amma yenə də doymurdılar. Olsa, yenə yeyərdilər. Bəzi axşamlar taxçaya doluşub manotunun bişməsini gözləyən uşaqlar bir-birinin ardınca yuxuya gedirdilər. Mən də bişirdiyim mantouları səbətə düzür, üstünü örtür və taxçanın yanına qoyurdum. Sonra da yatmağa gedirdim. Gecədən qalan mantuo səhər şehindən azca boyatlaşmış olurdu. Uşaqlar yuxudan oyanar-oyanmaz səbətin üstünü açır, mantouları iştaha ilə içəri ötürürdülər. Mənim uşaqlarım indi də azca boyat mantounu xoşlayırlar. Bir vaxtlar bizim çox gözəl axşamlarımız olurdu. Göydən parlaq ulduzların yağış kimi yağdığı axşamlar.

Küçələrdə gəzə-gəzə heç nə xatırlamırdım. Başım tamam dumanlı idi. Amma bir yerdən ötrü çox darıxırdım. Sən təsəvvürünə gətirə bilməzsən, mən bu həyətdən, bu artırmadan, bu güllükdən, bu quyudan ötrü nə qədər darıxmışam.

Bir az avara-avara gəzib yerdə oturdum. Tozun içində evimizin şəklini çəkdim. Bu, mənim evim idi. Darvazanı, güllüyü, çini küplərin düzüldüyü rəfləri, artırmanı çəkdim. Bu evdən başqa, heç nə xatırlamırdım. Əvvəllər burada olan və çoxdan yoxa çıxan evi... Ənənəvi kiçik mətbəxi, dəvədabanı yarpaqları ilə kölgələnən arxa bağçası, axurun yanında anbarı olan evi... İki taylı, boyası qopub tökülmüş mavi darvazalı evi... Darvazasının sol tayında balaca qapısı olan, sağ tayına poçt qutusu vurulan evi... Darvazanın hər iki tayı nadir açılardı, amma ağac tutacaqlı kiçik qapısı həmişə açıq qalardı. Heç vaxt bağlamazdıq. Hətta biz evdə olmasaq da, qonşu uşaqları həyətə girib axşam düşənədək oynayardılar.

Təsərrüfat işlərinin qızğın vaxtında balaca qızım məktəbdən gələr, xurma ağacına söykənən velosipedə minib pedalları hərlədərdi. Məni görən kimi sevinclə üstümə atılardı. Balaca oğlum evdən qaçanda otağın ən isti küncündə ona yemək ayırardım, hər iki qapını da açıq qoyardım. Kiminsə ayağı dəyib düyü kasasını aşıranda döşəməni silib əvvəlki yerinə qoyar-

Telegram: @cinciva

dım. Gecənin bir aləmində küləyin səsindən oyanıb darvazaya qaçar, ağır daşları qabağına qoyardım ki, çırpılmasın. Qulağım qapıda olardı. Hər tıqqıltıya qulaq verərdim.

Dolab da tamam donub.

Hətta qapıları belə açılmır. Güman ki, içi boşdur. Baş ağrılarım dözülməz həddə çatanda çoxdan görmədiyim o adamın yanına getmək istədim. Fikirləşirdim ki, səhhətimə yaxşı təsir edər. Amma fikrimdən daşındım. Onu görmək arzumu ürəyimdə boğub gündəlik işlərlə başımı qatmağa çalışdım. Hiss edirdim ki, o gün yaxındır. Onda artıq heç kimi və heç nəyi tanıya bilməyəcəyəm. Şüurum birdəfəlik donacaq. Bax onda tamam aciz qalacam.

Ağlım nə qədər ki yerindədir, bütün əşyaları səliqəyə salmaq istəyirdim. Çoxdandır geyinmədiyim paltarları bir parçaya büküb tarlada yandırdım. Hun Çolun birinci maaşı ilə aldığı pijama dəsti illərdir, dolabdaydı, etiketi belə qoparılmamışdı. Bu əşyaları yandıranda başım elə ağrıyırdı ki, elə bil bu saat partlayacaqdı. Uşaqlar bayrama gələndə lazım olar deyə yastıq və adyalı saxlayıb qalan hər şeyi yandırdım. Ərə gedəndə anamın toxuduğu pambıq adyalı da odladım.

Uzun illər mənə aid olan əşyaları çıxarıb diqqətlə baxdım. Böyük qızıma cehizlik saxladığım qab-qacaqlara bir-bir göz gəzdirdim. Bilsəydim ki, ərə getmək fikri yoxdur, üç uşaqlı kiçik qızıma verərdim. Çi Hona saxladığım üçün balacaya verməyə tərəddüd edirdim. Bir qədər yubandım, sonra qab-qacaqları həyətə töküb xıncım-xıncım elədim. Bilirdim ki, bir gün gələcək, heç nə xatırlamayacam. O gün gəlməmiş bütün əşyalara əncam çəkməliydim. Arxada heç nə qoyub getmək istəmirdim. Bufetdə də bir şey qalmamışdı. Seçib ayırdığım hər şeyi sındırdım, qırıqlarını da torpağa basdırdım.

O donmuş dolabda təkcə bir qış əşyası qalıb – balaca qızı-

Telegram: @cinciva

mın bağışladığı qara samur kürk. Qırx beş yaşım tamam olan ili iştahadan kəsildim, evdən çölə çıxmaq istəmirdim. Qəmə batmışdım, tez-tez hirslənir və nifrətlə deyinirdim. Mənə elə gəlirdi ki, üzümü iyrənc qırışlar basıb. Elə bilirdim, ağzımdan pis qoxu gəlir. Ona görə də düz on gün ağzımı bıçaq açmadı. Başımdan pis fikirləri qovmağa çalışırdım, amma kədər və məyusluq hissi məndən əl çəkmirdi. Qışın oğlan çağı olsa da, tez-tez əllərimi soyuq su ilə yuyurdum.

Bir gün kilsəyə yollandım. Həyətində ayaq saxlayıb qollarında cansız oğlunu tutan Məryəm heykəlinin qabağında baş əydim. Dua edib möhkəm olmağı, depressiyadan çıxmağı, güc tapıb məyusluq hissi ilə mübarizə aparmağı diləyəcəkdim. Mənə rəhm etməsini istəyəcəkdim. Ancaq sonra fikrimdən daşındım. Düşündüm ki, qollarında ölü övlad tutan bir qadın mənimçün nə edə bilər?

Messada[24] birinci sıralarda samur kürklü bir qadın gördüm. Xəzin zərif yumşaqlığı məni özünə çəkdi. Qeyri-ixtiyari ona yaxınlaşdım, başımı yana əydim. Samur xəz yaz mehi kimi nəvazişlə qırışmış üzümü oxşadı. Çoxdan tutub saxladığım göz yaşlarım leysan kimi tökülməyə başladı. Qadın başımın ona tərəf əyildiyini hiss edib kənara çəkildi. Evə qayıdanda balaca qızıma zəng vurub mənə samur kürk almağı xahiş elədim.

– Samur kürkü?

– Hə, samur kürkü.

O dinmədi.

– Alacaqsan, ya yox?

– Bu il elə də soyuq deyil. Geyinəsi yerin var?

– Hə.

24. Messa – Katolik ibadətlərindən birinin adı və bu ibadət zamanı çalınan musiqi.

Telegram: @cinciva

– Harasa gedirsən?

– Yox.

Acıqlı cavablarımı eşidib ucadan güldü.

– Onda Seula gəl. Birlikdə mağazaları gəzərik.

Samur kürkləri satılan böyük univermağa girəndə qızım dinməz-söyləməz diqqətlə mənə baxdı. Təsəvvürə gətirmirdim ki, kilsədəki qadının əynindəkindən azca qısa olan samur kürk bu qədər bahalı olar. Qızım bunu məndən gizlətmişdi. Evə girəndə gəlinimin gözləri bərəldi:

– Anacan, sizin samur kürkünüz var?!

Susdum.

– Anacan, bəxtin gətirib ki, sənə belə bahalı şeylər alan bir qızın var. Mənsə anamın paltosuna tülkü xəzindən çiyinlik də ala bilmirəm. Deyirlər, samur kürk nəsildən nəslə ötürülür. Xahiş edirəm, özünüzdən sonra bu kürkü mənə vəsiyyət edin.

– Anam ömründə ilk dəfədir, məndən nəsə istəyir! Bəsdir daha! – dedi qızım.

Qızım gəlinin üstünə çəmkirəndə hər şeyi anladım. Yadıma düşdü ki, mağazada təkrar-təkrar qiymət kağızına baxırdı. Qızım onda universiteti təzə qurtarmışdı, xəstəxana aptekində işləyirdi. Evə gələn kimi samur kürkü götürüb şəhərin univermağına getdim. Qiyməti görəndə nitqim tutuldu. Nə biləydim ki, bu qədər bahalı olar! Qızıma zəng vurub: "Kürkü geri qaytarmalıyıq!" – dedim. O isə razı olmadı: "Ana, sən buna layiqsən. Geyin, sağlığına qismət olsun".

Bizim yerlərdə şaxtalı havalar az olur. Ona görə də kürkü tək-tük geyinirdim. Hətta düz üç il bir dəfə də əynimə almadım. Ruhumu qaranlıq fikirlər çulğalayanda dolabı açıb üzümü xəzə basırdım. Məndən sonra kürkü ən kiçik qızıma verməyi düşünürdüm.

Telegram: @cinciva

İndi hər yer qarla örtülü olsa da, yazda divarın dibindəki balaca güllük yenə cana gələcək. Qonşudakı armud ağacı çiçək açacaq, ətri həyətimizi dolduracaq. Tünd-çəhrayı qönçələri olan sarmaşıq qızılgül şad-xürrəm halda baharı salamlayacaq. Yaz yağışı yağan kimi divarın dibindəki alaqlar boy atacaq.

Bir gün qəsəbədən – körpünün altından otuz ördək balası alıb həyətə buraxmışdım.Güllüyə soxulub bütün çiçəkləri tapdalamışdılar. Cücələrə qarışanda ayırmaq olmurdu. Yaz açılanda vaq-vaqlarından qulaq tutulurdu. Qızım həyətdə qızılgülün dibini toxalaya-toxalaya: "Torpağa gübrə versək, çoxlu gül açar", – deyirdi. Birdən torpaqda qıvrılan soxulcan gördü. Toxanı atıb evə cumdu. Toxa da bir cücənin üstünə düşüb onu öldürdü.

Yayda kəndə yağış yağanda torpaqdan qalxan təravət qoxusunu unuda bilmirəm. Həyətdə gəzən it, cücələr və ördək balaları gah artırmaya doluşur, gah hində gizlənir, gah da divarın dibinə qısılırdılar. Qəfil leysandan sonra əmələ gələn palçıqda yerimək olmurdu.

Payızın son aylarında əsən küləklər isə xurma ağacının quru yarpaqlarını xışıltı ilə həyətdə sovururdu. Bütün gecə evin ətrafında dövrə vururdu. Qış gecələrində də külək yağan qarı süpürüb artırmaya doldururdu.

Kimsə darvazanı açır.

Hə, bu, bibidir!

Sən uşaqlarımın bibisi, mənim bacım idin. Amma heç vaxt cəsarətimi toplayıb sənə bacı deyə bilmədim. Mənə qayınanalıq edirdin. Gəlmisən, yoxlayasan ki, hər şey qaydasındadır? Çünki çöldə bərk qar yağır, möhkəm külək əsir. Mənsə səni tamam unutmuşdum. Deyirdim, daha evə baxan olmaz. Sən niyə axsayırsan? Axı həmişə zirək, diribaş qadın olmusan. Eh, yəqin,

Telegram: @cinciva

bütün günah qocalıqdadır. Ehtiyatlı ol, burda çoxlu qar var.

– Evdə kim var?

Səsin heç dəyişməyib. Həmişəki kimi amiranə səslənir.

– Heç kim yoxdur?

Evin boş olduğunu bilə-bilə yenə sual verirsən. Cavab gözləmədən artırmanın bir küncündə otururşan. Niyə əynini nazik geyinmisən? Özünü gözlə, soyuqlayarsan. Çöldəki qara uzun-uzadı baxırsan. Sanki fikirlərin haradasa çox uzaqlara gedib. Nə fikirləşirsən?

– Elə bil bura kimsə gəlib... Bu soyuqda haralardasan?

Doğrudan, sən mənim barəmdə danışırsan?

– Yay bitdi, payız uçub getdi, bax, qış gəldi... Bilməzdim, bu qədər vicdansız olarsan. Sənsiz bu ev necə olacaq? Hər şey boş balıqqulağına oxşayır. Yay paltarında getmişdin. Bir də qayıtmadın. İndi qışdır. Doğrudan, sən dünyadan köçmüsən?

Yox. Hələlik buralarda gəzirəm.

– Dünyada ən bədbəxt insan doğma evindən uzaqda ölən-dir... Xahiş edirəm, özündən muğayat ol və tezliklə qayıt.

Doğrudan, sən ağlayırsan?

Uzun ensiz zolağa oxşar gözlərin boz göyə baxıb nəmlənir. Onlar belə doluxsunanda daha məni qorxutmur. Sərt baxışların həmişə məni qorxudurdu. Üzünə baxmamağa çalışırdım, gözlərindən ehtiyat edirdim. Düzdür, ciddi görkəmindən xoşum gəlirdi. Başını aşağı salıb məyus-məyus oturmaq sənə yaraşmır.

Səndən bircə dəfə də xoş söz eşitməmişəm. İndi bu çarəsiz üzünə niyə baxım? Səni bu halda görməkdən xoşum gəlmir. Mən səndən çəkinsəm də, çıxılmaz vəziyyətə düşəndə: "Yerimdə bibi olsa idi, görəsən, neyləyərdi?" – deyib səni nümunə götürürdüm.

Telegram: @cinciva

İndi tək qalan Hun Çolun atasına gərək sən baxasan. Düzünü desəm, bu, çox da ürəyimdən deyil. Amma sən yanındasansa, nigaran olmağa dəyməz. Həyatda olanda yaxşı başa düşürdüm ki, Hun Çolun atasını çox istəyirsən.Çünki tamam yalqız idin. Buna görə nə səndən inciyirdim, nə özümü atılmış hiss edirdim. Sən ailənin tündxasiyyətli böyüyü idin. Bizə bacıdan çox, ana oldun.

Ancaq, bibi!

Bir neçə il əvvəl ata-baba qəbiristanlığında mənim üçün qazdırdığın məzarda yatmaq istəmirəm. Baş ağrılarım azalanda ora yollanırdım ki, dinclik tapım. Qəbrin yanındakı əyri şam ağacından xoşum gəlmirdi. Öləndən sonra da bu ailənin üzvü olmaq mənə yaman ağır gəlirdi. Bu fikri başımdan qovmaq üçün gah oturub axşamadək nəğmə söyləyir, gah da alaq təmizləyirdim. Amma yenə də rahatlıq tapa bilmirdim. Düz əlli il mən bu ailədə yaşadım. Rica edirəm, daha məndən əl çəkin. Qəbir yerləri bölüşdürüləndə: "Məzarımız yan-yana olsun", – demişdin. Mənsə əsəbiləşib: "Orda da mənə işlərini gördürəcəksən?!" – deyə qışqırmışdım.

Bu sözləri heç unutmuram. İncimə, bibi. Bu haqda çox düşündüm, amma, inan, pis niyyətlə söyləmədim. Evə getmək istəyirəm. Yorulmuşam, istirahət etməliyəm.

Anbarın qapısı taybatay açılıb.

Az qala külək qapını həncamadan qoparacaq. Bir vaxtlar oturub dincimi aldığım ağac taxçanı nazik buz örtüb. Üstündə oturulası deyil. Çi Hon tez-tez əlində kitab anbarın bir küncündə gizlənirdi. Bura girəndə birələr bədəninə daraşırdı. Onu heç vaxt axtarmazdım.

Hun Çol soruşanda ki, bacı haradadır? Bilmədiyimi deyərdim. Çünki kitab oxumağından xoşum gəlirdi. Kitabdan ayırmaq istəmirdim. Damın taxta döşəməsinə saman tökülmüşdü.

Telegram: @cinciva

Küncdə toyuqlar yer düzəldib kürt yatmışdılar. Samanlıqda gizlənən, tüpürcəyini gicişən dərisinə sürtən və həvəslə kitab oxuyan qızımı heç kim tapa bilməzdi. Gizlin-gizlin kitab oxumaqdan, bir tərəfdən də onu axtaran qardaşının ayaq səslərinə qulaq asmaqdan, yəqin, həzz alırdı.

Toyuqları heç demirəm. Samanlıqda yumurtaların üstündə oturan hirsli toyuqlar kitab səhifələrinin səsinə narazı-narazı qaqqıldayırdılar. Yerlərini rahatlamasan yumurtlamayan bu nazlı toyuqlar bir gün bərk mərəkə qoparmışdılar. Hun Çol da səsi eşidib bacısını tapmışdı. Bu qız xortuldayan donuzların, qaqqıldayan toyuqların, samanların, toxaların, dırmıqların, küləklərin arasında, görəsən, nə oxuyurdu?!

Yaz idi. İt balaları ilə birlikdə qış ayaqqabılarını yığdığımız artırmanın altında uzanmışdı. Çardaqdan su damcılayırdı. Bu sakit it balalayandan sonra, nədənsə, qəzəbli olurdu. Evin sakinlərindən başqa, heç kəsi yaxın qoymurdu. O, həmişə doğanda Hun Çol darvazaya "Ehtiyatlı ol, it var!" lövhəsini asırdı. Bir gün qarnını doyurub yatmışdı. Artırmanın altından bir küçüyü çıxarıb səbətə qoydum. Üstünü də əsgi ilə örtdüm. Əlimlə gözünü tutub bibigilə apardım.

– Ana, niyə gözünü tutmusan? Çöl qaranlıqdır, – soruşdu dalımca düşən balaca qızım.

– Gözünü bağlamasam, yolu tapıb qayıdar, – desəm də, qızım heç nə başa düşmədi.

– Qaranlıqda?

– Qaranlıqda!

İt bir balasının olmadığını görüb yemək-içməkdən kəsildi, yumalanıb bir küncdə yatdı. Yeməsəydi, küçüklər ac qalardı. Belə getsə, acından öləcəkdilər. Ona görə də küçüyü qaytarıb gətirdim. Balasının qayıtdığını görən itin iştahası yerinə gəldi. Və uzun illər bizim artırmada yaşadı.

Telegram: @cinciva

Xatirələrə necə nöqtə qoyum, bilmirəm. Çoxdan unutduğumu sanırdım, amma bir-bir ayaq açıb geri qayıdır. Mətbəx rəflərində duran düyü kasalarından növ-növ ədviyyat küplərinədək, çardağa söykənən ensiz ağac nərdivandan qalın bığcıqları yerədək uzanıb həyətin divarına dırmaşan balqabaq hörüklərinədək...

***

Elə elə ki, ev donmasın.

Çətinliyə düşsən, balaca gəlinindən kömək istə. Özlərinə bir ev ala bilməsələr də, gəlin evə baxandır. Üstəlik, səliqəli və xeyirxahdır. İşləsə də, evi həmişə tər-təmiz olur, halbuki bir köməyi də yoxdur. Evi sahmana sala bilmirsənsə, ona de. O gəlinin əli nəyə dəyirsə, gözəlləşir.

Yadındadır, köhnə bir mənzil tutmuşdular? Gəlin əlləri ilə sement qarışdırıb divarları suvamışdı. Ev sakinlərinin nəfəsi ilə gözəlləşir.

Yaz gələndə həyətdə mütləq gül əkərsən. Döşəməni də sil ha! Bir də çardağı təmir elətdir. Bir neçə il əvvəl günlərin birində bərk içmişdin. Evinin harada olduğunu soruşmuşdular, "Yonkçon-donq!" – demişdin. Halbuki Hun Çol iyirmi ildir, Yonkçon-donqdan köçüb. Hislərini büruzə verməzdin. Sevincini də, kədərini də... Hun Çol Seulda – Yonkçonq-donqda birinci evi alanda bir söz demədin. Amma mənə elə gəlir, ürəyində oğlunla fəxr edirdin. Elə buna görə içib evinin yolunu unudanda ildə iki-üç dəfə gedib bir-iki gecə qonaq qaldığın yerin adını demişdin. Kaş ki arvadın yaşayan doğma evin də belə yadında qalaydı.

Hər il evin həndəvərində, həyətin bir küncündə və arxa bağçada açan xırda və qəşəng çiçəklər göz oxşayırdı. Bizim həyətdə, artırmanın altında və arxa bağçada həmişə nəsə doğulur, böyüyür və ölürdü. Quşlar sıra ilə paltar ipinə düzülürdülər.

Telegram: @cinciva

Elə bil bir paltar yumağımdan danışıb mübahisə edirdilər. Civiltiləri həyəti başına götürürdü.

Bir evdə canlılar evin sakinlərinə oxşayır. Yoxsa, ördəklər həyətdə ora-bura qaçıb künc-bucaqda xəlvət yumurtlayardılar?

Nazik doğranmış turp qurusunu və ya qaynadılmış taro köklərini həsir siniyə düzdüyümü, onu da torpaq divarın üstünə qoyduğumu indi də xatırlayıram. Qızımın qurutmaq üçün günün altına qoyduğu tərtəmiz, ağappaq idman ayaqqabıları yaddaşımda dərin izlər qoyub.

Çi Honun quyuya baxıb göyün sudakı əksinə tamaşa etməkdən xoşu gələrdi. Vedrələri doldurmağı unudub başını əllərinin arasına alması, fikirli-fikirli quyuya baxması gün kimi yadımdadır.

Salamat qal... Bu evi həmişəlik tərk edirəm.

Ötən yay Seulda – metroda təkbaşına qalanda təkcə üç yaşımda olanları xatırlayırdım. Başqa heç nə xatırlamırdım. Özümü belə tanımırdım. Elə hey gəzirdim. Ətrafdakı hər şeyi dumanlı görürdüm. Birdən gözümdə üç yaşımda oyun oynadığım həyət canlandı. Onda mədənçi olan atam təzəcə evə qayıtmışdı. Hündür evlərin arasında, yamyaşıl təpələrdə və futbol sahələrində gəzirdim... Elə hey gəzirdim. Mən belə hara gedirdim? Yoxsa, uşaqlığımda oynadığım o həyətə?

Evimizdən on ri uzaqda yeni dəmir yolu stansiyasının tikintisi gedirdi. Qayıdandan sonra atam orada fəhlə işləməyə başladı. Hər səhər işə gedirdi. Sonra başına bədbəxt hadisə gəlmişdi. Bu bədbəxt hadisə onun canını almışdı. Deyirlər ki, atamın ölüm xəbəri gələndə mən həyətdə oyun oynayırmışam. Qonşuların anamın qoluna girməsinə və üzü avazımış anamın səndələyə-səndələyə dəmiryol stansiyasına getməsinə baxırdım. Yanımdan keçən bir nəfər mənə: "Sən elə hey gülürsən. Bilmirsən ki, atan ölüb, axmaq qız!" – deyə çımxırdı. Bu xatirə-

Telegram: @cinciva

lər məni addımbaaddım izləyirdi. Mən isə dayanmadan gedirdim. Ta ki gücüm bitənədək...

***

Bax orada.

Anam doğulduğum evin artırmasında oturub.

Başını qaldırıb mənə baxır. Mən dünyaya gəlməzdən qabaq nənəm bir yuxu görübmüş. Görüb ki, səhər təzəcə oyanan parlaq qonur rəngli inək gərnəşib ayağa durur. Nənəm yuxunu yozub mənim çox hərəkətli uşaq olacağımı söyləyib. Çünki inək ayağa durmaq üçün güc toplayanda dünyaya gəlmişəm. Deyirmiş ki, mənə yaxşı baxsınlar, çünki dünyaya sevinc və işıq bəxş etməyə gəlmişəm. Anam mavi rezin səndəlin qanatdığı ayaqlarıma baxır. Yara elə dərindir ki, sümüyüm görünür. Kədər anamın üzünə çökür. Bu simanı mən ölü uşaq doğandan sonra şkafın güzgüsünə baxanda görmüşdüm. "Mənim qızım", – deyir anam və qollarını açır. Ölü uşaq kimi məni qollarına alır. Nə gülümsəyir, nə də ağlayır. Görəsən, anam bilirdi? Ömür boyu ona nə qədər ehtiyacım olduğunu bilirdi?

Telegram: @cinciva

# Epiloq

## Palisandr ağacından təsbeh

Ananın itkin düşməsindən doqquz ay keçdi.

İtaliyadasan. Vatikanda Müqəddəs Pyotr meydanına düşən mərmər pilləkəndə oturub Misir obeliskinə[25] tamaşa edirsən. Tər damcıları alnına muncuq-muncuq səpələnən bələdçi: "Bura, xahiş edirəm!" – qışqırır. Turistlərə qızğın günəş şüaları düşməyən nəhəng ağacların yanındakı pilləkənin aşağı hissəsini göstərir.

– Muzeydə və kilsədə danışmağa icazə verilmir. Ona görə də muzeyə girməzdən əvvəl sizə vacib məlumatlar verəcəm. Qulaqlıqları paylayacam, rica edirəm, diqqətlə qulaq asın.

Qulaqlıqları götürüb taxmağa tələsmirsən. Bələdçi isə sözünə davam edir:

– Qulaqlıqdan səsim gəlməsə, demək, məndən xeyli uzaqlaşmısınız. Siz çoxsunuz, mən tək. Ona görə də çox uzağa getməyin ki, səsimi eşidə biləsiniz.

Ayaqyoluna gedirsən. Qulaqlıqlar boynunda yellənir. Dəstədəkilər diqqətlə sənə baxırlar. Əllərini yuyursan. Burun dəsmalını çıxarmaq üçün çantanı açanda gözünə bacının göndər-

25. Obelisk – Yuxarıya doğru nazikləşən, yonulmuş daş sütundan ibarət abidə.

Telegram: @cinciva

diyi əzilmiş məktub ilişir. Onu üç gün əvvəl Yu Binlə Seuldan ayrılanda mənzilin poçt qutusunda görmüşdün. Bir əlində təkərli çamadan qapının yanında durub zərfin üstündəki adı oxumuşdun. Bacın əvvəllər heç vaxt sənə məktub yazmazdı. Özü də əllə yazılıb poçtla göndərilmişdi. Açmaq istəmiş, ancaq fikrindən daşınıb çiyin çantasına dürtüşdürmüşdün. Bəlkə də, qorxurdun ki, oxusan, təyyarəyə minməkdən vaz keçəcəksən.

Ayaqyolundan çıxıb dəstəyə qoşulursan. Qulaqlıqları taxmaq əvəzinə məktubu çıxarıb bir neçə saniyə əlində oynadırsan, sonra zərfi cırıb açırsan.

"Bacıcan!

Amerikadan dönəndən sonra kəndə anama baş çəkməyə getmişdim. Mənə cavan bir xurma tingi bağışladı. Dizim boyda idi. Getməzdən əvvəl kənddə olan əşyalarımı bir maşına yükləyib şəhərə gətirəcəkdim. Soyuducu, masa və pilətə anbara qoyulmuşdu. Baxmağa girəndə anamın yerdə yumaq kimi yığılıb yatdığını gördüm. Tərpənməyə halı yox idi. Qonşu pişiklər də ətrafında dövrə vurub oturmuşdular. Çiynindən tutub silkələdim. Gözlərini güclə açdı. Elə bil dərin yuxudan oyanırdı. Məni görüb gülümsədi. "Gəlmisən, körpə balam?!" – dedi.

İndi başa düşürəm ki, onda anam huşunu itiribmiş. Amma dönə-dönə özünü yaxşı hiss etdiyini, anbara pişiklərə yem verməyə girdiyini dedi. Amerikaya getməzdən qabaq qoyduğum əşyaları sağ-salamat təhvil verdi. Hətta təsərrüfat işlərində taxmaq üçün verdiyim əlcəkləri də qaytardı. Bircə bayram ərəfəsində pilətəni işlətmək istəyib, sonra fikrindən daşınıbmış. Səbəbini soruşdum. "Sağ-salamat qaytarım deyə", – dedi.

Əşyaları yük maşınına təzəcə yükləmişdilər. Ana evin arxasından, adətən, sous küplərinin saxlandığı yerdən bir ting gətirdi. Həyəcanlı görünürdü. Torpağını çırpmadan paketə sarıdı. Onu təzə tutduğumuz evin həyətinə əkmək üçün almışdı. Elə

Telegram: @cinciva

balaca idi ki, nə vaxtsa meyvə verəcəyini təsəvvürümə gətirə bilmirdim. Düzünü desəm, götürmək istəmirdim. Evin həyəti olsa da, burada çox qalmaq niyyətimiz yox idi. Öz-özümə "Mən ağaca baxanam!" – deyirdim. Anam elə bil ürəyimi oxudu:

– Bu ağac tez meyvə verir. Ömür nədir ki? Su kimi axır, illər bir göz qırpımında uçub gedir.

Hələ də tərəddüd edirdim: götürüm, ya götürməyim. "Mən öləndə xurmasını dərib məni xatırlayarsan", – dedi.

Ana son vaxtlar "mən öləndə..." sözünü tez-tez dilə gətirirdi. Bilirsən, yəqin, bu söz onun "silah"ı idi. Bizə təsir edən yeganə silahı... Axır vaxtlar nəyisə, hansısa hərəkətimizi bəyənməyəndə: "Mən öləndə eləyərsən", – deyirdi.

Tingi Seula apardım. Anamın gövdəsinə qoyduğu nişanadək torpağa basdırdım. Gəlib görəndə dedi ki, divara çox yaxın basdırmışam, gərək başqa yerə köçürüm. Tez-tez zəng edib soruşurdu: "Köçürmüsən?" Mən: "İmkan tapan kimi köçürəcəm", – deyirdim. Halbuki hələ də ağacın yerini dəyişməmişdim. Anam onu həyətin ortasındakı boş torpağa əkməyimi istəyirdi. Mənsə oranı böyük bir ağaca saxlamışdım. O da bu evi almağa pulumuz olsa. Bu haça budaqlı ağacı nə vaxtsa başqa yerə köçürməyi düşünmürdüm, amma anamın da qəlbinə dəymək istəmirdim. İtkin düşməmişdən əvvəl tez-tez hər gün zəng edib soruşurdu.

Bacıcan!

Dünən, nəhayət ki, vaxt tapdım. Körpəmi belimə alıb taksi ilə Sooruna yollandım. Üyüdülmüş toyuq zılı aldım. Anamın bir vaxtlar göstərdiyi yerdə çuxur qazıb xurmanı köçürdüm. Anama verdiyim sözü yerinə yetirmədiyimə görə vicdan əzabı çəkirdim. Tingi gətirəndə kökləri elə zərif idi ki, deyərdin, bundan ağac olmaz. Amma qazıb çıxaranda gördüm ki, yumaq kimi bir-birinə dolaşan kökləri xeyli uzanıb, möhkəmlənib.

Telegram: @cinciva

Ondakı həyat eşqinə, qeyri-münbit torpaqda yaşamaq arzusuna heyran qalmışdım. Bəlkə də, ana bu tingi bağışlamaqla necə böyüyüb boy atmasını, gövdəsinin necə bərkiməsini görməyimi istəmişdi. Yoxsa böyüyünə pulu çatmamışdı? İlk dəfə idi ki, bu ağaca görə məsuliyyət hissi duyurdum. Bir vaxtlar bar verməz deyirdim, sonralarsa bu fikrim öz-özünə yox olub getdi.

Yadındadır, demişdin ki, anam haqda təkcə mənim bildiyim bir xatirə danışım. Onda: "Məgər mən anamı yaxşı tanımamışam", – demişdim. Bircə onu bilirdim ki, anam itkin düşüb. Yenə eyni fikirdəyəm. Başa düşmürəm, bu qadın gücünü haradan alırdı? Təsəvvür elə ki, anamın gördüyü işi bir adam görə bilməzdi. Çox güman ki, elə buna görə gündən-günə əldən düşdü. Axırda da övladlarının evinin yolunu unutdu.

Özümü tanıya bilmirəm... Uşaqları yedirirəm, saçlarını darayıram və məktəbə yola salıram. Vaxt tapıb anamı axtarmağa çıxa bilmirəm. Halbuki o artıq çoxdandır, bizimlə deyil. Deyirdin, mən tamam fərqliyəm. Müasir analara oxşamıram. Ruhumda anamdan bir parça daşıyıram. Amma bacı, inanmıram ki, anama çata bilim. O itkin düşən gündən öz-özümə düşünürəm ki, görəsən, mən yaxşı övladam? Onun mənə elədiyini öz övladlarıma edə bilirəm?

Bir şeyə əminəm ki, mən onun kimi ola bilmərəm. İstəsəm də, ola bilmərəm... Uşaqları yedirəndə əsəbiləşirəm, yoruluram, elə bil ayaqlarıma daş bağlayıblar. Övladlarımı çox istəyirəm. Bəzən də düşünürəm ki, doğrudan, onları mən doğmuşam?! Ancaq anam kimi bütün ömrümü övladlarıma həsr edə bilmərəm. Çox şeyi qurban verərəm, lazım gəlsə, canımı da verərəm, amma mən anam kimi ola bilmərəm.

İstəyirəm ki, uşaqlar tez böyüsünlər. Onlar dünyaya gələndən sanki həyatım dayanıb. Balaca azca böyüsün, ya bağçaya verəcəm, ya da baxıcı tutacam. Özüm isə işə çıxacam. Bəli, mən buna hazırlaşıram, çünki öz həyatımı yaşamaq istəyirəm.

Telegram: @cinciva

Bunu fikirləşəndə anam yadıma düşür, o, övladlarından ötrü şam kimi əriyirdi. Sonra daha da əmin oluram ki, mən onu heç tanımamışam. Ömrünü bizim yolumuzda fəda etdiyini düşündük, amma onun bir insan kimi hiss, arzu daşıdığını, təkcə ana olmadığını xudbinliyimizdən ağlımıza da gətirmədik. Mən də anayam, amma nə qədər arzularım, xəyallarım var. Bəs niyə anamızı cavanlıqda da, qocalıqda da ancaq ana kimi gördük? O imkan tapıb arzularını həyata keçirə bilməmişdi. Dövrün çətinlikləri, zəmanənin yoxsulluğu ilə təkbaşına mübarizə aparmışdı. Taleyini dəyişə bilməzdi. Təkcə bir yolu vardı: son nəfəsədək dözmək və yaşamaq. Niyə mən heç vaxt fikirləşməmişəm ki, anam da insandır, onun da xəyalları, arzuları var?

Bacıcan!

Başımı ağacı basdırmaq üçün qazdığım çuxura soxmaq istəyirəm. Mən anam kimi yaşamağı bacarmıram. Bəs o, özünə bu cür ömrü necə rəva gördü? Niyə anam yanımda olanda bu, bircə dəfə də olsun ağlıma gəlməyib? Mən onun qızıyam, amma onun insanlar arasında hiss etdiyi tənhalığı anlaya bilməmişəm. O, hər şeyini biz övladlarına qurban verib, amma heç kim onu anlamayıb. Səncə, bu, ədalətlidir?!

Bacıcan!

Nə düşünürsən, səncə, bir də onu görmək bizə qismət olacaq? Heç olmasa, bir gün. Nə fikirləşirsən, anamı anlamaq, onun ömür yoluna qulaq asıb təskinlik vermək və zaman səhifələrində əbədiyyən itmiş, unudulmuş xəyallarından ötrü çəkdiyi kədəri bölüşmək üçün bir fürsətimiz olacaq? Əgər mənə bir şans versəydilər, mən onu və onun unudulan həyatını sevdiyimi, ona sonsuz ehtiram bəslədiyimi deyərdim.

Bacı, xahiş edirəm, ananı unutma, tap onu".

Bacın, görünür, sağollaşası və ya tarix qoyası halda deyil-

Telegram: @cinciva

miş. Məktubun səhifələrində quruyan göz yaşlarını görürsən. Baxışların saralan izlərin üstündə donub qalır. Məktubu qatlayıb çantana qoyursan. Bacın məktub yazanda, yəqin, balaca oğlu masanın altında tapdığı qırıntıları yeyir, sonra da ona yaxınlaşıb: "Ana ayı..." sözləri ilə başlayan uşaq mahnısını oxuyurmuş. Çaşıb mahnını yarıda kəsəndə də bacın ona baxmış, "Çox arıqdı!" – deyib mahnını tamamlamışdı. Anasının nə hiss etdiyini təsəvvürünə də gətirməyən balaca, çox güman ki, təbəssüm etmiş və "Ata ayı..." deyib mahnını tamamlamasını gözləmişdi. Yəqin, bacın da: "Çox kökdü!" – demişdi. Ola bilsin, məktubu bitirməyə vaxtı olmamışdı. Bəlkə də, ayaqlarına dırmanan balaca yıxılıb döşəməyə dəymişdi. Əlbəttə, ağrıdan ağlamağa başlamışdı. Bacın isə uşağın yumşaq üzündəki göyərtini görüb artıq göz yaşlarının önünü kəsməmişdi.

Məktubu çantana quyursan. Bələdçinin səsi qulaqlarında əks-səda verir:

– Sonda baş çəkəcəyimiz Sikstin kapellasının[26] tavanındakı "Adəmin yaradılışı"[27] freskası[28] bu muzeyin ən parlaq kompozisiyasıdır. Mikelancelo düz dörd il tavan altında tirdən asılı vəziyyətdə bu freska üstündə işləyib. Bir müddətdən sonra gözləri o qədər zəifləyib ki, rəngləri seçə, tutqun havada yazıları oxuya bilmirmiş. Freskalar kirəc malası ilə işlənirdi, ona görə də mala qurumamış bitirmək lazım idi. Bu bir aylıq işi bir günə qurtarmasaydılar, mala quruyar və hər şeyi təzədən başlamalı olardılar. Mikelancelo sonra ömrünün axırınadək bu əl işindən, boyun və bel ağrılarından əziyyət çəkib.

Təyyarəyə minməzdən qabaq atana zəng vurursan. Anan itkin düşəndən sonra atan Seulla kənd arasında qalmışdı. Yaz-

---

26. Sikstin kapellası – Vatikanda Renessans dövrü italyan incəsənətinin ən görkəmli abidələrindən biri.

27. Adəmin yaradılışı – təxminən 1511-1512-ci illərdə Mikelancelo tərəfindən Sikstin kapellasının tavanına çəkilmiş freska rəsmlərindən biridir.

28. Freska – Təzə mala üzərində sulu boya ilə çəkilmiş şəkil, rəsm, naxış

Telegram: @cinciva

da isə birdəfəlik kəndə köçmüşdü. Hər səhər, bəzən də axşam ona zəng vururdun. Atan birinci çağırışda dəstəyi götürürdü, elə bil telefonun yanında oturub zəngi gözləyirdi. Sən ağzını açmamış o, adını çəkirdi. Anan da bu cür edərdi. Bu vaxtlar, adətən, o, bağda çiçək ləklərinin alağını edərdi. Telefon zəngini eşidib atana: "Telefona cavab ver, Çin Hondur!" – deyərdi. Bir gün soruşanda ki, kimin zəng elədiyini haradan bilirsən? Çiynini çəkmişdi:

– Mən sadəcə... Sadəcə bilirəm.

İndi isə birinci zəngdəcə səni tanıyan adam boş evdə tək qalan atan idi. Sən Romaya gedəcəyini, ona bir müddət zəng edə bilməyəcəyini söylədin. Saat fərqinə görə onun yuxuladığı, yoxsa ayıq olduğu vaxtları bilmək çətin idi. Zəng edib oyatmaq istəmirdin. Elə bil sənə heç qulaq asmırdı. Birdən dodaqaltı mızıldandı:

– Gərək ananın burnundakı irini götürtdürəydim.

– Burnu irinləmişdi? – yavaşca soruşdun.

– Mövsümlər dəyişəndə öskürəkdən yata bilmirdi. Günah məndədir. Mənim ucbatımdan anan özünə baxmağa macal tapmırdı.

Başqa vaxt olsa idi, bunu inkar edərdin, amma o an: "Hə, günah səndədir", – deyib atanı acıladın. Atan köks ötürdü. Sənin hava limanından zəng elədiyini bilmirdi.

– Çi Hon, – dedi uzun sükutdan sonra.

– Hə.

– Anan artıq mənim yuxuma da girmir.

Sən bir söz demədin.

Atan yenə susdu. Sonra keçmiş günlərdən danışdı. Hun Çolun göndərdiyi lepidopu necə bişirdiklərini xatırladı. Anam təpə yamacındakı dirrikdən turp çıxarmış, üstündəki toz-tor-

Telegram: @cinciva

pağı yumuş, qalın qabığını soyub iri-iri doğramış, ardınca da qazançanın dibinə düzərək bişirmişdi. Anan balığın ən yağlı tikəsini atanın düyü kasasına qoymuşdu. İndi atan o yaz gününü xatırlayıb ağlayırdı. Onlar naharda ananın bişirdiyi balığı iştaha ilə yemiş, sonra da uzanıb yatmışdılar.

Atan təkrar köks ötürərək:

– Haradan biləydim ki, bu, xoşbəxtlikdir, – dedi, – Ananla pis rəftar edirdim. Həmişə ağrılarımdan şikayət edirdim.

Həqiətən, belə idi. Atan çox vaxt evdə deyildi, gələndə də həmişə xəstə idi. İndi hərəkətlərinə peşmandı.

– Ağrılarım artmışdı. Onda anan da xəstəydi.

Ola bilsin, ananın atana rəhmi gəldiyi üçün öz səhhətindən söz açmırdı. Bir sözlə, ananın xəstələnməyə haqqı yox idi. Əlli yaşını haqladıqdan sonra atan başladı təzyiq dərmanları içməyə. Oynaqları ağrıyırdı, kataraktın ilk əlamətləri ortaya çıxmağa başlamışdı. Ananın itkin düşməsindən qabaq atan bir il ərzində bir neçə dəfə dizindən əməliyyat olmuşdu. Ayaqyoluna çıxmağa çətinlik çəkdiyinə görə prostatdan da əməliyyat olunmuşdu. Sonra iflic keçirmişdi. Bir ildə üç dəfə xəstəxanaya düşmüşdü. Hər dəfə iki həftə palatada qalmışdı. Anan gecəni xəstəxanada, – onun yanında keçirməli olmuşdu. Baxıcı tutdunuz ki, gecə yanında qalsın. O gecə atan ayaqyolunun qapısını bağlayıb çıxmaq istəməmişdi. Baxıcı Hun Çolgildə qalan ana-na zəng vurub hay-küy qoparan atanı sakitləşdirə bilmədiyini demişdi. Gecənin bir aləmi idi. Anan tez-tələsik xəstəxanaya yollanmış, ayaqyolundan çıxmayan atanı sakitləşdirmişdi.

– Mənəm! Aç qapını, mənəm!

Atan ananın səsini eşidən kimi qapını açmışdı. Küncdə – unitazın yanında qısılıb oturmuşdu. Anan qoluna girib onu uzatmışdı. Atan gözünü anana dikib uzun-uzun baxmış, sonra da yuxuya getmişdi. Sonralar soruşanda deyirdi ki, heç nə ya-

Telegram: @cinciva

dında deyil. Bu hadisənin səhərisi sən ondan: "Nə hay-küy qoparmışdın?!" – soruşmuşdun. O isə mat-məəttəl: "Mən neyləmişəm ki?" – demişdi. Həyəcanlanmış, suallar yağdırmağa başlamışdın. Ancaq atan, yəqin, sorğu-sualdan qaçmaq üçün gözlərini yummuşdu. "Ata, axı ana da insandır. İmkan ver, bir az dincəlsin!" – demişdin.

Atan üzünü çevirmişdi. Özünü yuxuluğa qoymuşdu, əslində, ananla söhbətinə qulaq asırdı.

Anan:

– Yəqin, xəstəxanada, yadların arasında, doğmalardan uzaqda olduğunu görüb qorxub, – demişdi.

– Qorxası nə var?

Atan, çox güman, pıçıltı səsini eşidirdi.

– Sən heç qorxmamısan?

Anan atana gözucu baxıb yavaşca:

– Elə hey deyir ki, mən də belə olurammış. Guya gecələri birdən məni itirirmiş. Ya anbarda, ya da torpaq divarın arxasında tapırmış. Yanıma gələndə isə əsə-əsə əl-qol atır, "Dəymə mənə, dəymə mənə!" – deyə qışqırırmışam.

– Doğrudan, ana?

– Amma mənim yadıma gəlmir. Guya məni evə gətirib uzadırmış. Bir stəkan su içirəndən sonra yuxuya gedirmişəm. Çox güman ki, atan da mənim kimi qorxur.

– Nədən qorxur?

Anan pıçıltı ilə dedi:

– Dolanışıq çətin idi. Məni ən çox qorxudan düyünün qurtarması idi. Fikirləşəndə ki, uşaqlarım ac qalacaq, qorxudan ürəyim ağzıma gəlirdi.

Atan heç bu barədə danışmamışdı. Anan itkin düşəndən sonra hər dəfə zəng vuranda söhbəti uzadıb keçmiş günlərdən

Telegram: @cinciva

söz salırdı. Amma hələ də ananın gecələr qalxdığını, evdə yuxulu-yuxulu gəzdiyini, gizlənməyə yer axtardığını deməmişdi. Saata baxırsan. Səhər ondur. Görəsən, Yu Bin oyanıb? Yemək yeyib?

Bu gün səhər saat altıda pəncərələri Termini dəmir yolu vağzalına açılan köhnə hoteldə oyandın. Anan itkin düşəndən sonra vücuduna və ruhuna ağırlıq çökmüşdü. Sanki buz kimi soyuq və bulanıq sularda yavaş-yavaş batırdın. Başını qaldırdın.

Nəticəsiz axtarışlardan pərən-pərən düşən ailən bir yerə yığılanda hər kəs ağzına su alıb otururdu. Hamı çox gərgin olurdu. Kimi acıqla qapıdan çıxır, kimi böyük fincana sake töküb birnəfəsə mədəsinə boşaldırdı. Və hamı eyni şeyi fikirləşirdi: Kaş ana burada olaydı. Kaş bircə dəfə zəng vuraydı, "Mənəm!" – deyəydi. Axı o, zənglərə həmişə belə cavab verirdi. O itkin düşəli siz on dəqiqədən artıq söhbət edə bilmirdiniz. "Ana indi haradadır?" sualı beyninizi didirdi.

– Bu gün tək qalmaq istəyirəm, – nəhayət, dillənirsən.

– Tək neyləyəcəksən?

– Müqəddəs Pyotr bazilikasına getmək istəyirəm. Dünən vestibüldə səni gözləyəndə adımı Vatikan gəzintisinə yazdırdım. Geyinib getməliyəm. 7:20-də vestibüldə görüşüb yola düşəsiyik. Vatikanda uzun növbə varmış. Saat doqquza çatmasaq, iki saat gözləməli olacağıq.

– Sabah birlikdə gedərik.

– Bura Romadır. Birlikdə gedəsi o qədər maraqlı yer var ki..

Onu narahat eləməmək üçün yavaşca əl-üzünü yudun. Başını yumaq istədin, amma suyun səsi çox gedər deyə saçlarını arxaya yığıb bağladın. Güzgüdəki əksinə diqqətlə baxdın. Hazırlaşıb otaqdan çıxdın. Gec olsa da: "Sağ ol, yaxşı ki, məni bura gətirdin", – dedin.

Yu Bin mələfəni başına çəkdi. Bu vaxtadək az səbir etmə-

Telegram: @cinciva

yib. Burada tanış olduğu adamlara səni həyat yoldaşı kimi təqdim edirdi. Anan tapılmış olsaydı, yəqin, çoxdan evlənmişdin. Səhər seminarından sonra bir neçə cütlüklə birlikdə nahar yeməyinə dəvət olunmusunuz. Tək getsəydi, onu sorğu-suala tutacaqdılar ki, mən haradayam. Sən başına mələfəni çəkib yatan sevgilinə bir də baxıb otaqdan çıxdın.

Anan itkin düşəndən sonra gündəlik həyatın alt-üst olmuşdu. Gah o ki var içib sərxoş olur, gah da birdən qatara minib kəndə gedirdin. Gecə uzanıb uzun-uzadı tavana baxırdın. Sonra – gecənin bir vaxtı ya da gündüzün günorta çağı yerindən sıçrayıb elan kağızları yapışdıra-yapışdıra küçələri gəzirdin. Bir dəfə çığıra-çığıra polis idarəsinə soxulmuşdun ki, anamı tapın. Xəbər tutub polis idarəsinə gələn Hun Çol sənə mənalı-mənalı baxsa da, bir söz deməmişdi. Sənsə ananın itkin düşməsini sakit qarşılayan, hətta hərdənbir qolf oynamağa gedən qardaşının üstünə çığırmışdın:

– Ananı tap!

Bu fəryadda biganəliyə qarşı etiraz, özünə qarşı da nifrət vardı: "Axı onu niyə tapa bilmirəm. Onu niyə axtarmırsan? Niyə? Niyə?"

Qardaşının əlindən sənlə birgə şəhərin küçələrində gəzməkdən başqa, bir şey gəlmirdi.

Keçən il kənddən gətirdiyin samur kürkü gah əyninə keçirib, gah da əlində tutaraq vestibülləri, metroları axtarırdın. Birdən ananı tapsan, tez onun kürəyinə atacaqdın. Axı anan itəndə nazik yay paltarı geyinmişdi. Qəzet səhifələrini və ya əriştə qutularını üstünə çəkib küçələrdə yatan evsizlərin yanından keçəndə əlində kürk gəzdirən kölgən bir çox binaların mərmər divarlarında sayrışırdı. Telefonun iyirmi dörd saat açıq idi. Amma zəng vurub muştuluq verən yox idi.

Bir gün ananın itkin düşdüyü stansiyaya yollandın. Platfor-

Telegram: @cinciva

manın ortasında böyük qardaşınla rastlaşdın. Yan-yana oturub metro bağlananadək qatarlara tamaşa elədiniz. Qardaşın əvvəllər bura gələndə ananın çıxıb gələcəyini, əlini çiyninə qoyub: "Hun Çol!" deyəcəyini düşünürmüş. Amma artıq ümidi qalmayıb. Qardaşın fikirləşə bilmədiyini dedi: "Beynim bomboşdur". İşdən sonra evə getmək istəməyəndə gəlib bir müddət burda otururmuş.

Bir bazar günü onlara getdin. Qardaşının əlində qolf dəyənəkləri ilə maşından düşdüyünü görüb açdın ağzını, yumdun gözünü: "Axmağın biri axmaq!.." O da anandan ümidini üzübsə, bəs onu kim axtaracaq? Qolf dəyənəklərini əlindən alıb yerə tulladın.

Hamı yavaş-yavaş həqiqəti anlayırdı. Kiminiz anasız övlad, kiminiz arvadsız ər olmuşdunuz.

Bir gün səhər tezdən həmin metroya getdin. Yenə qardaşınla qarşılaşdın. Arxadan yaxınlaşıb onu möhkəm qucaqladın. Qardaşın ana ömrünün yalnız iztirab və fədakarlıqdan ibarət olduğunu düşünməklə səhv elədiyinizi söylədi. "Biz onun qarşısında çox günahkarıq. Onun qədrini bilməmişik". Ananın ən adi şeydə belə dediyi sözləri xatırladı: "Çox şükür! Biz Tanrıya buna görə şükür etməliyik!" Anan sevinəndə bu cür şükür edərdi. Qardaşın dedi ki, anan hər şeyə ürəkdən şükür edib, hər şeyə minnətdarlıq duyğusu ilə baxıb, belə bir insanın xoşbəxt olmaması mümkün deyil.

Vidalaşanda qardaşın: "Anam qayıtsa da, məni tanımaz", – dedi. Bu, onu qorxudurdu. Sən onun ananın gözündə ən dəyərli insan olduğuna, harada olur-olsun, həyat onu nə qədər dəyişdirir-dəyişdirsin, onu tanıyacağına inandırmağa çalışdın.

Hun Çol hərbi xidmətdə olanda anan düyü piroqu bişirmiş, səni də yanına alıb əsgər oğluna baş çəkməyə getmişdi. Yüzlərlə əsgər eyni hərbi formada olsa da, eyni taekvando fəndləri nümayiş etdirsə də, anan qardaşını tanımışdı. Sənincün hamı

Telegram: @cinciva

bir-birinə oxşayırdı. Ancaq anan gülər üzlə onu göstərmişdi: "Budur bax, qardaşın!"

Uzun müddətdir ki, anan haqda belə sakit söhbət eləməmişdiniz. Amma sən yenə səsini yüksəltdin:

– Niyə əli-qolu bağlı oturmusan? Deyən, tamam ümidini üzmüsən?!

Qardaşın:

– Daha neyləyim? – deyib ağ köynəyinin üst düymələrini dartıb qırdı, özünü saxlaya bilməyib ağladı. Bu hadisədən sonra artıq zənglərinə cavab vermirdi.

Anan itkin düşəndən sonra gördün ki, onun danışdığı əhvalatlar rəflərə düzdüyün saysız-hesabsız kitablar kimi yaddaşında yığılıb qalıb. Onun gündəlik həyatı elə bil həmişəki kimi hələ də davam edirdi. Bir qulaqdan alıb o birindən verdiyin sözləri indi qabaran dəniz dalğaları kimi canlanırdı. O, müharibədən, hətta ailənin güzəranı yaxşılaşandan sonra belə öz prinsiplərini dəyişmədi. Ailə bir yerə yığılanda siz atanızla masada əyləşib prezident seçkilərini müzakirə edərdiniz. Anan isə yeməyi bişirib paylayar, kirli qabları yuyar, nəmli əsgiləri qurumağa asardı. Darvazanı, damı, artırmanı o təmir elətdirərdi. Siz ona kömək etməzdiniz. Hətta sən bunu təbii qarşılayardın, onun vəzifəsi sayardın. Bəzən ananın həyatı sənə qəmgin və mənasız gələrdi. Halbuki həyatınızı yaxşılaşdırmağa çalışan da, sizdən ötrü rahatlıq nədir bilməyən də, mehribanca başınıza sığal çəkən də o idi.

Bələdiyyə binasının önündə sıra ilə əkilmiş kinqko ağacları tumurcuqlayanda Samçun-duna gedən mərkəzi küçədəki iri ağacın altında çömələb oturmuşdun. Yazı anasız qarşıladığına inana bilmirdin. Torpağın donu açılır, ağaclar yuxudan oyanırdı. Artıq ananın tapılacağına ümidin qalmamışdı. Demək, yay gələcək, payız düşəcək, qış olacaqdı və anan gəlməyəcəkdi. Bu

Telegram: @cinciva

dünyada anasız yaşayacaqdın. Gözünün önündə ayağında mavi rezin səndəllər səhrada – uzun bir yolda ağır-ağır yeriyən tənha bir qadın canlanır.

Ailənə xəbər vermədən seminara hazırlaşan Yu Binlə Romaya yollandın. Yu Bin ona yoldaşlıq etməyini istəmişdi. Lakin razı olacağına ümidi yox idi. Cavabını eşidəndə bir az duruxdu, dərhal səyahət qrafikasında dəyişikliklər elədi. Hətta bir gün əvvəl zəng vurub: "Gedirsən də, hə?" – deyə soruşdu. Roma təyyarəsinə minəndə ağlına bir fikir gəldi: "Görəsən, anam səyahət xəyalları qurardı?" Sən təyyarə bileti alanda anan həmişə narahat olar, təyyarəyə minməyini istəməzdi. Amma sən səyahətdən dönəndə hər şeyi bircə-bircə öyrənməyə çalışardı:

– Çinlililər necə geyinir? Hindular uşaqlarını necə gəzdirir? Yaponiyada ən çox hansı yeməyi bəyəndin?

Sualları qurtarmaq bilməzdi. Sənsə həmişə qısa cavablar verərdin:

– Yayda çinlilər köynəklərini çıxarıb küçələrdə gəzirlər. Peruda bir hindu qadın gördüm. Uşağını belinə sarıdığı parçada gəzdirirdi. Yaponların yeməkləri yaman ləzzətli olur.

Ananın yenə suallar verdiyini görüb hirslənərdin:

– Yaxşı, sonra danışaram, ana!

Sonra isə söhbətə vaxtın olmurdu, axı sən həmişə məşğul idin.

Söykənəcəyə söykəndin, dərindən nəfəs aldın. Səni doğma kəndindən şəhərə oxumağa göndərən də anan idi. Onu gözündə canlandırırsan. Anan səni qardaşına tapşıraraq axşam qatarı ilə evə qayıdanda sənin yaşda idi.

Tək-tənha qadın... Uşaqlığını, xəyallarını, sevincini unudan, gözünü açmamış ərə gedən, dörd uşaq doğub böyüdən o qadın yavaş-yavaş gözdən itirdi. Övladlarından ötrü hər şeyə dözən, hər cür fədakarlığa hazır olan qadın.

Telegram: @cinciva

Özünü ananla müqayisə edirsən. Ananın qəlbi ucsuz-bucaqsız sirli bir aləm idi. Sən anan kimi olsaydın, heç vaxt bax bu cür qorxub qaçmazdın.

Ölməz şəhər Roma – sözün əsl mənasında tarixi məkan. Bu şəhər haqqında gəzən söz-söhbətlər səni heç qorxutmur. Nəqliyyat işçilərinin tətilləri qurtarmır və buna görə sərnişinlərdən heç kim üzr istəmir. Küçədə gözünün içinə baxa-baxa saatınızı çırpışdırırlar. Gecələr küçələrdə zir-zibil qalaqlanır...

Taksi sürücüsü səni soyub soğana çevirdi. Kafedə masanın üstünə qoyduğun günəş eynəklərin oğurlandı...

Buna baxmayaraq, Yu Binin konfransda olduğu üç gün ərzində çoxlu tarixi məkanlar gəzdin. Roma forumuna, hamamtermə, Kolizeyə, katakombalara getdin. Qədim şəhərin xarabalıqlarında veyilləndin. Romada hər şey sivilizasiyanı təcəssüm etdirirdi. Addımbaşı imperiyanın izləri ilə qarşılaşsan da, səni heç nə şad etmirdi.

Budur, dairəvi meydandakı heykəllərə tamaşa edirsən. Amma baxışların heç bir yerdə uzun müddət qərar tutmur.

Bələdçi izah edir:

– Vatikan Tanrının dövlətidir. Sahəsi qırx dörd hektardan ibarət olsa da, öz valyutası və poçt markası olan müstəqil dövlətdir...

Bələdçiyə qulaq asmırsan. Meydana toplanan turistlərə tamaşa edirsən. Nigaran-nigaran onlara baxırsan. Elə bilirsən, anan haradasa yaxındadır. Anan bu avropalı turistlərin arasında nə gəzir? Ancaq baxışların yenə bir yerdə dayanmır. Gözlərin bura yeddi il qabaq vokal təhsili almağa gəldiyini deyən bələdçinin gözlərinə ilişir. Boynunda yellənən qulaqlıqlara baxırsan. Pərt olub tələsik qulaqlarına keçirirsən.

– Hal-hazırda Vatikan dünyanın ən kiçik dövlətidir. Amma buranı hər gün otuz üç min insan ziyarət edir.

Telegram: @cinciva

Bələdçiyə qulaq asa-asa dodaqlarını çeynəyirsən. Birdən ananın sözləri yadına düşür. Bu, nə vaxt idi? Anan sənə sual vermişdi ki, dünyanın ən kiçik ölkəsi hansıdır.

Xahiş eləmişdi ki, nə vaxtsa bu ölkəyə getsən, ona palisandr ağacından təsbeh gətirərsən. Dünyanın ən balaca ölkəsi... İndi daha diqqətli qulaq asırsan. Bu ölkə? Vatikan?

Qulaqlıqları çıxarmırsan. Dəstədən uzaqlaşıb mərmər pilləkənin payəndazının yanındakı kölgəyə girirsən. Təkbaşına muzeyə yollanırsan. Palisandr ağacından təsbeh... Möhtəşəm freskalarla bəzədilmiş tavanların altından və saysız-hesabsız valehedici heykəllərin yanından keçirsən. Haradasa, bu yaxınlarda mütləq palisandr ağacından təsbehlərin satıldığı suvenir dükanı olmalıdır. Təsbehi tapıb almaq üçün izdihamı yara-yara irəliləyir, Sikstin kapellasının qarşısında birdən dayanırsan. Doğrudan, Mikelancelo düz dörd il burada tavandan asılı vəziyyətdə o məşhur freskanın üstündə işləyib? Nəhəng freskanın valehedici görkəmi qarşısında nəfəsin tutulur. Bu mənzərəni kitablardakı şəkillərlə heç cür müqayisə etmək olmaz. Hə, bu qədər çətin və zəhmətli işdən sonra sağlamlığın əldən getməsində təəccüblü heç nə yoxdur.

"Adəmin yaradılışı"nın altına keçəndə sanki rəssamın ağrıları və qocalığı tavandan üstünə uçur. Yaddaşın səni aldatmayıb. Sikstin kapellasından çıxar-çıxmaz suvenir dükanını və balaca kitab mağazasını görürsən. Ağ libaslı rahibələr piştaxtanın arxasında dayanıblar. Bir rahibə ilə baxışlarınız görüşür.

– Siz Koreyadansız? – soruşur rahibə Koreya dilində.

– Bəli.

Rahibə gülümsəyir:

– Mən də Koreyadan gəlmişəm. Siz birinci koreyalı qadınsınız ki, burada qarşılaşıram. Dörd gün qabaq gəlmişəm.

– Sizdə palisandr ağacından təsbeh var?

Telegram: @cinciva

– Palisandr ağacından?

– Yəni palisandr ağacından düzəldilmiş təsbeh?

– A...

Rahibə bir vitrinə yaxınlaşır:

– Bunu deyirsiniz?

Uzatdığı təsbeh futlyarını açırsan. Qızılgülün zərif ətri havaya yayılır. Doğrudan, ananın bu ətirdən xəbəri vardı? Ananın dediyi təsbeh budur?

– Bu təsbehlər ancaq burda satılır?

– Xeyr, hər yerdə tapmaq olar. Amma Vatikandan alınan təsbehlərin öz dəyəri var.

Qiymət siyahısına baxırsan: 15 avro. Rahibəyə pulu uzadanda əllərin əsir. Rahibə kiməsə hədiyyə aldığını soruşur. Hədiyyə? Kaş bu təsbehi anama hədiyyə edə biləydim. Kaş! Başınla "hə" deyirsən. Rahibə vitrindən qollarında Ölmüş İsanı tutan Müqəddəs Məryəm təsvirli ağ zərfi çıxarıb təsbehi içinə qoyur.

Təsbehi ovcunda sıxıb Müqəddəs Pyotr bazilikasına yollanırsan. Yaxınlaşıb içəri boylanırsan. Əzəmətli tunc talvarın üzərində uzanan dəyirmi günbəzdən işıq şüaları düşür. Çələngə bənzər freskada təsvir olunan "mələklər" ağ buludların arasında pərvaz edir. Sən bazilikaya daxil olursan və gözlərini nəhəng, parlaq təsvirlərdən çəkə bilmirsən. Mərkəzi keçiddən keçirsən. Addımlarını yavaşladırsan. Sanki nəsə səni özünə çəkir. Bu, nədir? Səni maqnit kimi özünə çəkən o gücün ardınca düşüb yavaşca izdihama qarışırsan. İnsanların hara baxdığını görmək üçün başını qaldırırsan. Gülləkeçirməz şüşənin arxasında qollarında ölü oğlunu tutan Müqəddəs Məryəmin təsviri qoyulub. Sanki kimsə səni çağırır. İzdihamı yara-yara birinci cərgəyə keçirsən. Oğlunun cansız bədənini qollarına alan Müqəddəs Məryəm heykəlinin qarşısında dayanırsan. Doğru-

Telegram: @cinciva

dan, bu, mərmərdəndir? Sanki İsada hələ də canlılığın hərarəti var. Müqəddəs Məryəmin gözündən kədər axır. Başı dizlərində yatan oğluna əyikdir. Elə bilirsən, toxunsan, canlılığını duyacaqsan. Kimsə xəfifcə çiyninə toxunur. Tez çevrilirsən. Sənə elə gəlir ki, anan arxada dayanıb.

Nəsə qaydasında olmayanda ananı xatırlamağa vərdiş eləmisən. Elə bil onun xəyalı həyatını qaydaya salır. Özünü güclü hiss edirsən. Keçmişdəki kimi anana zəng vurmaq istəyirsən. Neçə dəfə nömrəsini yığmaq istəmiş, sonra əl saxlamışdın. Palisandr təsbehi Müqəddəs Məryəm təsvirinin önünə qoyub diz çökürsən. Cansız oğlunu tutan əli xəfifcə tərpənən kimi olur. Əzab-əziyyətlə can verən oğlunu qucaqlayan Müqəddəs Məryəmin iztirabına baxa bilmirsən. Daha bir şey eşitmirsən. Günbəzdən süzülən işıq gözdən itir. Dünyanın ən kiçik ölkəsinin əzəmətli bazilikası sükuta qərq olur. Dodağın qanayır. Qanı udursan. Gücünü toplayıb Müqəddəs Məryəmə baxırsan. Qeyri-ixtiyari əlini uzadırsan. Əlin gülləkeçirməz şüşəyə toxunur. Müqəddəs Məryəmin qəmli gözlərini bağlamaq istəyirsən. Ananın doğma ətrini indi daha aydın duyursan. Elə bil dünən bir yorğanda yatıb səhər onu qucaqlamısan.

Bir dəfə qışda anan soyuqdan donmuş balaca, zərif əllərini qabarlı ovcuna alıb mətbəxdəki ocağa yaxınlaşdırmışdı:

– Əziz balamın əlləri buza dönüb!

Sən doğma ana qoxusunu ciyərinə çəkirdin. Anansa ocağın önündə əyilib əllərini ovuşdururdu.

Müqəddəs Məryəmin barmaqları sənə uzanır və mehribanca üzünü sığallayır. Oğlunu güclə saxlayan və kədərdən halsızlaşan Müqəddəs Məryəm təsvirinin qarşısında diz çökmüsən. Xışıldayan addımlar səssizliyə qarışır. Gözlərini açıb Müqəddəs Məryəmin üzünə, kədərli dodaqlarına zilləyirsən. Ləyaqət və mülayimliyi ifadə edən sıx yumulu dodaqlarını, elə bil, heç

Telegram: @cinciva

kim və heç nə narahat edə bilməz. Dərin bir köks ötürürsən. Məryəmin dodaqları xəfif tərpənir və kədərli gözlərində iztirab duyulur. Yenə cansız yatan oğluna baxırsan. Onun əlləri və ayaqları ananın dizləri üstdə tərpənməz durur. O, övladının ölüsünə belə təsəlli verməyə çalışır.

Əgər sən kiməsə deməydin ki, səyahətə çıxırsan, səhv başa düşəcəkdilər. Elə biləcəkdilər, ananı axtarmaq istəmirsən. Ona görə də Romaya gizlincə gəlmişdin.

Doğrudan, buraya sırf Müqəddəs Məryəm təsvirini görmək üçün gəlmişdin? Yu Bin İtaliyaya getmə təklifini edəndə qeyri-ixtiyari bu heykəl yadına düşmüşdü. Bəlkə də, sadəcə bu bazilikada dua etmək istəmişdin ki, Tanrı sənə ucsuz-bucaqsız Asiyada yerləşən balaca bir ölkədəki qadını görməyə, onu axtarıb tapmağa kömək etsin. Bəlkə də, məhz buna görə buraya gəlmişdin. Halbuki hər şey tamam başqa idi.

Bəlkə də başa düşürdün ki, anan artıq bu dünyada deyil. Və buraya Tanrıya: "Yalvarıram, anamı unutma, yalvarıram, ona mərhəmət et, anam sənə əmanət" demək üçün gəlmişdin. Lakin bu möhkəm şüşə ilə qorunan, pyedestal üstündə əyləşən və kövrək əlləri ilə bəşəriyyətin bütün iztirab və kədərini çiynində daşıyan mərmər heykəli görüb bir söz deyə bilmirsən. Diqqətlə Məryəmin dodaqlarına baxırsan. Sonra başını yerə əyib bazilikanın çıxışına yollanırsan. Bayıra çıxıb uzun, üstüörtülü qalereyalarla əhatələnmiş və parlaq işıqla haşiyələnmiş meydana heyranlıqla baxırsan. Başını səmaya qaldırırsan. Həmin an heykəlin önündə deyə bilmədiyin sözlər, nəhayət ki, dodaqlarından süzülür:

– Yalvarıram, anama yaxşı bax. Anam sənə əmanət!

Telegram: @cinciva

TUNA
Tuna mətbəəsində çap olunmuşdur.
tel: (012) 447 15 16 / 25. www.tuna.az

Telegram: @cinciva



Telegram: @cinciva

Azf-289799

Pak Sonyo – ərinə sadiq, övladlarını sevən, dörd uşaqlı ana. Ömrünü ailəsinə həsr edən insan. Laqeyd və biganə ərini ömür boyu sevən və ondan üz döndərməyən qadın. Paltar yuyan, yemək bişirən, meyvə-tərəvəz yetişdirən, tarla əkən, uşaqları ac qalmasın deyə hər əziyyətə qatlaşan ana.

Onun ən böyük arzusu övladlarını oxutmaqdır. Bundan ötrü gecə-gündüz çalışır. Onları şəfqət və qayğı ilə böyüdür, ağ günə çıxarır. Ancaq övladları və əri onun qədrini qəfil itkin düşəndən, böyük şəhərin metrosunda itəndən sonra bilməyə başlayırlar... Onda da gec olur... Xatirələr, acı etiraflar və iztirablar...

Dramatik ömür yolu... Ürək dağlayan psixoloji məqamlar... Bu ailə faciəsi böyük əks-səda doğuracaq.

**"Publisher Weekly"**

Anaya həsr olunmuş kədərli simfoniya...

**"The New York Times Book Review"**

"Anam Sənə əmanət" təkcə həsrət və axtarışın romanı deyildir. İlk səhifəsini çevirdinizmi, əlinizdən yerə qoymayacaqsınız...

**Jamie Ford, amazon.com**

yənbu

9 789952 463064

Telegram: @cinciva